ZƏHMƏT ŞAHVERDİYEV

# NAXÇIVAN
## B Ö L G Ə S İ

XIX-XX əsrin əvvəllərində

Bakı-2008

**Siz tarixçilər yaxşı bilirsiniz, hamımız da yaxşı bilirik ki,**
**XIX əsr də xalqımız üçün çox müsibətli əsr olubdur.**
**Gərək onu da doğru-düzgün, nə cür, necə olubdursa yazaq.**
**Bunlar hamısı həm xalqımızın özünü tanıtması,**
**həm də bugünkü siyasətimiz üçün lazımdır.**

**Belə hesab edirəm ki, akademiyanın**
**qarşısında duran vəzifələrdən biri də Azərbaycan**
**xalqının XIX-XX əsr tarixinin yazılmasıdır…**
**Çünki bu dövlət üçün ən vacib məsələdir.**

**Heydər Əliyev**

**AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu,**
**Naxçıvan Dövlət Universiteti Elmi Şuralarının və**
**AMEA Naxçıvan bölməsi Rəyasət Heyətinin qərarı ilə çap olunur**

Elmi redaktor: akdemik **İ.M.Hacıyev**
Rəyçilər: akademik **İ.Ə.Həbibbəyli**
tarix elmləri doktoru **K.K.Şükürov**

**Zəhmət Əbülfət oğlu Şahverdiyev.** Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s. (şəkilli)

*Kitabda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin XIX-XX əsrin əvvəlləri tarixi kompleks şəkildə araşdırılır. Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən işğalı, bölgənin inzibati-ərazi quruluşunda dəyişikliklər və idarəçilik sistemi, sosial-iqtisadi və mədəni həyatı, ermənilərin Naxçıvana köçürülməsi və azərbaycanlılara qarşı soyqırımı tarixşünaslığın müasir tələbləri, elmi dövriyyəyə yeni cəlb edilmiş sənəd və materiallar əsasında öyrənilir.*

*Kitab tarixçilər, tələbələr, Vətənimizin, xüsusilə Naxçıvan bölgəsinin keçmişinə maraq göstərən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

0503020907
———————— Qrifli nəşr
655 (07)-2008

**İSBN 5-8066-1759-9**

© «Elm» nəşriyyatı, 2008

# KİTABIN İÇİNDƏKİLƏR


Ön söz…………………………………………………………………….. 5

Giriş……………………………………………………………………….. 6

I FƏSİL
Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən işğalı.
İnzibati – ərazi quruluşunda dəyişikliklər və idarəçilik…………………….…... 20
*1.1 Naxçıvan xanlığının işğalı. Türkmənçay müqaviləsi*…………………. 20
*1.2. Rusiya imperiyası tərkibində Naxçıvanın inzibati-ərazi quruluşu və idarə sistemi*………………………………………………………………. 23

II FƏSİL
Naxçıvan bölgəsinin iqtisadi vəziyyəti……………………………………..... 40
*2.1. Kənd təsərrüfatı və aqrar münasibətlər*……………………………… 40
*2.2. Sənətkarlıq və sənayenin inkişafına dair*…………………………… 50
*2.3. Nəqliyyat və ticarət* ……………………………………………… 59
*2.4. İqtisadiyyatda kapitalist münasibətlərinin təşəkkülü*………………… 63

III FƏSİL
Naxçıvan bölgəsinin sosial həyatı…………………………………………..... 67
*3.1. Demoqrafik situasiya*………………………………………………… 67
*3.2. Əhalinin maddi-məişət vəziyyəti*…………………………………… 74
*3.3. Azadlıq hərəkatı*……………………………………………………… 76

IV FƏSİL
Ermənilərin Naxçıvana köçürülməsi və
azərbaycanlılara qarşı soyqırımı……………………………………………… 81
*4.1. Çarizmin ermənilərin Azərbaycan torpaqlarına köçürmə siyasətində Naxçıvan bölgəsinin yeri*…………………………………………… 81
*4.2. Ermənilərin azərbaycanlılara qarşı 1905-ci il soyqırımının Naxçıvan bölgəsində gedişi*……………………………………………… 88

V FƏSİL
Naxçıvan bölgəsində mədəniyyətin inkişafı……………………………..... 94

VI FƏSİL
Naxçıvanın görkəmli tarixi şəxsiyyətlərinin
Rusiya imperiyası və Azərbaycanın XIX-XX əsrin
əvvəlləri siyasi, sosial-iqtisadi və mədəni həyatında iştirakı………………… 102

Nəticə…………………………………………………………………….. 108

Naxçıvan bölgəsinin XIX-XX əsrin əvvəlləri tarixinin əsas hadisələri……..... 110

İstifadə edilmiş ədəbiyyat siyahısı……………………………………. 115

## NAXÇIVAN TARİXİNƏ DAİR SANBALLI ARAŞDIRMA

**Zəhmət Şahverdiyevin «Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində» monoqrafiyasına**

**ÖN SÖZ**

*Tarixşünaslığımızda Naxçıvan tarixinin araşdırılmasına diqqət getdikcə artmaqdadır. Bu çox sevindirici haldır. Çünki Azərbaycanımızın bu qədim diyarının ulu keçmişi ilə bağlı tarixi araşdırmaların elmə gətirdiyi hər bir yenilik təkcə Vətən tarixini deyil, ümumiyyətlə dünya tarixini də yeni faktlarla zənginləşdirir.*

*Ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi Naxçıvan Böyük Azərbaycanın – tarixi Azərbaycanın digər guşələri ilə birlikdə Yer kürəsində həyatın başlandığı müqəddəs məkandır. Nuh tufanı ilə bağlı diyardır bizim Naxçıvanımız. Yaşadığımız planetdə həyatın başlandığı dövrün yadigarları olan Gəmiqaya da bu diyardadır, Nəbi (Peyğəmbər) yurdu adlı çox qədim bir qəbristan da, Nuhun məzarı da! Qonşuluqda isə Ağrı dağımız şahidlik edir bu tarixə! Bütün bunlara görə Azərbaycan tarixçisi üçün şərəf işidir Naxçıvan tarixini araşdırmaq!*

*Naxçıvan tarixinə dair dəyərli tədqiqat işlərinin yazılması həm də qeyrət məsələsidir. Çünki bu regiona vur-tut 180 il bundan əvvəl köçürülüb gətirilmiş ermənilər Naxçıvanla bağlı saxta tarixşünaslıq «məktəbi» yaradıblar. Xarici havadarlarının köməyi ilə 1918-ci ildə Qərbi Azərbaycan torpaqlarında dövlət yaradan ermənilər özlərinin Cənubi Qafqazın guya qədim sakinləri olduqlarını sübut etmək qədim Naxçıvanın onlara məxsus oduğunu iddia edir, bunun üçün dəridən-qabıqdan çıxırlar…*

*Bu baxımdan son bir neçə ildə Naxçıvanda bilavasitə Muxtar Respublika rəhbərliyinin qayğısı ilə aparılan çox ciddi tədqiqat işləri, arxeoloji qazıntılar, etnoqrafik araşdırmalar, ensiklopedik nəşrlər diqqətəlayiqdir. Fərəhləndirici haldır ki, bütün bu axtarışların sırasına yaxın günlərdə yeni, həm də çox maraqlı bir əsər də əlavə olunacaqdır. Əlyazması ilə yenicə tanış olduğum bu əsər Zəhmət Şahverdiyevin «Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində» monoqrafiyasıdır.*

*Azərbaycan, o cümlədən Naxçıvan, həmçinin Rusiya və Gürcüstan arxivlərindən toplanmış olduqca qiymətli arxiv sənədləri əsasında yazılmış bu əsər Naxçıvanşünaslığa mühüm töhfədir. İlk mənbələrdən başqa çoxsaylı elmi ədəbiyyatın tənqidi təhlili əsasında ərsəyə gətirilmiş bu qiymətli əsər XIX-XX yüzilliyin əvvəllərində Naxçıvan tarixinin bütün sahələrini əhatə edir, bəhs olunan dövrün dolğun elmi mənzərəsini yaradır.*

*Fikrimcə Zəhmət Şahverdiyevin «Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində» əsərinin başlıca məziyyətləri iki mühüm cəhətinə görə diqqətəlayiqdir.* ***Əvvəla,*** *bu sanballı tədqiqat təkzibedilməz faktik material əsasında ermənilərin regiona kösçürülüb gətirilmə etnos olduğunu sübut edir. Müəllif tarixşünaslığımızdan ötrü, daha əsası isə erməni saxtakarlarını ifşa etmək üçün çox gərəkli olan bu elmi nəticəsini çoxsaylı cədvəllər, daha doğrusu konkret rəqəmlərə söykənən faktik materiallarla sübut edir.* ***İkincisi,*** *müəllif ermənilərin regiona köçüb gəlmələri ilə Cənubi Qafqazda Azərbaycan xalqına qarşı soyqırımları və deportasiyalar dövrünün başlandığını konkret mənbələr əsasında sübuta yetirir…*

*Yeri gəlmişkən, Naxçıvanımızın qəhrəman oğulları ermənilərə onların havadarlarının hər cür köməklik göstərməsinə baxmayaraq Vətən torpağını qoruyub saxladılar. Rusiya işğalçılarının təpədən dırnağadək silahlandırdığı ermənilər Naxçıvan torpağında möhkəmlənə bilmədilər. Bu, kəngərli yurdunun şan-şöhrət tarixidir. Zəhmət Şahverdiyevin tədqiqatında bu mühüm məsələ də layiqincə əks olunmuşdur.*

*Şübhə etmirəm ki, «Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində» monoqrafiyası Naxçıvanşünaslığa mühüm töhfədir. Bu qiymətli əsəri oxucuların maraqla qarşılayacağına əminəm.*

**Yaqub Mahmudov**

***Əməkdar elm xadimi,***
***AMEA-nın müxbir üzvü***

# GİRİŞ

Azərbaycanın tarixi – coğrafi ərazilərindən olan Naxçıvan bölgəsi, ölkənin ümumi tarixi taleyini bölüşdürməklə birgə, özünəməxsus xüsusiyyətlərilə də məşhurdur. Ümummilli lider Heydər Əliyev «Uluslararası qaynaqlarda Naxçıvan» beynəlxalq simpoziumunun (Naxçıvan, 11-13 iyul 1996-cı il) iştirakçılarına məktubunda yazırdı: «**Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus mühüm rol oynamış və oynamaqda olan Naxçıvanın qədim və zəngin tarixi vardır. Hər daşı, qayası tarixin canlı şahidi olmuş bu torpaq bir çox dünya şöhrətli alim və mütəfəkkirin, memar və ədibin, dövlət xadimi və sərkərdənin vətəni olmuşdur. Onların fəaliyyəti və irsinin bəşər tarixində rolu danılmazdır»**.[1]

Naxçıvan Azərbaycan tarixində problemi Azərbaycan tarixi kitablarında,[2] müvafiq dövrlər və problemlər üzrə ümumi tədqiqatlarda əksini tapmışdır.[3] Onlar Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın Vətən tarixindəki əvəzedilməz mövqeyini aydınlaşdırmağa imkan verir. Bununla birgə Naxçıvan tarixinin bütün dövrlərinə, bölgənin Naxçıvan və Ordubad şəhərlərinin keçdiyi inkişaf yoluna dair monoqrafik araşdırmalar aparılmışdır.

Naxçıvanın qədim tarixi diyarın zəngin arxeoloji irsinin tədqiqi vasitəsilə aşkara çıxarılmışdır. Naxçıvan arxeologiyası Azərbaycan, eləcə də, dünya arxeologiyasını misilsiz tarixi abidələrlə (Kültəpə, Gəmiqaya və b.), onların tədqiqindən irəli gələn yeni elmi müddəalarla zənginləşdirmişdir. Naxçıvanın bütövlükdə bəşər sivilizasiyasının, o cümlədən şəhər mədəniyyətinin ilk beşiklərindən olması, regionun həyatında vacib yer tutması arxeoloji qaynaqlarla sübut edilmişdir.[4]

Naxçıvan Azərbaycanda qədim dövlətlərin yaranması prosesində fəal iştirak edib, ölkənin ərazisində ilk mərkəzləşmiş dövlət olan Mannanın (e.ə. IX-VI əsrlər) tərkibinə daxil olub. Manna süquta uğradıqdan sonra Naxçıvan Midiya və Əhəməni dövlətlərinə tabe edilib.

Makedoniyalı İsgəndərin imperiyasının süqutu ilə Azərbaycan yenidən müstəqilliyini bərpa etdi. Bu zaman Azərbaycanın cənubunda Atropatena, şimalında Albaniya dövlətləri təşəkkül tapdı. Naxçıvan e.ə. IV-I əsrlərdə Atropatenanın, e. I əsrindən isə Albaniyanın tərkibində idi. Sasani dövlətinin yüksəlişi zamanı, digər Azərbaycan torpaqları kimi Naxçıvan da ona tabe edildi.[5]

VII-IX əsrlər bütün Azərbaycan kimi Naxçıvanda da mühüm dəyişikliklər dövrü oldu, islam dini yayıldı. Ərəb Xilafətinin dağılması nəticəsində Azərbaycan yenidən müstəqillik əldə etdi, Naxçıvan əvvəlcə Sacilər, sonra isə Salarilər dövlətlərinin tərkibində oldu. Azərbaycan Atabəylər dövründə (1136-1225) Naxçıvan yüksək inkişaf mərhələsinə çatdı, dövlətin siyasi mərkəzlərindən birinə çevrildi. Naxçıvanın sosial-iqtisadi və mədəni həyatında da yüksəliş özünü göstərdi. Naxçıvan memarlıq məktəbi yarandı.[6]

Monqol hücumları zamanı Naxçıvan böyük dağıntılara məruz qaldı, lakin Qazan xanın (1295-1304) islahatları nəticəsində yenidən bərpa edildi. Naxçıvan XIV əsrin sonlarında yenidən müharibə meydanına çevrildi. Teymurləng 1387-ci ildə Naxçıvanı tutdu, Əlincə qalası isə 1387-1401-ci illərdə müdaxiləçilərə müqavimət göstərdi.[7]

Naxçıvanın XV əsr tarixi Azərbaycanın Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1501) dövlətləri ilə bağlıdır. Azərbaycan Səfəvi dövlətinin yaranması (1501) Azərbaycanın dövlətçilik tarixində yeni səhifə açdı. Lakin Səfəvilər dövlətinin mövcud olduğu dövrdə (1501-1736) Osmanlılarla aparılan müharibələr (1514-1555; 1578-1590; 1602-1612; 1616-1618; 1623-1639; 1723-1727; 1730-1736) Naxçıvandan da yan keçmədi, əksinə ona böyük dağıntı və fəlakətlər gətirdi.[8] 1724-cü ildə Osmanlı dövləti Naxçıvanı tutmağa nail oldu. Burada Osmanlı idarə sistemi (1724-1735) yaradıldı. Osmanlılar 1727-ci ildə o zaman adlandığı kimi Naxçıvan sancağının müfəssəl dəftərini tərtib etdilər. Bu dəftər Naxçıvan tarixinə dair mühüm qaynaqdır.[9]

Nadir şahın dövründə də (1736-1747) Naxçıvan çətin günlər yaşadı. Nadir şahın öldürülməsindən sonra Azərbaycan, xanlıqların timsalında müstəqilliyini bərpa edə bildi. Bu dövrdə Azərbaycanda yaranmış xanlıqlardan biri də Naxçıvan xanlığı idi. Naxçıvan xanlığı 1828-ci il Türkmənçay müqaviləsi ilə Rusiyaya ilhaq edildi.

XIX-XX əsrin əvvəllərində bütün Şimali Azərbaycan torpaqlarında olduğu kimi Naxçıvanda da Rusiya işğal rejimi quruldu. Çar hökumətinin köçürmə siyasəti nəticəsində Naxçıvanın «erməniləşdirilməsinə» cəhd edildi. 1905-1906-cı illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımın əsas mərkəzlərindən biri də Naxçıvan oldu.[10] Azərbaycan Xalq Cümhuriyyəti dövrü (1918-1920) Qarabağ və Zəngəzur kimi Naxçıvan üçün də gərgin keçdi. Buna baxmayaraq ermənilərin Naxçıvanı Azərbaycandan qoparmaq siyasəti baş tutmadı.[11] Ermənilər bu siyasəti sovet dövründə də davam etdirdi. 1921-ci ilin martında bağlanmış Türkiyə-RSFSR Moskva və oktyabrda imzalanmış Kars müqaviləsi Naxçıvanın Azərbaycanın tərkib hissəsi olmasını təsdiq etdi. Moskva müqaviləsinin 3-cü maddəsində deyilir: **«Razılığa gələn hər iki tərəf hazırkı müqavilənin 1 (B) əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu himayə haqqını heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir».**[12] Bu məsələ Kars müqaviləsinin 5-ci maddəsində də əksini tapdı: «**Türkiyə hökuməti,**

**Ermənistan və Azərbaycan Sovet hökumətləri hazırkı Müqavilənin 3 saylı Əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan bölgəsinin Azərbaycanın himayəsi altında Muxtar ərazi təşkil etməsinə razıdırlar»**[13] Müəyyən tarixi hadisələrdən sonra 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edildi.[14]

Ermənilər 1921-ci il Moskva və Kars müqavilələrinin şərtlərini pozaraq Naxçıvan MSSR-in torpaqlarına iddialar irəli sürməkdə davam etdi. Ümummilli lider Heydər Əliyevin «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında» 1999-cu il 4 fevral tarixli fərmanında deyilir: «**Ermənistan Naxçıvan Muxtar Respublikasının Azərbaycan tərkibində olmasını rəsmən qəbul etməyə məcbur olsa da, bu faktla əslində heç cür razılaşa bilmir, Naxçıvana ərazi iddialarından əl çəkmirdi. Ermənistanın hakim dairələri Moskvadakı himayədarlarının köməyi ilə Naxçıvanın bəzi torpaqlarını qoparıb öz ərazisinə birləşdirməyə nail oldular. 1929-cu ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvanın 657 kvadrat kilometr ərazisi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi. 1930-cu ildə isə Əldərə, Lehvaz, Astazur, Nüvədi və sair yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır. Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam etmiş və indii də o bu çirkin niyyətlərindən əl çəkmir».**

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə (1969-1982) Naxçıvan geniş inkişaf yoluna qədəm qoydu. 1980-cı illərin sonlarında ermənilərin Azərbaycana qarşı ərazi iddialarının genişlənməsi, SSRİ rəhbərliyinin təcavüzkarı dəstəkləməsi, respublika rəhbərliyinin aciz mövqeyi xalqın ayağa qalxmasına səbəb oldu. 1990-cı ildə Heydər Əliyevin Naxçıvana qayıtması və Muxtar Respublika Ali məclisinin sədri seçilməsi ilə Naxçıvan Azərbaycanın ərazi bütövlüyü və istiqlaliyyəti uğrunda mübarizəsinin mərkəzinə çevrildi. 1993-cü ilin iyun hadisələri zamanı xalqın təkidli tələbi ilə Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. Heydər Əliyevin respublikaya ikinci rəhbərliyi dövründə (1993-2003) blokadada olan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni tərəqqisi üçün böyük işlər görüldü. Naxçıvanın statusu 1995-ci ilin noyabrında qəbul edilmiş Konstitusiyada təsbit edildi. Azərbaycan respublikası Konstitusiyasının 134-cü maddəsində deyilir: **«Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir».**

Ümummilli lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən prezident İlham Əliyev də Naxçıvan MR-in inkişafına xüsusi diqqət yetirir. Təsadüfi deyildir ki, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramında Naxçıvan MR-ə xüsusi yer ayrılmış, bununla birgə həmin proqramın yerinə yetirilməsi layiqincə təmin olunmuşdur. Bunun nəticəsidir ki, Naxçıvan MR həyatın bütün sahələrində yeni uğurlar qazanır, təcavüzkar Ermənistanın ideoloji və hərbi təzyiqlərinə cəsarətlə cavab verir.

Bütövlükdə Azərbaycan tarixində, o cümlədən Naxçıvan bölgəsinin həyatında XIX-XX əsrin əvvəlləri tarixi mühüm önəm daşıyır. Heydər Əliyev 1997-ci il yanvarın 31-də Elmlər Akademiyasının əməkdaşları ilə görüşündə, həmçinin 2000-ci il dekabrın 30-da Azərbaycan xalqına müraciətində XIX-XX əsrlər Azərbaycan tarixinin dərindən araşdırılmasının əhəmiyyətini qeyd etmişdir. Heydər Əliyev demişdir: **«İndi akademiyanın qarşısında duran əsas vəzifə Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır. Bu, dövlət üçün ən vacib məsələdir»**. Yenə həmin çıxışda deyilir: **«Mən verdiyim təklifin üstündə dürüram ki, XIX-XX əsrlərin tarixini birinci növbədə hazırlayasınız».** Bu baxımdan Naxçıvan bölgəsi tarixinin bu dövrünün də məxsusi ayrılması və tədqiq edilməsi aktual məsələlərdəndir. Bu ilk əvvəl Naxçıvanda həmin dövrün spesifikası ilə bağlıdır. Məlum olduğu kimi Şimali Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalı 1801-ci ildən başlanır, 1813-cü il Gülüstan müqaviləsilə Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Şimali Azərbaycan Rusiya imperiyasına ilhaq edilir. Naxçıvan xanlığı isə, yalnız 1826-1828-ci illər rus-İran müharibəsinin gedişində Rusiya imperiyasına ilhaq edilir. Ona görə də Naxçıvan xanlığı həm Cənubi Azərbaycan, həm də Gülüstan müqaviləsi ilə Rusiyaya ilhaq edilmiş digər Şimali Azərbaycan xanlıqlarından fərqli tarix yaşayır. Rusiya hakimiyyəti dövründə də Naxçıvan bölgəsi bəzi xüsusiyyətlərini saxlayır. Bu baxımdan Naxçıvan bölgəsinin XIX-XX əsrin əvvəlləri tarixinin araşdırılması tamamilə qanunauyğundur. Azərbaycan respublikasının prezidenti İlham Əliyev demişdir: **«Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir».**

Naxçıvan bölgəsinin XIX-XX əsrin əvvəlləri tarixinin bəzi məsələlərin ayrı-ayrılıqda tədqiqata cəlb edilməsi faktdır. Lakin həmin əsərlərin əksəriyyəti köhnə sovet ideologiyası əsasında yazılmışdır. Son zamanlar Naxçıvan tarixinin bəzi dövrlərinin araşdırılmasına xüsusi tədqiqatlar həsr edilməsi[15] şəraitində XIX-XX əsrin əvvəllərinin də monoqrafik tədqiqinə ehtiyac hiss olunur.

XIX-XX əsrin əvvəlləri bütövlükdə Azərbaycanın, o cümlədən Naxçıvan xanlığının həyatının bütün sahələrində yeni meyllər ilə (bazar münasibətlərinin yaranması, milli-azadlıq uğrunda mübarizənin təşəkkülü və s.) əlamətdar olmuşdur. Onların tədqiqi bir tərəfdən həmin dövrün, digər tərəfdən istiqlaliyyət ərəfəsində vəziyyətin dərindən dərk edilməsinə kömək edə bilər.

Problemin aktuallığına baxmayaraq, o hələlik Azərbaycan tarixşünaslığında kompleks şəkildə tədqiq edilməmişdir. Buna baxmayaraq bir sıra tədqiqatlar aparılmışdır. Bu sahədə müəyyən təsəvvür əldə etmək üçün problemin öyrənilməsi səviyyəsini iki istiqamətdə: xronoloji və problemlər üzrə nəzərdən keçirmək istəyirik. Xronoloji yanaşma Naxçıvan bölgəsinin XIX-XX əsr tarixi məsələlərinin necə və nə vaxt tədqiqat obyekti kimi ayrılması gedişini izləməyə imkan verir.

Xronoloji yanaşmada aydın olur ki, Naxçıvan bölgəsinin XIX-XX əsrin əvvəlləri tarixinin öyrənilməsi Rusiya qafqazşünaslığı tərkibində təşəkkül tapır. Bu sıraya daxil olan əsərlərin xeyli hissəsi tarixi süjetlərlə birgə dövrü də əks etdirdiyindən həm tarixşünaslıq, həm də qaynaq kimi diqqəti cəlb edir. Burada əsas diqqət tarixşünaslıq problemlərinə yönələcəkdir.

XIX-XX əsrin əvvəllərində Naxçıvan tarixi haqqında bəhs edən əsərlər içərisində xronoloji baxımdan ilk yeri V.Boroznanın A.P.Yermolovun İran missiyasına həsr edilmiş kitabı tutur.[16] Kitab Yermolovun adı çəkilən missiyasının fəaliyyəti haqqında qaynaq kimi qiymətli olmaqla bərabər, Kəlbəli xanın dili ilə Naxçıvan xanlığının yaxın tarixinə də nəzər salır. Kəlbəli xanın Yermolovla görüşdə söylədiyi aşağıdakı fikirlər çox böyük maraq doğurur. O deyirdi: «… vaxtilə Araz çayı vadisinin gözəlliyi və zənginliyinə heyrətlə baxırdım, gözəl bağları və meşəlikləri olan vadini çoxsaylı əhali canlandırırdı…»[17]

Naxçıvan xanlığının işğalı, Türkmənçay müqaviləsindən (1828) sonra Rusiyaya ilhaqı onun o dövrdəki vəziyyəti ilə yanaşı, tarixinə də marağı artırır. Çar hökumətinin 1828-ci ilin martında Naxçıvan və İrəvan xanlıqlarının torpaqları əsasında qondarma «erməni vilayəti» yaratması[18] Azərbaycanın həmin torpaqlarının tarixinin tendensiyalı, yəni ermənilərin nöqteyi-nəzərindən öyrənilməsinə təkan verdi. 1820-ci illərin sonları-30-cu illərdə Naxçıvanda həyata keçirilən kameral təsvir və statistik araşdırmalar bir sıra əsərlərin nəşrinə səbəb oldu.[19] Bu araşdırmalarda tarix məsələləri də müəyyən yer tuturdu.

Rus qafqazşünaslığında dövrünə görə Naxçıvan haqqında yazılmış əsərlər içərisində İ.Şopenin (1798-1870) tədqiqatları ayrıla bilər. Mənşəcə fransız olan İ.Şopen 1825-ci ildə Rusiyaya gəlmiş, Qafqazda mülki xidmətə başlamışdı. Qafqazdakı rus qoşunlarının baş komandanı (1827-1831) İ.F.Paskeviçin göstərişi ilə 1829-1832-ci illərdə «erməni vilayəti»nin təhqiqatı ilə məşğul olmuşdu. 1832-1838-ci illərdə əyalətin gəlirlər və xəzinə mülkiyyəti üzrə idarəsinin sədri olmuş, sonra Peterburqa gedərək, Dövlət əmlak nazirliyində xidmət göstərmişdi. O, həmçinin Daxili İşlər Nazirliyi şurasının Statistika bölməsinin müxbir üzvü idi.[20]

İ.Şopen «erməni vilayəti» haqqında kitab yazmış, həmin kitabı 1840-cı ildə Elmlər Akademiyasının Demidov mükafatına təqdim etmişdi. Qeyd etmək lazımdır ki, kitab həmin şəklində mütəxəssislər tərəfindən müsbət qiymətləndirilmiş[21] və mükafat almışdı. Kitab özü yalnız 1852-ci ildə, özü də yeni adla çap edilmişdi.[22]

İ.Şopenin kitabı o zamankı mütəxəssislər kimi müasir tədqiqatçılar tərəfindən də yüksək qiymətləndirilmişdir. M.Kosven bu əsəri indiyədək böyük tarixi qiymətini saxlayan bir əsər kimi qiymətləndirilmişdir.[23] Rus qafqzşünaslığının mənafeyinə uyğun olan bu baxışlar, Azərbaycan tarixi nöqteyi-nəzərindən, yenidən nəzərdən keçirilməlidir. Bu baxımdan yanaşılsa aşağıdakı problemləri ayırmaq zəruridir: 1) müəllifin «erməni vilayəti» adlandırılan qurumda birləşdirilən İrəvan və Naxçıvan xanlıqları torpaqlarına dair irəli sürülən problemə konseptual baxışı; 2) «vilayətin» tarixi və nəhayət, 3) onun Rusiyaya ilhaqı ərəfəsi və sonrakı ilk illərdə olan vəziyyətinin şərhi.

İ.Şopenin kitabı ilə tanışlıq göstərir ki, onun qarşısına qoyduğu problemin tədqiqində tətbiq etdiyi konseptual yanaşma tamamilə səhvdir. O, «erməni vilayəti»ndən bəhs etməli olduğu halda, kitabın birinci hissəsini qədim erməni çarlığına coğrafi, tarixi, ədəbi və arxeoloji cəhətdən baxışlar adlandırmış, heç bir əsas olmadan «erməni vilayəti»ni Ermənistan tarixi kimi təqdim etmişdir. İrəvan və Naxçıvan tarixi də bu konsepsiyaya uyğun nəzərdən keçirilmişdir.

İ.Şopenin kitabının nisbətən diqqəti cəlb edən cəhəti vilayətə daxil olan torpaqların Rusiya işğalı dövrü və ilk illərə aid statistik məlumatıdır. Açıq qeyd etmək lazımdır ki, müəllif konsepsiyasını nəzərə alsaq buradakı statistik materialın da ermənilərin xeyrinə təhrif edildiyini söyləmək olar. Lakin bu halda belə istər İrəvan, istərsə də Naxçıvan torpaqlarının tarixi Azərbaycan ərazisi, onun əhalisinin isə azərbaycanlılardan ibarət olmasını ört-basdır etmək olmur. İ.Şopenin ermənilərin bu torpaqlara köçürülməsi haqqında məlumatları, həmin ərazilərin zor gücünə erməniləşdirilməsi siyasətinin tərkib hissəsi olduğunu sübut edir. Bütün bunları nəzərə alaraq İ.Şopenin kitabına tənqidi şəkildə yanaşmaq zərurəti ortaya çıxır.

1849-cu ildə Naxçıvanın da tərkibinə daxil olduğu İrəvan quberniyası təşkil edildikdən sonra, Naxçıvan tarixi həmin quberniyaya aid araşdırmalarda, eyni zamanda xüsusi məqalə və əsərlərdə əks olunmağa başlayır. 1853-cü ildə P.K.Usların İrəvan quberniyasına dair hərbi-statistik icmalı çap olunur.[24]

1850-ci illərin sonlarından başlayaraq «Kavkaz» qəzetinin səhifələrində Naxçıvan haqqında xüsusi materiallar çap olunmağa başlayır.[25] Bu materiallarda Naxçıvan və Ordubad şəhərləri, Naxçıvanın ayrı-ayrı yaşayış məskənləri haqqında bəhs edilərkən tarixə də müraciət olunur.

Naxçıvanın XIX-XX əsrin əvvəlləri tarixinin rus qafqazşünaslığında tədqiqində 1880-cı illər xüsusi yer tutur. 1880-ci ildə S.P.Zelinskinin, 1882-ci ildə K.N.Nikitinin və 1885-ci ildə A.Avdakovun məqalələri çap olunur.[26]

K.N.Nikitinin qeyd edilən məqaləsi və ümumiyyətlə, «Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar» məcmuəsinə Naxçıvan haqqında nəşr edilmiş digər məqalələr İ.Həbibbəylinin «Qafqaz mənbələrində Naxçıvan» adlı araşdırmasında təhlil edilmişdir. Onun fikrincə «Naxçıvana dair materiallar real müşahidələrə və ilk qaynaqlara əsaslanan araşdırmalardan ibarətdir. Bu materiallarda Naxçıvan şəhərinin yaşının əfsanəvi Nuh peyğəmbərin adı lə bağlı olan dünya tufanı hadisəsi ilə səsləşdiyi qeyd edilmişdir».[27]

Rusiya imperiyasının Dövlət Əmlak Nazirliyi tərəfindən dövlət kəndlilərinin iqtisadi məişətinə dair təşkil etdiyi təhqiqatlar öyrənilən bölgənin tarixinin araşdırılmasına da müsbət təsir göstərdi. Naxçıvan bölgəsinin əhatə etdiyi ərazilər A.Q.Dekonski (Şərur-Dərələyəz qəzasının qərb hissəsi), N.K.Nikiforov (Naxçıvan qəzasının qərb hissəsi), P.N.Yaqodınski (Naxçıvan qəzasının Ordubad sahəsi) və A.V.Parvitski (Şərurun şimal-qərb hissəsi, Dərələyəz, Şərur-Dərələyəz qəzasının şərq hissəsi) tərəfindən təhqiq edilmişdir.[28] Naxçıvan bölgəsi, o cümlədən Zaqafqaziya diyarının dövlət kəndlilərinə dair təhqiqatlar xüsusi cildlərdə ümumiləşdirilmişdi.[29]

Naxçıvanın XIX-XX əsrin əvvəlləri tarixinə dair materiallar Qafqaz təqvimində də çap edilmişdi.[30]

Bütün bunlara baxmayaraq, rus qafqazşünaslığı Naxçıvanın XIX-XX əsrin əvvəlləri dövrünün sistemli tarixini yaratamağa nail ola bilməmişdi.

Naxçıvan tarixinin müxtəlif dövrlərinin (VII-XII əsrlər, XIII-XIV əsrlər və i.a.) Azərbaycan tarixşünaslığı xüsusi tədqiqatlarda, yaxud dövrə dair araşdırmalarda öyrənildiyi halda,[31] XIX-XX əsrin əvvəllərinin tarixşünaslığı ayrıca araşdırılmamışdır.

Naxçıvan tarixinin qeyd olunan dövrünün Azərbaycan tarixşünaslığı, əsasən, sovet dövründə meydana gəlmişdir. Naxçıvana dair ilk məqalələr elmi səfərlərin yekunları haqqında olmuşdur.[32] Ə.Ələkbərov öz məqaləsində Naxçıvanın tarixi və etnoqrafiyasına dair təəsüratlarını da qeyd edir.

1927-ci ildə H.Sultanovun Naxçıvan vilayəti və onun iqtisadiyyatı adlı əsəri çap olunur.[33] Burada vilayətin iqtisadi tarixinə də ekskurs edilir.

Müəyyən fasilədən sonra Naxçıvana dair xüsusi bir araşdırma işıq üzü görür. Q.Mədətov Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili haqqında 1958-ci ildə kitab çap etdirir. 1968-ci ildə kitabın rusca variantı çıxır.[34] Kitabın keçmişdən səhifələr adlanan birinci fəslində XIX-XX əsrin əvvəlləri tarixinə də toxunulur.

1959-cu ildə M.Nəsirlinin Naxçıvanın kənd əhalisi və kənd evlərinə aid tarixi-etnoqrafik kitabı nəşr olunur. Kitabda Naxçıvanın maddi mədəniyyətinin tərkib hissəsi olan kənd yaşayış evləri tədqiq edilir.[35]

S.H.Sadıqovun bərpa dövründə Naxçıvan MSSR-in kənd təsərrüfatına həsr edilmiş məqaləsində (1963) bölgənin çar Rusiyası tərkibindəki vəziyyətinə, xüsusilə Birinci Dünya müharibəsi dövrünə də toxunulur.[36]

Naxçıvan tarixinin Azərbaycan tarixşünaslığında R.Məmmədovun Naxçıvan şəhərinin tarixi haqqındakı tədqiqatı (1977) indiyədək mühüm yerini saxlamaqdadır. Müəllif xronoloji cəhətdən X-XVII əsrləri araşdırsa da, şəhərin sonrakı inkişafı haqqında da bəzi mülahizələr irəli sürür.[37]

1980-cı illərdə Naxçıvan tarixinə maraq xeyli artır. 1984-cü ildə C.B.Quliyev, Q.Ə.Mədətov və A.A.Nadirovdan ibarət müəlliflər kollektivi «Sovet Naxçıvanı» adlı kitab çap etdirir.[38] Elə həmin il Z.Şahverdiyev XIX əsrin 70-90-cı illərində Azərbaycanda aqrar münasibətlər və kəndlilərin vəziyyəti (Naxçıvan və Şərur-Dərələyəz qəzalarının materialları üzrə) mövzusunda namizədlik dissertasiyası müdafiə edir. Bu dissertasiyada ilk dəfə olaraq həmin məsələlər kompleks şəkildə tədqiq olunur.[39]

M.M.Əliyevin Naxçıvan xanlığına dair namizədlik dissertasiyasının son bölümündə xanlığın XIX əsrin əvvəlləri – Türkmənçay müqaviləsinədək olan dövrü işıqlandırılmışdır.[40] Q.İ.Qədirzadə isə uzun tarixi dövr ərzində (1828-1928-ci illər) Naxçıvanda etno-demoqrafik prosesləri araşdırmışdır.[41]

X.Vahidova 1990-cı ildə XIX-XX əsrin əvvəllərində Ordubad şəhərinin tarixi mövzusunda namizədlk dissertasiyası müdafiə edir. Müəllif dissertasiyanın materialları əsasında 2007-ci ildə eyni adlı kitab çap etdirir.[42] Bu kitab xronoloji cəhətdən tədqiqat dövrünü əhatə etdiyi üçün onun üzərində ətraflı dayanmaq istərdik. Dörd fəsildən ibarət olan kitabda Ordubad şəhərinin qısa tarixi oçerki, Naxçıvan xanlığı Rusiya imperiyası tərkibində (I fəsil), ərazi, əhali və inzibati idarə sistemi (II fəsil), şəhərin iqtisadi inkişafı (III fəsil) və mədəni həyatı (IV fəsil) kimi məsələlər öyrənilmişdir. Kitabda Ordubadın sosial-iqtisadi inkişafının dinamikası, əhalinin sosial-etnik və yaş-cins tərkibi, şəhərin xırda sənayesi və ticarətində yeni iqtisadi münasibətlərin inkişafı və b. problemlər həll edilmişdir.

1980-cı illərin sonları-1990-cı illərin başlanğıcında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları genişlənməyə başladı. Ermənistan Dağlıq Qarabağla birgə Naxçıvanı da Azərbaycandan qoparmaq üçün ideoloji və hərbi-təcavüzkar xətt yeridirdi. Ümummilli lider Heydər Əliyevin 1990-cı il Qanlı yanvar hadisələrinə Moskvada kəskin siyasi qiymət verməsi, Bakıya (1990, 11 iyul) buradan isə Naxçıvana qayıtması (1990, 22 iyul) xalqın həyatında böyük hadisə oldu. Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin sədri seçilməsi bölgənin Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi saxlamasında böyük tarixi rol oynadı. Heydər Əliyev 1993-cü ilin iyun hadisələrindən sonra xalqın təkidli tələbi ilə yenidən, ikinci dəfə Azərbaycanda hakimiyyətə gəldi. Bütün Azərbaycan kimi Naxçıvan da daim Heydər Əliyevin diqqət və qayğısını hiss edirdi.

Heydər Əliyev çox sahəli fəaliyyətində milli tarixin dərindən araşdırılmasına da böyük önəm verir, tarixçilər qarşısında mühüm tədqiqat vəzifələri qoyurdu. Naxçıvan tarixinin dərindən öyrənilməsi burada əsas yerlərdən birini tuturdu.[43]

Bütün bunların nəticəsi idi ki, həmin dövrdən Naxçıvan tarixinin tədqiqi yeni səviyyəyə yüksəldi, Naxçıvan tarixinə dair beynəlxalq konfranslar təşkil edilməyə başladı.

Bu dövrdə nəşr edilmiş əsərlərdə də XIX-XX əsrin əvvəlləri tarixinə dair bəzi məsələlər əksini tapmışdı.

S.Sadıqovun Naxçıvan Muxtar Respublikasının tarixinə dair kitabında (1995) muxtariyyətləşdirilmə ərəfəsindəki vəziyyətdən də bəhs edilir.[44]

S.Budaqovanın Naxçıvan diyarının tarixi coğrafiyasına (XVIII əsrin II yarısı – XIX əsrin I qərinəsi) kitabı (1995) Naxçıvanın ərazisi, əhalisi və iqtisadiyyatının yerləşməsinə dair problemlərə aydınlıq gətirdi. Müəllif 1996-cı ildə eyni mövzuda namizədlik dissertasiyası müdafiə etmişdi.[45]

1996-cı il Naxçıvan tarixinin öyrənilməsində uğurlu il oldu. Bu ildə nəşr olunan bir sıra kitablar xronoloji cəhətdən əvvəlki (İrəvan əyalətinin icmal dəftəri) və sonrakı (İ.Musayevin Naxçıvan və Zəngəzur haqqındakı tədqiqatı) dövrə aid olsa da, XIX-XX əsrin əvvəlləri tarixinin öyrənilməsinə də (tarixi müqayisə və s. baxımdan) köməklik göstərmişdir.[46] F.Əliyevin və M.Əliyevin Naxçıvan xanlığı adlı kitabının bir hissəsi isə XIX əsrin əvvəlləri hadisələrini də işıqlandırmışdır.[47]

1996-cı il 11-13 iyulda Naxçıvan şəhərində «Uluslararası qaynaqlarda Naxçıvan» Beynəlxalq simpoziumunun keçirilməsi Azərbaycan tarix elmində mühüm hadisə oldu. Konfransın materiallarının elə həmin dövrdə çap eilməsi də təqdirəlayiqdir.[48] Konfransın materiallarının təhlili göstərir ki, burada Naxçıvan tarixinin bütün mühüm dövrlərinə aid çıxışlar olmuş, tezislər çap edilmişdir. Onların arasında XIX-XX əsrin əvvəllərinə aid olanlar da (İ.Həbibbəyli, İ.Bağırov, H.Həşimli və b.) vardır.[49]

Beynəlxalq simpoziumun qəbul etdiyi tövsiyələr[50] də yüksək qiymətləndirilməlidir. Burada digər tövsiyələrlə birgə Naxçıvan tarixinin yazılıb hazırlanması və nəşr edilməsi xüsusi qeyd edilməlidir.

İrəvan əyalətinin icmal dəftərindən sonra 1997-ci ildə «Naxçıvan sancağının müfəssəl dəftəri»nin (1727) nəşr edilməsi Naxçıvan tarixinin öyrənilməsində vacib hadisə hesab oluna bilər.[51] Yeri gəlmişkən qeyd edək ki, həmin kitabın əhəmiyyəti nəzərə alınaraq 2001-ci ildə yenidən nəşr edilmişdir.[52] Kitabın həmin nəşri ilə bağlı çox maraqlı bir qeydi burada verməyi zəruri hesab edirik. Orada yazılır: «Azərbaycan Respublikasının möhtərəm Prezidenti Heydər Əliyev cənabları xalqımızın tarixini geniş oxucu kütləsinə çatdırmağı elmi ictimaiyyət qarşısında şərəfli və məsuliyyətli bir vəzifə kimi müəyyən etmişdir. Onun bu yönümlü müdrik siyasəti son illər tariximizin öyrənilməmiş sahələrinə dair onlarca monoqrafiya, məcmuə və mənbələrin nəşri ilə əlamətdar olmuşdur.

İlk dəfə «Sabah» nəşriyyatında çap olunmuş bu qiymətli tarixi qaynaqla tanış olmuş möhtərəm Prezident onun elmi şərhlərlə nəşrini tövsiyə etmişdir. Kitabın tərtibçisi Hüsaməddin Məmmədov (Qaramanlı) əlyazma üzərində yenidən işləmiş, bu nəşri lüğət və şərhlərlə təchiz etmişdir». Artıq qeyd etdiyimiz kimi bu materialın xronoloji cəhətdən əvvəlki dövrə aid olmasına baxmayaraq, XIX əsr Naxçıvan tarixinin öyrənilməsi üçün də onun böyük əhəmiyyəti vardır.

Naxçıvanın XIX-XX əsrin əvvəlləri həyatında onun mədəniyyət tarixinin böyük yeri olmuşdur. 1990-cı il illərdə bu mühüm sahə üzrə tədqiqatlar da genişlənmişdir. İ.Həbibbəylinin «Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri» kitabı bu baxımdan xüsusilə qeyd edilməlidir.[53]

İ.Hacıyev və Ə.Amanoğlunun 1998-ci ildə Ankarada nəşr olunmuş «Tarihte ve günümüzde Nahçıvan» adlı kitabı, orada qoyulmuş mühüm elmi problemlərlə birgə, Naxçıvan haqqında obyektiv biliklərin türk oxucularına çatdırılması nöqteyi-nəzərindən yüksək qiymətləndirilməlidir.[54]

Bu dövrdə Ordubad şəhərinin keçmişinə münasibət yenə də diqqət mərkəzində olmuşdur. A.Paşayev 1998-ci ildə XIX-XX əsrin əvvəllərində Ordubad şəhərinin tarixi-etnoqrafik tədqiqinə dair kitabını (rus dilində) çap etdirmişdir. Dörd fəsildən ibarət olan bu kitabda Ordubad şəhərinin tarixi-coğrafi xarakteristikası (I fəsil), əhalinin məşğuliyyəti (II fəsil), maddi mədəniyyəti (III fəsil), ailə və ictimai məişəti (IV fəsil) nəzərdən keçirilmişdir.[55]

1999-cu ilin fevralında Naxçıvan Muxtar Respublikasının təşkilinin 75 ili tamam olmuşdur. Ümummilli lider Heydər Əliyev 1999-cu il fevralın 4-də «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında» fərman vermiş, bu münasibətlə Naxçıvan tarixinin tədqiqi sahəsində də mühüm istiqamətlər müəyyənləşdirilmişdi. Bunun nəticəsi idi ki, həmin il Naxçıvan haqqında xeyli ədəbiyyat nəşr edilmişdi ki,[56] onların içərisində XIX-XX əsrin əvvəllərinə dair araşdırmalar da vardır. V.Quliyeva elə həmin il XIX-XX əsrin əvvəllərində Naxçıvan, İrəvan və Zəngəzurun sosial-mədəni həyatında müsəlman ruhanilərinin rolu və mövqeyinə dair kitabçasını çap etdirmişdi. Müəllif bu tematikanı inkişaf etdirərək 2003-cü ildə yeni bir monoqrafiya yazmışdı.[57]

Naxçıvan Dövlət Universitetinin NMR-in 75 illiyi münasibətilə nəşr etdirdiyi Elmi əsərlərin xüsusi buraxılışında da Naxçıvanın XIX-XX əsrin əvvəlləri tarixinə dair materiallar əks olunmuşdur. H.Verdiyeva XIX əsrdə Naxçıvanda baş verən demoqrafik dəyişiklikləri, R.Səfərov XIX-XX əsrin əvvəllərində Naxçıvanın etnik tarixini, H.Həsənov XIX əsrdə kəndin sosial-iqtisadi durumunun kameral təsvirlərdə əksini tədqiq etmişdir.

A.Nadirov, Ə.Nuriyev və Ş.Muradovdan ibarət müəlliflər kollektivinin «Naxçıvan iqtisadiyyatı XX əsrdə» kitabında (2000) yüzilliyin əvvəllərinin iqtisadi vəziyyətinə də diqqət yetirilmişdir.[58] Müəlliflər Naxçıvanın XX əsrdəki iqtisadi inkişafını beş dövrə (1924-cü ilə qədər olan dövr; 1924-1940-cı illər; 1941-1970-ci illər; 1970-1985-ci illər və 1986-1999-cu illər) bölmüş, əhalinin dinamikası və quruluşunu xüsusi bölmədə şərh etmişlər. Kitab Naxçıvan iqtisadiyyatının yaxın gələcəyi haqqında düşüncələrlə başa çatır. Kitabın xronologiyası XX əsrin əvvəllərindəki iqtisadi vəziyyətin ümumi inkişafdakı yerini müəyyən etməyə imkan verir.

Naxçıvan tarixinin mühüm qaynaqlarından olan epiqrafik abidələr və arxeoqrafik sənədlərə dair nəşrlərin (M.Nemət, E.Seyidbəyli) tarixi qeydlər hissəsi də bölgənin öyrənilən dövr tarixinə də işıq tutur.[59]

Ümummilli lider Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli fərmanı ilə AMEA-nın Naxçıvan bölməsinin yaradılması bölgədə elmin, o cümlədən tarix elminin inkişafına böyük təkan verdi.[60] Tədqiqatlar və elmi-kütləvi nəşrlər sistemli şəkil aldı. 2002-ci ildə Naxçıvan ensiklopediyasının buraxılması Azərbaycanın mədəni həyatında böyük hadisə oldu. Qısa bir müddətdə Naxçıvanın həyatında baş vermiş dəyişikliklər onun yeni, ikinci nəşrini hazırlamaq tələbini irəli sürdü. 2005-ci ildə Naxçıvan ensiklopediyasının ikinci, özü də ikicildlik nəşri həyata keçirildi.[61] Burada Naxçıvanın XIX-XX əsrin əvvəlləri tarixinə dair materiallara da geniş yer verilmişdir.

Bu dövrdən başlayaraq Naxçıvan tarixinə aid əsərlərin çap edilməsi, konfranslar keçirilməsi sistemli və ardıcıl şəkil almağa başlamışdır. Naxçıvan tarixinə dair tədqiqatlar içərisində V.Əliyevin, F.Səfərlinin, İ.Kazımovun, N.Quliyevin, V.Piriyevin, N.Vəlixanlının, Y.Mahmudovun və K.Şükürovun əsərlərini və b. qeyd etmək olar. Onların bəzilərində (F.Səfərli, İ.Kazımov, N.Quliyev) Naxçıvanın XIX-XX əsrin əvvəlləri tarixi də nəzərdən keçirilir.[62]

2006-cı il 9-10 iyunda Naxçıvanda keçirilmiş «Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri» beynəlxalq simpoziumunda da bölgənin XIX-XX əsrin əvvəlləri tarixinə geniş yer verilmişdi. 2007-ci ilin oktyabrında da Naxçıvanda daha bir konfrans keçirilmiş, tarixin aktual problemləri hərtərəfli təhlil edilmişdi.[63]

Beləliklə, Naxçıvanın XIX-XX əsrin əvvəlləri tarixinin öyrənilməsinin xronoloji baxımdan nəzərdən keçirilməsi göstərir ki, dövrün ayrı-ayrı süjetlərinə müəyyən vaxtlarda diqqət yetirilsə də, o hələlik xüsusi tədqiqat obyekti kimi ayrılmamışdır.

Naxçıvanın XIX-XX əsrin əvvəlləri tarixinin öyrənilməsi vəziyyətindən bəhs edərkən ümumiləşdirmiş Azərbaycan tarixi kitablarında, həmçinin Azərbaycanın həmin dövr tarixinin müxtəlif problemlərinə dair tədqiqatlarda Naxçıvana dair fikir və mülahizələri də nəzərə almaq lazımdır.

Ümumiləşdirilmiş Azərbaycan tarixi kitablarından bəhs edərkən üçcildlik Azərbaycan tarixinin ikinci cildini və yeddi cildlik Azərbaycan tarixinin dörd və beşinci cildlərini xüsusilə qeyd etmək lazımdır.[64]

Naxçıvanın XIX-XX əsrin əvvəlləri tarixinin tədqiqi bir sıra elmi problemlərin irəli sürülməsini tələb edir. Təbii ki, həmin problemlərin öyrənilməsi səviyyəsi də aydınlaşdırılmalıdır. Bu problemlərin Azərbaycan miqyasında tədqiqi sahəsində xeyli iş görülmüş, bu zaman Naxçıvanla bağlı bəzi faktlar da araşdırmalara cəlb edilmişdir. Naxçıvan xanlığının mövcudluğunun son dövrü, Rusiya tərəfindən Naxçıvan xanlığının ilhaqı məsələləri F.Əliyev və M.Əliyevin Naxçıvan xanlığına dair kitabında nisbətən geniş araşdırılmışdır. Bu problem digər Azərbaycan tarixçiləri ilə birgə rus və İran tarixçilərinin əsərlərində də əksini tapmışdır.[65]

Naxçıvanın Rusiya tərəfindən ilhaqından sonra idarəetmə məsələlərinə A.Milmanın XIX-XX əsrin əvvəllərində Azərbaycanın siyasi quruluşuna dair monoqrafiyasında toxunulmuşdur.[66]

Naxçıvan bölgəsinin əhalisi haqqında İ.Kazımovun xüsusi tədqiqatı ilə birgə V.Lerner, H.Verdiyeva və b. müəlliflərin Şimali Azərbaycan əhalisinə dair kitablarında da bəhs edilmişdir.[67] Ermənilərin Şimali Azərbaycana, o cümlədən Naxçıvan bölgəsinə köçürülməsi məsələsi, xüsusilə son dövrdə müəyyən ədəbiyyat

yaratmışdır.[68] Bu ədəbiyyat ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinin səbəbləri, say dinamikası, ağır nəticələri haqqında təsəvvür yaradır.

XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycan iqtisadiyyatı yaxşı tədqiq edilmiş problemlərdəndir. [69] Burada Naxçıvan iqtisadiyyatı ayrıca tədqiqat obyekti olmasa da, onun bəzi məsələlərinə yer verilmişdir.

Sosial-siyasi həyat və mədəniyyət tarixinə dair araşdırmalarda da Naxçıvan bölgəsi barədə məlumatlardan istifadə edilmişdir.[70]

XIX-XX əsrin əvvəllərinə dair problemlərin öyrənilməsi sahəsində əldə edilən uğurlar Naxçıvan tarixinin müvafiq dövrünün tədqiqi üçün əlverişli baza yaratmağa imkan vermişdir.

Naxçıvanın XIX-XX əsrin əvvəlləri tarixinin dərindən öyrənilməsi tədqiqat üçün geniş mənbə bazası yaradılmasını tələb edir. Bunun üçün ümumi mənbəşünaslıqla bərabər, XIX – XX əsrin əvvəlləri dövrünün mənbəşünaslığına dərindən bələd olmaq lazımdır. Bu barədə olan xüsusi tədqiqatda göstərildiyi kimi XIX və XX əsrin əvvəllərinin qaynaqları əvvəlki dövrlərin qaynaqları ilə müqayisədə özünəməxsusluqlara malik olur. Qaynaqların bir sıra klassik növləri keçmişdə qalır, bununla birgə yeni növləri (demoqrafiya statistikası, sənaye, kənd təsərrüfatı, ticarət statistikası və s.) yaranır. Sosial-iqtisadi inkişaf üçün xeyli material verən statistika – iqtisadi qaynaqlar tarixi qaynaqların mühüm növünə çevrilir. Mərkəzi və yerli orqanların dəyişməsi ilə inzibati və məhkəmə orqanlarının kargüzarlıq sənədləri də digər xarakter alır. Onların məzmunu, təyinatı və forması dəyişir. Dövrü mətbuatın inkişafının yeni səviyyəyə çatması da əsas əlamətlərdəndir. XIX-XX əsrin əvvəllərinə dair qaynaqların təsnifatı qaynaqlar üzərində işin metodikası və b. mühüm məsələlərdə də yeniliklər özünü göstərir.[71] Bu fikir XIX-XX əsrin əvvəlləri Azərbaycan tarixinə, o cümlədən Naxçıvan tarixinə də şamil edilə bilər. Tədqiqat prosesində Naxçıvanın XIX-XX əsrin əvvəlləri üzrə qaynaqların bütün dairəsi müəyyənləşdirildi. Burada həm nəşr olunan, həm də Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (ARDTA) və Naxçıvan Muxtar Respublikası Dövlət Arxivindən (NMRDA) aşkar edilmiş sənəd və materiallar mühüm yer tutur. XIX-XX əsrin əvvvəlləri tarixinin qaynaqlarının təsnifatı təcrübəsi[72] və Naxçıvanın həmin dövr tarixinə dair qaynaqların dairəsi nəzərə alınaraq onlar aşağıdakı kimi qruplaşdırılmışdır: 1) dövrün tarixi əsərləri; 2) qanunvericilik sənədləri; 3) dövlət idarələrinin kargüzarlıq sənədləri; 4) iqtisadi-statistik tədqiqat və materiallar; 5) dövri mətbuat və b.

XIX –XX əsrin əvvəlləri rus qafqazşünaslığında bir-birinin ardınca diyarın, onun ayrı-ayrı bölgələrinin keçmişi və müasir dövrünə dair əsərlər çap edilmişdi. Onlar tarixi əsər olmaqla birlikdə, qaynaq səciyyəsi də daşıyır. Bunların içərisində S.Qlinka, P.Zubov, N.Nefeldyev, N.F.Dubrovin, V.A.Potto və b. tanınmış qafqazşünasların əsərlərini qeyd etmək olar. Bu əsərlərdə Rusiya imperiyasının Qafqazı işğalına, burada yaratdığı müstəmləkəçi rejimə dair faktlar vardır. [73]

Naxçıvanın XIX-XX əsrin əvvəlləri tarixinin qaynaqlarının digər bir qrupunu qanunvericilik sənədləri təşkil edir. Onları iki yerə bölmək olar: a) Naxçıvan xanlığının Rusiya imperiyasına ilhaq edilməsini təsbit edən xarici siyasət aktları; b) Naxçıvanın idarəsi ilə bağlı olan qanunvericilik sənədləri.

Naxçıvanın Rusiya tərəfindən ilhaqı 1828-ci il fevralın 10-da Rusiya ilə Qacarlar dövləti arasında bağlanan Türkmənçay müqaviləsilə təsdiq olunmuşdu. [74] Həmin müqavilənin III maddəsində İrəvan xanlığı və Naxçıvan xanlığının Rusiyaya tam güzəştə gedilməsi və onunla bağlı olan digər məsələlərin həll edilməsindən bəhs olunurdu. [75]

Naxçıvan xanlığı Rusiyaya ilhaq edildikdən sonra İrəvan xanlığı ilə birlikdə bu torpaqlarda «erməni vilayəti» yaradılmışdı. Bu barədə çar I Nikolay 1828-ci il martın 21-də fərman vermişdi. «Erməni vilayəti» 1840-cı il 10 aprel qanunu ilə ləğv olunmuşdu. 1849-cu ildə İrəvan quberniyası təşkil edildikdə Naxçıvan torpaqları onun tərkibinə daxil edilmişdi. [76] Naxçıvanın inzibati-ərazi bölgüsünün tənzimlənməsilə birgə, sosial-iqtisadi həyat üzrə də qanunvericilik aktları qəbul edilmişdi. [77]

Tarixi qaynaqlar içərisində dövlət idarələrinin və digər qurumların kargüzarlıq sənədləri mühüm yer tutur. İşdə bu səpgili sənəd və materialları iki qrupa bölmək olar. Birincisi arxivlərdən əldə olunaraq elmi dövriyyəyə cəlb edilmişdir. Bunların sırasında Azərbaycan Respubliası Dövlət Tarix Arxivi (ARDTA; Naxçıvan Mərkəzi Dövlət Arxivi (Naxçıvan MR MDA), Rusiya Federasiyası Mərkəzi Dövlət Tarix Arxivi (RF MDTA) və Gürcüstan Respublikası Mərkəzi Dövlət Tarix Arxivindən (GR MDTA) toplanan sənəd və materiallar xüsusi yer tutur.

Kargüzarlığa dair sənəd və materialların digər qrupu isə çap olunanlardır. Bunların bir hissəsi Rusiya imperiyası zamanında, bəziləri isə sovet və ya postsovet dövründə işıq üzü görmüşdür. Rusiya imperiyası dövründə nəşr olunan sənəd və materialları külliyatından bəhs edərkən Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarını fərqləndirmək lazımdır. On iki clddə çap olunan bu məcmuədə Naxçıvanın XIX əsr tarixinə dair mühüm sənədlər vardır. Bu sənədlər Naxçıvan xanlığının Rusiya tərəfindən ilhaqına, onun idarəsinin təşkilinə, iqtisadi vəziyyətinə və s. digər məsələlərə aydınlıq gətirir. [78] Sovet dövründə nəşr edilmiş iki hissədən ibarət XIX əsrin 20-60-cı illərində Rusiya çarizminin Azərbaycanda müstəmləkəçilik siyasəti adlı sənəd və materiallar toplusu da (M. - L., 1936-1937) bu sırada mühüm yer tutur. Bu topluda Naxçıvana aid sənəd və materiallar da vardır.

Naxçıvanın XIX-XX əsrin əvvəlləri tarixinin qaynaqları içərisində statistik materiallar başlıca yer tutur. Demoqrafiya-statistik qaynaqlar onların əsas qrupunu təşkil edir. Bu qrup qaynaqların bir qrupu, xüsusilə 1831 və 1842-ci il kameral təsvirlərinin materialları arxivdə saxlanılır. [79] Digər qrup isə çap edilmişdir. Çap olunan materiallardan İ.Şopenin kameral təsvirini, 1836-cı ildə nəşr edilmiş icmalı, 1886-cı il ailə siyahılarını, 1897-ci il əhali siyahıya almasını və b. qeyd etmək olar. [80]

Demoqrafiya-statistik qaynaqlarla birgə təsərrüfat həyatının müxtəlif sahələrini əks etdirən materiallardan da istifadə edilmişdir. [81]

İşdə Qafqaz kənd təsərrüfatı cəmiyyətinin əsərlərindən, müxtəlif dövrlərdə nəşr edilən dövri mətbuat orqanlarından da («Əkinçi», «Kaspiy» və b.) istifadə olunmuşdur.

Səyahətnamələr[82] və xatirə ədəbiyyatı[83] da qaynaq kimi tədqiqata cəlb edilmişdir.

Naxçıvanın XIX-XX əsrlər tarixinin bir sıra problemlərini, xüsusilə əhalinin etnik tərkibinin müəyyənləşdirilməsində Naxçıvanın toponimiyası da qaynaq kimi çıxış edir. Ona görə də yaşayış məskənlərinin siyahısı və toponimik məlumatlar da tədqiqatda xüsusi önəm daşıyır. [84]

Beləliklə, Naxçıvanın XIX-XX əsrin əvvəlləri üzrə tarixi ədəbiyyat və qaynaqlar problemin ilk dəfə kompleks şəkildə həllini irəli sürməyə və reallaşdırmağa imkan vermişdir.

---

1. Naxçıvan tarixinin səhifələri («Uluslararası qaynaqlarda Naxçıvan» beynəlxalq simpoziumunun materialları). Bakı, 1996, s.3.

2. Azərbaycan tarixi. Üç cilddə. cc.1-3. Bakı, 1958-1963; Azərbaycan tarixi. Yeddi cilddə. cc.1-7. Bakı, 1998-2003; Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Bakı, 1996 və b.

3. **Буниятов З.М.** Азербайджан в VII-IX вв. Баку, 1965; ***Şərifli M.X.*** IX əsrin ikinci yarısı – XI əsr Azərbaycan feodal dövlətləri. Bakı, 1978; **Ализаде А.А.** Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956 və b.

4. **Абибуллаев О.*А.*** Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982; ***Əliyev V.*** Qədim Naxçıvan. Bakı, 1979; ***yenə onun,*** Naxçıvan-Azəbaycanın tarixi diyarıdır. Bakı, 2002; **его же,** Культура эпохи средней бронзы Азербайджана. Баку, 1988. ***Baxşəliyev V., Seyidov A.*** Naxçıvanın qədim tarixi (etüdlər). Bakı, 1985 və b.

5. **Кашкай С.М.** Из истории Маннейского царства. Баку, 1977; **Алиев И.** История Мидии. Баку, 1960; ***Fazili A.*** Atropatena (e.ə. IV – e. VII əsrləri). Bakı, 1992; **Мамедов Т.М.** Кавказская Албания в IV – VII вв. Баку, 1983; **Мамедова Ф.М.** Политическая история и историческая география Кавказской Албании. Баку,

Bakı, 2005; ***Məmmədov R.*** Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, 1977; **Буниятов З.М.** Государство Атабеков Азербайджана. Баку, 1986.

7. ***Piriyev V.*** Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı, 2004; ***yenə onun,*** Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003.

8. ***İbrahimov C.*** Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, 1958; ***Nəcəfov T.H.*** Səfəvi-Osmanlı müharibələri və Naxçıvan (XVI əsr – XVII əsrin əvvəlləri) // Naxçıvan Muxtar Respublikası (məqalələr toplusu). Bakı, 1999, s. 62-72; **Рахмани А.А.** Азербайджан в конце XVI и XVII веке (1590-1700 гг.) Баку, 1981; ***Mustafazadə T.*** Naxçıvan vilayəti XVIII yüzillikdə // Naxçıvan Muxtar Respublikası (Məqalələr toplusu), s.38-61.

9. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 2001

10. ***Şahverdiyev Z.*** Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Proqram. Bakı, 2007; ***Kazımov İ.*** Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı, 2007; **Пашаев А.** Город Ордубад в XIX - начале XX вв. (Историко-этнографическое исследование). Баку, 1998; ***Ordubadi M.S.*** Qanlı illər. Bakı, 1991.

11. ***Musayev İ.*** Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı,

12. [1.] Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi. Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev. Bakı, 1999, s. 16.

13. yenə orada, s.25

14. ***Mədətov Q.*** Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, 1958; ***Sadıqov S.*** Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı, 1995.

15. ***Vəlixanlı N.*** Naxçıvan – ərəblərdən monqollaradək (VII-XII). Bakı, 2005; ***Piriyev V.*** Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı, 2004

16. **Борозна В.** Краткое описание путешествия Российского императорского посольства в Персию в 1817 г. СПб., 1821.

17. там же, с.180.

18. Полное Собрание Законов Российской империи. Собр. вт. т.III. СПб., 1830, с.272-273.

19. Статистический взглядь на провинции Нахичеванскую // Тифлисские ведомости, 1831, №№8-11; Провинция Нахичеванская // Журнал МВД, 1831, №5; Статистическое описание Нахичеванской провинции. СПб., 1833; Обозрение российских владений за Кавказом. ч.IV. СПб., 1836.

20. **Косвен М.О.** Материалы по истории этнографического изучения Кавказа в русской науке // Кавказский этнографический сборник. т.I. М., 1955, с.305.

21. **Броссе, Кеппен.** Разбор сочинения г. Шопена «Статическое описание Армянской области». СПб., 1841.

22. **Шопен И.** Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852.

23. **Косвен М.О.** Материалы по истории этнографического изучения Кавказа в русской науке // Кавказский этнографический сборник. т.I. М., 1955, с.305.

24. **Усларь П.К.** Военно-статистическое обозрение Эриванской губернии. СПб., 1853.

25. **Мансуров М.** Краткий очерк Ордубатского уезда // Кавказ, 1859, №21; **Ченко.** Заметки об экономического быта Ордубатского уезда // там же, 1862, №51-52; **его же,** Ордубать // там же, 1862, №25; Сел. Верхний Акулись // там же, 1863, №33; Нахичевань // там же, 1872, №81; Описание Ордубада // там же, 1873, №7 и др.

26. **Зелинский С.П.** Три магала: Нахичеванский, Ордубадский и Даралагезский. Географически-статистическое и сельскохозяйственное // Сборник сведений о Кавказе. т.VII. Тифлис, 1880; **Никитин К.Н.** Город Нахичеван и Нахичеванский уезд // Сборник материалов для описания местностей и племен Кавказа. вып.II. Тифлис, 1882; **Авдаков А.** Водооросительная арпачайская система Нахичеванского уезда // Сборник Кавказского общества сельского хозяйства. вып.3. Тифлис, 1885, №820.

27. ***Həbibbəyli İ.*** Qafqaz mənbələrində Naxçıvan // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.120.

28. **Никифиров Н.К.** Экономиче-

ский быт государственных крестян западной части Нахичеванского уезда Эриванской губернии // Материалы для изучения экономического быта государственных крестян Закавказского края. т.I. Тифлис, 1885, с.559-640; **Ягодинский П.Н.**… в Ордубадском участке Нахичеванского уезда…// там же, с.641-674; **Деконский А.Г.**… в западной части Шаруро-Даралагезского уезда… // там же, с.675-767; **Парвицкий А.В.**… северо-запаной части Шарура и восточной части Даралагеза Шаруро-Даралагезского уезда… // там же, т.II, ч.II, с.97-179.

29. Свод материалов… тт.I-V. Тифлис, 1887-1889.

30. **Черноярский Н.** Город Ордубат в промышленном отношении // Кавказский календарь на 1868 г.

31. ***Vəlixanlı N.*** Naxçıvan – ərəblərdən monqollaradək (VII-XII). Bakı, 2005; ***Piriyev V.*** Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı, 2004; ***Məmmədov R.*** Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, 1977; ***İsmayılov K.*** 1917-1920-ci illərdə Naxçıvanda siyasi vəziyyətə dair (problemin tarixşünaslıq aspektləri) // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri. Naxçıvan, 2006, s.177-187; ***Qasımov Ə.*** Naxçıvanın XX əsr tarixi Azərbaycan tarixşünaslığında // Tarix İnstitutunun Elmi Əsərləri, 2007, №21.

32. ***Sultanov H.*** Naxçıvan vilayəti və onun iqtisadiyyatı. Bakı, 1927.

33. **Алекперов А.К.** Поездка в Зангезур и Нахкрай // Изв. о-ва обслед. и изуч. Азербайджана. 1927, №4, с.210-216; **Сысоев В.М.** Нахичеванский край: Отчет о поездке летом 1927 гг. // Изв. Азкомстариса, 1929, №4, с.123-216.

34. ***Mədətov Q.*** Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, 1958; **Мадатов Г.** Победа советской власти в Нахичевани и образования Нахичеванской АССР. Баку, 1968.

35. **Насирли М.Н.** Сельское население и крестьянские жилища Нахичеванской АССР. Баку, 1959.

36. ***Sadıqov S.N.*** Bərpa dövründə Naxçıvan MSSR-in kənd təsərrüfatı // Az. SSR EA Tarix İnstitutunun Əsərləri. XVI c. Bakı, 1963, s.5-19.

37. ***Məmmədov R.*** Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, 1977.

38. ***Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A.*** Sovet Naxçıvanı. Bakı, 1984.

39. **Шахвердиев З.А.** Аграрные отношения и положения крестьян Азербайджана в 70-90-е гг. XIX в. (По материалам Нахичеванского и Шаруро-Даралагезского уездов). Канд.дис. Баку, 1984.

40. **Алиев М.М.** Нахичеванское ханства и его присоединение к России. АКД. Баку, 1986

41. ***Qədirzadə Q.***İ. Naxçıvanda etnodemoqrafik proseslər (1828-1928-ci illər) // Respublika konfransının materialları. Naxçıvan,

1989.
42. **Ваидова Х.Р.** История города Ордубада в XIX-нач. XX в. АКД. Баку, 1990; его же, История города Ордубада, Баку, 2007.
43. ***Hacıyev İ.*** Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı, 2003.
44. ***Sadıqov S.H***. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı, 1995.
45. ***Budaqova S***. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı – XIX əsrin I qərinəsi). Bakı, 1995; **Будагова С.И.** Историческая география Нахичеванского края (Вторая половина XVIII – первая треть XIX вв.), АКД. Баку, 1996.
46. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996; ***Musayev İ.*** Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996.
47. ***Əliyev F.***, ***Əliyev M.*** Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996.
48. Naxçıvan tarixinin səhifələri («Uluslararası qaynaqlarda Naxçıvan beynəlxalq simpozimunun materialları). Bakı, 1996.
49. ***Həbibbəyli İ.*** Qafqaz mənbələrində Naxçıvan // yenə orada, s.118-172; ***Bağırov İ.*** 1826-1828-ci illər rus-İran müharibəsi və Naxçıvan // yenə orada, s.114-118; ***Həşimli H.*** Naxçıvanda formasyonluq: Tarixdə və ədəbiyyatda // yenə orada, s.122-125.
50. yenə orada, s.217-219.
51. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997.
52. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 2001.
53. ***Həbibbəyli İ.*** Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri. Bakı, 1997.
54. ***Hacıyev İ.***, ***Amanoğlu Ə.*** Tarihte ve günümüzde Nahçıvan. Ankara, 1998.
55. **Пашаев А.А.** Город Ордубад в XIX- нач. XX вв. (историко-этнографические исследование). Баку, 1998.
56. Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı, 1999; Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (tərtibçi ***İ.Hacıyev***). Bakı, 1999; Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı, 1999; ***Quliyev V.*** İsa Sultan Şahtaxtinskinin qəribə həyatı. Bakı, 1999; ***Babayev S.Y.*** Naxçıvanda «Kitabi-Dədə Qorqud» toponimləri. Bakı, 1999; Naxçıvan. NMR-in 75 illiyinə həsr olunur. BDU-nun Xəbərləri. Xüsusi buraxılış. 1999, №3; Naxçıvan MR-75. Elmi Əsərlər. Xüsusi buraxılış. 1999, №5.
57. **Кулиева В.А.** Роль и позиция мусульманского духовенства в социально-культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX- начале XX в. Баку, 1999; **ее же,** Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в XIX- начале XX вв. в ракурсе армяно-азербайданских политических отношений. Баку, 2003.

58. ***Nadirov A., Nuriyev Ə., Muradov Ş.*** Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, 2000.

59. **Неймат Мешадиханум.** Корпус эпиграфических памятников Азербайджана. т.III. Арабо-персо-тюркоязычные надписи Нахичеванской Автономной Республики XII-нач. XX в. Баку, 2001; ***Seyidbəyli E.*** Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı, 2000.

60. ***Həbibbəyli İ., Hacıyev İ.*** Heydər Əliyev və Naxçıvanda elmin inkişafı // Elm (xüsusi buraxılış). Bakı, 2003; AMEA Naxçıvan bölməsi (tərtib edəni İ.Hacıyev). Bakı, 2005.

61. Naxçıvan ensiklopediyası. İki cilddə. cc. I-II. Naxçıvan, 2005.

62. ***Əliyev V.*** Naxçıvan. Bakı, 2002; ***Səfərli F.*** Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı, 2003; ***Kazımov İ.F.*** Naxçıvan bölgəsinin tarixi-demoqrafik tədqiqi (1828-1920-ci illər). NDA. Naxçıvan, 2003; ***yenə onun,*** Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı, 2007; ***Piriyev V.*** Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı, 2004; ***Vəlixanlı N.*** Naxçıvan – ərəblərdən monqollaradək (VII-XII). Bakı, 2005; ***Quliyev N.*** Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat). Bakı, 2006; ***Mahmudov Y., Şükürov K.*** Naxçıvan: tarixi və abidələri. Bakı, 2007.

63. Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan, 2006; Naxçıvan bu gün: islahatlar, prespektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş Beynəlxalq simpoziumun materialları). Naxçıvan, 2008.

64. Azərbaycan tarixi. Üç cilddə. 2-ci cild. Bakı, 1964; Azərbaycan tarixi. Yeddi cilddə. cc.4-5. Bakı, 2000-2001; Naxçıvan bu gün: islahatlar, prespektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş simpoziumun matetialları). Naxçıvan 2008.

65. **Ибрагимбейли Х.М.** Россия и Азербайджан в первой трети XIX в. М., 1969; ***Nasir Nəcmi.*** Abbas Mirzə. XIX əsr Rusiya-İran-Azərbaycan münasibətləri. Bakı, 1993.

66. **Мильман А.** Политический строй Азербайджана в XIX – начале XX в. Баку, 1966.

67. ***Kazımov İ.*** Naxçıvan bölgəsinin tarixi-demoqrafik tədqiqi (1828-1920-ci illər). NDA. Naxçıvan, 2003; **Лернер В.А.** Влияние переселения на количественного и качественного состава населения Азербайджана в последней трети XIX в. // Изв. АН Азерб. ССР. Сер. история, филос. и право. 1981, №4; ***Verdiyeva H.*** XIX əsrin birinci yarısında Şimali Azərbaycanın əhalisi. Bakı, 1993.

68. ***Hacıyev İ.*** Ermənilərin Naxçıvana qarşı ərazi iddialarının əsassızlığı və tarixi həqiqətlər // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri, s.33-47; ***Muradov M.*** Çar Rusiyasının Azərbaycanda işğalçılıq və

köçürmə siyasəti (XIX əsrin birinci yarısında). Bakı, 1999; **Вердиева Х.Ю.** Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX – начале XX в.). Баку, 1999 və b.

69. **Сумбатзаде А.С.** Сельское хозяйство Азербайджана в XIX в. Баку, 1958; **его же,** Промышленность Азербайджана. Баку, 1964; **Исмаилов М.** Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX – начале XX в. Баку, 1964; ***Vəliyev T.*** İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı, 1987; ***Əliyev Q.*** Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr – XX əsrin ilk onillikləri). Bakı, 2001 və b.

70. **Багирова И.С.** Политические партии и организации Азербайджани в начале XX века (1900-1917). Баку, 1997; **Гусейнов Дж.Х.** Национально-освободительное движение в Азербайджане в начале XX в. (1900-1907 гг.). Баку, 2001; **его же,** Движение качагов в Азербайджане в 1900-1910 гг. Вт.кн. Баку, 2004 və b.

71. Источниковедение Истории СССР XIX – начала XX в. М., 1970, с.6-7.

72. Источниковедение Истории СССР XIX – начала XX в. М., 1973, ч.II-III.

73. Описание переселения армянь Адербайджанских в пределы России, с кратким предварительным изложением исторических времен Армении. С.Глинка. М., 1831 (təkrar nəşr: Баку, 1990); **Зубов П.**Картина Кавказского края. ч.I, СПб., 1834; **Его же,** Картина последней войны с Персией 1826-1828 гг. СПб., 1834; **Нефедьев Н.** Взгляд на Армянскую область. СПб., 1839; **Дубровин Н.Ф.** История войны и владычества русских на Кавказе. тт.I-VI. СПб., 1871-1888; **Потто В.А.** Кавказская война. чч. I-V. СПб., 1887-1891.

74. Daha ətraflı bax: ***Şükürov K.*** Türkmənçay – 1828. Sənədli xronika. Bakı, 2006.

75. Туркменчайский трактат // Полное собрание законов Российской империи (далее ПЗС). Собр.вт. т.III. СПб., 1830, ст.1794; **Юзефович Т.** Договоры России с Востоком [Политические и торговые]. СПб., 1869.

76. О именовании присоединенных к России ханств Эриванского и Нахичесванского областию Армянскою // ПСЗ., Собр.вт. т. III, СПб., 1830, ст. 1888; Учреждения для управления Закавказским краем // там же, т. XV, ст. 13368; Об образовании Эриванской губернии // там же, т.XXIV, ст.23303.

77. Высочайший рескрипт от 13 июля 1930 г. // АКАК, т.VII, док.53; Высочайший рескрипт данный наместнику Кавказскому от 6 декабря 1846 г. // ПСЗ., Собр.вт. т.XXI, ст.20672.

78. Акты, собранные Кавказской Археографической комиссией. Под ред. **А.Берже**. тт. I-XII. Тифлис, 1866-1904.

79. ARDTA. f.24, siyahı 1, iş 353,

354, 355, 356, 357, 358, 359, 360, 361, 372; f.290, siyahı 1, iş 55; f.25, siyahı 2, iş 3, 4, 5, 7, 8.

80. Статистический взгляд на провинции Нахичеванскую // ТВ, 1831, №№8-11; **Григорьев В.** Статистическое описание Нахичеванской провинции. СПб., 1833; **Евецкий О.** Статистическое описание Закавказского края в исходе XVIII в. и сравнение оного с нынешней. В 2-х частях. СПб., 1835; Обозрение российских владений за Кавказом. ч.IV. СПб., 1836; **Шопен И.** Исторический памятник состояние Армянской области. СПб., 1852; Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893; Первая Всеобщая перепись населения Российской империи. LXXI. Эриванская губерния. СПб., 1906.

81. **Усларь П.К**. Военно-статистическое обозрение Эриванской губернии. СПб., 1853; **Зелинский С.П.** Три магала: Нахичеванский, Ордубадский и Даралагезский. Географически-статистическое и сельскохозяйственное описание // Сборник сведений о Кавказе. т.VII. Тифлис, 1875; Сборник статистических данных о землевладении и способах хозяйств в пяти губерниях Закавказского края. Тифлис, 1899.

82. ***Qriboyedov A.S.*** Yol qeydləri. Bakı, 1989; **Борозна В.** Краткое описание путешествия Российского императорского посольства в Персию в 1817 г. СПб., 1821; Журнал посольства в Персию генерала А.П.Ермолова. М., 1863.

83. Записки А.П.Ермолова. 1798-1826 гг. М., 1991.

84. Список населенных мест Эриванской губернии. Эриван, 1908; ***Babayev S.*** Naxçıvanda «Kitabi-Dədə Qorqud» toponimləri. Bakı, 1999; ***Budaqov B., Qeyübullayev Q.*** Naxçıvan diyarının yer yaddaşı. Bakı, 2004

# I FƏSİL

# NAXÇIVAN XANLIĞININ RUSİYA İMPERİYASI TƏRƏFİNDƏN İŞĞALI. İNZİBATİ – ƏRAZİ QURULUŞUNDA DƏYİŞİKLİKLƏR VƏ İDARƏÇİLİK

## Naxçıvan xanlığının işğalı. Türkmənçay müqaviləsi

Azərbaycan tarixçilərinin fikrincə Azərbaycan – Rusiya əlaqələrinin kökləri V-VI əsrlərdən başlasa da, rəsmi əlaqələr XV əsrdən mövcuddur.[1] Şirvan, Xəzər sahili torpaqlar, Qarabağ və b. bölgələr bu əlaqələrdə xüsusi yer tutmuşdu. Naxçıvan bölgəsinin Rusiya - Azərbaycan münasibətlərində fəallaşmasını, təxminən XVIII əsrin 80-cı illərinə aid etmək olar. Bu proseslər Naxçıvan xanlığının işğalı, Türkmənçay müqaviləsi nəticəsində Rusiyaya ilhaq olunması ilə başa çatmışdı. Həmin mərhələni də (XVIII əsrin 80-cı illəri-1828-ci il) bir neçə dövrə ayırmaq olar: 1) XVIII əsrin 80-cı illəri – 1804-cü il; 2) 1804-1813-cü illər rus-İran müharibəsi; 3) 1813-1816-cı illər; 4) 1826-1828-ci illər rus-İran müharibəsi.

Burada həmin dövrlər, xüsusilə, Gülüstan müqaviləsindən sonrakı dövr üzərində dayanmaq istərdik.

1783-cü ildə Rusiya ilə Gürcüstan arasında Georgiyevsk müqaviləsinin bağlanması Cənubi Qafqazda onun mövqelərini genişləndirdi. Rusiya bu fürsətdən istifadə edərək Azərbaycan xanlıqlarına da təsir göstərməyə çalışdı. Müqavilənin bağlanması haqqında bəzi xanlıqlara knyaz Q.A.Potyomkinin 1783-cü il 20 avqust «universal»ları (fərmanları) vasitəsilə rəsmən məlumat verilmişdi.[2]

Bu zaman Naxçıvan xanlığında bir tərəfdən hakimiyyət, digər tərəfdən burada nüfuzunu möhkəmləndirmək uğrunda Xoy və İrəvan xanlıqları arasında mübarizə gedirdi. Bu da Naxçıvan xanlığının mövqeyini zəiflədirdi. Məhz belə bir şəraitdə Rusiyanın Naxçıvana münasibəti fəallaşır. Naxçıvan xanlığı tarixinin tədqiqatçıları – F.Əliyev və M.Əliyevin Rusiyanın Mərkəzi Dövlət Hərbi Tarix arxivindən (MDHTA) aşkar etdikləri sənədlər Rusiyanın Naxçıvana münasibətinin birinci dövrünün (XVIII əsrin 80-cı illəri – 1804-cü il) ümumi mənzərəsini yaratmağa imkan verir. Burada ən maraqlı məsələlərdən biri ondan ibarətdir ki, Kartli-Kaxet çarı II İraklii Rusiya, Rusiya isə Kartli-Kaxet çarlığı vasitəsilə Naxçıvanda möhkəmlənməyə çalışırdı. Bununla əlaqədar olaraq göstərilən müəlliflərin kitabından bir parçaya diqqət yetirək: «II İraklinin çox ehtiyatlı hərəkətlərinə baxmayaraq, Rusiyanın işgüzar dairələrində belə bir xəbər yayıldı ki, guya Kartli-Kaxeti çarı rus komandanlığının razılığı olmadan öz qoşunlarını Naxçıvana çıxarıb». II İraklinin Q.A.Potyomkinə izahatından da onun ehtiyatlı olduğu aydın olur. «Naxçıvandakı vəziyyətlə tanış olan Q.A.Potyomkin öz cavabında Burnaşevə bildirdi ki, o, mahiyyət etibarilə Abbasqulu xanın Naxçıvanda hakimiyyətə gəlməsinə etiraz etmir». Müəlliflər yazır ki, Q.A.Potyomkinin məktubundan sonra II İrakli daha cəsarətlə yürüşə hazırlaşmağa başladı.[3] Rusiya qarabağlı İbrahim xanın Naxçıvanda möhkəmlənməsindən ehtiyat edirdi. Buna görə də S.Burnaşev Xoy və Urmiya xanlıqlarına yazdığı məktubda onların Naxçıvan xanlığının müdafiəsinə qalxmasını tələb edirdi.[4]

Naxçıvanda Kalbalı xanın (1787-1820) hakimiyyətə gəlməsilə xanlıqda vəziyyət nisbətən sabitləşdi. Lakin Ağa Məhəmməd Qacarın başçılığı ilə Qacarlar dövlətinin meydana gəlməsi və Şimali Azərbaycana yürüşü qüvvələr nisbətini dəyişdi. Qacarın 1795-ci il yürüşündən sonra Rusiya çarı II Yekaterina V. Zubovu 1796-cı ildə Cənubi Qafqaza göndərdi. Bu zaman Kalbalı xanla V.Zubov arasında yazışma olmuş, Rusiyanın təbəəliyini qəbul etməyə hazır olduğunu bildirmişdi.[5] II Yekaterinanın ölümündən sonra hakimiyyətə gələn I Pavelin göstərişi ilə Zubov Cənubi Qafqazı tərk etdiyindən Ağa Məhəmməd şah Qacarın 1797-ci ildə yeni yürüşü başlamışdı. Bu dövrdə Kalbalı xanın Rusiya ilə münasibəti bəhanə edilərək o, həbs edilmişdi. Beləliklə, Rusiyanın Naxçıvana münasibətdə siyasəti və ona olan manevr xarakterli ümidlər boşa çıxmışdı.

Rusiyanın 1801-ci ildə Şərqi Gürcüstanın birləşdirilməsi haqqında manifestilə mövqeləri gücləndi. Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı aktların birinci cildindəki sənədlər[6] 1801-ci ilin martı – 1802-ci ilin dekabrında Rusiya ilə Naxçıvan xanlığı arasındakı vəziyyəti aydınlaşdırmağa imkan verir. Buradan aydın olur ki, bu dövrdə İrəvanda yaşayan Kalbalı xan həmin xanlığın siyasətinin müəyyən edilməsində mühüm rol oynayır. Pəmbəyin azad edilməsi və Qars üzərinə yürüş planı Rusiyanı ciddi narahat edirdi.

Kalbalı xanın İrəvandan qayıdaraq Naxçıvan xanlığında yenidən hakimiyyətə başlaması xanlığın vəziyyətinə müsbət təsir göstərir. Kalbalı xanla eyni vaxtda Qafqazdakı rus qoşunlarının yeni baş komandanı P.D.Sisianov vəzifəyə başlayır. Sisianovun fəaliyyətindən bəhs edərkən iki istiqamət – açıq təcavüz (Car-Balakən, Gəncə) və təzyiq vasitəsilə müqavilələr bağlanması (Qarabağ, Şəki, Şirvan) qeyd edilir, lakin Naxçıvana münasibətdə fərqli münasibət özünü nümayiş etdirir. Sisianov 1804-cü ildə rus-İran müharibəsinin başlanmasınadək Kalbalı xanın vasitəçiliyilə Danil-David məsələsini, yəni Eçmiədzinə Danilin təyin edilməsinə nail olmağa çalışırdı.[7]

1804-1813-cü illər rus-İran müharibəsinin başlanması ilə Rusiya Naxçıvan xanlığına qarşı da işğalçılıq planlarını həyata keçirməyə başladı. 1804-1813-cü illər rus-İran müharibəsi, o cümlədən müharibənin gedişində Naxçıvanın vəziyyəti tarixi ədəbiyyatda kifayət qədər əks olunduğundan[8] bu məsələ üzərində ətraflı dayanmağa ehtiyac görmürük. Yalnız onu qeyd etmək istəyirik ki 1808-ci ilin noyabrında Naxçıvan tutuldu. Rusiyanın İrəvan uğrunda mübarizəsi isə uğursuzluğa düçar oldu. Ruslar Naxçıvanı da tərk etdilər. 1804-1813-cü illər müharibəsi 1813-cü il oktyabrın 12-də Gülüstan müqaviləsilə başa çatdı. [9] Rusiya Gülüstan müqaviləsilə Naxçıvan və İrəvan xanlıqlarını ilhaq edə bilmədi.

1813-cü il Gülüstan müqaviləsindən sonrakı beynəlxalq münasibətlər, Rusiya və İranın xarici siyasəti, 1826-1828-ci illər rus-İran müharibəsinin səbəbləri haqqında xeyli tarixi ədəbiyyat vardır.[10] Lakin bu ədəbiyyatda Rusiyanın Naxçıvana münasibəti və 1826-1828-ci illər rus-İran müharibəsinin səbəbləri içərisində bu amilin rolu xüsusi araşdırılmamışdır.

Gülüstan müqaviləsi imzalandıqdan sonra ingilis və İran diplomatiyası «Separat akt»ın verdiyi səlahiyyətlərdən istifadə edərək sərhədlərin dəyişdirilməsinə nail olmağa çalışdı. 1813-cü ilin noyabrında şahın göstərişi ilə Mirzə Əbülhəsən xanın başçılığı ilə İran nümayəndə heyəti Peterburqa yola düşdü. Burada İran və ingilis diplomatları fəaliyyətini birləşdirdi. Lakin, Rusiyadan ərazi güzəşti əldə etmək mümkün olmadı. Çar I Aleksandr bu məsələlərin həlli üçün İrana xüsusi səfirlik göndərməyi qərara aldı.[11] Rusiyanın Naxçıvana münasibəti, məhz bu kontekstdə ortaya çıxdı.

I Aleksandr 1816-cı ildə A.P.Yermolovu Qafqazdakı rus qoşunlarının baş komandanı təyin etdi. O, eyni zamanda İrana getməli olan səfirliyin başçısı təyin edildi. Bu məqsədlə I Aleksandrın Yermolova xüsusi təlimatı verilmişdi. [12] İranın Rusiyaya qarşı ərazi iddiaları irəli sürdüyü bir halda, Rusiya da öz istəyini gizlətmirdi. Təlimatda deyilirdi ki, Qarabağ və Şimali Talışın İrəvan və Naxçıvan xanlıqlarına dəyişdirilməsi pis olmazdı.[13] Buradan aydın olur ki, Cənubi Qafqazda Rusiyanın strateji fəaliyyət planında İrəvanla birgə, Naxçıvan xanlığının ələ keçirilməsi vacib yer tutmuşdur. Bu müddəanı təsdiqləyən digər bir fakt da diqqəti cəlb edir. Yermolovun missiyası Tehrana gedərkən, artıq Rusiyaya ilhaq edilmiş torpaqlardan deyil, bilavasitə İrəvan və Naxçıvandan keçən yola üstünlük vermişdi. Bəzi şərtlərlə Yermolovun missiyasını A.Volınskinin missiyası ilə müqayisə etmək mümkündür. Burada da əsas məqsədlərdən biri kəşfiyyat materialları toplamaqdan ibarət olmuşdu.[14] Səfirliyin fəaliyyəti qısa şəkildə A.Yermolovun qeydlərində[15] və xüsusi ədəbiyyatdla əks olunmuşdur.[16] Yermolovun missiyasının Naxçıvanda olması haqqında məlumat və onun qiymətləndirilməsinə ilk dəfə F.Əliyev və M.Əliyev «Naxçıvan xanlığı» kitabında cəhd etmişdir. Müəlliflər yazırdı: «A.P.Yermolovun İrana səfəri haqqında tarixi ədəbiyyatda lazımi məlumatlar vardır. Lakin onun Naxçıvanda olması və Kalbalı xanla görüşü bu günə qədər Azərbaycan tarix ədəbiyyatında bir sözlə belə xatırlanmır. Hüquqi cəhətdən İranın təbəəliyində olsa da Kalbalı xanın Naxçıvan torpağında A.P.Yermolovla görüşü və danışıqları Naxçıvan xanlığının siyasi cəhətdən müstəqilliyini göstərir».[17]

Bu görüşün Rusiyanın Naxçıvana münasibəti nöqteyi-nəzərindən təhlilinə də ehtiyac vardır. Diqqəti cəlb edən əsas məqamlardan biri rus rəsmi sənədlərinin Kalbalı xanın anti şah mövqeyini xüsusi nəzərə çarpdırmasıdır. Bu da mahiyyət etibarı ilə Rusiyanın Naxçıvana iddiasına haqq qazandırmağa xidmət edirdi.

1820-ci ildə Kalbalı xanın ölümü, qısa bir dövr ərzində bir neçə xanın Naxçıvan xanlığında hakimiyyətdə olması vəziyyəti gərginləşdirdi, xanlığın mövqeyini zəiflətdi. 1826-1828-ci illər rus-İran müharibəsi zamanı Rusiya tərəfindən Naxçıvanın işğalı vəzifəsi yenidən irəli sürüldü. Rus qoşunları 1827-ci il iyunun 26-da Naxçıvanı tutdular. İyulun əvvəllərində Abbasabad qalası təslim oldu. Oktyabrın 1-də İrəvan qalası ələ keçirildi.

İran Rusiya ilə sülh danışıqlarında Naxçıvan və İrəvanın geri qaytarılmasını tələb etsə də, tezliklə bu iddiadan əl çəkdi. 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay müqaviləsi Naxçıvan xanlığının Rusiyaya ilhaq edilməsini təsdiq etdi. Müqavilənin III maddəsində deyilirdi: «İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə İrəvan xanlığını və Naxçıvan xanlığını Rusiya imperiyasının tam mülkiyyətinə güzəştə gedir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırkı müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanlığın idarə edilməsinə aid olan bütün arxivləri və ictimai sənədləri Rusiya rəisliyinə vəd edir».[18]

Beləliklə, Rusiyanın Naxçıvan bölgəsinə münasibətdəki siyasəti təxminən yarım əsrlik bir dövrldə müxtəlif mərhələlərdən keçərək onun işğalı ilə başa çatdı. Bununla da bütün Şimali Azərbaycan torpaqları kimi Naxçıvan bölgəsinin tarixində yeni, ağır Rusiya müstəmləkəçiliyi dövrü başladı.

1. **Алиев Ф.М.** Азербайджано-русские отношения. Баку, 1985, с.3-4
2. **Алияров С.С., Алиева Ф.М.** Георгиевский трактат в контексте оценки внешне-политического положения Азербайджана // Роль рабочих организаций в развитии революционного движения в Азербайджане. Баку, 1984, с. 75.
3. ***Əliyev F., Əliyev M.*** Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996, s.54-55.
4. yenə orada, s.59.
5. yenə orada, s.66.
6. Акты собранные Кавказской Археографической комиссией. Под ред. **А.Берже.** т.I. Тифлис, 1866, док. 848-867.
7. Присоединение Восточной Армении к России. Сб. док. т.1 (1801-1813). Ереван, 1972, с. 11.
8. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı, 2000; ***Əliyev F., Əliyev M.*** Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996; Акты собранные Кавказской Археографической комиссией. Под ред. А.Берже. т.I-VII. Тифлис, 1866-1878; **Дубровин Н.Ф.** Закавказье от 1803 до 1806 г. СПб., 1866; **Дубровин Н.Ф.** История войны и владычества русских на Кавказе. т.I-IV. СПб., 1871-1888; **Григорян З.Т.** Присоединение Восточной Армении к России в начале XIX века. М., 1959; **Ибрагимбейли Х.М.** Россия и Азербайджан в первой трети XIX века (Из военно-политической истории). М., 1969 və s.
9. ***Şükürov K.*** Türkmənçay – 1828: Tarixi xronika. Bakı, 2006; **Юзефович Т.** Договоры России с Востоком (Политические и торговые). СПб., 1869.
10. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı, 2000; ***Əliyev F., Əliyev M***. Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996; ***Şükürov K.*** Türkmənçay – 1828: Tarixi xronika. Bakı, 2006; **Балаян Б.П.** Международная отношения Ирана в 1813-1828 гг. Ереван, 1967; **Балаян Б.П.** Кровь на алмазе «Шах»: Трагедия А.С.Грибоедова. Ереван, 1983; **Дубровин Н.Ф.** История войны и владычества русских на Кавказе. т.I-IV. СПб., 1871-1888; **Григорян З.Т.** Присоединение Восточной Армении к России в начале XIX века. М., 1959; **Ибрагимбейли Х.М.** Россия и Азербайджан в первой трети XIX века (Из военно-политической истории). М., 1969; **Игамбердыев М.А**. Иран в международных отношениях первой трети XIX в. Самарканд, 1961; Присоединение Восточной Армении к России. Сб. док. т.1 (1801-1813). Ереван, 1972; т.2 (1814-1830). Ереван, 1978; **Семенов Л.С.** Россия и международные отношения на Среднем Востоке в 20-х годах XIX в. Л., 1963; **Тавакалян Н.А.** Русско-армянские отношения в период русско-персидской войны 1826-1828 гг. АКД. М., 1950 və s.

11. *Şükürov K.* Türkmənçay – 1828: Tarixi xronika. Bakı, 2006, s.18-20.

12. Акты собранные Кавказской Археографической комиссией. Под ред. **А.Берже.** т.VI, ч.2. Тифлис, 1875, с.122-127.

13. *Əliyev F., Əliyev M.* Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996, s.89; **Балаян Б.П.** Международная отношения Ирана в 1813-1828 гг. Ереван, 1967, с.35.

14. **Алиев Ф.М.** Азербайджано-русские отношения. Баку, 1985, с.49

15. Записки А.П.Ермолова. 1798-1826 гг. М., 1991, с.260-270, 292-296.

16. **Борозна В.** Краткое описание путешествия Российского императорского посольства в Персию в 1817 г. СПб., 1821; Дневные записки о путешествии российско-императорского посольства в Персию в 1816-1817 годах, веденные советником этого посольства Соколовым. М., 1910; **Ермолов А.** Алексей Петрович Ермолов (Биографический очерк). СПб., 1912; Журнал посольства в Персию генерала А.П.Ермолова. Чтение в Имп-м обществе истории и древностей российских при Московском Университета. Апрель-июнь, кн. 2. М., 1863.

17. *Əliyev F., Əliyev M.* Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996, s.90.

18. *Şükürov K.* Türkmənçay – 1828: Tarixi xronika. Bakı, 2006.

## Rusiya imperiyası tərkibində Naxçıvanın inzibati-ərazi quruluşu və idarə sistemi

Naxçıvan xanlığı Rusiya tərəfindən zəbt edilərkən, İ.Şopenə görə, Naxçıvan, Dərələyəz və Azadcirana bölünürdü. Naxçıvan Əlincəçay, Naxçıvan, Məvazixatun, Xok və Dərələyəz mahallarına ayrılırdı. Azadciran adı ilə də tanınan Ordubad dairəsi Ordubad, Əylis, Dəstə, Biləv və Çananab mahallarından ibarət idi. Naxçıvan xanlığı Qacarlar dövləti sistemində Azərbaycan (Cənubi Azərbaycan) əyalətinə daxil olub, vəliəhd Abbas Mirzəyə tabe idi.[1]

Naxçıvan xanlığı Rusiya tərəfindən, əsasən, dinc yol ilə ələ keçirilmişdi. Lakin çar hökuməti bu yol ilə ələ keçirilən Qarabağ, Şəki və Şirvan xanlıqlarından fərqli olaraq, Naxçıvan xanlığı ilə müqavilə imzalamadı. Bununla birgə Rusiya imperiyası tərkibində Naxçıvan xanlığına müəyyən imtiyazlar verildi. Naxçıvan və Ordubadın ələ keçirilməsində Kalbalı xanın oğlanları Ehsan xan və Şıxəli bəyin xidməti nəzərə alınaraq onlar həmin torpaqlara naib təyin edildi.

Rusiya işğalı ərəfəsində digər Azərbaycan xanlığı – İrəvan xanlığı 15 mahala bölünmüşdü: 1. Qırxbulaq; 2. Zəngibasar; 3. Qarnibasar; 4. Vedibasar; 5. Şərur mahalı; 6. Sürməli mahalı; 7. Dərəkənd-Parçenis mahalı; 8. Saatlı mahalı; 9. Talin mahalı; 10. Seyid Axsaxlı; 11. Sərdarabad; 12. Karpibasan; 13. Abaran mahalı; 14. Dərəçiçək mahalı; 15. Göyçə mahalı (Qaynaqda «Qëq-çayskiy» kimi verilmişdir. – Z.Ş.) İrəvan xanlığı sərdar Hüseyn xanın idarəsi altında idi.[2]

İrəvan xanlığı süqut etdikdən sonra İrəvan xanlığı ləğv edildi. Paskeviç 1827-ci il oktyabrın 26-da keçmiş Naxçıvan və İrəvan xanlıqlarının idarəsi üçün Müvəqqəti idarə yaratdı. Belə bir yanaşma Şimali Azərbaycanın digər xanlıqlarından fərqlənirdi. İlk dəfə Şimali Azərbaycanın iki xanlığı eyni müvəqqəti idarədə birləşdirilirdi. Müvəqqəti idarə ordu komandanı general-leytenant A.İ.Krasovskidən, erməni katalikosu Nerses Aştaraketsidən və İrəvan qalası komendantı polkovnik Borodindən ibarət idi.[3]

Rus hərb tarixçisi V.Potto beş cildlik Qafqaz müharibəsi kitabının üçüncü cildində Krasovskinin həyat və fəaliyyəti üzərində xüsusi dayanmışdır. O, Paskeviçin Krasovskiyə sərt münasibətini qabartmağa çalışmış, bununla birgə həmin hərbçinin rolunu xeyli şişirtmişdir. Potto Paskeviçlə N.Aştaraketsi arasında da ziddiyyət olduğunu qeyd etməklə bərabər, Krassovski kimi onun da fəaliyyətini şişirtməyə çalışmışdır.[4] Lakin bu şəxslərin fəaliyyətindən narazı qalan Paskeviç qısa bir müddət sonra onların hər ikisinin Müvəqqəti idarədən uzaqlaşdırılmasına nail olur.

Bu dövrdə Naxçıvan və Ordubad naiblərinə rus məmurlarından pristavlar təyin edilmişdi. Bütün idarəetmə məsələləri onların qarşılıqlı razılığı əsasında həll edilməli, mübahisəli məsələlər vilayət idarəsinə keçirilməli idi.[5] Lakin naiblər və pristavlar arasında qarşılıqlı razılıq həmişə mümkün olmur, ona görə də Ehsan xan və Şıxəli bəyin narazılığına səbəb olurdu.[6]

1827-ci ildə əyalətdə şəhər məhkəməsi yaradılmışdı. Onun tərkibinə Ehsan xan, onun ruslardan olan köməkçisi, xəzinədar və iki kənd starşinası daxil idi. Məhkəmə həm mülki, həm də az əhəmiyyətli cinayət işlərinin həllində istisnasız olaraq Rusiya qanunlarından çıxış edirdi.[7] Naxçıvan və İrəvan xanlıqlarının işğalı və Rusiyaya ilhaq edilməsi ermənilərin Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq arzusuna[8] yeni təkan verdi. Əslən erməni olan X.Y.Lazarev 1817-ci ilin axırlarında bu barədə çar I Nikolaya layihə təklif etmişdi. General-adyutant Benkendorf bu layihəni çara vermişdi.[9]

Çar I Nikolayın 1828-ci il martın 21-də verdiyi fərman ilə İrəvan və Naxçıvan xanlıqları əsasında «Erməni vilayəti» yaradıldı. Çar fərmanında göstərilirdi ki, İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra «Erməni vilayəti» adlandırmağa hökm edir və öz titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə edilməsi qaydası haqqında ali senat lazımi fərmanları öz vaxtında alacaqdır.[10]

I Nikolayın fərmanından sonra Müvəqqəti idarə vilayət idarəsi ilə əvəz olunmağa başladı. 1828-ci ilin aprelində Krasovski İrəvanı tərk etdi. Vilayət rəisi A.G.Çavçavadze (1786-1846) oldu. 1828-ci ilin sentyabrında A.S.Qriboyedov İrəvanda olarkən vilayətin vəziyyəti ilə tanış olmuş, qayınatası Çavçavadzedən müəyyən məlumatlar almışdı.[11]

1830-cu ildən «Erməni vilayəti»nin idarəsi əslən erməni olan D.O.Behbudova (1793-1867) həvalə edlilmişdi. Behbudov fəaliyyətinin ilk dövründən burada ermənilərin mövqelərini gücləndirməyə başlamışdı.[12]

Çar hökuməti «Erməni vilayəti» yaradıldıqdan beş il sonra, 1833-cu il iyunun 23-də «Erməni vilayəti»nin idarəsinin quruluşu haqqında Əsasnamə qəbul etdi. İrəvan əyalətinin inzibati-ərazi bölgüsündə dəyişiklik edildi. Əyalət dörd dairəyə – İrəvan, Şərur, Sürməli və Sərdarabada bölündü. Dairələr də mahallardan ibarət idi. İrəvan dairəsi Göyçə, Dərəçiçək və Qırxbulaq; Şərur isə Şərur, Vedibasar, Qarnibasar və Zəngibasar; Sürməli dairəsi Sürməli, Dərəkənd - Parçenis; Sərdarabad Saatlı, Talin, Seyidli – Axsaxlı, Abaran, Karpi və Sərdarabad mahallarından ibarət idi. Naxçıvan əyaləti və Ordubad dairəsi əvvəlki inzibati-ərazi bölgüsündə qalırdı.[13]

1833-cü il Əsasnaməsi Naxçıvan əyaləti və Ordubad dairəsində polis idarə sistemini olduğu kimi saxladı. Polismeyster təyin olunan Ehsan xan və Şıxəli bəy bilavasitə «Erməni vilayəti» rəisinə tabe idi.[14]

Əsasnamə ilə məhkəmə sistemində dəyişiklik edildi. Naxçıvan əyalət məhkəməsi yaradıldı. Bu məhkəmə tamamilə rus məmurlarından ibarət idi. Məhdud mühakimə hüququna malik idi. Xəzinənin xüsusi şəxslərə, xüsusi şəxslərin xəzinəyə və ya bir-birinə olan mülki işləri hər iki tərəfin mübahisəni Rusiya qanunları ilə həll etməyə razı olduğu halda nəzərdən keçirilirdi. Xəzinə mülkiyyətinin yadlaşdırılması halında bütün işlər təsdiq üçün vilayət rəisi və Qafqazın baş idarəçisinə verilməli idi.[15]

Çarizmin bütün Şimali Azərbaycanda, o cümlədən İrəvan və Naxçıvan əyalətlərində yaratığı inzibati-idarə sistemi əhali arasında ciddi narazılıq yaradırdı. Çar hökuməti vəziyyəti stabilləşdirmək məqsədilə inzibati-idarə sahəsində islahatlar hazırlamağa başladı.[16]

I Nikolay 1840-cı il aprelin 10-da Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar adlı sənədi imzaladı.[17] Bu sənəd beş layihədən ibarət idi: 1) Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar; 2) bütün idarənin ştatları; 3) Tiflisdə şəhər ictimai idarəsi haqqında Əsasnamə; 4) Zemstvo mükəlləfiyyətləri komitələri haqqında Əsasnamə; 5) Qafqazda xidmət edən məmurların üstünlükləri haqqında Əsasnamə.

Təsisatların birinci paraqrafında Zaqafqaziya diyarının ərazisi müəyyənləşdirildi. İkinci paraqrafda Zaqafqaziya diyarının idarəsi üçün Gürcü-İmeret adlı bir quberniya və Xəzər adlı bir vilayət yaradıldığı bildirilirdi. Quberniya və vilayət qəzalara, qəzalar sahələrə bölünürdü (§ 3). Gürcü-İmeret quberniyası on bir qəzaya – Tiflis, Qori, Telav, Balakən, Kutais, Yelizavetpol, Aleksandropol, İrəvan, Naxçıvan, Axalsıx və Quriyaya bölünürdü (§ 4). Xəzər vilayəti isə yeddi qəzaya – Şirvan, Qarabağ, Şəki, Talış, Bakı və hərbi dairəyə daxil olan Dərbənd və Quba qəzaları (§ 5). Bu paraqrafa verlimiş qeydə görə Duşet, Siqnax və Ordubad zaştat şəhərləri (qəzaya daxil olub, lakin qəza mərkəzi olmayan şəhər –Z.Ş.) kimi qalırdı. Zaqafqaziya diyarını təşkil edən quberniya və vilayətin bütün on səkkiz qəzası yetmiş iki sahəyə bölünürdü. (§ 6).

Təsisastların yeddinci paraqrafından aydın olur ki, keçmiş İrəvan əyaləti bütünlüklə İrəvan qəzasına daxil olurdu (mərkəz İrəvan ş.). Naxçıvan və Ordubad əyalətləri isə Naxçıvan qəzasını (mərkəz Naxçıvan ş.) əmələ gətirirdi. Naxçıvan qəzası üç sahəyə – Naxçıvan, Ordubad və Dərələyəzə ayrılırdı.

1840-cı il 10 aprel qanunu idarə sistemini də müəyyənləşdirirdi. Yuxarı idarə hüququ Baş rəisə aid idi. Ondan sonra ikinci şəxs Tiflis hərbi qubernatoru hesab edilirdi. Baş rəisin sədrliyilə Baş İdarə Şurası (BİŞ) yaradılırdı.

Naxçıvan bölgəsinin ərazisi Gürcü-İmeret quberniyasının tərkibinə daxil olduğuna görə quberniya idarə sisteminə də nəzər salmaq lazımdır. Quberniyanın idarəsi üçün Quberniya idarəsi təşkil edilməli idi. Bu idarə aşağıdakı tərkibdən ibarət olmalı idi: 1) mülki qubernator; 2) quberniya idarəsi; 3) xəzinə palatası; 4) dövlət mülkiyyət palatası; 5) cinayət və mülki məhkəmə palatası; 6) ictimai hamilik prikazı; 7) zadəgan deputat məclisi; 8) prokuror hissəsi.

Qəza idarəsi təsisatların IV fəslində əks olunmuşdu. Qəza idarəsi Gürcü-İmeret quberniyası və Xəzər vilayətində eyni qayda ilə yaradılırdı (§ 84). Bu idarə: 1) qəza rəisi və onun köməkçisi; 2) sahə iclasçıları; 3) şəhər polisi; 4) qəza xəzinədarlığı; 5) qəza məhkəmələri; 6) qəza prokurorlarından ibarət idi (§ 85). Hər bir qəza




**Xəritə 1.**
İrəvan əyaləti və
Naxçıvan sancağı.
1727-ci il.

Nahiyələr:
1. Naxçıvan; 2. Əlincə;
3. Sair Məvazi; 4. Dərəşahbuz;
5. Mülki-Arslan; 6. Məvazi-Xatun;
7.Qarabağ; 8. Qışlağat;
9. Dərəşam; 10. Azadcıran;
11.Şorlut; 12.Dərənürgüt.




Xəritə 2.
Qafqaz.
1802-ci il.




**Xəritə 3.** Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı. 1801-1828-ci illər.




**Xəritə 4.** Şimali Azərbaycanın inzibati ərazi bölgüsü. XIX əsrin əvvəlləri.




**Xəritə 5.** Şimali Azərbaycanın inzibati ərazi bölgüsü. 1840-cı il.




**Xəritə 6.** Şimali Azərbaycanın inzibati ərazi bölgüsü. 1846-1860-cı illər.




**Xəritə 7.**
Qafqaz diyarı.
1870-ci illər.




**Xəritə 8.** Qafqaz. 1903-cü ilin xəritəsindən fraqment: Naxçıvan qəzası.




**Xəritə 9.**
Qafqaz. 1903-cü ilin xəritəsindən fraqment: Şərur-Dərələyəz qəzası.




**Xəritə 10.** Ermənilərin azərbaycanlılara qarşı soyqırımı. 1905-1906-cı illər.




**Xəritə 11.** Cənubi Qafqazın inzibati ərazi bölgüsü. 1915-ci il.




**Xəritə 12.** Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü.

idarəsində qəza hakimi və ştatla müəyyən olunmuş sayda digər çinlər olmalı idi (§ 86). Qəzaya daxil olan sahələr sahə iclasçıları tərəfindən idarə edilirdi (§ 71).

1840-cı il 10 aprel qanunu 1841-ci il yanvarın 1-dən qüvvəyə mindi. Bununla əlaqədar olaraq yeni idarə sistemi formalaşdırılmağa başladı, yerli məmurlar vəzifələrindən uzaqlaşdırıldı. Bu dəyişikliklər Naxçıvanda da həyata keçirilməyə başladı. Ehsan xan və Şıxəli bəy də vəzifəsindən kənarlaşdırıldı. Ehsan xan süvari dəstəsinin komandiri təyin olundu.[18]

Lakin 1840-cı il 10 aprel islahatı özünü doğrultmadı. Zaqafqziyanı yeni çıxışlar bürüdü. Çar I Nikolayın göstərişi ilə Qafqazda canişinlik yaradıldı. İlk canişin M.S.Vorontsov (1844-1854) Qafqazı sakitləşdirmək məqsədilə bəzi tədbirlərə əl atdı. Onun yaxından iştirakı ilə çar I Nikolay 1846-cı il 14 dekabr fərmanı ilə Zaqafqaziyanın inzibati-idarə sistemində dəyişikliklər etdi. Zaqafqaziya Tiflis, Kutais, Şamaxı və Dərbənd olmaqla dörd quberniyaya bölündü.[19] İrəvan və Naxçıvan qəzalarının tərkibinə daxil olan Naxçıvan bölgəsi Tiflis quberniyasına verildi. Lakin bu qəzalar Tiflis quberniyası tərkibində uzun müddət qalmadı. 1849-cu il iyunun 9-da İrəvan quberniyası yaradıldı. Yeni quberniya və quberniya orqanları 1850-ci il yanvarın 1-dən fəaliyyətə başladı.[20] Bütün keçmiş «Erməni vilayəti», o cümlədən Aleksandropol qəzası (Axalkalaki sahəsi olmadan) və Mehri sahəsinin bir hissəsi yeni yaradılmış İrəvan quberniyasına daxil oldu. Quberniya beş qəzaya: İrəvan, Aleksandropol, Hovobayazet, Naxçıvan və Ordubada bölündü. Göründüyü kimi İrəvan quberniyası tərkibində Ordubad xüsusi qəza kimi ayrılmışdı. Bəzi qəzalar sahələrə bölünmüşdü. İrəvan quberniyasında Zəngibasar, Sürməli, Şərur və Sərdarabad sahələri var idi. Naxçıvan qəzası isə Naxçıvan və Dərələyəz sahələrinə bölünmüşdü. Ordubad qəzasında sahələr yox idi. Şərur sahəsinin inzibati mərkəzi Başnoraşen kəndi, Dərələyəz üçün Keşişkənd, Naxçıvan üçün Naxçıvan şəhəri idi. Digər sahə inzibati mərkəzləri iri kəndlərdə (Qəmərli, Qazıqışlaq, Zeyvə və b.) idi.[21]

İrəvan quberniyası təşkil edildikdən sonra da onun xarici hüdudları və tərkibi müəyyən dəyişikliklərlə müşahidə edilmişdi. 1862-ci ildə yeni təyin olunmuş canişin Mixail Nikolayeviçin təqdimatı ilə çar II Aleksandr 1867-ci il dekabrın 9-da Qafqaz və Zaqafqaziya diyarının idarəsinin dəyişdirilməsi haqqında fərman verdi.[22] Bu fərman üzrə Ordubad qəzası on yeddi ilədək mövcud olduqdan sonra ləğv edilərək, Naxçıvan qəzası ilə birləşdirildi. Onun yerinə Eçmiədzin qəzası təşkil edildi. Mehri sahəsi isə yeni yaradılmış Yelizavetpol quberniyasına birləşdirildi. İrəvan quberniyası yenə də beş qəzadan (İrəvan, Aleksadropol, Hovobayazet, Naxçıvan, Eçmiədzin) ibarət oldu. Fərman İrəvan quberniyasının qəzaları arasında sərhədlərin dəyişdirilməsi işini canişinə həvalə etdi.

Canişin bu hüquqdan istifadə edərək 1870-ci ilin əvvəllərində qəzaların hüdudlarında dəyişiklik etdi. Sürməli və Eçmiədzin qəzalarının bir hissəsi İrəvan qəzasına birləşdirildi. Şərur sahəsi isə İrəvan qəzasından aralanaraq Naxçıvan qəzasına birləşdirildi.[23]

Lakin İrəvan quberniyasının qəzalarında, xüsusən Naxçıvan qəzasında ərazinin dəyişdirilməsi bununla başa çatmadı. Dövlət Şurasının təsdiq edilmiş rəyinə əsasən 1874-cü ildə Şərur-Dərələyəz və Sürməli qəzaları yaradıldı.[24] Şərur-Dərələyəz qəzası Naxçıvanın iki sahəsi – Şərur və Dərələyəz əsasında təşkil edilmişdi. Bununla da Rusiya imperiyası tərkibində Naxçıvanın tarixi ərazisinin inzibati-ərazi bölgüsü üzrə çoxsaylı dəyişiklər, əsasən, başa çatmışdı.

1. **Шопен И.** Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.446-448
2. **Шопен И.** Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.441-446.
3. **Акопян Т.Х.** Очерк истории Еревана. Ереван 1977, с.147.
4. **Потто В.А**. Кавказская война. т.3. Ставрополь, 1993, с.354-364, 593-604.
5. АКАК, т.VII, док. №432; **Мильман А.** Политический строй Азербайджана в XIX – начале XX веков. Баку, 1966, с.72.
6. АКАК, т.VII, док. №624; **Мильман А.** Политический строй Азербайджана в XIX – начале XX веков, с.72.
7. **Мильман А.** Политический строй Азербайджана в XIX – начале XX веков, с.92
8. Ətraflı bax: ***Nəcəfli G.*** XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, 2007.
9. **Тунян В.** Материалы к новой истории Восточной Армении // Вестник общественных наук, 1986, №8, с.88; ***Əliyev F., Həsənov U.*** İrəvan xanlığı. Bakı, 1997, s.121.
10. ПЗРИ. Собр.вт. т.Ш, 1828. СПб., 1830, №1888, с.272-273.
11. **Ениколопов И.** Грибоедов и Восток. Баку, 1998, с.111-112.
12. ***Hacıyev İ.*** Ermənilərin Naxçıvana qarşı ərazi iddialarının əsassızlığı və tarixi həqiqətlər // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri. Naxçıvan, 2006, s.41
13. **Шопен И.** Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.448.
14. **Мильман А.** Политический строй Азербайджана в XIX – начале XX веков, с.72
15. там же, с.92.
16. там же, с.101-112; Очерки истории Грузии. т.V Грузия в XIX веке. Тбилиси, 1990, с.116-117.
17. ПЗРИ. Собр.вт. т.XV. с. 13368.
18. ***Nəzirli Ş.*** Arxivlərin sirri açılır. Bakı, 1999.
19. **Эсадзе С.** Историческая записка об управлении Кавказом. т.I. Тифлис, 1907, с.81.
20. **Мильман А.** Политический строй Азербайджана в XIX – начале XX веков, с.133; **Акопян Т.** Очерк истории Еревана. Ереван 1977, с.149-150.
21. ARDA., f.379, siyahı 3, iş 5901, v.3.
22. ПЗРИ. Собр.вт. т.XLII. ст.45260.
23. ARDA., f.379, siyahı 3, iş 5901, v.3-4.
24. yenə orada, v.4

## II FƏSİL

# NAXÇIVAN BÖLGƏSİNİN İQTİSADİ VƏZİYYƏTİ

### 2.1. Kənd təsərrüfatı və aqrar münasibətlər

Naxçıvanın kənd təsərrüfatında taxılçılıq, bağçılıq, üzümçülük, texniki bitkilər (pambıqçılıq, tütünçülük), ipəkçilik və maldarlıq əsas yer tuturdu.

Naxçıvan xanlığı haqqında tədqiqatın müəlliflərinin yazdığına görə, «Naxçıvan xanlığında əsas kənd təsərüfatı sahəsi **taxılçılıq** idi. Taxılçılıqla demək olar ki, əhalinin əksəriyyəti məşğul olurdu. Hətta bəzən maldarlar da öz şəxsi istifadələri üçün taxıl əkirdilər».[1] Taxıl məhsulları içərisində buğda xüsui rola malik idi. Buğda yazda və payızda əkilirdi. Yazda-mart ayının sonunda əkilən buğda iyunun sonu – avqustun əvvəllərində, payızda – sentyabr ayında əkilən buğdanı isə Novruz bayramından yüz gün sonra, iyunun ortalarında yığırdılar. Naxçıvan əyalətinin statistik təsviri işğal ərəfəsndə burada on min xalvar (1 xalvar=20 pud= 327,6 kq) buğda toplandığını bildirir. Ordubadda da buğda əkini geniş yayılmışdı.[2]

Buğda ilə yanaşı, arpa və çəltik də əkilirdi. İşğal ərəfəsində təxminən 300 min pud arpa yığılmışdı.[3] Çəltik may ayında əkilir, oktyabr və noyabr aylarında məhsul toplanırdı. Çəltik suyu çox olan yerlərdə əkilirdi. 1828-ci ildə burada 500 xalvar, yaxud on min pud çəltik toplanmışdı.[4]

Əldə olan faktik material əsasında Naxçıvan xanlığında istehsal olunmuş taxılçılıq məhsullarının Azərbaycan üzrə payını müəyyənləşdirmək olar.[5]

Faktlardan aydın olur ki, Rusiya işğalının başa çatması dövründə Azərbaycanın şimalında yerləşən səkkiz xanlıqda 12.632.600 pud taxıl məhsulları (buğda, arpa, çəltik, darı) istehsal olunmuşdu. Onların içərisində buğda istehsalı 65,77 %, arpa istehsalı 22,48 %, çəltik istehsalı 9,96 %, darı istehsalı 1,78 % təşkil edirdi. Buğda istehsalında Naxçıvan xanlığı 5-ci yerdə (7,22 %) idi. Naxçıvan xanlığı arpa istehsalına görə 4-cü yerdə (10,56 %), çəltik istehsalına görə isə sonuncu yerdə (0,79 %) dururdu.

Rusiya işğalından sonra, tədricən iqtisadi həyatda baş verən sabitləşmə Naxçıvanın kənd təsərrüfatında, o cümlədən taxılçılıqda da özünü göstərməyə başladı.

Naxçıvan iqtisadiyyatına dair kollektiv monoqrafiyada deyilir ki, XIX əsrin 20-ci illərinin axırlarından başlayaraq əmtəə istehsalının və bazarın genişlənməsi, Rusiya ilə əlaqələrin inkişafı kənd təsərrüfatı məhsullarının artmasına da müsbət təsir etmişdir. Rusiyanın tərkibinə daxil edildikdən demək olar ki, 10-15 il sonra buğda istehsalı 2,5, düyü 1,8, arpa 2 və darı 6 dəfə artmışdır.[6] 1845-ci ildə taxılçılığın ümumi istehsalına dair məlumat bu məsələdə aydınlıq əmələ gətirir.[7]

Həmin dövrdə nisbətən dolğun məlumat buğda istehsalına (Yelizavetpol dairəsi nəzərə alınmadan) aiddir. Bu dövrdə 13,8 milyon pud buğda istehsal edilmişdi. Naxçıvan əyalətinin ümumi payı 4,62 % təşkil edirdi. Arpa və çəltik istehsalında isə vəziyyət fərqli idi. Əldə olan məlumatlara əsasən, Şimali Azərbaycanda istehsal olunan arpanın 77,62 %-i, çəltiyin isə 10,37 %-i Naxçıvan əyalətinin payına düşürdü.

XIX əsrin ortalarında Şimali Azərbaycanda, o cümlədən Naxçıvanda taxılçılıq məhsulları istehsalında nisbi irəliləyiş baş verir. Naxçıvan bölgəsində taxılçılıq və digər kənd təsərrüfatı məhsullarının istehsalı dinamikasını izləmək üçün onun inzibati bölgüsündə baş verən dəyişikliyi nəzərə almaq lazımdır. Naxçıvan bölgəsinin torpaqları yeni inzibati bölgüyə görə Naxçıvan qəzası və Şərur – Dərələyəz qəzasının Şərur sahəsini əhatə edirdi. Lakin qaynaqlarda bütün hesablamalar qəzalar üzrə aparıldığından Şərur üzrə göstəriciləri müəyyənləşdirmək üçün ümumi göstəricinin yarısı Naxçıvana aid edilib Naxçıvan qəzası ilə cəmlənəcəkdir.

Araşdırmalar göstərir ki, Şərur-Dərələyəz qəzasının Dərələyəz bölgəsi dağlıq yerlər olduğundan, burada, əsasən, maldarlıq inkişaf etmişdi. Taxılçılıq bütünlüklə Şərurda yerləşirdi. Ona görə də bütövlükdə Naxçıvanda taxıl istehsalı vəziyyətini müəyyənləşdirmək üçün Naxçıvan qəzası və Şərur-Dərələyəzə aid göstəriciləri üst-üstə gəlmək lazımdır. Belə bir hesablama nəticəsində 1870-1875-ci illərdə orta hesabla Naxçıvan bölgəsində 3.072.000 pud, 1880-1885-ci illərdə 2.216.335 pud, 1886-1890-cı illərdə 3.109.397 pud, 1891-1895-ci illərdə 3.430.030 pud, 1896-1900-cü illərdə 3.526.670 pud taxıl məhsulları (buğda, arpa və düyü) istehsal edildiyini müəyyən etmək olar.[8] Bu rəqəmlərdən aydın olur ki, 1870-1900-cü illər arasında ən yüksək istehsala 1896-1900-cü illərdə nail olunmuşdur. Əvvəlki dövrlərdə olduğu kimi taxılçılıq məhsulları içərisində buğda, arpa və çəltik əsas yer tuturdu. Bununla birgə pərinc, darı, vələmir, noxud, kartof da əkilirdi.

Buğda becərilməsi ilə bütün bölgədə məşğul olurdular. Arpa istehsalı isə, əsasən, Naxçıvan qəzasında idi. Düyü becərilməsi ilə Şərurda məşğul olurdular.

Naxçıvanda taxılçılığın inkişafı bir sıra problemlərlə müşahidə olunurdu. Onların içərisidə süni suvarma vasitələrinin kifayət etməməsi, əmək alətlərinin köhnəliyi, təbii fəlakətlər, kəndlilərin az torpaqlılığı və b. şərtlər mühüm yer tuturdu.[9]

Naxçıvan bölgəsinin kənd təsərrüfatında əkinçilikdən sonrakı yeri **maldarlıq** tuturdu. Maldarlıq istər xanlıq dövrünün sonlarında, istərsə də Rusiya hakimiyyəti dövründə iqtisadiyyatda vacib rol oynayırdı. Naxçıvan bölgəsinin hər yerində əhali maldarlıqla məşğul olurdu. Lakin xanlıq dövründə maldarlıqda Dərələyəz mahalı üstün idi. Burada təsərrüfatın bu sahəsinin inkişafı üçün əlverişli təbii-iqlim şəraiti olduğundan, maldarlıq əhalinin başlıca məşğuliyyəti idi. Lakin sonrakı inzibati-ərazi bölgülərində Dərələyəz Naxçıvan bölgəsinin hüdudlarından kənarda qaldığından Naxçıvan, Ordubad və Şərurda maldarlığın inkişaf vəziyyəti nəzərdən keçirilir.

Rusiya işğalı ərəfəsində bütövlükdə Naxçıvan dairəsində 96.733 baş mal-qara var idi. Onlardan 89.725 başı (92,7 %) İri və xırda buynuzlu heyvan, 7048 başı (7,3 %) isə nəqliyyat heyvanı idi.[10]

Naxçıvanın tarixi-coğrafiyasına dair tədqiqatın müəllifi yazır ki, maldarlıq sahəsində Ordubad bölgəsində vəziyyət Naxçıvan bölgəsi kimi olsa da, heyvanların miqdarı sahəsində o, Ordubad bölgəsindən xeyli irəlidə idi. Dəvələrin sayı çıxılmaq şərti ilə istər heyvanların ümumi sayı – istər buynuzlu heyvanlar (69 %), istərsə də nəqliyyat heyvanları (74,4 %) və eyni zamanda bütün digər göstəricilər baxımından (öküz və camışın ümumi sayının 89,3 %-i, qoyun, qoç və keçilərin 60 %-i, atların 88,7 %-i, ulaqların 61,5 %-i) çoxluq Naxçıvan bölgəsinin payına düşürdü.[11]

Maldarlıq əhalini həm ağartı məhsulları (süd, qatıq, pendir və s.), həm də sənətkarlıq üçün zəruri olan xammal (yun, dəri və s.) ilə təmin edirdi

Əldə olan faktik materiallar XIX əsrin 20-30-cu illərində Naxçıvan dairəsində maldarlığın inkişafının Şimali Azərbaycan üzrə vəziyyətini təxmini də olsa müəyyən etməyə imkan verir. Naxçıvan əyalətinin statistik təsvirinin məlumatına görə Naxçıvan dairəsində 10.000-ə qədər iri buynuzlu heyvan, 15.000 qoyun-keçi, 1500 at var idi.[12] Həmin dövrdə Qubada 110.000, Qarabağda 100.000, Yelizavetpol dairəsində 87.000, Şirvanda 77.600, Şəkidə 50.000, Bakıda 20.000, Lənkəranda 12.000 iri buynuzlu heyvan var idi. Naxçıvan dairəsi ilə birgə bu göstərici 466.000 təşkil edirdi.[13] Deməli, Naxçıvan dairəsindəki iri buynuzlu heyvanlar Şimali Azərbaycandakı göstəricinin 2,14 %-ni təşkil edirdi. Əslində Naxçıvan əyaləti üzrə bu göstərici daha yüksək idi.

XIX əsrin 40-50-ci illərinə aid olan məlumata görə Naxçıvan bölgəsinin bir hissəsini əhatə edən Naxçıvan qəzasında 20-25 min baş iri buynuzlu heyvan, 3-4 min baş at var idi. Qoyun və keçi haqqında məlumat əldə edilməmişdi.[14]

XIX əsrin ikinci yarısında Naxçıvan bölgəsinin maldarlıq təsərrüfatında müəyyən inkişaf özünü göstərmişdi. Rusiya işğalı ərəfəsi ilə müqayisədə iri və xırda buynuzlu mal-qaranın sayı XIX əsrin 60-cı illərində bir neçə dəfə artmışdı.[15] Bu vəziyyət XIX əsrin 70-90-cı illərində də davam etmişdi. Ümumilikdə bütün bölgədə olan mal-heyvanın kəmiyyətini tam şəkildə müəyyənləşdirmək mümkün olmasa da, bəzi hesablamalar aparmaq olar. Bunun üçün Naxçıvan qəzası üzrə olan göstəriciləri bütünlüklə, Şərur-Dərələyəz qəzasında isə ümumi göstəricinin təxminən dörddə bir hissəsini (burada maldarlıq, əsasən, Dərələyəz sahəsində idi) əsas götürərək ümumi vəziyyəti aşkar etməyə çalışaq. Qaynaqlardan aydın olur ki, 1870-ci ildə Naxçıvan qəzasında 123.079 qoyun və keçi, 23.505 öküz və kəl, 26.713 inək və camış, 2987 uzunqulaq və qatır, 6.659 at, 4.317 dəvə var idi. Qeyd etdiyimiz hesablama nəticəsində Şərur-Dərələyəz qəzasının Şərur sahəsində bu göstəricilərin müvafiq olaraq təxminən 36,4 min, 7,1 min, 12,6 min və s. olduğunu qəbul edə bilərik. XIX əsrin sonlarına doğru Naxçıvan qəzasında uzunqulaq və qatırların sayı istisna olmaqla digər göstəricilər aşağı düşmüş, Şərur-Dərələyəz qəzasında isə artmışdı.[16]

Naxçıvanın kənd təərrüfatının digər mühüm sahələrindən biri **bağçılıq və üzümçülük** idi. Naxçıvan bölgəsinin təbii iqlim şəraiti bağçılıq və üzümçülüyün inkişafı üçün əlverişli şəraitə malik idi.

Bağçılıq əhalinin əsas məşğuliyyət sahələrindən biri idi. Bağçılığı inkişaf səviyyəsinə görə üç coğrafi rayona – Ordubad, Naxçıvan və Şərura bölmək olar. Ordubad bağçılığın əsasını təşkil edən meyvəçiliyə görə, nəinki, Azərbaycanda, eləcə də bütün Cənubi Qafqazda məşhur idi. XIX əsrin 30-cu illərinə aid məlumatda Ordubad bölgəsində 200 xalvar əkin sahəsində meyvə bağları salındığı bildirilirdi, onun da 30 xalvarı Ordubad şəhəri və ətrafında yerləşmişdi.[17] XIX əsrin 70-ci illərində aparılmış təhqiqatın nəticələrinə görə burada bağlar Gilançay, Üstüpüçay, Dırnısçay, Əylisçay və Ordubadçay ərazilərində yerləşən kəndlərdə (Kələki, Biləv, Gənzə, Danagird və b.) və Ordubad şəhərində idi.[18]

Naxçıvan şəhəri və ətrafında da bağçılıq inkişaf etmişdi. Naxçıvanın 47 dövlət kəndindən 31-də bağçılıq təsərrüfatı üstün idi.[19]

Naxçıvan bölgəsində alma, tut, ərik və b. meyvələr əkilirdi. Üzüm də Naxçıvan bölgəsində ən çox becərilən məhsullardan idi. XIX əsrin 30-cu illərində Naxçıvan bölgəsində 30 xalvara yaxın üzüm bağı var idi. Bir xalvar üzüm (kişmiş üzüm) sahəsindən 400 batmanadək (1 batman=8 kq) məhsul əldə edilirdi. Təkcə Naxçıvan şəhərində 12 min batmana yaxın üzüm yığılmışdı.[20] XIX əsrin 80-cı illərinə aid məlumatda da Naxçıvanda üzmçülüyün inkişafı xüsusi qeyd edilərək, yazılırdı ki, Zaqafqaziyada Naxçıvan qədər üzümçülüklə

məşğul olan yer az tapılar. Onların hər biri rəngi, böyüklüyü, forması və keyfiyyəti ilə fərqlənir. Ağ, qara, qırmızı, tünd qırmızı, yaşıl, göy, açıq sarı və başqa üzümlər vardır.[21]

Naxçıvan bölgəsində üzümçülüyün ümumi istehsal gücünü müəyən etmək üçün taxılçılıqda tətbiq etdiyimiz üsuldan istifadə edə bilərik, çünki Naxçıvan qəzasından sonra, əsas üzümçülük rayonlarından biri Şərur-Dərələyəz qəzasının Şərur sahəsi idi. Dərələyəzin bir neçə kəndi istisna olmaqla burada üzümçülük yayılmamışdı. Hesablamalar nəticəsində aydın olur ki, 1885-1890-cı illərdə Naxçıvan bölgəsi üzrə üzüm sahələri 941 desyatin, götürülən məhsul isə 94.223 pud olmuşdu. 1891-1895-ci illərdə bu göstəricilər müvafiq olaraq 1443 və 96.217, 1896-1900-cü illərdə isə 2231 və 252.534 olmuşdu.[22] Göründüyü kimi XIX əsrin sonlarında Naxçıvan bölgəsində üzümçülüyün həm əkin sahəsi, həm də ona müvafiq olaraq məhsulu xeyli çoxalmışdı. Naxçıvan bölgəsində istehsal olunan üzüm Şimali Azərbaycanda istehsal olunan üzümün 7 %-dək olan hissəsini təşkil edirdi.

Birinci dünya müharibəsi ərəfəsində, 1913-cü ildə Naxçıvanda üzümçülüyün əkin sahəsi 2.104 desyatin təşkil etmiş, götürülən məhsul isə 550 min pud (8,8 min ton) olmuşdu.[23]

**İpəkçilik** də Naxçıvanın kənd təsərrüfatında vacib sahələrdən idi. O, tut bağları, baramaçılıq və barama, yaxud ipəkəyirmə kimi sahələri əhatə edirdi. Birinci iki sahə kənd təsərrüfatına, üçüncü isə sənaye istehsalına aid edilir.

Naxçıvan bölgəsində ipəkçiliyin əsas mərkəzi Ordubad idi. Xanlıq dövrünün sonlarında burada 100 min tut ağacı var idi. Onlardan 10 mini Ordubad şəhərində yerləşirdi. Burada 200 pud ipək istehsal olunmuşdu. İpəkçilik təsərrüfatın gəlirli sahəsi olduğuna görə, hər tut ağacından ildə 1 man. 20 qəp. vergi alınırdı.[24]

Naxçıvan bölgəsinin Rusiya tərəfindən işğalından sonrakı ilk dövrlərdə burada barama istehsalı aşağı düşmüşdü. Belə ki, 1850-ci ildə Naxçıvan qəzasında 50 pud barama istehsal olunmuş, ondan 750 man. gəlir götürülmüşdü. Ordubad dairəsinin Aşağı Əylis, Dəstə, Biləv, Cənnəb kəndləri və Ordubad şəhərində 70 pud 20 girvənkə (1 girvənkə=409,5 q) xam ipək istehsal olunmuşdu.[25]

XIX əsrin ortalarında Rusiya toxuculuq sənayesinin xam ipəyə olan tələbatının artması, Şimali Azərbaycanın digər ipəkçilik rayonlarında olduğu kimi, Naxçıvanda da vəziyyətə müsbət təsir göstərdi. Lakin bu inkişaf çox çəkmədi. XIX əsrin 60-cı illərinin əvvəllərində xarici ipəkçilik firmaları agentlərinin - qrenaryorlarının ipəkçilik təsərrüfatına daxil olması neqativ nəticələr verdi.[26] 1862-ci ildən başlayaraq onların gətirdikləri barama qurdlarındakı xəstəliklərin yerli barama qurdlarına yoluxması ilə ipəkçilik təsərrüfatında tənəzzül başladı.[27] 1862-1867-ci illərdə Naxçıvan bölgəsində barama istehsalı 7 dəfə aşağı düşmüşdü. İpəkçilikdəki tənəzzül, yalnız 60-cı illərin axırlarında aradan qalxdı. 1870-ci ildə, əsasən, Rəşt və Xorasan barama qurdları hesabına Naxçıvan qəzası, Ordubad və Şərur əyalətlərində 7075 pud barama əldə edilmişdi ki, bu da 1866-cı ildəkindən 4919 pud çox idi.[28]

İstər hökumət, istərsə də yerli kümçülər ipəkçilik təsərrüfatındakı böhranlı vəziyyətin yenidən təkrar olunmaması üçün bir sıra tədbirlər gördü. «Qafqaz ipəkçilik stansiyası»nın (1889) Azərbaycanda şöbələri açıldı, daha məhsuldar barama qurdları gətirildi, ipəkçilik üzrə sərgilər keçirildi. XIX əsrin 90-cı illərində tutdan araq çəkilməsini məhdudlaşdırmaq məqsədilə aksiz sisteminin tətbiqi də barama istehsalına təkan verdi. 1889-cu ildə İrəvan müəllimlər seminariyasında baramaçılıq şöbəsi açıldı və s. Görülən tədbirlər nəticəsində Naxçıvan bölgəsində barama istehsalı artmağa başladı. 1870-1900-cü illər üzrə ümumiləşdirmə aparılsa aydın olar ki, bu dövrdə hər il orta hesabla 14226 pud barama istehsal edilmişdi. Ən yüksək istehsala isə 1884-cü il (36.000 pud), 1885-ci il (34.063 pud) və 1888-ci illərdə (20.625 pud) nail olunmuşdu.[29]

XX əsrin əvvəllərində də ipəkçilik iqtisadiyyatda mühüm yerini saxlamaqda idi. Naxçıvanın iqtisadiyyatına dair tədqiqatın müəllifləri yazırdı: «1910-1912-ci illərdə Naxçıvan qəzası kəndlərinin 32 faizi barama istehsalı ilə məşğul olurdu. Baramaçılıq Ordubad rayonu ərazisində xüsusilə geniş yayılmışdı. Rayon ərazisində olan 46 kənddən 43-də baramaçılıq az-çox inkişaf etmişdi. Həmin dövrdə Naxçıvan qəzasında baramaçılıq başqa yerlərə nisbətən yüksək məhsul verirdi. 1911-1913-cü illərdə Naxçıvan şəraitində bir qutudan 4 pud barama alınması normal hadisə hesab olunurdu».[30]

Naxçıvanın kənd təsərrüfatında **texniki bitkilər** – pambıq və tütün istehsalı da müəyyən yer tuturdu.

Naxçıvan xanlığından bəhs edən müəlliflər yazır ki, kənd təsərrüfatı məhsulları içərisində **pambıq** xüsusi yer tutrdu. Pambıq feodallara daha çox gəlir verirdi. Pambıq Dərələyəzdən başqa demək olar ki, bütün mahallarda əkilirdi. Əsasən Naxçıvan mahalında: Yarımca, Şıx Mahmud, Xəlilli, Kültəpə, Oruc, Uzunoba, Həsənağa, Didovar, Nəzərabad, Əznəbürd (hazırda Çalxanqala. – Z.Ş.), Süst (Sust-Z.Ş.), Bulqan, Qaraxanbəyli, Hasan, Qoşadiz, Tunbul, Yamxana, Təzəkənd, Qızılvəng, Nehrəm kəndlərində; Xək mahalında isə bütün kəndlərdə; Əlincə mahalının isə Arazin (Ərəzin-Z. Ş.), Əbrəqunis, Culfa və Şürüd kəndlərində əkilirdi».[31] Naxçıvan və Ordubad bölgəsinin 250 xalvarında pambıq əkilirdi. Rusiya işğalı dövründə 300 xalvara yaxın, yaxud 6 min pud pambıq yığılmışdı.[32] Tədqiqatçılardan biri bu rəqəmi şübhə altına alaraq öz hesablamasını aparmışdır. Qaynağın məlumatına, əsasən, Naxçıvan bölgəsinin Axura və Tənzik (Danzik; Hazırda Danyeri.- Z.Ş.) kəndlərinin hər birində 4 xalvar, Xamavarda 6; Qaraçux, Yamxana, Didovar, Nəzərabad, Şahtaxtı

kəndlərinin hər birində 10, Xok, Gourarx (Qıvraq-Z.Ş.) və Camaldin kəndlərinin hər birində 20, Ordubad şəhərində 25, Yaycıda 30, Təzəkənd və Cəhri kəndlərinin hər birində 50, Nehrəm və Küznüt kəndlərinin hər birində 100 xalvar (cəmi 559 xalvar) pambıq istehsal edildiyi müəyyənləşdirilmişdir. Xalvardan puda keçid əsasında (559 x 20) 6 min deyil, 11.180 pud pambıq istehsal edildiyi aşkar edilmişdir. Müəllif göstərir ki, «bu rəqəmin özü də tam deyildir. Bir çox kəndlər üzrə rəqəm gətirilmir. Bu kəndlər üzrə yalnız belə bir qeyd vardır ki, «burada taxıldan başqa pambıq da əkilir», məhsulun qədəri isə göstərilmir».[33] Pambıq ən gəlirli sahələrdən hesab edilirdi. Pambığın bir batmanının qiyməti Naxçıvan bazarında 4 man. 50 qəp., Ordubad bazarında isə 5 man. 50 qəp. idi.[34]

Sonralar Naxçıvan bölgəsinə daxil edilən Şərur da pambıqçılığın inkişafı üçün əlverişli şəraitə malik idi.

Çar hökuməti Rusiya toxuculuq sənayesinin pambığa olan ehtiyacını ödəmək üçün Şimali Azərbaycanda, o cümlədən Naxçıvanda pambıqçılığın inkişafına çalışırdı. XIX əsrin 40-cı illərində Cənubi Qafqazda pambıqçılığın inkişafı üçün 400 min desyatin torpaq sahəsi ayrılmışdı. Bu işlərlə məşğul olanların fikrincə həmin 400 min desyatindən cəmisi 70 min desyatinin əkilməsi Rusiya toxuculuq sənayesini pambıqla təmin etmək üçün kifayət idi.[35] Lakin pambıqçılığın inkişafında əsaslı dönüş XIX əsrin 60-cı illərindən başladı. ABŞ-da 1861-1865-ci illər vətəndaş müharibəsi Rusiya pambıq-parça sənayesi sahibkarlarının diqqətini Şimali Azərbaycan pambıqçılığına yönəltdi. Bunun üçün xaricdən yüksək keyfiyyətli çiyid gətirilir, pambıqçılar arasında yeni texnologiyaya dair elmi söhbətlər aparılır, təkmilləşdirilmiş əmək alətlərinin tətbiqinə diqqət artırılırdı. Pambıqçıların Rusiyanın mərkəzi şəhərlərində keçirilən sərgilərdə iştirakı da müsbət hadisə idi. Pambıq istehsalının artımında əkin sahələrinin genişləndirilməsi də xüsusi yer tuturdu.

Naxçıvan bölgəsində əsas pambıq istehsalı mərkəzi Naxçıvan qəzası və Şərur sahəsi idi (Ona görə də Naxçıvan bölgəsi üzrə pambıq istehsalına dair ümumi göstəriciləri müəyyən etmək üçün Naxçıvan qəzası və Şərur-Dərələyəz qəzalarına dair məlumatlar (Dərələyəzdə pambıq istehsalı geniş yayılmamışdı) toplanmışdır). XIX əsrin 80-cı illərindən bölgədə pambıq istehsalı xeyli irəlilədi. 1889-cu il məlumatına görə İrəvan quberniyasında istehsal olunan 550 min pud pambığın 156.240 pudu (28,4 %) Şərurun, 42 min pudu (7,6 %) Naxçıvan qəzasının payına düşürdü.[36] Aparılan hesablamalar nəticəsində müəyyən edilmişdir ki, XIX əsrin 80-90-cı illərində Naxçıvan bölgəsində pambıq əkini sahələri artmaqda davam etmişdi. Naxçıvan bölgəsində pambıq əkini sahəsinin orta illik həcmi 5405 desyatin idi. Müqayisə üçün qeyd edək ki, bu göstərici Yelizavetpol quberniyasından 2705 desyatin çox idi. Pambıqçılıqda baş verən yeniliklər pambıq istehsalının artmasına da öz əksini tapırdı. Tarixi qaynaqların araşdırılması nəticəsində məlum olmuşdur ki, Naxçıvan bölgəsində 1880-1885-ci illərdə 33.049 pud pambıq istehsal edlmişdi. Bu göstərici müvafiq olaraq 1886-1890-cı illərdə 121.602, 1891-1895-ci illərdə 157511, 1896-1900-cü illərdə 81.295 olmuşdu. Rəqəmlərin təhlilindən aydın olur ki, 1886-1890-cı illərdə əvvəlki beş illiyə - 1880-1885-ci illərə nisbətən 88553 pud çox pambıq istehsal edilmişdi. Pambıq istehsalı 1891-1895-ci illərdə yüksək həddə – 157.511 puda çatmış, sonra isə xeyli azalmışdı. Pambıq istehsalının belə aşağı düşməsi, ziyanvericilərin yayılması, «çor» və «şirə» kimi xəstəliklərin artması və i.a. ilə bağlı idi. Ümumi məhsulda Şərurun payı daha yüksək idi. 1880-1885-ci illərdə bu 81,34 %, 1886-1890-cı illərdə 75,7 %, 1891-1895-ci illərdə 73,2 %, 1896-1900-cü illədə 72,5 % olmuşdu.[37]

XX əsrin əvvəllərində də Naxçıvan bölgəsi pambıqçılıq sahəsində əsas yerlərdən birini tuturdu. Pambıq istehsalı ticarət səciyyəsi daşıdığından gəlirli sahəyə çevrilmişdi. Birinci dünya müharibəsi iqtisadiyyatın digər sahələri kimi pambıqçılığa da ciddi zərbə vurdu.

Naxçıvan bölgəsində digər bir texniki bitki olan **tütün** də əkilirdi. Lakin pambıqçılığa nisbətən tütünçülük geniş yayılmamışdı. Bu təbii-iqlim şəraiti, tütünçülüyün daha böyük zəhmət tələb etməsi və nisbətən az gəlir verməsi ilə əlaqədar idi. Ona görə də tütün istehsalı az olub, əsasən, istehlaka yönəlmişdi.

1914-cü ildə Birinci dünya müharibəsinin başlanması Naxçıvanın kənd təsərrüfatına ağır təsir göstərdi.

Tədqiqatçılardan birinin yazdığı kimi «Birinci dünya müharibəsi Naxçıvanın iqtisadiyyatına mənfi təsir etmişdi. Müharibə dövrünün hərc-mərcliyindən istifadə edən çar məmurları və hərbi qarnizonların rəisləri iş heyvanlarını səfərbər edir, bəzən isə hərbi əhəmiyyəti olmayan kəndli əmlakını və ərzağını zəhmətkeşlərin əlindən zorla alırdı».[38] Birinci dünya müharibəsinin sonlarından Naxçıvanda ermənilər tərəfindən törədilmiş soyqırımlar, ingilis-amerikan müdaxiləsi və s. kənd təsərrüfatının vəziyyətinə, o cümlədən taxılçılığa mənfi təsir göstərdi.

Aqrar münasibətlər torpaq sahibliyi və torpaqdan istifadə ilə əlaqədar məsələləri əhatə edir. Əvvəlcə torpaq mülkiyyətinin formalarını nəzərdən keçirək. Naxçıvanda torpaq mülkiyyətinin əsas formaları xəzinə, sahibkar və ruhani idarələrinə məxsus olan vəqf torpaqları idi. Bunlarla birgə tiyul – şərti torpaq mülkiyyəti də qalırdı. Naxçıvan bölgəsində torpaq mülkiyyəti formalarının nisbəti fərqli idi. XIX əsrin 80-cı illərində Naxçıvan qəzasında dövlət kəndliləri bütün kəndlilərin 36,2 %-ni, sahibkar kəndliləri 63,8 %-ni təşkil edirdi. Şərur-Dərələyəz qəzasında bu göstəricilər müvafiq olaraq 78,5 % və 21,5 % idi.[39] Rəqəmlərdən göründüyü kimi Naxçıvan qəzasında sahibkar, bölgənin digər qismini əhatə edən Şərurda isə dövlət kəndliləri üstün idi. Tiyul şərti torpaq mülkiyyətinin ləğvilə əlaqədar olaraq, həmin torpaqlar xəzinəyə verilmiş, bunun nəticəsində bölgədə dövlət torpaqlarının miqdarı artmışdı.

XIX əsrin sonlarına aid məlumata görə Naxçıvan bölgəsində torpaq mülkiyyətinin formaları arasında belə bir nisbət formalaşmışdı: Naxçıvan qəzasında əkin üçün yararlı olan 35.988 desyatin torpaqdan 22.719 desyatini (63,63 %) dövlət torpaqları, 10.044 desyatini (27,81 %) ali silkin torpaqları, 3085 desyatini (8,57 %) vergi verən silkin torpaqları, qalanları isə şəhər torpaqları (139 desyatin) və dini idarələrə məxsus torpaqlar (1 desyatin) idi. Şərur-Dərələyəz qəzasında isə 59.107 desyatin əkinə yararlı torpaqdan 33.613 desyatini (56.87 %) dövlət torpaqları idi. Ali silkə məxsus torpaqlar 4.463 desyatin (7,55 %), mülkədar torpaqları 1924 desyatin (3,25 %), müxtəlif silklərə məxsus olan torpaqlar 5.455 desyatin (9,23 %) idi. Qalan torpaqlar vergi verən silkə (482 desyatin) və dini idarələrə (1 desyatin) məxsus idi.[40] Əgər hər iki qəza üzrə müqayisə aparsaq tədricən Naxçıvan qəzasında dövlətə məxsus olan torpaqların xüsusi çəkisinin artdığını müşahidə edərik.

Naxçıvan bölgəsində torpaq mülkiyyətinin formaları və dinamikası haqqında müəyyən təsəvvür yaratdıqdan sonra torpaqdan istifadə məsələsinə keçək. Torpaq mülkiyyətinin formaları içərisində ilk yerdə dövlət torpaqları olduğuna görə əvvəlcə burada torpaqdan istifadə üzərində dayanaq.

Dövlət kəndlilərinin istifadə etdikləri pay torpaqlarının strukturu haqqında XIX əsrin 80-cı illərində aparılmış təhqiqatın nəticələri məlumat verir. Buradan aydın olur ki, Naxçıvan qəzasında dövlət kəndlilərinin 58.898 desyatin pay torpaqlarının 234,7 desyatini həyətyanı torpaqlar, 527, 9 desyatini bağlar, 13.684 desyatini əkin yeri, 502 desyatini biçənəklər, 41.949, 1 desyatini otlaq və yararsız torpaqlar idi. Şərur-Dərələyəz qəzasının dövlət kəndlilərinin 99.936 desyatin pay torpağının 115,7 desyatini həyətyanı torpaqlar, 604,4 desyatini bağlar, 32.092,5 desyatini əkin yerləri, 793 desyatini meşə, 2.527,8 desyatini biçənək, 62.802,6 desyatini otlaq və yararsız torpaqlar idi.[41]

Naxçıvan qəzası üzrə tədqiqata cəlb edilmiş 47 dövlət kəndində hər bir kəndli həyətinə 7,77 desyatin əkin və biçənək düşürdü. Adambaşına isə (qadınlar da nəzərə alınmaqla) 0,92 desyatin pay torpağı düşürdü.[42] Təbii ki, bu orta rəqəm kənddəki real vəziyyəti tam aydınlaşdırmır, çünki pay torpaqları kəndlilər arasında qeyri-bərabər bölünmüşdü. Aztorpaqlı kəndlilərlə birlikdə xeyli torpaq sahəsinə malik olan dövlət kəndliləri də var idi, yəni kənddə müəyyən təbəqələşmə prosesi baş vermişdi. Bu hal kənd icmalarında torpaqların icma üzvləri arasında dörd ildən bir həyata keçirilən bölgüsünə də təsir göstərmişdi. Varlı kəndlilər hər vasitə ilə belə bölgünün həyata keçirilməsinə mane olurdu.

Dövlət kəndində varlı təbəqənin ayrılmasının digər səbəbləri də var idi. Bunlardan biri də pay torpaqlarının çəpərlənməsi ilə bağlı idi. Bu torpaqlarda bağ salınır və ya digər təsərrüfat işləri həyata keçirilirdi. Çəpərlənmiş torpaqlar icmalıqla istifadə olunan torpaqlar sırasından çıxarılır və mənimsənilirdi.

Həyətyanı torpaq sahələrinin genişləndirilməsi də son nəticədə istifadədə olan torpağın ümumi miqdarının artmasına təsir göstərirdi, çünki bu vasitədən daha çox varlı kəndlilər istifadə edirdilər.

Varlı kənədlilərin torpaqlarını artmasının bir yolu da öz həmkədlilərinin torpaqlarını zəbt etməsi idi. Onlar mülkədar torpaqlarını satın almaqla da təsərrüfatlarını genişləndirirdilər.

Kəndin bir qütbündə varlı təbəqə əmələ gəldiyi kimi, digər bir qütbündə torpaqsız və ya yoxsul kəndlilər formalaşırdı. Bunun əsas səbəbləri içərisində dövlət kəndlilərinin bir qisminin varlanması üçün tətbiq etdikləri üsulların həmkəndliləri üçün əks təsir etməsi (icma torpaqlarının bölüşdürülməsinə göstərilən əngəllər, onların torpaqlarının zəbt edilməsi və i.a.) idi. Bununla birgə mülkədarlar da dövlət kəndlilərinin pay torpaqlarını müxtəlif vasitələrlə (zəbt etmə, satın alma və s.) ələ keçirirdilər. 1887-ci il məlumatına görə Naxçıvanda 229 torpaqsız kəndli həyəti var idi. Onların əksəriyyəti torpaqlarını satmağa məcbur olmuşdu.[43]

Dövlət kəndində mövcud torpaq münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi də mühüm problemlərdən idi. Lakin çarizm Rusiyanın mərkəzi quberniyalarından fərqli olaraq Cənubi Qafqazda, o cümlədən Naxçıvan bölgəsində bu məsələyə gec reaksiya verdi. Belə ki, 1866-cı il noyabrın 26-da verilmiş qanunla Rusiyanın 36 quberniyasındakı dövlət kəndlilərinə pay torpağı təhkim edilməsi qərara alınmış, 1886-cı il 12 iyul qanunu ilə dövlət kəndlilərinə həmin pay torpaqlarını satın almaq hüququ verilmişdi. Cənubi Qafqazda isə belə bir tədbirə yalnız 1900-cu ilin mayında əl atıldı. 1 may qanunu ilə Zaqafqaziya quberniyalarında yaşayan dövlət kəndlilərinin torpaq quruluşunun əsas şərtləri haqqında Əsasnamə təsdiq edildi.[44] Həmin qanuna görə dövlət kəndlilərnin torpaqları onların daimi istifadəsinə verildi.

Naxçıvan bölgəsində torpağın bir hissəsi sahibkarların əlində idi. Bu torpaqların bir hissəsi şəxsi istifadə üçün ayrılmış, digər hissəsi isə pay torpağı kimi kəndlilərə verilmişdi. Sahibkar kəndində hüquqi məsələlərin həllində 1846-cı il 6 dekabr reskripti mühüm dövr açdı.[45] 12 maddədən ibarət olan reskriptin birinci maddəsilə Rusiya hökumətinin bəzi şəxslərə bəxşiş etdiyi torpaqlarla bərabər müsəlman əyalətlərinin Rusiyaya birləşdirilməsi dövründə onların nəsillərinin sahib olduqları və o zaman da onların ixtiyarında olan bütün torpaqları irsi mülkiyyət kimi təsdiq olunurdu.[46] Həmin reskript əsasında 1847-ci il 20 aprel və 28 dekabr, həmçinin 1851-ci il 8 iyun Əsasnamələri qəbul edilmişdi.

Birinci əsasnamə Şamaxı və Dərbənd quberniyalarının bəylərinə, ikinci Borçalı, Qazax və Şəmşədil distansiyalarının ağalarına həsr edilmişdi. Sonuncu əsasnamə İrəvan quberniyası və Tiflis quberniyasının Axalsıx

qəzasına həsr edilmişdi. Lakin bu əsasnamə həyata Krım müharibəsinin (1853-1856-cı illər) başlanması ilə əlaqədar olaraq keçirilmədi.[47]

Sahibkar kəndində torpaq münasibətlərinin tənzimlənməsi sahəsində işlər Rusiyada 1861-ci il 19 fevral kəndli islahatından sonra genişləndi. Ali silkin dairəsini müəyyən etmək üçün bəy komissiyaları yaradıldı. 1866-cı il mayın 23-də İrəvan bəy komissiyası fəaliyyətə başladı. Komissiyanın qərarına görə 282 nəslin ali silkə məxsusluğu təsdiq edildi, 304 nəslin belə mənsubiyyəti qəbul olunmadı. Naxçıvan və Ordubad qəzalarında isə 128 nəslin irsi, 12 nəslin isə şəxsi bəy dərəcəsi tanındı, ümumilikdə 116 nəslin hüququndan imtina olundu.[48] Bu və digər hazırlıq tədbirlərindən sonra 1870-ci il may ayının 14-də Əsasnamə təsdiq edildi.[49]

Naxçıvan bölgəsində 1870-ci il 14 may islahatının həyata keçirilməsinin gedişi və nəticələrinin müəyyən edilməsi sahibkar kəndində yeni münasibətlərin yaranması vəziyyətini aşkar edə bilər. Digər quberniyalarda olduğu kimi İrəvan quberniyasında da noyabrın 8-də kəndli idarələri açıldı. Quberniya kəndli işləri üzrə altı barışıq şöbəsinə bölündü. Naxçıvan bölgəsi I, II və III şöbələrə daxil oldu. Bu şöbələr ali silkə mənsub olan sahibkarların mülkləri üzrə torpaq nizamnamələri tərtib etməli idi. Naxçıvanda üç şöbə üzrə 126 belə mülk var idi. Torpaq nizamnamələrinin tərtibi 1871-1878-ci illərdə həyata keçirildi. Naxçıvan qəzasında 3804 həyəti əhatə edən 104 kənd, Şərur-Dərələyəz üzrə isə 816 həyəti əhatə edən 34 kənd üzrə torpaq nizamnaməsi tərtib edildi.[50]

Naxçıvanda 30 şərikli mülk (ali silkə mənsub olan və olmayanların birgə mülkü) və ali silkə mənsub olmayan mülkədarların 20 mülkü də var idi. Birinci halda torpaq nizamnaməsi şərikli mülkün ali silkə mənsub nümayəndəsinin torpağı üzrə aparılırdı. İkinci halda isə problem 1877-ci il 15 sentyabr Əsasnaməsilə həll edildi, yəni 1870-ci il Əsasnaməsinin müddəaları onlara da şamil olundu. Ali silkə mənsub olmayan mülkədarların mülkləri üzrə torpaq nizamnamələrinin tərtibi 1887-ci ilə kimi davam etdi. Şərikli mülklərə gəldikdə isə Qafqazın baş rəisi yanındakı Şuranın 1883-cü il 9 noyabr tarixli qərarı ilə bu mülklərin ali silkə məxsus hissələri üçün tərtib olunmuş torpaq nizamnamələrinə ali silkə mənsub olmayan hissə haqqında əlavə protokollar daxil edildi. Bu proses 1890-cı illərin əvvəllərinə kimi davam etdi. Əlavə protokollar tərtibi zamanı aydın oldu ki, ali silkə mənsub olmayanların bir çoxu mülklərini satın almışlar. Barışıq şöbələri belə mülklərə əlavə protokolları Dövlət Şurasının xüsusi göstərişindən sonra tərtib edirdi. Bu göstərişlə 1879-cu il fevralın 22-nə qədər mülkləri satın almış şəxslər mülkədar təbəqəsinə daxil edildi.[51]

1870-ci il kəndli islahatının həyata keçirilməsinin digər bir məsələsi kəndlilər tərəfindən pay torpaqlarının vıkup (ödənc) yolu ilə alması idi. Naxçıvan kəndlilərinə vıkup əməliyyatı üçün 918.275 manat pul tələb edilirdi.[52] Lakin kəndlilərdə bu qədər vəsait yox idi. Ona görə də vıkup əməliyyatında elə bir irəliləyiş baş vermədi.

Naxçıvan bölgəsində tiyul torpaqları və burada yaşayan kəndlilərin tiyuldarlara münasibətinin hüquqi vəziyyəti də aydınlaşdırılmalıdır. Bu məsələ Naxçıvan və İrəvan xanlığının işğalı və onların əsasında «Erməni vilayəti» yardılmasından sonra açıq şəkildə ortaya çıxdı. Tədqiqatçılardan birinin yazdığına görə «çar hökuməti» digər əyalətlərdə rəhbər tutduğu «idarəçilik» tezisi əvəzinə, burada «icarəçi» terminini işə salmışdı. Baş komandan qr. Paskeviçin 25 dekabr 1828-ci il tarixli 3788-№ li sərəncamında İrəvan, Naxçıvan və Ordubadın xan, bəy və din xadimlərinin sahibliyində olan tiyulları torpaq sahibliyi deyil, kəndlərin gəlirindən sərdara çatan hissəsini maaş kimi vəzifəyə görə həmin şəxslərə güzəştə gedilməsi kimi qiymətləndirilmiş və yeni tiyulların meydana gəlməməsi üçün belə bir qərar çıxarmışdı: a) tiyullar bundan sonra varislərə ötürülməsin; b) qanunsuz hərəkətlərə görə və xaricə qaçanlardan, habelə xəyanət edənlərdən tiyullar təcili alınsın; c) müxtəlif şəxslərin ömürlük istifadəsində saxlanılan tiyulların əhalisindən yeni qaydada xəzinə sakinlərindən yığılan vergilərdən artıq heç nə alınmasın. Bu sərəncam 1829-cu il fevralın 12-də mərkəzi hökumət tərəfindən bəyənilmiş və Ali təsdiqdən də keçmişdi».[53] 1836-cı il iyulun 5-də tiyul mükəlləfiyyətinin ölçüsünün müəyyənləşdirilməsi haqqında qaydalar müəyyənləşdirilmişdi: bu mükəlləfiyyət qabaqkı ölçüdə – məhsulun $^1/_5$ həcmində müəyyən edilmiş, tiyuldarın qabaqkı hökumət dövründə istifadə etdiyi mükəlləfiyyətlərin əvəzinə onun xeyrinə hər həyət üzrə 2 manat 50 qəpik pul qoyulmuşdu.[54]

Tiyul torpaqları ilə bağlı məsələ yenidən 1851-ci ilin iyununda verilmiş əsasnamədə əksini tapmışdı. Burada tiyuldarlar irsi və ömürlük olmaqla iki yerə ayrılırdılar. Lakin bu əsasnamə baş tutmadı. 1875-ci il mayın 14-də «İrəvan quberniyasında tiyul vergilərinin toplanması qaydasının dəyişdirilməsi haqqında» yeni əsasnamə verildi. Tiyul yalnız ömürlük hesab edilir və kəndlilərin tiyuldarlara ödədikləri vergilərin əvəzinə onlara ömürlük təqaüd təyin edilirdi. Bundan sonra tiyuldar kəndliləri tiyul vergisindən azad edilirdi. Onlar vergiləri dövlətə verməli idilər. Əsasnamə avqustun 25-də İrəvan quberniyasında olan tiyuldarlar və tiyulların siyahısı ilə İrəvan quberniyasına göndərildi. Bu siyahıya görə Naxçıvan qəzasının Xok, Təzəkənd, Ərəzin, Camaldin və Kırna kəndləri, Şərur-Dərələyəz qəzasında isə Aralıq, Xan kəndləri tiyuldarlara məxsus idi.[55] XIX əsrin sonları – XX əsrin əvvəllərində tiyuldarlar öldüyündən həmin kəndlər xəzinənin ixtiyarına keçdi.

Naxçıvan bölgəsində torpaqdan istifadədən bəhs edərkən icarə münasibətlərinə də nəzər salmaq lazımdır. Kənddə torpaq icarəsi bir sıra səbəblərlə bağlı idi. Onların içərisində aztorpaqlılığı, kəndli təsərrüfatının zəruri kənd təsərrüfatı və vasitələrlə (əmək aləti, toxum, iş heyvanları və s.) təmin olunmaması, sosial təbəqələşmə və b. ayrıla bilər.[56] Bu halların Naxçıvan bölgəsində də mövcudluğu burada da torpaq icarəsinin yaranmasını zəruri etmişdi. Torpaq ayrı-ayrı həyətlər tərəfindən, qrup halında, bəzən isə icmalıqla icarəyə götürülürdü. Həm xüsusi sahibkarlar,

həm də xəzinə torpağı icarəyə verirdi. Birincidə icarə şifahi razılığa əsaslandığı halda, ikincidə dövlət hakimiyyət orqanları tərəfindən rəsmiləşdirilirdi. Şərur-Dərələyəz qəzasında 9326 desyatin sahibkar torpağından (1894-cü il) 5.282 desyatini (56,64 %) icarəyə verilmişdi.[57] İcma daxili icarə zamanı torpaq kəndlilər tərəfindən öz həmkəndlilərinə və ya digər kəndin sakinlərinə icarəyə verilirdi. İcarə müddəti müxtəlif idi. Bir və ya daha çox müddətə (iki-üç il) icarə var idi.

İcarə haqqı pul və ya natura ilə ödənilirdi. XIX əsrin sonlarında Naxçıvan bölgəsində payızlıq taxıl əkini sahələrinin hər desyatini 22 manat 4 qəpik, suvarılmayan sahələrin hər desyatini 90 manat, eyni halda yazlıq əkin sahələrinin hər desyatini 23 manat 7 qəpik idi.[58] Biçənək yerlərinin qiyməti 10 manat 64 qəpik, otlaqlarınkı 20-52 qəpik idi.[59] Natura ilə icarədarlıqda yarıdarlıq üstün idi. Bununla birgə məhsulun $^{4}/_{30}$, $^{5}/_{30}$, yaxudda $^{19}/_{30}$-na icarə də mövcud idi.[60]

İcarə münasibətləri hesabına kənddə mövcud olan torpaq çatışmazlığı aradan qaldırılır və istehsal səviyyəsi artırdı.

Azərbaycanda, o cümlədən Naxçıvan bölgəsində süni suvarmanın böyük əhəmiyyət kəsb etməsini nəzərə alsaq su sahibliyi və sudan istifadənin aqrar münasibətlər sistemində mühüm yer tutduğunu görərik. Azərbaycanın Rusiya tərəfindən işğalından 1914-cü ilə qədərki dövrdə su sahibliyi və sudan istifadənin tarixini tədqiq edən İ.Talıbzadəyə görə Zaqafqaziyada suvarma və sudan istifadə haqqında 1890-cı il 3 dekabr qanunu məhz su sahibliyi və sudan istifadə məsələlərinin öyrənilməsini iki əsas mərhələyə bölür. Birinci mərhələ Azərbaycanın Rusiya tərəfindən birləşdirilməsindən «Zaqafqaziyada suvarma və sudan istifadə qanununa» qədərki dövrü əhatə edir. Bu dövrdə suvarma üzrə inzibati bölgü, suvarma idarə sistemi adət qaydaları ilə nizama salınırdı. Suvarma vasitələri isə yenə də ibtidai texniki səviyyədə qalırdı. Suvarılan torpaqların sahəsində artım nəzərə çarpmırdı. 1890-cı il 3 dekabr qanununun kapitalizmin inkişafı dövründə verilməsi həmin tarixi ictimai-iqtisadi mərhələnin tələblərini özündə cəmləşdirməyə bilməzi. Buna görə də qanunun həyata keçirilməsi ilə əlaqədar olaraq suvarma üzrə yeni inzibati bölgünün və idarə sistemlərinin yaradılması, sudan istifadə qaydalarının rəsmiləşdirilməsi, suvarmanın ictimai-iqtisadi səviyyəsinə nəinki təsir edirdi, onun inkişafına daha da təkan verirdi və s.[61] Bu fikri Naxçıvan bölgəsinə də şamil etmək olar.

Su adətən mənbəyinə görə iki kateqoriyaya bölünürdü. Birinci, təbii sular (göllər, çaylar, bataqlıqlar, yağış suları); ikinci, əmək və xüsusi vəsait qoyulmaqla çıxarılan sular (kəhrizlər, quyular, arılar və b. suvarma tikililəri).

Sudan istifadənin təşkili üçün su administrasiyası təşəkkül tapmışdı. Bura baş inzibati mirab və cuvarlar daxil idi. Mirab bu sistemdə geniş hüquqlara malik idi. Onlar bu hüquqlarından sui istifadə etməklə, xeyli gəlir əldə edir, öz təsərrüfatlarını yaratmağa nail olurdular.[62] Cuvarlar sudan istifadəyə nəzarət etməli idilər. İcma daxilində su işlərinə xüsusi seçilmiş vəkillər və ya dağbaşılar baxırdı.

Suyun təsərrüfatlar üzrə bölgüsü zamanı torpaq sahəsinin miqdarı, əkilən bitkinin növü nəzərə alınırdı. Kəndli həyatinə torpağının sahəsinə uyğun olaraq verilən suyun ölçü vahidi «bel» (saniyədə 30 litr) adlanırdı. Naxçıvanda suvarmanın həlledici rol oynadığı yerlərdə 1,5 bel miqdarında olan «zorba bel» və ya 4-6 bel miqdarında olan «dəyirman» kimi su vahidləri tətbiq olunurdu.

Su administrasiyası bölgü zamanı yoxsul kəndlilərin mənafeyini tapdalayırdı. Bu hal onların narazılığına səbəb olur və haqlı şikayətlər yaradırdı.[63]

1890-cı il qanunun qəbul edilməsindən sonra Naxçıvan bölgəsində də suvarma işində müəyyən işlər görülməsi zərurəti ortaya çıxdı. Suvarma suyu üzərində hüququn müəyyən edilməsi üçün dairə su idarələri açılmağa başladı. 1897-ci il iyulun 15-dən VIII su sahəsinin Qarnibasar, Zəngibasar, Naxçıvan və Əlincə su dairələrində də dairə su idarələrinin açılması elan olunmuşdu. Bu su dairələri isə Naxçıvan ərazisini əhatə edirdi. Bütün Zaqafqaziya üzrə mövcud 94 su dairəsində açılmış 11 su idarəsi ancaq Azərbaycan ərazisini əhatə edirdi. Bu da, şübhəsiz ki, burada suvarma təsərrüfatının böyük əhəmiyyət kəsb etməsi və suvarma suyuna tələbatın həddən artıq olması ilə əlaqədar idi.[64] suvarma suyu üzərində hüquqi məsələlərin müəyyənləşdirilməsi ilə birgə mövcud vəziyyətin öyrənilib, yeni tədbirlər görülməsi də irəli sürülürdü. İrəvan qubernatorunun Qafqaz Baş mülki rəisinə 1899-cu il iyulun 26-da yazdığı məktub belə bir məzmunda idi.[65] Lakin faktların araşdırılması göstərir ki, sonrakı dövrlərdə Naxçıvan bölgəsinin süni suvarma həyatında elə bir radikal dəyişiklik baş vermədi.

1. ***Əliyev F., Əliyev M.*** Naxçıvan xanlığı, s.34.

2. Статичтическое описание Нахичеванской провинции, Армянской области, **с.**86-191.

3. **Шопен И.** Исторический памятник Армянской области, с.1211-1215.

4. Статическое описание Нахичеванской провинции, с.191.

5. Обозрение российских владений за Кавказом, чч.I-IV; Статистическое описание Нахичеванской провинции; **Шопен И.** Исторический памятник Армянской области; ***Ağamalı F.*** XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti, s.48.

6. ***Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M.*** Naxçıvan iqtisadiyyatı XX əsrdə, s.16.

7. **Сумбатзаде А.С.** Сельское хозяйство Азербайджана в XIX в., с.68-70.

8. **Шахвердиев З.А.** Аграрные отношение и положение крестьян Азербайджана в 70-90-е гг. XIX в., с.20.

9. там же, с.22

10. Статистическое описание Нахичеванской провинции, с.77, 199.

11. ***Budaqova S.*** Naxçıvan diyarının tarixi coğrafiyası, s.47.

12. Статистическое описание Нахичеванской провинции, с.93.

13. ***Gülmalıyev M***. XVIII əsrin son rübü-XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu, s.93.

14. yenə orada, s.94.

15. Сборник сведений о Кавказе. т. VII, с.230; **Мадатов Г.** Победа советской власти в Нахичевани, с.15.

16. **Шахвердиев З.** Аграрные отношение и положение крестьян в Азербайджане в 70-90-е гг. XIX в., с.36

17. Статистическое описание Нахичеванской провинции, с.195, 197, 198.

18. Свод материалов для изучения экономического быта государственных крестьян, т.IV, с.14.

19. там же, с.14.

20. Статистическое описание Нахичеванской провинции, с.91.

21. Сборник материлов для описание местностей и племен Кавказа, вып. II, отд.I, 1887, с.134.

22. **Шахвердиев З.** Аграрные отношение и положение крестьян в Азербайджане в 70-90-е гг. XIX в., с.50

23. ***Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M.*** Naxçıvan iqtisadiyyatı XX əsrdə, s.18. 199.

24. Статистическое описание Нахичеванской провинции, с.195,

25. Сборник сведений о Кавказе. т.II, Тифлис, 1872, с.186.

26. **Сумбатзаде А.С.** Социально-экономические победы советской власти в Азербайджане, с.82.

27. Труды Кавказского общества

сельского хозяйства. Тифлис, 1889, №78, с.409.

28. Сборник сведений о Кавказе. т.II, с.186.

29. Daha ətraflı bax: **Шахвердиев З.А.** Аграрные отношение и положение крестьян Азербайджана в 70-90-е гг. XIX в., с.65

30. ***Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M.*** Naxçıvan iqtisadiyyatı XX əsrdə, s.17.

31. ***Əliyev F., Əliyev M.*** Naxçıvan xanlığı, s.34.

32. Статичтическое описание Нахичеванской провинции, **с.**86-191.

33. там же, с.97.

34. ***Gülmalıyev M***. XVIII əsrin son rübü-XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu, s.101-102.

35. yenə orada, s.102-103.

36. **Петрович П.** Хлопководства в Закавказье. Тифлис, 1912, с.19.

37. **Шахвердиев З.А.** Аграрные отношение и положение крестьян Азербайджана в 70-90-е гг. XIX в., с.70

38. ***Sadıqov S.H.*** Bərpa dövründə Naxçıvan MSSR-in kənd təsərrüfatı // Azərb. SSR EA Tarix İnstitutunun Əsərləri. XVI c. Bakı, 1963, s.6.

39. Свод материалов для изучения экономического быта государственных крестьян, т.II. Тифлис, 1887, с.103-106; Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX в. Сб. Ереван, 1951.

40. Кавказский календарь на 1895 г.V отд., с.80.

41. Свод материалов для изучения экономического быта государственных крестьян, т.II. с.305-390.

42. Материалы для изучения экономического быта государственных крестьян, т.I., с.539.

43. Свод материалов для изучения экономического быта государственных крестьян, т.III., с.129-130.

44. **Антелава И.Г.** Реформа поземельного устройства государственных крестьян Закавказья в конце XIX в. (Документы и материалы). Сухуми, 1952, с.266-269.

45. Daha ətraflı bax: Гасанов И.М. Частновладельческие крестьяне в Азербайджане в первой половине XIX века. Баку, 1957, с.181-212.

46. Колониальная политика царизма в Азербайджане в 20-60-х гг. XIX в. ч.II. М.-Л., 1936, с.105.

47. **Рштуни В.** Крестьянская реформа в Армении в 1870 г. Ереван, 1947, с.105.

48. там же с.223.

49. 1870-ci il 14 may islahatı haqqında xeyli ədəbiyyat vardır: **Алескеров Я.** Землевладение и землепользование во владельческой деревне Азербайджана в пореформенный период. АКД. Баку, 1982; **Агаян Ц.П.** Крестьянская реформа в Азербайджане в 1870 г. Баку, 1956.

50. **Шахвердиев З.А.** Аграрные отношение и положение крестьян Азербайджане в 70-90-е гг. XIX в., с.110-111.

51. там же, с.111-112.

52. Обзор Эриванской губернии за 1886 г., с.26.

53. ***Abdullayev M.*** Xanlıqlar və rus müstəmləkəçiliy dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı, 2005, s.101.

54. йеня орада, 2005, s.102.

55. **Шахвердиев З.А.** Аграрные отношение и положение крестьян Азербайджане в 70-90-е гг. XIX в., с.116.

56. ***Həsənov L.*** İslahatdan sonrakı dövrdə Azərbaycanda torpaq icarə münasibətləri. Bakı, 1985, s.5.

57. Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказской края. Тифлис, 1899, с.31.

58. **Авалиани С.А.** Крестьянский вопрос в Закавказье. т.4. Тифлис, 1920, с.8.

59. Свод материалов для изучения экономического быта государственных крестьян, т.I. с.56-57.

60. ***Talıbzadə İ.*** XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə. Bakı, 1980, s.3.

61. Свод материалов для изучения экономического быта государственных крестьян, т.I., с.145.

62. Naxçıvan Dövlət Arxivi, f.24, s.1, iş 793, v.24; iş 886, v.3-4; s.2, iş 1693, v.1-13, iş 1674, v.1.

63. ***Talıbzadə İ.*** Göst.əsəri, s.100.

64. Naxçıvan Dövlət Arxivi, f.24, s.2, iş 1693, s.8-11.

## 2.2. Sənətkarlıq və sənayenin inkişafına dair

XIX-XX əsrin əvvəllərində bütün Azərbaycanda olduğu kimi Naxçıvan bölgəsində də əhalinin əsas məşğuliyyət sahələrindən biri sənətkarlıq idi. Lakin xanlıq dövründə sənətkarlığın iqtisadiyyatda yerinə dair baxışlarda müəyyən fərq vardır. Naxçıvan xanlığına dair tədqiqatın müəllifləri yazırdı: «… kənd təsərrüfatı ilə müqayisədə **sənətkarlıq** və ticarət **xanlığın təsərrüfat həyatında cüzi yer tuturdu.** Təsadüfi deyildir ki, Naxçıvan xanlığında əhalinin məşğuliyyəti çox zaman bilavasitə əkinçiliklə bağlı idi. Belə vəziyyət əksər hallarda natural təsərüffatın çiçəklənməsi üçün şərait yaradırdı».[1] XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsində Naxçıvan diyarının tarixi coğrafiyasına dair tədqiqatın müəllifi S.Budaqova da sənətkarlığın tarixi coğrafiyasından bəhs edərkən yuxarıda qeyd edilən fikrə şərik çıxır: «Öyrəndiymiz dövrdə Naxçıvan diyarının əsas şəhərləri olan istər Naxçıvan, istərsə də Ordubadda **sənətkarlıq o qədər də yüksək səviyyədə olmamışdır».** [2] Xanlıqlar dövründə Azərbaycanda sənətkarlığa dair monoqrafiyanın müəllifi C.Mustafayev isə belə bir fikir söyləyir: «Mövcud materialların təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, **Naxçıvanın iqtisadi həyatında sənətkarlıq istehsalı həlledici rola malik idi** (hər üç halda kursiv mənimdir. – Z.Ş.)».[3] Göründüyü kimi eyni problemə dair bir-birinə zidd olan mülahizələr bildirilir. Fikrimizcə hər iki halda ifrata varılmışdır. Naxçıvan xanlığında kənd təsərrüfatı ilə sənətkarlığın inkişafı bir vəhdət təşkil edirdi.

İstər xanlıq dövründə, istərsə də Rusiya tərkibində Naxçıvan bölgəsində əsas sənətkarlıq mərkəzləri Naxçıvan və Ordubad şəhərləri idi. Bu şəhərlərdə Rusiya işğalı ərəfəsi və işğaldan sonrakı ilk dövrdə sənətkarlığın vəziyyəti İ.Şopenin məlum əsərində və 1831-ci ilə dair kameral təsvir materiallarında əks olunmuşdur. İ.Şopenin məlumatına görə Naxçıvanda ticarət və sənətkarlıqla məşğul olanlar 715 nəfər idi. Onlardan 400 nəfərdən çoxu bilavasitə sənətkarlıqla məşğul olurdu.[4] 1831-ci il kameral təsvirində Naxçıvan şəhərində olan sənətkarların sənət sahələri üzrə siyahısı da verilir. Buradan aydın olur ki, Naxçıvanda 50-dək sənət sahəsi var idi. Onların içərisində toxucular (126 nəfər), başmaqçılar (56 nəfər), xarratlar (38 nəfər), papaqçılar (35 nəfər) və b. üstünlük təşkil edirdi.[5]

Ordubad şəhərində də eyni sənətkarlıq sahələri üstünlük təşkil edirdi. Burada toxucular (177 nəfər), həllaclar (29 nəfər), boyaqçılar (19 nəfər) və b. sayca daha çox idi.[6]

Sənətkarlar evlərdə işləməklə bərabər emalatxanalarda da birləşirdi. Sənətkarlıq emalatxanaları, əsasən karvansara və bazarlarda yerləşirdi. Naxçıvan şəhərindəki 279 sənətkar emalatxanasından 31-i karvansaralarda, 248-i isə bazarda yerləşmişdi. Emalatxanalardan üçü boyaqçılara, ikisi dabbaqlara, qırxı isə pambıq parça toxuyanlara və xalçaçılara aid idi.[7] Naxçıvan şəhərində sənətkarlıq emalatxanalarının məhəllələr üzrə yerləşməsi vəziyyətinə də diqəti cəlb edən C.Mustafayev maraqlı nəticəyə gəlir. O yazır: «Sənətkarların ayrı-ayrı məhəllələr üzrə bölgüsü də müəyyən maraq doğurur. Bu bölgüdən aydın olur ki, sənətkarların böyük əksəriyyəti Naxçıvanın köklü sakinləri olub, əsasən onun qədim məhəllələrində məskunlaşmışdılar. Məsələn, Naxçıvan sənətkarlarının 97 nəfəri Əlixan məhəlləsində, 91 nəfəri Şahab məhəlləsində, 56 nəfəri isə Sarbanlar məhəlləsində yaşayırdılar».[8] Ordubadda fəaliyyət göstərən on iki dabbaqxana isə Ordubadçay üzərində, həm də şəhərin mərkəzində tikilmişdi. Dabbaqxanalar istehsal xüsusiyyətlərinə görə çayı çirkləndirirdi. Bu faktı qeyd edən İ.Şopen şəhər bağlarına axan suyun keyfiyyətinin aşağı olduğunu və içməyə yararsız hala düşdüyünü bildirir.[9]

Naxçıvan xanlağına dair tədqiqatın müəlliflərinin haqlı olaraq qeyd etdiyi kimi «sənətkarlığı təkcə şəhərə aid etmək düzgün olmazdı. Çünki kənd yerlərində əhalinin tələbatını kənd sənətkarları, xüsusilə dəmirçilər, dulusçular və s. təmin edirdilər. Kənd yerlərində sənətkarlığın və kustar sənayenin inkişafında aztorpaqlı kəndlilərin rolu daha böyük idi. Çünki son dərəcə az olan məhsulu yığdıqdan sonra bekar qalan kədlilər istər-istəməz sənətkarlıq və kustarçılıqla məşğul olurdular».[10]

Naxçıvanda xanlıq dövrünün sonlarında sənətkarlığın vəziyyətini müəyyən etmək üçün sənətkarlığın şəhər və kəndlər üzrə yerləşməsinə dair məlumatlarla birgə ayrı-ayrı sənət sahələrinin səciyyəsinə də diqqət yetirmək zəruridir. Naxçıvan xanlığında əsas sənətkarlıq sahələrindən biri toxuculuq idi. Naxçıvanda pambıq, yun və barama istehsalı burada müvafiq parça toxuculuğuna şərait yaradırdı. Faktlardan aydın olur ki, pambıq-parça toxuculuğu daha geniş yayılmışdır. İ.Şopenin yazdığına görə burada sənətkarların əksəriyyətini toxucular təşkil edirdilər. Hər bir ailənin öz dəzgahı vardı ki, bu dəzgahlarda da qadınlar iplərdən bez toxuyur və pambıq parça hazırlayırdılar.[11] Buradan aydın olur ki, Azərbaycanın digər xanlıqlarında olduğu kimi Naxçıvan xanlığında da toxucular emalatxanalardan çox evlərdə çalışırdılar.

Toxuculuq onunla sıx bağlı olan boyaqçılığın da inkişafına şərait yaradırdı. Rusiya işğalı ərəfəsində Naxçıvan şəhərində dörd boyaqxana (3-ü Naxçıvan, 1-i Ordubadda) var idi.[12] C.Mustafayev yazır ki, «digər xanlıqlarda olduğu kimi Naxçıvan xanlığında da boyaqçılıqla bağlı olan vergi maddəsi icarəyə verilirdi. Xanlığın Rusiya tərəfindən işğalından 5 il əvvəl, daha doğrusu 1823-cü ildə boyaqçılıq maddəsi ancaq Naxçıvan mahalında 1480 manata icarəyə verilmişdi. Xanlıqda «heç kim icarədara müəyyən olunmuş vergini ödəmədən hər hansı məhsulu boyamaq

hüququna» malik deyildi. Müəyyən edilmiş qaydalara görə nəinki şəhərlərdəki müstəqil boyaqxanalarda, eləcə də boyamanın ev şəraitində aparıldığı kənd yerlərində uzunluğu 10 arşın olan pambıq parçanı boyamaq üçün icarədara 32 qəpik, ipək və yun ipləri boyamaq üçün isə 20 qəpik məbləğində pul ödəmək tələb olunurdu».[13]

Naxçıvanda əhalinin maldarlıqla məşğul olması burada gön-dəri emalının təşəkkülünə, dabbaqçılıq sənətinin və onunla bağlı digər sənət sahələrinin (ayaqqabı istehsalı və b.) inkişafına səbəb olmuşdu. Yuxarıda qeyd etdiyimiz kimi Ordubadda dabbaqçılıq emalatxanaları fəaliyyəti göstərirdi.

Naxçıvanda sənətkarlıq sahələrinin strukturundan bəhs edərkən duz istehsalını da xüsusi qeyd etmək lazımdır. Naxçıvan Abşeron ilə birlikdə Azərbaycanın duz istehsalı mərkəzlərindən biri idi. Bir sıra müəlliflər, o cümlədən İ.Şopen Naxçıvanda keçmiş zamanlardan duz çıxarılmasını qeyd edir. İ.Şopen yazırdı ki, dağda təsadüf edilən çoxlu yarğanlar burada hələ qədim zamanlardan duz çıxarıldığını sübut edir. [14] XVIII əsrin sonlarınadək Naxçıvanda duz istehsalı ilə istisnasız olaraq Cəhri kəndinin sakinləri məşğul olurdular. Lakin Kalbalı xanın vaxtında, XIX əsrin əvvəllərində cəhrililər bu işdən kənarlaşdırılmış, duz çıxarılması hüququ Şıxmahmud kəndinin sakinlərinə verilmişdi. Bu dövrdə duz çıxarılması kəndlilərin məcburi əməyinə əsaslanırdı. [15]

Naxçıvan xanlığında əhali qeyd edilən sənətkarlıq sahələri ilə birgə metal emalı və metalişləmə, inşaat materialları istehsalı və tikinti sənətləri, ağac məmulatı istehslı, dulusçuluq və b. sənət sahələri ilə də məşğul olurdu. Naxçıvan xanlığında şüşə istehsalına dair fakt da maraq doğurur. S.Buaqova yazır ki, Naxçıvan şəhərində şüşəsazlıq inkişaf etmiş sənət sahələrindən biri idi. Burada hasil olunan adi şüşələrlə yanaşı şəbəkələrin hazırlanmasında istifadə olunan al-əlvan şüşələr də hazırlanırdı. «Mətndarən»da («Matenadaran») saxlanılan mənbələrin birindən məlum olur ki, İrəvan xanlığının hakimi Hüseyn Əli xan Naxçıvana məktub göndərərək Kəlbəli xandan xahiş edir ki, İrəvan şəhərində tikdirdiyi hamamın pəncərə şəbəkəsi üçün 400 ədəd müxtəlif rəngli şüşə göndərsin. **Yeri gəlmişkən qeyd etməliyik ki, son zamanlara kimi elə təsəvvür yaranmışdı ki, Azərbaycanda al-əlvan şəbəkə şüşələri yalnız Şəki xanlığında mövcud idi. Lakin yuxarıda gətirilən misaldan aydın olur ki, şəbəkənin coğrafiyası təkcə Şəki xanlığı ilə məhdudlaşmırdı.** Digər tərəfdən onu da qeyd etməliyik ki, şüşə hazırlamaq o qədər də asan peşə deyildi. Beləliklə, elə qənaətə gəlmək olar ki, Naxçıvanın şüşə istehsal edən sənətkarları öz məhsullarını xaricə göndərmək iqtidarında idilər. Bu isə həmin sənətkarların yüksək iş qabiliyyətinə malik olmalarına işarədir».[16]

Naxçıvan xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra da sənətkarlıq iqtisadiyyatda özünəməxsus rolunu saxlamaqda idi. Şimali Azərbaycanın, o cümlədən Naxçıvan və İrəvan xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalını qəti şəkildə təsbit edən 1828-ci il Türkmənçay müqaviləsindən Rusiya müstəmləkəçiliyinin sonunadək olan dövrdə sənətkarlığın vəziyyətinin öyrənilməsinə müxtəlif aspektdən yanaşmaq mümkündür.

Burada sənətkarlığı kompleks şəkildə tədqiq edib, sonra sənaye istehsalına keçmək olar. Lakin fikrimizcə akademik Ə.Sumbatzadənin Azərbaycanın XIX əsr sənayesinə dair monoqrafiyasında tətbiq edilən üsul bəzi qeydlərlə səmərəli hesab edilə bilər. Burada qeyd edilən dövrdə Azərbaycan sənayesi aşağıdakı kimi nəzərdən keçirilir: 1) paltar, ayaqqabı və ev əşyaları istehsalı (buraya ipək parça müəssisələri, gön-dəri istehsalı, papaq və ayaqqabı hazırlanması aid edilir); 2) təsərrüfat – məişət və tikinti materialları istehsalı; 3) dağ-mədən və dağ-zavod sənayesi; 4) yeyinti sənayesi; 5) yüngül sənaye. Göründüyü kimi birinci qrupda verilən istehsal sahələri yüngül sənayedə də birləşdirilə bilər və s. Buna baxmayaraq qeyd olunan bölgünün saxlanması Naxçıvan bölgəsindəki müvafiq vəziyyətin dərindən öyrənilməsinə və digər yerlərlə müqayisələr aparılmasına imkan verir.

Paltar, ayaqqabı və ev əşyaları istehsalı ilə bağlı olan sənətkarlıq sahələri bütün Azərbaycanda olduğu kimi Naxçıvanda da geniş yayılmışdı. Akademik Ə.Sumbatzadə yazır ki, bizim sərəncamımızda olan məlumatlara görə XIX əsrdə Azərbaycanda şəhər əhalisnin artımı, bir qayda olaraq, şəhər sənətkarlarının sayının artması ilə müşahidə olunmuşdur. [17] Bu fikrin təsdiqi üçün əvvəlcə XIX əsrin 30-90-cı illərində Şimali Azərbaycnın şəhər əhalisinin say dinamikasına dair, sonra isə hər bir şəhərdə sənətkarlıq sahələri üzrə sənətkarların sayına dair müvafiq cədvəllər tərtib edilmişdir. Bu cədvəllərdə Naxçıvan və Ordubad şəhərlərinə dair məlumatlar da ümumiləşdirilmişdir. Bu cədvəllərin araşdırmamız üçün əhəmiyyətini nəzərə alaraq, onları burada verməyi məqsədəuyğun hesab etdik. (Cədvəl 1-2)

*Cədvəl 1*

**XIX əsrin 30-90-cı illərində Şimali Azərbaycan şəhərlərinin əhalisinin say dinamikası**

| Şəhərlər | İllər | | | | 50 il ərzində artım |
|---|---|---|---|---|---|
| | 30-cu illərin əvvəlləri | 40-cı illərin sonları | 60-cı illərin ortaları | 70-ci illərin sonları | |
| Bakı | 3.893 | 7.451 | 14.715 | 192.259 | 184.808 |
| Quba | 1.984 | 7.909 | 10.683 | 17.496 | 9.587 |
| Lənkəran | 2.045 | 3.970 | 4.608 | 10.659 | 6.689 |
| Salyan | 6.951 | 6.746 | 10.677 | 13.715 | 6.969 |
| Şamaxı | 5.556 | 19.733 | 29.027 | 23.069 | 3.336 |
| Nuxa | 7.385 | 17.945 | 19.522 | 24.811 | 6.866 |
| Yelizavetpol | 4.582 | 10.953 | 15.439 | 33.090 | 22.137 |
| Şuşa | 5.059 | 15.194 | 19.253 | 25.656 | 10.462 |
| Naxçıvan | 2.870 | 5.157 | 5.966 | 8.802 | 3.645 |
| Ordubad | 1.768 | 4.302 | 4.360 | 4.941 | 639 |
| Yekun | Yalnız kişilər 42.043 | hər iki cins 99360 | hər iki cins 134.250 | hər iki cins 354.498 | hər iki cins 255.138 |

***Qaynaq: Sumbatzade A.S.*** *Promışlennostğ Azerbaydjana v XIX v. Baku, 1964, s.48.*

Cədvəldən göründüyü kimi Şimali Azərbaycanın şəhər əhalisi XIX əsrin 30-cu illəri ilə müqayisədə 90-cı illərin sonunda 354.498 nəfərə çatmış, yəni 255.138 nəfər artmışdır. Araşdırmamızla əlaqədar Naxçıvan və Ordubad şəhərlərinin əhalisi haqqında məlumat üzərində dayanmaq istərdik. Belə ki, müvafiq dövrdə Naxçıvan şəhərinin əhalisi 3.645, Ordubad şəhərinin əhalisi isə 639 nəfər çoxalmışdı. Naxçıvan və Ordubad şəhərlərinin əhalisinin say dinamikası ilə burada sənətkarların sayı arasında əlaqə özünü göstərmişdir. Buna əmin olmaq üçün Naxçıvan və Ordubad şəhərlərində sənətkarlıq sahələri üzrə sənətkarların sayı haqqında cədvələ nəzər yetirək (Cədvəl 2). Şimali Azərbaycanın Bakı, Yelizavetpol, Şuşa kimi şəhərləri ilə müqayisədə Naxçıvan və Ordubad şəhərlərində sənətkarlıq istehsalının eyni səviyyədə qalması aydın olur. Ə.Sumbatzadə bu şəhərlərdə sənətkarlığın statik səviyyədə qalmasını şəhər əhalisinin sayında vəziyyətlə əlaqələndirir. Sonrakı dövrdə yalnız Naxçıvanda şəhər əhalisinin sayında dəyişiklik baş verir, 1902-ci ildə burada əhali 8845 nəfərə çatır, Ordubadda isə əvvəlki kimi 4929 nəfər var idi. [18]

Cədvəldən çıxarılan daha bir nəticə təbii ki, Naxçıvan və Ordubad şəhərlərində fəaliyyət göstərən sənətkarlıq sahələrinin dairəsi və hər bir sahə üzrə sənətkarların sayı ilə bağlıdır. Göründüyü kimi sənətkarların sayı haqqında qaynaqların vəziyyəti ilə əlaqədar yaranan ziddiyyətləri sərf nəzər etsək toxucular, başmaqçılar, dəmirçilər və dülgərlərin daha çoxsaylı olduğu aydın olar.

Naxçıvan bölgəsinin Naxçıvan və Ordubad şəhərlərində olduğu kimi kənd yerlərində də paltar və ev əşyaları istehsalı ilə məşğul olan sənətkarlıq sahələri üstün yer tuturdu. 1845-ci ilə aid olan bir məlumatda Naxçıvan qəzasında istehsal olunan yun və ipək məmulatları və onların satışından bəhs edilir. Buradan aydın olur ki, Naxçıvan qəzasında 1050 xalça istehsal olunmuş, onlardan 400-ü 2000 manata satılmışdı. Həmin dövrdə Naxçıvan bölgəsində müvafiq olaraq istehsal olunan 3000 çuldan 1500-ü 1500 manata, 2500 keçədən 1500-ü 700 manata, 5000 çuvaldan 2000-i 1.000 manata, 10.000 yun corabdan 5.000-i 250 manata və i.a. satılmışdı. [19]

*Cədvəl 2*

**Naxçıvan və Ordubad şəhərlərində sənətkarlıq sahələri üzrə sənətkarların say dinamikası**

| **Sənətkarlar** | **Naxçıvan** | | | | | **Ordubad** | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **İllər** | | | | | | | | | |
| | **1831** | **1848** | **1859** | **1864** | **1865** | **1832** | **1854** | **1859** | **1864** | **1865** |
| Başmaqçılar | 46 | 13 | 14 | 50 | 98 | 44 | - | 16 | 41 | 45 |
| Keçəçilər | 2 | 2 | - | 8 | 12 | 2 | 2 | 1 | 9 | - |
| Dulusçular | 6 | - | - | - | 1 | 12 | - | - | 4 | 4 |
| Daş yonanlar | 7 | 9 | - | 39 | 35 | 10 | 10 | 14 | 17 | 13 |
| Zərgərlər | - | - | - | - | - | - | 3 | - | - | - |
| Kərpicçilər | - | 3 | 1 | 8 | 13 | - | 1 | - | 15 | 15 |
| Dəri aşılayan. | 22 | 9 | - | 24 | 30 | 23 | 21 | 24 | 28 | 24 |
| Dəmirçilər | 40 | 30 | 28 | 31 | 21 | 4 | 18 | 25 | 22 | 28 |
| Boyaqçılar | - | 2 | 1 | 8 | 7 | 1 | 22 | 17 | 10 | 9 |
| Qalayçılar | 4 | 3 | - | 5 | 9 | 4 | 3 | 6 | 4 | 4 |
| Misgərlər | - | - | - | 5 | 19 | - | 2 | - | 42 | 42 |
| Dəyirmançılar | 6 | 2 | 1 | 12 | 12 | 7 | 2 | 1 | 9 | 8 |
| Ocaqçılar | - | - | - | 2 | 27 | - | - | - | - | - |
| Nalbəndlər | - | - | 13 | 13 | 20 | - | - | - | 6 | 6 |
| Baftaçılar | - | - | - | 6 | - | - | - | - | - | - |
| Dülgərlər | - | 23 | 24 | 23 | 21 | - | 2 | 14 | 20 | 20 |
| Dərzilər | 11 | 20 | 8 | 35 | 26 | 10 | 5 | 5 | 2 | 2 |
| Həkkakçılar | 1 | - | - | - | - | - | - | - | - | - |
| Silahsazlar | 3 | 2 | 1 | - | - | 3 | 5 | 4 | - | - |
| Kəmərçilər | - | - | - | 4 | - | - | - | - | - | - |
| Çilingərlər | 4 | 1 | - | 1 | 19 | 10 | - | - | 2 | - |
| Çəkməçilər | 4 | 1 | - | 1 | 19 | 10 | - | - | 2 | - |
| Savadçı | 9 | 4 | 5 | 11 | 14 | 5 | - | 8 | 8 | 8 |
| Yəhər qayıran. | 2 | 2 | - | - | - | - | 3 | - | 3 | - |
| Xarratlar | 38 | - | 1 | 10 | 30 | 17 | 6 | 1 | 7 | 7 |
| Ağacyonanlar | 8 | - | - | 1 | 2 | 1 | - | - | 2 | - |
| Toxucular | 126 | 3 | 3 | 3 | 8 | 145 | 112 | 84 | 14 | 16 |
| Tokarlar | 1 | - | - | - | - | 2 | - | - | - | - |
| Sərraclar | 3 | - | - | - | - | 1 | - | - | - | - |
| Həllaclar | 16 | - | 1 | 1 | 4 | 29 | - | - | 8 | 8 |
| Papaqçılar | 35 | 28 | 13 | 24 | 21 | 24 | 20 | 12 | 12 | 12 |
| Çörəkçilər | - | 5 | 15 | - | - | - | - | 8 | - | - |
| Yekun | 390 | 160 | 136 | 327 | 457 | 354 | 261 | 256 | 289 | 275 |

***Qaynaq: Sumbatzade A.S.*** *Promışlennostğ Azerbaydjana v XIX v. Baku, 1964, s.58.*

XIX əsrin 80-ci illərində Naxçıvan qəzasında dövlət kəndlilərinin iqtisadi məişətinə dair aparılan tədqiqat zamanı kənddə ev əşyaları və ayaqqabı istehsalına aid sənətkarlıq sahələrinin yayıldığı aşkar edilmişdi. Naxçıvan qəzasının qərb hissəsinə dair tədqiqatda burada istisnasız olaraq ev üçün palaz və yerli kobud mahud toxunduğu bildirilirdi. Həmin materiallarda Ordubad sahəsinin Unus kəndi sakinlərinin satış üçün yundan palaz və çuval istehsal etdikləri qeyd olunur.[20] Naxçıvan, Ordubad və Dərələyəzə aid tədqiqatda kənd yerlərində 910 bez toxucusu olduğu müəyyənləşdirilmişdi.[21]

Təsərrüfat – məişət və tikinti materialları istehsalı da Naxçıvanın iqtisadi həyatının mühüm tərkib hissəsi idi. Bölgədə sabun bişirilməsi, piyəritmə – şam istehsalı, boyaqçılıq, dulusçuluq, ağac emalı, metalişləmə kimi sənət sahələri xanlıq dövründəki kimi varlığını davam etdirir, yeni şəraitə uyğun olaraq bəzi inkişaf meylləri özünü göstərirdi. Bunların içərisində elə istehsal sahələri var idi ki, yalnız Naxçıvanda qalırdı. XIX əsrin 70-ci illərində Bakıda bir tərəfdən parafin şamları istehsalının başlanması, digər tərəfdən neftdən kerosin alınması işıqlandırmada ənənəvi vasitələrin rolunu azaltmışdı. Buna baxmayaraq şam istehsalı yalnız Bakıdan uzaq olan Naxçıvan qəzası və Ordubad şəhərində qalırdı. 1871-ci ildə Naxçıvan qəzasında 6, Ordubad şəhərində 4 belə müəssisə var idi. Burada müvafiq olaraq 12 və 8 fəhlə çalışırdı. İstehsal gücü 900 və 676 man. idi. 1876 və 1878-ci illərdə Naxçıvan qəzası və Ordubad şəhərlərində həmin müəssisələrin sayı 5 və 3 olduğu halda, fəhlələrin sayı azalmış, istehsal gücü isə artmışdı. 1878-ci ildə Naxçıvan qəzasındakı müəsisələrdə istehsal gücü 1.500, Ordubad müəssisələrində 900 man. idi.[22] Sonrakı illərdə də Naxçıvan bölgəsində şam istehsalı müəssisələri azalır və tədricən belə informasiya da aradan çıxır.[23]

Naxçıvan bölgəsində boyaqçılıq, xüsusilə dulusçuluq əsas istehsal sahələri olaraq qalırdı. Akademik Ə.Sumbatzadənin fikrincə Naxçıvan Azərbaycanın əsas dulusçuluq istehsalı mərkəzlərindən biri idi. [24]

Tikinti materialları ilə məşğul olan sahələrdən kərpic istehsalı, tikinti daşları hazırlanması Naxçıvanda da mühüm əhəmiyyət kəsb edirdi. XX əsrin əvvəllərinə aid olan məluumata görə Naxçıvanda 5 kərpic zavodu fəaliyyət göstərirdi. [25] Lakin burada əhəng hazırlanması Azərbaycanın digər yerlərinə nisbətən geniş yayılmışdı. XIX əsrin sonlarında Naxçıvan qəzasında 4, Ordubadda 2 əhəng istehsalı müəssisəsi var idi. Onların istehsal gücü müvafiq olaraq 1500 və 800 manat təşkil edirdi. [26]

Naxçıvanda dağ – mədən sənayesinin iki sahəsi – daş duz istehsalı və dəyirman daşları çıxarılması və emalı yayılmışdı. Burada daş duz istehsalı əsas yer tuturdu.

1828-ci il Türkmənçay müqaviləsindən sonra Naxçıvan xanlığının Rusiyaya ilhaqı ilə əlaqədar olaraq xanlığın duz mədənləri xəzinənin ixtiyarına keçdi. Naxçıvanda duz istehsalında xəzinə idarəsi ilə birgə iltizam sistemidə tətbiq edilirdi. 1828-1851-ci illəri əhatə edən dövrdə duz istehsalı üç dəfə (III. 1828- III. 1829; III. 1829 – VII. 1841 – IV. 1851) xəzinənin, üç dəfə isə iltizamçıların (VII. 1830- VII. 1833; VII. 1833 – III. 1836; VII. 1836 – III. 1841) ixtiyarında olmuşdu. Bu müddət ərzində xəzinənin gəliri 141.557 man., iltizamçıların gəliri 1830-cu ildə 1376 man., 1834-cü ildə – 1777 man., 1835-ci ildə 1599 man. olmuşdu. Naxçıvanda duz istehsalından əldə olunan gəlirin artması istehsal olunan duzun miqdarının artmasının nəticəsi idi. 1840-ci illərin sonlarında Naxçıvan duz mədənlərində orta illik hasilat 126.406 pud təşkil edirdi. [27] Yuxarıda qeyd edildiyi kimi Naxçıvan duz mədənlərində Şıxmahmud kəndlilərinin məcburi əməyindən istifadə edilirdi. Bu hal 1868-ci ilə kimi davam etmişdi. Adətən Naxçıvanda duz istehsalından bəhs edən müəlliflər duz çıxarılmasına dair cədvəl tərtib edərkən illəri ardıcıllıqla verir. Biz isə Naxçıvanda duz istehsalına dair göstəriciləri iki yerə bölməyə üstünlük veririk. 1868-ci ilədək, yəni kəndlilərin məcburi əməyindən istifadəyə qədər və sonrakı illər. Faktik materiallardan aydın olur ki, 1843-cü ildə 97.655 pud 20 f., 1844-cü ildə 108.171 pud 20 f., 1845-ci ildə 139.339 pud 20 f., 1849-cu ildə 139.439 pud, 1852-ci ildə 203.331 pud, 1853-cü ildə 262.331 pud, 1854-cü ildə 349.293 pud, 1855-ci ildə 428.261 pud, 1856-cı ildə 159.455 pud, 1857-ci ildə 154.671 pud, 1858-ci ildə 248.261 pud, 1860-cı ildə 203.800 pud, 1861-ci ildə 233.000 pud, 1863-cü ildə 168.648 pud, 1865-ci ildə 120.600 pud, 1866-cı ildə 161.456 pud, 1867-ci ildə 313.000 pud duz istehsal edilmişdi. [28] Rəqəmlərdən göründüyü kimi bu dövrdə Naxçıvanda duz istehsalı 1854-1855-ci illərdə ən yüksək həddə çatmışdı. Bunun əsas səbəbi çar hökuməti tərəfindən 1852-ci il avqustun 26-da bütün Zaqafqaziya və Qara dəniz limanları üzrə xaricdən duz gətirilməsinin qadağan edilməsi haqqında əsasnamənin nəşri və Krım müharibəsi dövründə (1853-1856-cı illər) faktik olaraq onun həyata keçirilməsi olmuşdu. [29] Lakin 1860-cı illərin əvvəllərindən duz istehsalı azalmağa başlamış, yalnız 1867-ci ildə yüksək həddə (313.000 pud) çatmışdı. Bu hal 1862-ci il may ayının 14-də dövlət duz gəlirlərinə aksiz sisteminin tətbiqi ilə izah edilir. [30] Doğrudan da Naxçıvanda duz istehsalına belə bir təsir var idi. Lakin 1867-ci ildə duz istehsalının yüksək həddə çatması həmin vaxt bu təsirin dəf edildiyini göstərir. 1868-ci ildən, yəni məcburi əməyin ləğvindən sonra isə Naxçıvanda duz istehsalı getdikcə azalmağa başlayır, yalnız XIX əsrin 80-cı illərin ortalarından artım baş verir. Fikrimizcə burada 1868-ci ildə məcburi əməyin ləğvinin təsirini istisna etmək olmaz. Görünür 1868-ci ildə Naxçıvan duz mədənlərində məcburi əmək ləğv edildikdən sonra istehsalın yeni şəraitdə tənzimlənməsi müəyyən çətinliklərlə müşayət olunmuşdu. Lakin bununla birlikdə XIX əsrdə Naxçıvan bölgəsində duz istehsalı, əsasən artan xətlə inkişaf etmişdi.

Naxçıvan iqtisadiyytının XX əsrdə vəziyyətinə həsr olunmuş tədqiqatda qeyd edildiyi kimi «Zaqafqaziyada ən böyük düz ehtiyatının Naxçıvan MR ərazisində olduğu çoxdan məlumdur və burada duz istehsalının çoxəsrlik tarixi vardır. Türkmənçay müqaviləsindən sonra yaranmış yeni əlverişli şəraitdə Naxçıvan duz ehtiyatlarının əvvəlkinə nisbətən daha geniş miqyasda istifadəsinə başlanmışdır. 1837-ci ildə Sust kəndi yaxınlığında ikinci duz mədəni işə salınmışdı. Əgər 1820-ci illərin əvvəllərində Naxçıvanda duz hasilatı 50-60 min puddan çox olmurdusa, XIX əsrin 40-cı illərində duz hasilatı 3 dəfəyə qədər, 80-cı illərdə isə 10 dəfədən çox artmışdır». [31]

Naxçıvan duz mədənlərində iltizam sistemi XIX əsrin sonlarınadək mövcud olmuşdu. Naxçıvanda duz sənayesindən bəhs edən müəllif yazır ki, «mənbələrdə XIX əsrin sonlarında azərbaycanlı sahibkarların duz hasilatındakı mövqelərinin xeyli azaldığı haqqında məlumatlar vardır. Bu dövrdə rusların köməyi ilə Naxçıvan duz mədənləri Azərbaycan sahibkarlarının əlindən alınaraq erməni, yəhudi və b. əcnəbi sahibkarlara verilirdi». [32] Naxçıvan duz mədənlərində iltizam sisteminin ləğvi neft sənayesi ilə müqayisədə köklü dəyişikliyə səbəb olmasa da, bəzi yeni meyllər burada da özünü göstərdi. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatına dair fundamental monoqrafiyanın müəllifi T.Vəliyev burada duz istehsalına, o cümlədən Naxçıvan bölgəsində duz istehsalına dair dərin təhlil vermişdir. O, haqlı olaraq göstərmişdir ki, «Azərbaycanda duz istehsalı qədim tarixə malik olsa da, onun bir sənaye sahəsi kimi əsl inkişafı XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf edir. Duz istehsalı miqyasının genişlənməsi ölkənin ictimai – iqtisadi həyatında yaranmış təbəddülatın tələblərindən irəli gəlirdi». [33] Duz mədənlərinin çoxu xəzinəyə, Sustdakıdan isə yerli sahibkaralara məxsus idi. T.Vəliyev yazır ki, «Sustun duz mədənlərini 1907-ci ildən sahibkarlar özləri istismar etməyə başladılar. Hacı Xudat xan Kalbalıxanov qardaşları ilə birlikdə «Kəlbalıxanov qardaşları və $K^0$» ticarət evini

yaratdılar. Lakin dağ-mədən departamenti ticarət evinin duz istehsalını 100 min pudla məhdudlaşdırdı. Hacı Xudadat xanın duz istehsalını 200 min puda çatdırmaq haqqında dağ-mədən departamentinə dəfələrlə yazdığı xahiş ərizələri heç bir nəticə vermədi. Burada əsas məqsəd ticarət evinin şəxsində xəzinəyə qarşı rəqibin meydana çıxmasına yol verməmək idi. [34] Yalnız 1911-ci ildə Ticarət və Sənaye Nazirliyi duz istehsalındakı mövcud məhdudiyyəti ləğv etdi. 1912-ci ildə isə Cənnət kəndi yaxınlığında Əlixanov mədənlərində (bu üçüncü duz mədəni idi) duz çıxarılmasına başlandı. [35] T.Vəliyevin tərtib etdiyi cədvəldən 1900-1917-ci illərdə xəzinə mədənlərində və «Kəlbalıxanov qardaşları və $K^0$» ticarət evi mədənlərindən hasil edilən duzun miqdarı da aydın olur. Cədvəldən görünür ki, xəzinə mədənlərindən ən çox duz 1905, 1912 və 1914-cü illərdə, müvafiq olaraq 504.000, 461.352 və 456.162 pud hasil edilmişdi. «Kəlbalıxanov qardaşları və $K^0$» ticarət evinin mədənlərindən isə 1911-ci ildə 304.261, 1912-ci ildə isə 249.474 pud duz istehsal edilmişdi. 1913-cü ildən sonra həmin mədənlərdə duz istehsalı azalmış, 1913-cü ildə 92.765, 1915-ci ildə 4.690, 1914-cü ildə isə 156.045 pud təşkil etmişdi.[36] Bir arxiv materialında isə Süst və Naxçıvan kimi iki mədəndə duz istehsal edildiyindən bəhs edilir və qeyd olunur ki, 1908-ci ildə ümumi duz istehsalı 1285 pud, 1910-cu ildə 350.000 pud, 1915-ci ildə 160.000 pud olmuşdu.[37] Digər tədqiqatlarda da 1911-1913-cü illərdə Naxçıvanda duz istehsalının yüksək səviyyəyə çatdığı, bununla birlikdə tələbata nisbətən az olduğu qeyd edilir: «Bütövlükdə duz istehsalı da özüün inqilaba qədərki ən yüksək inkişaf pilləsinə 1911-1913-cü illərdə çatmışdı. Lakin bu dövrdə duzun ümumi istehsal səviyyəsi mövcud tələbata nisbətən xeyli aşağı idi. Belə ki, Birinci dünya müharibəsi ərəfəsində Zaqafqaziyanın duza olan orta illik tələbatı 4 milyon pud hesab olunur. Halbuki 1903-1913-cü illərdə cəmi 2,7 milyon pud duz çxarılmışdı ki, bu da Zaqafqaziyanın duza olan bir illik orta tələbatından 1,5 dəfə az idi. İnqilabdan əvvəl ən məhsuldar il olan 1912-ci ildə Naxçıvan ərazisinin bütün mdənlərindən 9 min ton və ya Zaqafqaziyanın bir illik ümumi tələbatından 4,2 dəfə az duz çıxarılmışdı».[38]

Duz istehsalı ilə birgə Naxçıvanda dağ-mədən sənayesinin spesifik bir sahəsi – dəyirman daşı hasilatı və emalı da təşəkkül tapmışdı. Dəyirman daşı mədənləri Daşkəsən dağında (Culfa yaxınlığında) yerləşirdi. Dəyirman daşı hasilatı xəzinə tərəfindən icarəyə verilirdi. 1886-1900-cü illərə dair rəsmi məlumata görə Naxçıvan qəzasında bu işlə məşğul olan 2 müəssisə fəaliyyət göstərirdi. 1886-1892-ci illərdə burada 4, 1899-cu ildə 40-a qədər adam çalışırdı. İllik məhsuldarlıq 1866-1887-ci illərdə 600 man., 1900-cü ildə isə 12.000 man. təşkil etmişdi. Belə ki, müvafiq dövrdə fəhlələrin sayı 10 dəfə, istehsal məbləği 20 dəfə çoxalmışdı.[39]

Naxçıvan bölgəsində yeyinti sənayesi unüyütmə, düyütəmizləmə, yağ çalınması, qismən şərabçılıqla təmsil olunurdu. XIX əsrin birinci yarasına aid məlumatlar içərisində unüyütmə müəssisələrinin – dəyirmanların sayından daha çox dəyirmançıların sayından bəhs edilir. 1848-1849-cu illərdə Azərbaycanın beş şəhərində, Bakı, Şamaxı, Lənkəran, Nuxa və Naxçıvanda birlikdə 72-73 dəyirmançı olduğu qeydə alınmışdı. 1864-1865-ci illərdə, bilavasitə Naxçıvan və Ordubad şəhərlərində 20-21 dəyirmançı var idi.[40] Akademik Ə.Sumbatzadə XIX əsrin ikinci yarısında dəyirmançılardan bəhs edərkən göstərir ki, bir qayda olaraq xırda, xüsusən su dəyirmanları və çəltiyi təmizləmək üçün dinglər çar statistika orqanları tərəfindən qeydə alınmırdı. Lakin elə illər olurdu ki, onları unüyütmə müəsisələri kimi «fabrik və zavodlar»ın sırasına daxil edirdilər. Bunun nəticəsində bəzi qəzalarda elə illər olurdu ki, unüyütmə müəssisəsi göstərilmirdi, elə il də olurdu ki, onların sayı yüzlərlə qeyd edilirdi. Bu fikrin təsdiqi üçün göstərilən faktlar içərisində Naxçıvan bölgəsi də qeyd edilir. Belə ki, 1890-cı ilədək burada yalnız əsil dəyirmanlar qeydə alınmışdı. XIX əsrin 70-ci illərinin ikinci yarasında Naxçıvanda 30-dək fəhləsi və ildə 15 min man. istehsal göstəricisi olan 2-3 dəyirman qeydə alınmışdı. 1880-cı illərdə isə 15 fəhləsi və illik istehsal gücü 1000 man. olan bir dəyirmandan bəhs edilir. Ordubad şəhərində 1889-cu ildə 9 fəhləsi və 1620 man. istehsal gücü olan 6 unüyütmə müəssisəsindən söz açılır. 1870 və 80-cı illərdə Naxçıvan qəzası kəndlərindəki dəyirmanlar qeyddən kənarda qalır. 1890-cı illərə aid məlumatlarda isə yüzlərlə unüyütmə müəssisələrindən bəhs olunur. XIX əsrin 90-cı illərində Naxçıvanda orta hesabla hər müəssisəyə 2 fəhlə olmaqla 12 dəyirman, Ordubadda isə 5-6 dəyirman fəaliyyət göstərirdi. Naxçıvanın kəndlərində isə orta hesabla ildə 283 dəyirman olduğu qeyd edilirdi.[41]

Bir arxiv məlumatına görə XX əsrin əvvəllərində Naxçıvan qəzasında 291 unüyütmə dəyirmanı, Şərurda, Dərələyəz ilə birlikdə 353 unüyütmə və düyü təmizləmə dəyirmanı var idi.[42]

Naxçıvan qəzasında 1870-ci illərdə orta hesabla 13, 1880-cı illərdə isə 10, 1890-cı illərdə 25 yağ zavodu fəaliyyət göstərmiş, bu müəssisələr xırda əmtəə istehsalı xarakteri daşımışdı.[43]

Naxçıvanda üzümçülüyün inkişafı ilə əlaqədar olaraq burada şərab istehsalı da var idi. 1891-ci ildə Naxçıvan qəzasında 580 desyatin torpaqda üzüm əkilmiş, 25.000 pud üzüm yığılmış, 18.000 vedrə şərab çəkilmişdi.[44] XX əsrin əvvəllərində Naxçıvan qəzasında şərab istehsalı artmışdı. 1900-cu ildə burada 108.000, 1901-ci ildə 36.000, 1902-ci ildə 35.000, 1903-cü ildə 81.000, 1904-cü ildə 77.000, 1906-cı ildə 79.000, 1907-ci ldə 93.105, 1908-ci ildə 75.000, 1909-cu ildə 68.000, 1910-cu ildə 84.000, 1911-ci ildə 45.320, 1913-cü ildə 351.000, 1914-cü ildə 59.000 vedrə şərab istehsal edilmişdi.[45] Lakin bütün bunlara baxmayaraq Naxçıvan qəzasının Azərbaycan üzrə şərab istehsalında payı cüzi idi (1900-cü ildə 8%, 1901-ci ildə 3 % və i.a.).

Naxçıvan bölgəsində sənaye istehsalının digər bir mühüm sahəsi yüngül sənaye idi. Bölgədə yügül sənaye daha çox ipək sənayesi və pambıq təmizləmə ilə təmsil olunmuşdu.

Rusiya işğalı dövründə, XIX əsrin birinci qərinəsi – XX əsrin əvvəllərində Şimali Azərbaycanda, o cümlədən Naxçıvan bölgəsində ipək emalı sənayesinə dair müəyyən tədqiqatlar vardır.[46] Bu tədqiqatlar bəzi arxiv materialları ilə birlikdə Naxçıvan bölgəsinin ipək emalı sənayesini daha dərindən öyrənməyə imkan verir.

Naxçıvanda ipək emalı sənayesi, əsasən Ordubadda mərkəzləşmişdi. Ordubadda ilk ipəksarıma fabrikləri spesifik şəraitdə açılmışdı. Belə ki, XIX əsrin 60-cı illərində ipək qurdu xəstəliyilə əlaqədar Azərbaycanın əsas ipəkçilik mərkəzlərindən olan Nuxa və Şuşada ipəksarıma fabrikləri fəaliyyətini dayandırmış, Ordubadda isə iki belə fabrik açılmışdı. Onlardan biri Aşağı Əylis kəndində, digəri isə Ordubadın özündə isə başlamışdı. Əylis fabrikində XIX əsrin 60-cı illərinin sonlarında Cənubi Qafqazda ilk dəfə olaraq 10 mexaniki ipəkəyirmə dəzgahı qurulmuşdu. 70-ci illərdə isə Ordubada daha bir baramaaçan fabrik fəaliyyətə başladı.[47] XIX əsrin 80-cı illərində Ordubada orta hesabla 131 fəhləsi və 18787 man. istehsal gücü olan 5 müəssisə, Naxçıvan qəzasında isə 183 fəhləsi, 38.872 man. istehsal gücü olan 9 müəssisə var idi. XIX əsrin 90-cı illərində bu rəqəmlər müvafiq olaraq Ordubadda 155, 26.567 və 6, Naxçıvan qəzasında isə 219, 74.842 və 19 olmuşdu.[48] T.Vəliyev bütövlükdə Şimali Azərbaycan, o cümlədən Naxçıvan ipək emalı sənayesinə dair maraqlı faktlar gətirərək yazmışdır: «1900-cu ildə Azərbaycanın ipək emalı sənayesində 2.228 baramaaçılan tiyanı olan və buxar mühərriki tətbiq edən 60 fabrik olmuşdu. Bunlardan 46-sı Nuxa – Zaqatalada, 14-ü isə Şuşa və Naxçıvan qəzalarında idi. Sonrakı dövrlərdə, istehsalda maşın tətbiqində böyük dəyişiklik gözə çarpırdı. 1908-ci ildə ipək sənayesində 110-a qədər buxar qazanı, 93 buxar və daxili yanacaqlı mühərrik, 55 buxar və hidravlik turbin, 8 hidravlik çarx, fabriklərdən 88-də 2800 baramaaçılan tiyan və 2760 dəzgah, 105 burma maşını və 10 minə qədər iy olan 106 fabrik vardlı. Onların 67-si Nuxa qəzasının, 2-si Zaqatalanın, 27-si Şuşa və 10-u Naxçıvan qəzalarının payına düşürdü. 1915-ci ildə Azərbaycanın ipək sənayesi üzrə fabriklərin sayı 123-ü keçmişdi. Bu fabriklərin 85-i Nuxa qəzasında, 2-si Zaqatalada, 24-ü Şuşa və 12-si Naxçıvan qəzalarında yerləşirdi».[49]

XX əsrdə Naxçıvan iqtisadiyyatına dair tədqiqatda bölgədə ipək emalı sənayesi bəzi digər rakurslarda da nəzərdən keçirilir. Orada yazılır: «ümumiyyətlə, 1910-1912-ci illərdə Naxçıvan qəzası kəndlərinin 32 faizi barama istehsalı ilə məşğul olurdu. Baramaçılıq Ordubad rayonu ərazisində xüsusilə geniş yayılmışdı. Rayon ərazisində olan 46 kənddən 43-də baramaçılıq az-çox inkişaf etmişdi. Həmin dövrdə Naxçıvan qəzasında baramaçılıq başqa yerlərə nisbətən yüksək məhsul verirdi. 1911-1913-cü illərdə Naxçıvan şəraitində bir qutudan 4 pud barama alınması normal hadisə hesab olunurdu… İpəkçilik müəssisələri ən çox Ordubad (12 müəssisə), Naxçıvan şəhərlərində, Əbrəqunis və Cənnəb kəndlərində mərkəzləşmişdi».[50]

Naxçıvan bölgəsində pambıqtəmizləmə müəssisələri də yüngül sənaye sahəsində vacib yer tuturdu. Lakin ipək emalı sənayesindən fərqli olaraq pambıqtəmizləmə I Dünya müharibəsinədək kustar və yarımkustar xarakter daşıyırdı. 1912-ci il məlumatına görə Şərur və Naxçıvanda 85 pambıqtəmizləmə zavodu fəaliyyət göstərirdi ki, onlardan 53-ü su ilə hərəkətə gətirilirdi. Bu zavodların yerləşmə coğrafiyası və mahıc təmizləmə göstəriciləri də maraq doğurur. Şərur üzrə Yengicə kəndində 5 zavod olub, mahlıc təmizlənməsi 110.000 pud idi. Başnoraşendə bu göstərici 1 və 6.000, Düdəngədə 2 və 1.800, Zeyvədə 2 və 4.005, Qarxunda 1 və 300, Mahmudkənddə 2 və 500, Siyaqutda 2 və 2.500, Ulya-Noraşendə (hazırda Cəlilkənd Z.Ş.) 4 və 4.000, İbadullada 1 və 500, Qaraxanlıda (hazırda Qaraxanbəyli.- Z.Ş.) 1 və 600, Tumaslıda 1 və 200, Xanlıqlarda 3 və 25.000, Verməziyərdə 3 və 3.000, Aralıxbəydə 1 və 300, Kəsəncədə 1 və 500, Quşçu – Dəmirçidə 1 və 1.000, Yaycıda 4 və 800, Axurada 4 və 500, Yuxarı Danzikdə 2 və 1.200, Dərələyəzin Arpa kəndində 4 və 2.400, Krtiçdə 2 və 400, Koqulda (hazırda Qozluca-Z.Ş.) 2 və 2000 idi. Şərur və Dərələyəz üzrə 49 müəssisədə 168.400 mahlıc istehsal edilmişdi. Naxçıvan qəzasında isə bu göstəricilər aşağıdakı kimi idi. Naxçıvan şəhərində 4 və 2.440, Tumbul kəndində 2 və 1.673, Yamxanada 1 və 925, Təzəkənddə 3 və 1.850, Şəkərabadda 1 və 275, Qoşadizədə 1 və 300, Şıxmahmudda 2 və 1.100, Bədəşxanda 1 və 500, Kərimbəydizədə 1 və 2.000, Xəlillidə 1 və 200, Yarımcada 1 və 200, Qıvraqda 2 və 2.000, Qarabağlarda 1 və 700, Xokda 2 və 1.200, Cəhridə 3 və 4.460, Vayxırda 1 və 340, Əznəbürddə 1 və 140, Əbrəqunisdə 1 və 500, Camaldində 1 və 300, Küznütdə 2 və 500, Nehrəmdə 1 və 1.500, Düylündə 2 və 1.000, Yuxarı Azada 2 və 1.000, Yaycıda 3 və 150, Culfada 1 və 210, Ordubad şəhərində 3 və 6.000 idi. Naxçıvan qəzası üzrə 44 pambıq təmizləmə müəssisəsi qeydə alınmışdı ki,burada 34.703 pud mahlıc istehsal edilmişdi.[51] Əgər 1912-ci il normal il kimi qəbul olunsa, Şərur pambıqçıları xam pambığın pudu 4 man. olmaqla 2.200.000, Naxçıvan pambıqçıları isə 416.000 man. gəlir götürürdü.[52]

Beləliklə, XIX-XX əsrin əvvəllərində Rusiyanın müstəmləkəçilik siyasətinə baxmayaraq Naxçıvan bölgəsində sənətkarlıq və sənayenin inkişaf etdiyini, ipək emalı sahəsində isə fabrik-zavod mərhələsinin təşəkkülünün şahidi oluruq.

1. ***Əliyev F., Əliyev M.*** Naxçıvan xanlığı, s.42.
2. ***Budaqova S.*** Naxçıvan diyarının tarixi coğrafiyası, s.49.
3. ***Mustafayev C.M.*** Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, 2002, s.51.
4. **Шопен И.** Исторический памятник состояния Армянской области, с.343-344.
5. ARDTA, f.24, siyahı 1, iş 353, v.16-18.
6. yenə orada, iş 372, v.14-16.
7. ***Mustafayev C.M.*** Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq, s.51.
8. ***Mustafayev C.M.*** Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq, s.51-52.
9. **Шопен И.** Исторический памятник состояния Армянской области, с.857.
10. ***Əliyev F., Əliyev M.*** Naxçıvan xanlığı, s.42.
11. **Шопен И.** Исторический памятник состояния Армянской области, с.851.
12. Статистическое описание Нахичеванской провинции, с.19.
13. ***Mustafayev C.M.*** Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq, s.103.
14. **Шопен И.** Исторический памятник состояния Армянской области, с.835.
15. **Сумбатзаде А.С.** Промышленность Азербайджана в XIX в., с. 232.
16. ***Budaqova S.*** Naxçıvan diyarının tarixi coğrafiyası, s.51.
17. **Сумбатзаде А.С.** Промышленность Азербайджана в XIX в., с. 49.
18. там же, с.57.
19. там же, с.44.
20. **Никифиров Н.К.** Экономический быт государственных крестьян Западной части Нахичеванского уезда Эриванской губернии. // Материалы для экономического быта государственных крестьян Закавказского края. т.I, вып.V, с.603-604.
21. **Зелинский С.П.** Три магала: Нахичеванский, Ордубадский и Даралагезский. Географически-статистическое и сельскохозяйственное описание. Сборник сведений о Кавказе. т.VII, с.21.
22. **Сумбатзаде А.С.** Промышленность Азербайджана в XIX в., с. 124.
23. **Ваидова Х.Р.** История города Ордубад, с.81.
24. **Сумбатзаде А.С.** Промышленность Азербайджана в XIX в., с. 151.
25. ARDTA, f.379, siyahı 3, iş 5901, v.21.
26. **Сумбатзаде А.С.** Промышленность Азербайджана в XIX в., с. 204-206.
27. там же, с.236.
28. там же, с.237-238.
29. там же, с. 236-237.
30. там же, с.237.
31. ***Nadirov A., Nuriyev Ə., Muradov Ş.*** Naxçıvanın iqtisadiyyatı XX əsrdə, s.15.
32. ***Rəhimov Y.*** XIX əsrdə Naxçıvan duz sənayesi (rus mənbələ-

ri əsasında) // AMEA-nın Naxçıvan bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər ser., 2007, №3, s.72.

33. ***Vəliyev T.*** İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı, 1987, s.72.
34. yenə orada, s.72-73.
35. yenə orada, s.73.
36. yenə orada.
37. ARDTA, f.379, siyahı 3, iş 5901, v.21.
38. ***Nadirov A., Nuriyev Ə., Muradov Ş.*** Naxçıvanın iqtisadiyyatı XX əsrdə, s.16-17
39. **Сумбатзаде А.С.** Промышленность Азербайджана в XIX в., с. 241-242.
40. там же, с. 292.
41. там же, с. 293-297.
42. ARDTA, f.379, siyahı 3, iş 5901, v.21.
43. **Сумбатзаде А.С.** Промышленность Азербайджана в XIX в., с. 312-313.
44. там же, с. 339.
45. ***Vəliyev T.*** İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s.167.
46. **Сумбатзаде А.С.** Промышленность Азербайджана в XIX в., с. 386-454; ***Vəliyev T.*** XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. Bakı, 1977; **Ваидова Х.Р.** История города Ордубад, с.61-76; ***Əhmədov N.*** Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı, 2005, s.39-40 və b.
47. **Сумбатзаде А.С.** Промышленность Азербайджана в XIX в., с. 435-436.
48. там же, с. 437.
49. ***Vəliyev T.*** İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s.97.
50. ***Nadirov A., Nuriyev Ə., Muradov Ş.*** Naxçıvanın iqtisadiyyatı XX əsrdə, s.17.
51. ARDTA, f.379, siyahı 3, iş 5901, v.13-15.
52. yenə orada.

## 2.3. Nəqliyyat və ticarət

Naxçıvanın hərbi-strateji və iqtisadi əhəmiyyəti qədim zamanlardan onu nəqliyyat qovşağına çevirmişdi. XIX-XX əsrin başlanğıcında Şimali Azərbaycanda nəqliyyatın inkişafına dair tədqiqatın müəllifinin yazdığı kimi «Naxçıvan xanlığından keçən başlıca karvan yolları İrana və Təbrizə doğru uzanırdı. Bu yollar tranzit ticarətində mühüm rol oynayırdı. Azərbaycanın şimal torpaqlarına İran malları, əsasən Naxçıvan vasitəsilə daxil olurdu. Eyni zamanda xanlığın daxilində də Naxçıvanı və Ordubadı ayrı-ayrı yerlərlə birləşdirən karvan yolları mövcud idi. XIX əsrin başlanğıcında burada daxili ticarətin illik dövriyyəsinin 160.000 manata çatması həmin yolların kifayət qədər işlək olduğunu göstərirdi».[1]

İ.Şopen Naxçıvan və İrəvan xanlıqları əsasında süni şəkildə yaradılmış «Erməni vilayəti»nin yollarından bəhs edərkən onları baş yollara və kəndarası yollara bölür. O, kitabında on iki baş yol göstərir. Vilayəti Şuragəl əyalətinin Gümrü (Aleksandropol) şəhərindən Ordubad şəhərinədək kəsib keçən baş poçt yolu Talin mahalının Məsdərə kəndindən başlayaraq Sərdarabad qalası, Eçmiədzin monastırı, İrəvan və Naçıvan şəhərlərindən keçərək Ordubad şəhərində qurtarırdı. Bu yol ekipaj üçün rahat hesab olunurdu.[2] Digər yollardan bilavasitə Naxçıvanda olanları qeyd etmək istərdik. Naxçıvanda Culfa keçidi vasitəsilə İrana gedən yol 12 verst uzunluğunda idi. Digər bir yol Naxçıvandan Qarababa istehkamı vasitəsilə Bərgüşad çayınadək Qarabağ əyalətinə gedirdi. Naxçıvandan bir yol da Dərələyəz mahalı vasitəsilə Şəmşədil və Qazax distansiylarına gedirdi. Bu yol Cəhri, Gərməçataq, Martiros, Çaykənd kəndləri və Güllüdüz vadisindən keçirdi. O, yalnız at üçün əlverişli olub, 113 verst idi.

Ordubaddan Karçevan kəndi vasitəsilə Mehriyə, Qarabağ əyalətinə də yol gedirdi. Bu yolun uzunluğu 22 verst təşkil edirdi.[3] Naxçıvan bölgəsinin ayrı-ayrı yaşayış məskənləri kənd arası yollar vasitəsilə bir-birilə əlaqə saxlayırdı.[4] Yollar üzərində körpülər, çaylardan keçidlər də var idi.

Rusiya tərəfindən Naxçıvanın ilhaqı və sonrakı dövrdə mövcud yolların yaxşılaşdırılması ilə bərabər yeni yollar da çəkilirdi. İ.Şopenə görə Qarababa istehkamından Bərgüşad çayınadək olan yol 1826-1828-ci illər rus-İran müharibəsi zamanı işlənmişdi.[5]

Qafqaz canişinliyi 1868-ci ildə diyardakı quru yollarının inkişafını təmin etmək üçün onları dörd qrupa bölmüşdü.[6] Naxçıvan – Biçənək – Gorus – Şuşa – Zərdab yolu ikinci dərəcəli yollar sırasına aid edilmişdi. Lakin sonralar bu yol Yevlaxa doğru yönəlmişdi. Q.Əliyev yazırdı: «Keçən əsrin sonunda artıq şoseləşdirilməsi bşa çatmış Yevlax – Şuşa – Gorus yolu ərazicə böyük olan Zəngəzur qəzasını Gəncə quberniyasının qalan hissəsi ilə birləşdirən yeganə münasib yol idi. Bununla belə, Gəncə quberniyasının 1897-ci il üzrə icmalında qeyd olunduğu kimi, bu yol yalnız Naxçıvan qəzasına qədər uzadıldıqdan sonra daha böyük iqtisadi əhəmiyyət kəsb edə bilərdi. Bu sahədə isə vəziyyət aşağıdakı kimi idi. Yolun Naxçıvanla Biçənək keçidi arasındakı hissəsi də keçən əsrin sonunda yararlı hala slınmışdı. Yalnız Biçənəklə Gorus arasında mürəkkəb relyefli dağlıq ərazidə arabaların hərəkəti mümkün deyildi. Bu hissədə yalnız ilin quraqlıq çağında yük heyvanlarının keçə biləcəyi cığırlar mövcud idi».[7] XX əsrin əvvəllərində Ağstafadan Dilicana (73 verst), oradan da İrəvana (175 verst) və Naxçıvana çəkilmiş şosse yolu olduqca əhəmiyyətli idi. Bu yol Naxçıvan qəzasının yüklərinin Ağstafa dəmir yolu stansiyasına daşınmasını asanlaşdırmışdı.[8]

Quru yolları ilə bərabər nəqliyyat vasitələri və yollar üstündə tikilən karvansaralar sistemidə müəyyən dəyişikliyə uğrayırdı.[9]

Dəmir yollarının meydana gəlməsi nəqliyyatın strukturunda da dəyişikliyə səbəb oldu. Cənubi Qafqazda dəmir yol xəttinin çəkilməsinə dair ilk layihələr XIX əsrin 30-cu illərində meydana çıxzmışdı. Bu layihələr Xəzər dənizi ilə Qara dənizin dəmir yol xəttilə birləşdirilməsini nəzərdə tutulurdu. 1872-ci ildə Tiflis-Poti dəmir yol xətti istifadəyə verildi. Çox maraqlıdır ki, elə həmin ildə B.İ.Statkovski Vladiqafqaz – Tiflis – İrəvan – Culfa – Təbriz istiqamətində dəmir yol xətti çəkilməsi təklifini irəli sürdü. Bu layihələr tədricən daha ciddi şəkildə irəli sürülməyə başlandı. Qafqaz canişinin əmri ilə yaradılmış xüsusi komissiya 1873-cü il 22 dekabr iclasında istefada olan general Falkenhagenin Tiflisdən Culfaya kimi 441 verst uzunluğunda dəmir yol xətti çəkilməsi və onun Təbrizə qədər uzadılması təklifini bəyəndi. 1875-ci il aprelin 18-də çarın da iştirak etdiyi Xüsusi müşavirə Tiflisdən Culfaya dəmir yol xətti çəkilməsinin zəruriliyini göstərmişdi.[10] Lakin o zaman gündəlikdə duran başlıca məsələ Bakı – Tiflis dəmir yolu xəttinin çəkilməsi idi. Bu layihə 1883-cü ildə reallaşdırıldı.1895-ci ildə Tiflis – Qars dəmir yol xəttinin çəkilməsinə icazə verildi və onun həyata keçirilməsi başlandı. Bu hal Culfa istiqamətində çəkiləcək dəmir yol xəttini də gündəliyə gətirdi. 1896-cı ilin martında praktik işlər başlandı. Bu dövrdə Cənubi Qafqazda dəmir yol xətti çəkilişində daha bir mühüm hadisə baş verdi. 1900-cu ildə Bakı- Dərbənd xətti açıldı. Aleksandropol – Uluxanlı dəmir yol xəttinin çəkilişində işlər genişləndirildi.

1902-ci ilin dekabrında Aleksandropol – Uluxanlı (140 verst) xətti çəkildi. 1904-cü ilin yanvarında Uluxanlı – Culfa xəttinin çəkilişinə icazə verildi. B.Sultanov yazırdı ki, «həmin sahədə iş şəraiti olduqca dözülməz idi: ağır iş və qızmar yay inşaatçıları əldən salırdı, içməli su Araz çayından tuluqlarda və çənlərdə

gətirilirdi. İnşaatçılar, xüsusən mühəndis – texniki işçilər üçün cəlali kürdlərinin Aqi stansiyasından Culfayadək təxminən bütün yol boyu quldur hücumları olduqca təhlükəli idi. 1899-1900-cu illər ərzində cəlalilər külli miqdarda tikinti materialını yandırmış, inşaatçıları qarət etmiş və öldürmüşdülər».[11] 1905-ci ilin payızında Uluxanlıdan Naxçıvana kimi 136 verstlik məsafədə dəmir yol çəkilməsi başa çatdı. Uluxanlı – Culfa dəmir yol xətti (189 verst) isə 1908-ci ilin yanvarında istifadəyə verildi.[12]

Əlǝtin Culfa ilə dəmir yol xətti vasitəsilə birləşdirilməsi də çox mühüm əhəmiyyətli layihə idi. 1916-cı ilin iyulunda bu dəmir yol xəttinin çəkilişi başlandı. 1918-ci ilin əvvəllərində Ələtdən Bəhmənli stansiyasına kimi 168 verstlik sahədə işçi qatarları hərəkətə başladı. [13] Bu dəmir yol xətti sonralar, 1924-cü ildə başa çatdırıldı. Naxçıvan Bakı ilə dəmir yol xətti vasitəsilə birləşdirildi.[14]

Nəqliyyatın vəziyyəti ticarətin inkişafı ilə sıx bağlı idi. Naxçıvanda xanlığın son dövründə baş verən siyasi hadisələr və 1826-1828-ci illər rus – İran müharibəsi ticarət həyatına mənfi təsir göstərmişdi. Bu özünü daxili ticarətdə daha kəskin şəkildə birüzə verirdi. F.Əliyev və M.Əliyevin yazdığına görə «Daxili ticarətdən fərqli olaraq Naxçıvan xanlığında gəlmə tacirlərin hesabına xarici ticarətdə nisbətən canlanma hiss olunurdu. Xarici ölkələrdən, xüsusilə Rusiyadan buraya gələn tacirlər öz ölkələrinə Naxçıvan ustalarının hazırladıqları nəfis ipək parçalar aparırdılar. Təsadüfi deyildir ki, Moskvadakı, Nijni Novqoroddakı yarmarkalarda Naxçıvan və Ordubadda istehsal edilmiş ipək parçalara və müxtəlif rənglərə boyanmış ipək saplara təsadüf olunurdu. Naxçıvan xanlığından bir sıra xarici bazarlara qırmızı və ağ bez parçalar, düyü, şərab və s. məhsullar aparılırdı. Bez əsasən Qarabağ və İrəvan xanlıqlarına, düyü Mərənd, Xoy və Təbriz xanlıqlarına, pambıq parça Bayazid, Qars, Tiflis, Şuşa və digər şəhərlərə ixrac edilirdi». [15]

Xanlıqda ticarətin təşkili və həyata keçirilməsində ciddi vergi – gömrük siyasəti var idi. Gömrük toplanması işi rahdarlar (daxildə gömrük toplayırdılar) və bacdarlar (xaricdən gələn səyyah və tacirlərdən «torpaq basdı» alırdılar) tərəfindən reallaşdırılırdı.

Gömrük toplanması işi, əasən icarəyə verilirdi. Tarixi qaynaq və tədqiqatlarda xanlıq dövründə gömrük toplanmasının icarəyə verilməsi haqqında müəyyən faktlara rast gəlmək mümkündür. Naxçıvan xanlığına dair tədqiqatın müəlliflərinin yazdığı kimi «Naxçıvan xanlığında rahdari gömrüyü toplamaq hüququ başqa sahələrdə olduğu kimi icarəyə verilirdi. Xandan böyük məbləğə (ildə 1300 tümən) həmin «vəzifəni» almış icarədarın bazara gətirilən bütün mallardan gömrük toplamaq hüququ olurdu. Məsələn, at və dəvə ilə gətirilmiş hər ipək, boyaq, sap və pambıq yükü üçün sahibkar icarədara 4 m. 20 qəp. və ya 2 m. 50 qəp. verməli idi».[15]

Rəhdari gömrüyü xanlıq xəzinəsinin doldurulmasında əsas vasitələrindən biri olduğuna görə xanlar onun həcminin artırılmasına və yığılmasının təmin edilməsinə xüsusi fikir verirdilər. Bu da xanlıqda ticarətin inkişafına mənfi təsir göstərirdi. Ticarətin inkişafına mane olan digər səbəblərdən müxtəlif çəki və ölçü sisteminin olmasını, pul vahidlərinin tətbiqini göstərmək olar. Naxçıvan xanlığında sikkə zərb edilmədiyindən burada digər xanlıqlara aid pul vahidlərindən («tümən», «pənahabad», «şahi» və s.) istifadə edilirdi.

Naxçıvan xanlığında ticarətin vəziyyətində Rusiya ilhaqından sonra ənənələrlə birgə, müəyyən dəyişikliklər də özünü göstərməyə başladı. Belə ki, Naxçıvan İranla ticarətdə əsas rolunu saxlayırdı. İstər 1831-ci il qadağan tarifi, istərsə də 1851-ci ildə qəbul edilmiş yeni ticarət tarifi İranla ticarətdə qoyulan gömrük tarifində dəyişiklik etmədi.[16] İranla ticarətin əhəmiyyəti və Naxçıvanın rolu Azərbaycan tarixinin ümumiləşdirilmiş nəşrlərində də əksini tapmışdır. Yeddicildlik Azərbaycan tarixinin dördüncü cildində yazılır: «Çar hökuməti Rusiyanın İranla ticarətinin inkişafına xüsusi əhəmiyyət verirdi. Azərbaycanın İranla ticarəti Bakı, Cavad, Salyan, Lənkəran, Cəbrayıl, Naxçıvan və Ordubad gömrükxanalarında qeydiyyatdan keçirilirdi. 1833-cü ildə həmin gömrükxanalar vasitəsi ilə İrandan Azərbaycana 1058 min manatlıq mal gətirilmişdi».[17] Əvvəllər nəşr edilmiş üççildlik Azərbaycan tarixinin ikinci cildində isə daha konkret rəqəm bildirilir. Orada yazılır: «İranla ticarət yalnız dənizlə deyil, Rusiya – İran sərhəddindəki gömrükxana zastavaları vasitəsi ilə də aparılırdı. 40-cı illərdə Cənubi Azərbaycandan Cəbrayıl zastavası vasitəsilə hər il orta hesabla 246.000 gümüş manatlıq, Naxçıvan gömrükxanası vasitəsi ilə isə 1200-1300 min gümüş manatlıq mal gətirilirdi». [18] Naxçıvan bölgəsi yalnız İranla deyil, Mərkəzi Rusiya ilə ticarətdə də iştirak edirdi.[19]

Şimali Azərbaycanda XIX əsrin 20-70-ci illərində ticarətdə baş verən dəyişikliklər onun təşkilinə də təsir etdi. XIX əsrin ortalarından gildiya ticarət qaydasının tətbiqi başladı.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində də Naxçıvan bölgəsi İranla ticarətdə əhəmiyyətli mövqeyini saxlamaqda idi. Ordubad gömrüyünün məlumatına əsasən 1908-ci ildə eyni adlı gömrük zastavasından keçən idxal və ixrac mallarına dair cədvəl də maraq doğurur. (Cədvəl 3)

*Cədvəl 3*

**1908-ci ildə Ordubad gömrük zastavasında idxal və ixrac olunan mallara dair**

| Malların adı | İdxal | | ixrac | |
|---|---|---|---|---|
| | Miqdarı (pud) | Məbləğ (man.) | Miqdarı (pud) | Məbləğ (man.) |
| Çörək məhsulları və düyü | 1.717 | 3.122 | | |
| Meyvələr (kişmiş, badam və s.) | 4.691 | 12.040 | | |
| Pambıq parça | | | 762 | 37.600 |
| Ağ neft | | | 185 | 377 |
| İri və xırda buynuzlu mal-qara | | 10.420 | | |
| Xalça məmulatları | 95 | 5.314 | | |
| Boyalar | 500 | 1.041 | | |
| Başqa mallar | 2.209 | 21.507 | 304 | 6.131 |
| Yekun * | 9.212 | 53.444 | 1.251 | 44.108 |

*Qaynaq: **Faradjev A.S.** Ordubad. İstoriko-gkonomiçeskiy oçerk. Baku, 1970, s.88.*

- *hesablama bizimdir.*

Cədvəldən göründüyü kimi idxal 53.444, ixrac 44.108 man. (saldo – 9336) təşkil edirdi. Yenə həmin qaynağın məlumatına görə 1908-ci ildə İrandan Ordubada 269 karvan və 880 sərnişin buraxılmışdı. Ordubaddan İrana isə 230 karvan və 674 sərnişin keçmişdi. Ə.Fərəcov haqlı olaraq göstərir ki, bu rəsmi statistika gerçəkliyi tam əks etdirmir, ona görə ki, gömrük rüsumu qoyulan malların böyük partiyası sərhəddən qeyri-leqal yollarla keçirilirdi. [20]

XX əsrin əvvəllərində İranla ticarət Culfa, Şahtaxtı, Bulqan, Ordubad və Alışarlı vasitəsilə aparılırdı. 1913-cü il məlumatına görə qeyd edilən beş məntəqə vasitəsilə 6.200.000 man. müxtəlif mal gətirilmiş, 18.200.000 man. mal ixrac olunmuşdu. Beləliklə, 1913-cü ildə sərhəd məntəqələrinin ümumi dövriyyəsi 24.400.000 man. təşkil etmişdi. Bu rəqəmlərdən daha maraqlı bir nəticə hasil edilir. Bütün sərhəd məntəqələri üzrə rəqəmlərə görə idxal (6.200.000 man.) ixracdan (18.200.000 man.) azdır (+ 12.000.000) Sərhəd məntəqələri içərisində başlıca yeri Culfa gömrüyü tuturdu. 1913-cü ildə buradan 5,7 mln. man. idxal, 17,5 mln. man. mal idxal edilmişdi (+11,8 mln. man.). Elə həmin Culfa gömrüyü vasitəsilə 85.000 sərnişin keçmişdi. Əldə olan məlumatlar idxal və ixzracın strukturunu da müəyyən etməyə imkan verir. İdxal olunmuşdur: kişmiş və badam – 698.000 man.; qurudulmuş və təzə meyvə – 3.422.000 man.; pambıq – 765.000 man.; ev heyvanları – 200.000 man.; dəri – 380.000 man.; xalçalar – 420.000 man.; metal və digər mallar – 393.000 man.; ağ neft – 346.000 man.; pambıq parça – 8.780.000 man.; metal və b. mallar – 2076.000 man. Bəzi istisnalarla bu məhsullar tranzit mallar idi. [21]

Bütün Azərbaycanda olduğu kimi Naxçıvan bölgəsində də daxili ticarətin təşkilində bazarlar mühüm yer tuturdu. Ə.Fərəcovun yazdığına görə bəzi vaxtlarda, xüsusilə Novruz bayramı ərəfəsində Ordubad bazarı yarmarkaya çevrilirdi. [22]

Bazarlarla birlikdə mağaza və dükanlar şəbəkəsi də genişlənirdi.

1. ***Əliyev Q.*** XIX-XX yüzilliyin başlanğıcında Şimali Azərbaycanda nəqliyyatın inkişafı. Bakı, 1995, s.18-19.
2. **Шопен И.** Исторический памятник состояния Армянской области, с.718-721.
3. там же, с.721-722.
4. там же, с.719.
5. **Герсеванов М.** Сеть главнейших дорог Закавказского края // Сборник сведений о Кавказе. т.I. Тифлис, 1871. с.11.
6. ***Əliyev Q.*** XIX-XX yüzilliyin başlanğıcında Şimali Azərbaycanda nəqliyyatın inkişafı.
7. yenə orada, s.103.
8. Bax: **Керимов Т.** Народные транспортные средства Азербайджана в XIX – начале XX в. (историко-этнографическое исследование). Баку, 2004.
9. ***Əliyev Q.*** XIX-XX yüzilliyin başlanğıcında Şimali Azərbaycanda nəqliyyatın inkişafı, s.45, 88.
10. ***Sultanov B.*** Azərbaycan polad magistralının tarixi oçerkləri. Bakı, 1997, s.31.
11. ***Əliyev Q.*** XIX-XX yüzilliyin başlanğıcında Şimali Azərbaycanda nəqliyyatın inkişafı, s.88-90; həmçinin bax: Hüseyn İsgəndər. Azərbaycanın yol tarixi. Bakı, 1995, s.41.
12. yenə orada, 1995, s.96.
13. ***Sultanov B.*** Azərbaycan polad magistralının tarixi oçerkləri, s.33.
14. ***Əliyev F., Əliyev M.*** Naxçıvan xanlığı, s.44.
15. yenə orada, s.45.
16. Daha ətraflı bax: Русско-Иранская торговля. 30-50-е годы XIX века. Сб. док. М., 1984; **Рожкова М.К.** Экономическая политика царского правительства на Среднем Востоке во второй четверти XIX века и русская буржуазия. М., 1949.
17. Azərbaycan tarixi. Yeddi cilddə. IV c., s.78.
18. Azərbaycan tarixi. Üç cilddə. II cild. Bakı, 1964, s.77-78.
19. Bax: **Сулейманов Р.** Торговые связи Азербайджана с Центральной Россией в первой половине XIX в. АКД. Баку, 197; **Ваидова Х.** История города Ордубад в XIX- начале XX вв., с.91.
20. **Фараджев А.С.** Ордубад. Историко-экономический очерк, с.88-89.
21. ARDTA, f.379, siyahı 1, iş 5901, v.21-22.
22. **Фараджев А.С.** Ордубад. Историко-экономический очерк, с.92.

## 2.4. İqtisadiyyatda kapitalist münasibətlərinin təşəkkülü

XIX-XX əsrin əvvəllərində Naxçıvan iqtisadiyyatının nəzərdən keçirilməsi onun xarakterində baş verən yenilikləri də ortaya çıxardı. Bu iqtisadiyyatda kapitalist münasibətlərinin təşəkkülü ilə bağlı idi. Naxçıvan bölgəsi öyrənilən dövrdə aqrar diyar olduğuna görə əvvəlcə kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafına dair məsələni araşdırmağa çalışaq.

Kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafının göstəricilərindən biri əmtəə təsərrüfatının yaranması ilə əlaqədar idi. Ə.Umayev də XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan kənd təsərrüfatında kapitalizmin inkişaf proseslərinə dair monoqrafiyasında problemə bu mövzu ilə başlayır.[1] Faktların təhlili göstərir ki, XIX əsrin sonları – XX əsrin əvvəllərində Naxçıvan bölgəsində də ticarət əkinçiliyi genişlənir, kənd təsərrüfatının əmtəə – kapitalist xarakteri artırdı.

Naxçıvan bölgəsində kənd təsərrüfatının əsas sahələrindən biri olan taxılçılıqda buğda və arpanın bir hissəsi satışa çıxarılırdı. XIX əsrin 30-cu illərinin məlumatına görə Naxçıvan bazarında buğda və çəltiyin bir batmanının qiyməti 40 gümüş qəpik, un 50, arpa 30, darı isə 20 gümüş qəpiyə idi.[2] XIX əsrin 70-ci illərində taxılçılıqda əmtəə-pul münasibətləri daha da genişlənmişdi.[3] Qeyd edilən taxıla ehtiyacı olan və onu satınalma yolu ilə həyata keçirən əhali qrupunun (şəhər əhalisi, köçmə maldarlıqla məşğul olanlar, yüksək dağ rayonlarında yaşayanlar və b.) olması ilə bağlı idi.

Maldarlıq məhsulları, xüsusilə yun getdikcə daha çox miqdarda satışa çıxarılırdı. XIX əsrin 60-cı illərində Naxçıvandan hər il 20 min puddan çox yun Rusiya toxuculuq sənayesinin ehtiyaclarını ödəmək üçün göndərilirdi. Hər il Naxçıvandan göndərilən heyvandarlıq məhsullarının qiyməti 75 min man. təşkil edirdi.[4] XIX əsrin sonları – XX əsrin əvvəllərində satışa çıxarılan heyvandarlıq məhsullarının miqdarı çoxalmışdı. Bu faktı görkəmli tədqiqatçı V.D.Moçalov da təsdiq edir. Onun yazdığına görə Şərurda qoyunlar yalnız varlı kəndlilərin təsərrüfatında saxlanırdı. Onlardan bəzilərinin sürülərində 400-800 baş qoyun vardı. Belə sürülərin gəliri olduqca əhəmiyyətli idi.[5]

Əmtəə-pul münasibətlərinin inkişaf etdiyi sahələrdən biri də üzümçülük idi. Naxçıvan bölgəsi müsəlman diyarı olduğu üçün burada süfrə üzümü istehsalı daha geniş yayılmışdı. Bununla birgə üzümün artıq hissəsi şərab və araq çəkmə ilə məşğul olan xristian sahibkarlara satılırdı. V.D.Moçalov adı çəkilən kitabında Naxçıvanda sənaye üzümçülüyü adlı xüsusi başlıq ayırmış, Naxçıvan və Ordubad şəhərlərində və bəzi kəndlərdə, məsələn, Əylisdə üzümçülüyün bu və ya digər ölçüdə sənaye əhəmiyyəti kəsb etdiyini qeyd etmişdir.[6]

İpəkçilik Naxçıvanın kənd təsərrüfatının ən çox əmtəə xarakteri alan sahələrindən biri idi. İstehsal edilən xammal, nəinki, daxili bazarda, həm də xarici bazarlarda reallaşdırılırdı. Ordubad iri barama ticarəti mərkəzlərindən biri idi. İstehsal edilən baramanın bir hissəsi burada olan 12 barama açma «fabrikində» açılır, qalan barama isə digər rayonlara və xaricə ixrac edilirdi.[7]

Naxçıvan bölgəsinin pambıqçılıq təsərrüfatında da əmtəə-pul münasibətləri inkişaf etmişdi. Arxiv materiallardında qeyd olunduğuna görə 1914-cü ildə Şərurda pambıq becərilməsi üstün yer tutur və demək olar ki, bütün düzənlik kəndlərinin iqtisadiyyatı pambıq maraqları ətrafında fırlanırdı. Burada Başnoraşen, Ülya-Noraşen, Yengicə və Xanlıqlar kənd cəmiyyətləri xüsuüsilə fərqlənirdi. Pambığın bir sıra kredit və borc – əmanət birlikləri yaratdığı da qeyd olunur. Xanlıqlar borc – əmanət birliyi üzvlərinin tapşırığı ilə girov qoyulmuş 15000 pud təmizlənmiş pambığın pudunu yerli qiymətlərdən 30-50 qəp. baha satmışdı. Qonşu Ülya-Noraşen birliyi də üzvlərinin tapşırığı ilə 10000 pud təmizlənmiş pambıq satmışdı.[8]

Naxçıvan bölgəsinin kənd təsərrüfatında ticarət əkinçiliyinin inkişafı təsərrüfatların pula ehtiyacını artırırdı. Bu da ticarət və sələm kapitalının kəndə yol açmasına səbəb olurdu. Bunu iki səbəblə izah etmək olardı: əvvəla, kapitalist kredit sisteminin kifayət qədər təşəkkül tapmaması; ikinci, 1870-ci il kəndli islahatı zamanı Şimali Azərbaycan kəndlilərinə pay torpaqlarını vıkup etmək üçün dövlət tərəfindən borc verilməməsi.

Şimali Azərbaycanın digər yerlərində olduğu kimi Naxçıvan bölgəsi kənd təsərrüfatının nəzərdən keçirilən sahələrində ticarət və sələm kapitalı özünə yer etmişdi. Kəndlilər müəyyən təsərrüfat işləri və ya digər ehtiyaclar üçün sələmçidən pul alır, becərdikləri məhsulları girov qoyurdular. Sələmçilər faktik olaraq məhsulları 30-40 faiz ucuz alırdılar.[9]

Bununla birgə Naxçıvan bölgəsi kənd təsərrüfatına kapitalist kreditidə daxil olurdu. Birinci dünya müharibəsi ərəfəsində Şərurda 11 kənd cəmiyyətini birləşdirən 4 kredit və borc-əmanət birliyi yaradılmışdı.[10] Lakin tacir – sələmçilər müxtəlif yollarla kredit birliklərinin idarə heyətinə daxil olur, ondan öz məqsədləri üçün istifadə edirdilər. Məsələn, Kərbəlayi Abbas Bayramov Naxçıvan qəzası Cəhri kredit birliynin sədrliyinə nail olmuş, payızda kəndlilərdən pambığın pudunu 10 manatdan almışdı, halbuki onun qiyməti 10-16 man. idi. İş o yerə çatmışdı ki, kəndlilər Cəhri kredit birliyini «Kərbəlayi Abbas Bayramov bankı» adlandırırdılar.[11]

Naxçıvan kəndində kapitalist təsərrüfatının formaları da meydana gəlirdi. Varlı – qolçamaq, iri kapitalist əkinçilik təsərrüfatları ilə yanaşı mövcud mülkədar təsərrüfatları da burjua təkamülü yoluna qədəm qoyurdu. Bunun əsas göstəriciləri muzdlu əmək tətbiqi və yeni icarə münasibətlərinin inkişfaı idi.

XIX əsrin 80-cı illərində Naxçıvan və Şərur-Dərələyəzin dövlət kəndində aparılan təhqiqatın müəllifləri torpaqsız və aztorpaqlı kəndlilərin iş qüvvəsini satmaqla dolandıqlarını qeyd edirdilər.[12]

Naxçıvan bölgəsindəki torpaq icarəsində köhnə münasibətlərlə yanaşı, yeni kapitalist icarə sistemidə yaranırdı. İslahatdan sonrakı dövrdə Azərbaycanda torpaq icarə münasibətləri haqqında tədqiqatın müəllifi L.Həsənova yazır ki, 1886-cı ildə xüsusi şəxslərin hərracla icarəyə götürdüyü əkin sahəsinin miqdarı kəndlilər tərəfindən icarəyə götürülmüş torpaq sahəsinin yarısına bərabər idi. Ayrı-ayrı qəzalarda isə xüsusi şəxslər tərəfindən icarəyə götürülmüş torpağın miqdarı daha çox idi. Məsələn, ... Naxçıvan qəzası üzrə xüsusi şəxslərin icarəyə götürdükləri əkin sahəsinin miqdarı kəndlilər tərəfindən icarə edilmiş əkin yerlərinin miqdarından 2,6 dəfə çox idi... Tamamilə aydındır ki, kənd təsərrüfatı ilə məşğul olmayan xüsusi şəxslər icarəyə götürdükləri torpaq sahələrini aztorpaqlı kəndlilərə subicarəyə vermək və bununla da külli miqdarda qazanc əldə etmək məqsədini güdürdülər».[13] Dövlət xəzinəsi 1870-c ildə Şərur-Dərələyəz qəzasında olan «Gir» adlı 1950 des. torpağı Akim Şan Gireyə ildə 292 man. 50 qəp. icarəyə vermişdi. Onun 1.659 desyatini əkin üçün yararlı, 291 desyatini isə otlaq idi. Şan – Girey də öz növbəsində əkin üçün yararlı olan torpaqları subicarəyə vermişdi. Torpağı icarəyə götürmüş kəndlilər icarəçiyə məxsus su arxlarını təmizləmək üçün bir həftə əvəz olmadan işləməli idi. Şan –Girey icarə vaxtı bitəndən sonra, icarə haqqını 975 manata qaldırmaq, yəni hər desyatin torpaq üçün 50 qəp. vermək şərti ilə icarə müddətini 30 il uzatmaq haqqında məsələ qaldırdı və ildə 5000 manat ödəmək şərti ilə yenə 24 illiyə icarəyə götürdü. Şan – Girey bu sahənin 400 desyatinində buğda və pambıq əkdirirdi.[14]

Biz indiyədək Naxçıvan bölgəsində kapitalist münasibətilərinin inkişafının ayrı-ayrı məsələlərindən bəhs etdik. Bu faktlar nə qədər maraqlı olsa da bölgədə kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişaf səviyyəsi və digər kənd təsərrüfatı rayonları arasında yeri barədə təsəvvür yarada bilmir. Bu çatışmazlığı aradan qaldırmaq üçün XIX əsrin sonlarında Azərbaycanın dövlət kəndinin burjua təkamülü (struktur – kəmiyyət təhlili) haqqında tədqiqatın müəllifi İ.Rəfizadənin aqrar tipologiya barədə mülahizəsinə diqqət yetirmək lazımdır. O, aqrar inkişafın bir neçə əsas tipinin müəyyən edildiyini göstərir. Onun fikrincə birinci qrupa Yelizavetpol quberniyasının iqtisadi cəhətdən inkişaf etmiş taxılçılıq qəzaları – Yelizavetpol, Cavanşir, Şuşa və İrəvan quberniyasının Şərur-Dərələyəz qəzaları daxildir. Bütün qeyd olunan qəzalar əkinçiliyin ekstensiv xarakterində taxılçılığın əhəmiyyətli dərəcədə əmtəəliyi, sosial planda isə kəndlilərin xeyli dərəcədə təbəqələşməsi ilə xarakterizə olunur. Digər qrup əkinçiliyin nisbi intensivləşməsi şəraitində iqtisadi cəhətcə inkişaf etmiş qəzaları («güclü qrup») əhatə edir. Bu qrupa Quba və Naxçıvan, Şamaxı və Göyçay, Nuxa və Ərəş aiddir.[15]

Naxçıvanın kənd təsərrüfatında olduğu kimi sənayesində də kapitalist münasibətləri təşəkkül tapmışdı. Sənayedə kapitalizmin inkişafı kapitalist müəssisələrinin (sadə kooperasiya, manufaktura və fabrik – zavod) yaranması və proletariatın formalaşması ilə xarakterizə olunur. Naxçıvan bölgəsinin dağ-mədən (əsasən, duz istehsalı), yeyinti və yüngül sənayesində kapitalist müəssisələrinin həm ilkin, həm də yuxarı formalarına təsadüf edilir. Bu sənaye sahələri içərisində ipəkçilik xüsusilə ayrılır. T.Vəliyev imperializm dövründə sənaye problemlərindən bəhs edərkən ipək emalı sənayesi barədə yazmışdır: «Azərbaycanda ipək emalı sənayesinin mühüm cəhətlərindən biri də bu sahədə mövcud olan sənaye formaları arasındakı əlaqənin olmasıdır. İpək emalı sənayesi Azərbaycanda yeganə sahədir ki, burada sənaye kapitalizmi inkişafının 3 ilk mərhələsi ardıcıl olaraq bir-birini əvəz etmişdir. İpək emalı sənayesində fabrik mərhələsi heç də göydən düşməmiş, ölkənin ictimai-iqtisadi inkişafı ilə bərabər sənayenin aşağı formalarından əmələ gəlmişdi... Müəssisələrin çox hissəsi fabrik mərhələsinə məhz sadə əmtəə istehsalı mərhələsindən gəlib çıxmışdı.[16]

Bu fikir Naxçıvan bölgəsinin ipək emalı sənayesinə də aiddir. Naxçıvan bölgəsində sənayenin inkişafı ilə əlaqədar olaraq proletariat da təşəkkül tapmağa başlayırdı. Naxçıvanda inkişaf etməkdə olan sənayenin strukturu proletariatın formalaşması mənbələrinə də təsir göstərirdi. Burada mövcud olan sənaye sahələri (ipək emalı, pambıq təmizləmə, duz istehsalı və s.) elə istehsl sahələri idi ki, onlar müəyyən əmək vərdiş və bacarığı tələb edirdi. Ona görə də Azərbaycanın digər bölgələrindən fərqli olaraq Naxçıvanda proletariatın təşəkkülünün əsas mənbəyi yerli sənətkarlar idi. T.Vəliyev haqlı olaraq yazırdı: «Azərbaycanın yüngül sənayesində, xüsusilə ipək emalında fəhlələrin təşəkkül şəraiti digər sənaye sahələrindəki nisbətən fərqlənirdi. Burada ixtisasdan baş çıxaran fəhlələr tələb olunurdu. Bu cəhət isə bütün emal sahələri o cümlədən toxuculuq sənayesi üçün səciyyəvi idi. Ölkəmizdə ipəkçiliyin intişar tapdığı qəzalarda baramanın kustar yolla emalı ilk əvvəl məhz kəndli ailəsində həyata keçirilirdi. Əldə olunan ipək sapından məişətdə işlənən mallar toxunurdu. Deməli, kəndli fabrikə gələnə qədər ipəyin kustar üsulla emalı prosesi ilə tanışlıqla yanaşı ipəksarıma və ipəkburmanın da sirlərinə bələd olurdu... İpək emalı müəssisələrində işə girənlər bir növ ixtisaslı idilər. Sənayenin digər sahəsində – pambıq təmizləmədə də demək olar ki, zavodların inşa edildiyi kəndin sakinləri fəhlələrin təşəkkülündə mühüm rol oynayırdılar. Bunu eyni ilə biyan kökü emalı və yeyinti sənayesi sahələrinə, xüsusən şərab, spirt və s. istehsalına

aid etmək mümkündür».[17] Naxçıvan dağ – mədən sənayesinin xarakterini (duz istehsalı və dəyirman daşı emalı) nəzərə alsaq digər dağ-mədən istehsal sahələrindən (neft çıxarılması, mis hasilatı və i.a.) fərqli olaraq burada da fəhlələrin təşəkkülü mənbəyinin yerli sakinlərin olduğunu söyləmək olar. Beləliklə, aydın olur ki, Naxçıvanda mövcud olan sənaye sahələrində çalışan fəhlələr, əsasən yerli kəndli-sənətkarlar sırasından çıxırdı. Burada öz iş qüvvəsini reallaşdıra bilməyənlər isə Naxçıvan bölgəsinin hüdudlarından kənarda iş axtarmalı olurdu. Bunun nəticəsi idi ki, «Azərbaycan daxilində sənaye və digər sahələrdə işləməyə gedənlərin sayına görə Naxçıvan qəzası başqa qəzalardan xüsusilə fərqlənirdi. Təkcə 1903-cü ildə qəzadan kəsbkarlığa gedənlərin sayı 40 min nəfərə çatmışdı. Bunların dörddə üç hissəsindən çoxu bilavasitə Azərbaycanda özünə iş tapır, qalanı isə qonşu İrəvan quberniyası və Zaqafqaziyanın başqa yerlərində məskunlaşırdı. Onu da nəzərə çatdırmaq istərdik ki, kəsbkarlığa gedənlər qəza əhalisinin 30 %-dən çoxunu təşkil edirdilər. Sonrakı illərdə bu prosesdə elə bir ciddi dəyişiklik gözə çarpmırdı. 1914-cü ildə qəzanın 120 kəndindən kəsbkarlığa gedilmişdi». [18]

Naxçıvan bölgəsində ayrı-ayrı sənaye sahələrində çalışan fəhlələrin sayı haqqında da müəyyən məlumatlar vardır. XIX əsrin ikinci yarısında Azərbaycan qəzalarında proletariatın say dinamikasını araşdıran Z.Qafarovanın hesablamalarına görə 1890-cı illərin əvvəllərində Naxçıvan və Şərur-Dərələyəz qəzalarının maldarlıq məhsullarının emalında 50, bitki məhsullarının emalında 992, faydalı qazıntı məhsullarının emalında 635 nəfər, cəmi 1.677 nəfər çalışırdı. Onlar Bakı və Yelizavetpol quberniyaları üzrə həmin sahələrdə çalışanların (11.261 nəfər) 14,9 %-ni təşkil edirdi. 1890-cı illərin ortalarında bu rəqəmlər müvafiq olaraq 42, 1.954, 165, 2.161 və 16,4 , 1897-ci ildə 50, 1.758, 118, 1926 və 14, 2 %; 1899-cu ildə isə 45, 1650, 151, 1.850 və 10,8 % olmuşdu / nisbi hesablama bizimdir – Z.Ş.).[19] Rəqəmlərdən aydın olduğu kimi 1890-cı illərdə emaledici sənayenin bu sahəsində çalışanların 10,8 – 16,4 % -i müxtəlif illərdə Naxçıvan bölgəsinin payına düşmüşdü.

Naxçıvan bölgəsində sənaye sahəsində çalışan fəhlələrin əsas hissəsini kişilər təşkil edirdi. Bununla birgə yüngül sənaye sahələrinin,xüsusilə ipək emalının inkişafı istehsal prosesində qadın və uşaq əməyinin tətbiqini də şərtləndirirdi. 1903-cü ildə «Qarabağın və Naxçıvanın ipək emalı fabriklərində 1036 azyaşlı qız, 76 nəfər 8-15 yaşlı oğlan, 144 nəfər isə yeniyetmə və yaşlı kişi çalışırdı. Deməli, fəhlələrin 38 %-ni azyaşlılar təşkil edirdilər. Fəhlələrin beşdə birindən çoxu azyaşlı qızlar və qadınlardan ibarət idi».[20]

Beləliklə, yuxarıda göstərilən faktlardan aydın olur ki, Naxçıvan bölgəsinin iqtisadi həyatında yeni kapitalist münasibətləri tədricən daxil olmağa və möhkəmlənməyə başlamışdı.


1. **Умаев А.** Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX-начале XX века. Баку, 2002, с.24-39.
2. Статистическое описание Нахичеванской провинции, с.97; ***Budaqova S.*** Naxçıvan diyarının tarixi coğrafiyası, s.45.
3. **Шахвердиев З.** Аграрные отношения и положение крестьян в Азербайджане в 70-90-е гг. XIX в., с.30.
4. Сборник сведений о Кавказе, т. VII, с.230.
5. **Мочалов В.Д.** Крестьянское хозяйство в Закавказье в концу XIX в. М., 1958, с.202.
6. там же, с.297.
7. там же, с.366.
8. ARDA, f.379, siyahı 1, iş 5901, v.13.
9. **Кучаев М.Н.** Ростовщичества в среде крестьянского населения // Свод материалов для изучения экономического быта государственных крестьян, т.5, с.28.
10. ARDA, f.379, siyahı 1, iş 5901, v.13.
11. **Умаев А.** Процессы капиталистического развития в сельском хозяйства Азербайджана в конце XIX-начале XX века,

с.402-403.

12. Свод материалов для изучения экономического быта государственных крестьян, т.3, с.129-130.

13. ***Həsənova L.*** İslahatdan sonrakı dövrdə Azərbaycanda torpaq icarə münasibətləri. Bakı, 1985, s.26-27.

14. Свод материалов для изучения экономического быта государственных крестьян, т.5, с.226.

15. **Рафи-заде И.** Буржуазная эволюция государственной деревни Азербайджана в концу XIX века (опыт структурно-количественного анализа). Баку, 1986, с.83-84.

16. ***Vəliyev T.*** İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s.98.

17. yenə orada, s.210-211.

18. yenə orada, s.213.

19. **Кафарова З.** О динамике численности пролетариата в уездах Азербайджана во второй половине XIX в. // Изв. АН Азерб. ССР. Сер. истории, философии и права, 1984, №3, с.44.

20. ***Vəliyev T.*** İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s.226.

III FƏSİL

# NAXÇIVAN BÖLGƏSİNİN SOSİAL HƏYATI

## 3.1. Demoqrafik situasiya

Rusiya işğalı ərəfəsi və ilk illərində Naxçıvan bölgəsi əhalisinin sayını müəyyən etmək üçün əsas qaynaq İ.Şopenin «Erməni vilayətinə» aid əsəridir. Bu əsər üzrə əldə edilən rəqəmlər Rusiya işğalı ərəfəsində Naxçıvan bölgəsi əhalisinin sayını müəyyən etməklə bərabər, sonrakı dövrdə vəziyyəti izləmək üçün baza rolunu da oynayır.

İ.Şopenin məlumatına görə Rusiya işğalının ilk illərində İrəvan və Naxçıvan əyalətlərinin, Ordubad dairəsinin inzibati bölgüsü və əhalisi aşağıdakı kimi idi (Cədvəl 4, 5, 6). Göstərilən inzibati vahidlərdən başqa vilayətdə köçmə əhali də (1.411 ailə və ya 7.813 nəfər, onlardan 4.063 kişi, 3748 qadın) var idi. Bütün bunlar nəzərə alınsa vilayətdə 31.201 və ya 164.450 nəfər (onlardan 86.748 nəfər kişi, 77.664 nəfəri qadın) yaşadığı aydın olar.[1]

*Cədvəl 4*

**İrəvan əyalətinin inzibati-ərazi bölgüsü və əhalisi**

| S.№ | Şəhər və mahallar | Əhali | | | |
|---|---|---|---|---|---|
| | | ailələr | kişi | qadın | cəmi |
| | İrəvan şəhəri mahallar | 2.751 | 5.897 | 5.566 | 11.463 |
| 1. | Qırxbulaq | 597 | 1.632 | 1.421 | 3.053 |
| 2. | Zəngibasar | 1.485 | 4.535 | 3.841 | 8.376 |
| 3. | Qərnibasar | 1.998 | 5.143 | 4.537 | 9.680 |
| 4. | Vedibasar | 776 | 2.392 | 2.141 | 4.533 |
| 5. | Şərur | 1.641 | 4.350 | 3.917 | 8.267 |
| 6. | Sürməli | 2.204 | 7.141 | 6.384 | 13.525 |
| 7. | Dərəkənd-Parçenis | 590 | 1.745 | 1.527 | 3.272 |
| 8. | Saatlı | 160 | 517 | 487 | 1.004 |
| 9. | Talin | 350 | 1.038 | 942 | 1.980 |
| 10. | Seyidli və Axsaxlı | 317 | 969 | 813 | 1.782 |
| 11. | Sərdarabad | 815 | 2.798 | 2.630 | 5.418 |
| 12. | Karpibasar | 1.850 | 5.860 | 5.095 | 10.955 |
| 13. | Abaran | 1.457 | 4.706 | 4.227 | 8.933 |
| 14. | Dərəçiçək | 1.437 | 4.577 | 4.073 | 8.650 |
| 15. | Göyçay | 2.499 | 7.673 | 6.581 | 14.254 |
| | Yekun | 20.927 | 60.973 | 54.182 | 115.155 |

*ardı var*

*davamı*

*Qaynaq: **Şopen İ.** İstoriçeskiy pamətnik sostoənie Armənskoy oblasti v gpoxu ee prisoedinenie k Rossiyskoy imperii, s.638*

*Cədvəl 5*

**Naxçıvan əyalətinin inzibati-ərazi bölgüsü və əhalisi**

| S.№ | Şəhər və mahallar | Əhali | | | |
|---|---|---|---|---|---|
| | | ailələr | kişi | qadın | cəmi |
| | Naxçıvan şəhəri mahallar | 1.330 | 2.871 | 2.599 | 5.470 |
| 1 | Əlincəçay | 731 | 1.885 | 1.697 | 3.582 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2 | Naxçıvan | 2.070 | 4.991 | 4.486 | 9.477 |
| 3 | Məvazixatun | 498 | 1.431 | 1.212 | 2.643 |
| 4 | Xok | 335 | 842 | 757 | 1.599 |
| 5 | Dərələyəz | 1.574 | 4.075 | 3.661 | 7.736 |
| | Yekun | 6.538 | 16.095 | 14.412 | 30.507 |

*Qaynaq: **Şopen İ.** İstoriçeskiy pamətnik sostoəniə Arměnskoy oblasti v gpoxu ee prisoedineniə k Rossiyskoy imperii, s.638*

***Cədvəl 6***

**Ordubad dairəsinin inzibati-ərazi bölgüsü və əhalisi**

| S№ | Şəhər və mahallar | Əhali | | | |
|---|---|---|---|---|---|
| | | ailələr | kişi | qadın | cəmi |
| | Ordubad şəhəri mahallar | 803 | 1.771 | 1.673 | 3.444 |
| 1. | Ordubad | 196 | 421 | 422 | 843 |
| 2. | Əylis | 320 | 970 | 916 | 1.886 |
| 3. | Dəstə | 379 | 991 | 888 | 1.879 |
| 4. | Bilev | 499 | 1.194 | 1.123 | 2.317 |
| 5. | Cananab | 128 | 306 | 300 | 606 |
| | Yekun | 2.325 | 5.653 | 5.322 | 10.975 |

*Qaynaq: **Şopen İ.** İstoriçeskiy pamətnik sostoəniə Arměnskoy oblasti v gpoxu ee prisoedineniə k Rossiyskoy imperii, s.638*

Bu məlumatlar əsasında Naxçıvan bölgəsinin (müasir sərhədlər üzrə) ərazisini və əhalisini müəyyən etməyə çalışaq. Qaynaqlardan aydın olur ki, İrəvan əyalətindən Şərur mahalı bütünlüklə, Vedibasar mahalından Sədərək kəndi, Naxçıvan əyalətindən Əlincəçay, Naxçıvan və Xok mahalları, Ordubad dairəsi isə bütünlüklə müasir Naxçıvan bölgəsinin əsasında durmuşdur. Qeyd olunan ərazilərə dair məlumatları əsas götürməklə Naxçıvan bölgəsi əhalisinin sayını müəyyənləşdirməyə çalışaq. (Cədvəl 7)

***Cədvəl 7***

**Naxçıvan bölgəsinin əhalisi (müasir sərhədlər üzrə)**

| Ərazi | Əhali | | | |
|---|---|---|---|---|
| | ailələr | kişi | qadın | cəmi |
| **Naxçıvan əyalətindən** | | | | |
| Naxçıvan şəhəri | 1.330 | 2.871 | 2.599 | 5.470 |
| Əlincəçay mahalı | 731 | 1.885 | 1.697 | 3.582 |
| Naxçıvan «---» | 2.070 | 4.991 | 4.486 | 9.477 |
| Xok «---» | 335 | 842 | 757 | 1.599 |

*ardı var*

*davamı*

| | | | | |
|---|---|---|---|---|
| **Ordubad dairəsindən** | | | | |
| Ordubad şəhəri | 803 | 1.771 | 1.673 | 3.444 |
| Odubad mahalı | 196 | 421 | 422 | 843 |
| Əylis «---» | 320 | 970 | 916 | 1.886 |
| Dəstə «---» | 379 | 991 | 888 | 1.879 |
| Bilev «---» | 499 | 1.194 | 1.123 | 2.317 |
| Cananab «---» | 128 | 306 | 300 | 606 |
| **İrəvan əyalətindən** | | | | |
| Şərur mahalı | 1.641 | 4.350 | 3.917 | 8.267 |
| Verdibasar mahalının Sədərək kəndi | 135 | 469 | 409 | 878 |
| Yekun | 8.567 | 21.061 | 19.187 | 40.248 |

Beləliklə, cədvəldən aydın olur ki, Naxçıvan bölgəsində (müasir sərhədlər üzrə) 1829-cu ildə 8.567 ailə və ya 40.248 nəfər əhali yaşamışdır.

Şopenin məlumatı ilə birgə quberniya katibi Zolotnitskinin 1831-ci ildə apardığı kameral təsvirin materialları da Naxçıvan bölgəsinin əhalisi haqqında təsəvvürləri dəqiqləşdirməyə imkan verir.[2]

«Erməni vilayəti»nin idarəsi haqqında 1833-cu il əsasnaməsinə görə Naxçıvan əyalətini altı mahala (Xok, Naxçıvan, Əlincəçay, Yaycı, Dərələyəz, Məvazixatun) ayrılmışdı. Ordubad dairəsinin əvvəlki inzibati-ərazi bölgüsü qalmışdı. 1840-cı ildə «Erməni vilayəti» ləğv olunduqdan sonra İrəvan və Naxçıvan əyalətləri qəzaya çevrilmişdi. 1842-ci ildə yeni kameral təsvir keçirilmişdi. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, həmin kameral təsvirin Naxçıvan bölgəsinə dair materialları tam şəkildə bizə gəlib çatmamışdır. ARDTA-dan yalnız Naxçıvan şəhəri, Naxçıvan qəzasının Ordubad sahəsi, Ordubad şəhəri, İrəvan qəzasının Şərur sahəsinə dair materiallar aşkar edilmişdir.[3]

1849-cu ildə İrəvan quberniyası yaradıldıqda Naxçıvan bölgəsinin ərazisi İrəvan qəzasının Şərur sahəsini, Naxçıvan qəzasının Naxçıvan sahəsini və Ordubad qəzasını əhatə edirdi. Bu vəziyyət 1867-ci ilin dekabrınadək davam etmişdi. Bu arada Naxçıvan bölgəsinin əhalisinin 1850-ci ilə aid ümumi sayı müəyyənləşdirilmişdir.[4] Həmin məlumata görə 1850-ci ildə Naxçıvan bölgəsində 56.000 ailə yaşayırdı. Həmin vaxt Ordubad qəzası ləğv olunaraq Naxçıvan qəzasına birləşdrilmişdi. Naxçıvan qəzası bütövlükdə üç sahəni: Naxçıvan, Dərələyəz və Ordubad sahələrini əhatə edirdi. S.P.Zelinskinin Qafqaz haqqında məlumatlar toplusunun VII cildində (Tiflis, 1880) nəşr etdirdiyi məqalədə bu vəziyyət əks olunmuşdur.[5] Müəllif məqalədə hər üç mahalın əhalisinin 1829 və 1873-cü illər üzrə müqayisəli cədvəlini də vermişdir həmin cədvəlin əhalinin say dinamikasına dair məlumatlarını burada təkrar etməyi zəruri hesab etdik (Cədvəl 8).

*Cədvəl 8*

**Naxçıvan, Ordubad və Dərələyəz mahalları əhalisinin 1829* və 1873-cü illər üzrə say dinamikasının müqayisəsi**

| Şəhər və mahallar | 1829 | | | | 1873 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Ailələr | Əhali | | | Ailələr | Əhali | | |
| | | kişi | qadın | cəmi | | kişi | qadın | cəmi |
| Naxçıvan ş | 1.330 | 2.871 | 2.599 | 5.470 | 1.483 | 3.714 | 3.147 | 6.861 |
| Ordubad ş. | 803 | 1.771 | 1.673 | 3.444 | 840 | 2.065 | 1.426 | 3.491 |
| Naxçıvan m. | 3.343 | 8.730 | 7.796 | 16.526 | 5.719 | 21.798 | 16.750 | 38.548** |
| Ordubad m. | 1.522 | 3.882 | 3.653 | 7.535 | 2.413 | 10.170 | 7.287 | 17.457 |
| Dərələyəz m. | 1.735 | 4.452 | 4.016 | 8.468 | 3.869 | 15.945 | 13.572 | 29.517 |
| Yekun | 8.833 | 21.706 | 19.738 | 41.444 | 14.359 | 53.692 | 42.182 | 95.874 |

*Qaynaq: **Zelinskiy S.P.** Tri maqala: Naxiçevanskiy, Ordubadskiy i Daralaqezskiy: Qeoqrafiçeski-statistiçeskoe i selğskoxozəystvennoe opisanie // Sbornik svedeniy o Kavkaze. t. VII. Tiflis, 1880, s.248.*

**1829-cu ilə aid məlumat Şopenin əsərindən götürülmüşdür.*

*** 35 molokan ailəsi də (124 k. və 120 q. cinsi) Naxçıvan mahalının ümumi əhalisinə daxil edilmişdir.*

Cədvəldən aydın olduğu kimi 1829-cu ildə göstərilən şəhər və mahallarda 8.833 ailə, 1873-cü ildə isə 14.359 ailə (+5.526) yaşamış, yaxud onların sayı 162,5 % artmışdı. Ümumi əhali isə 41.444 nəfərdən 95.874 nəfərə (+54.430) çatmış, yəni 231,3 % artmışdı. Bu zaman İrəvan qəzası tərkibində olan Şəruru şərti olaraq Dərləyəz ilə əvəz etsək, bu göstərici Naxçıvan bölgəsi əhalisinə uyğun olar.

1870-ci illərin əvvəllərində Şərur İrəvan qəzasından Naxçıvan qəzasına birləşdirildi. Lakin 1874-cü ildə Şərur-Dərələyəz qəzasının yaradılması nəticəsində hər iki sahə Şərur və Dərələyəz Naxçıvan qəzasından ayrıldı. Naxçıvan qəzasının bu vəziyyəti Qafqaz haqqında məlumatlar toplusunun V cildində (Tiflis, 1879) əks olunmuşdur.[6] Aparılan hesablamaya görə belə bir vəziyyətdə Naxçıvan qəzasında 8.419 həyət qeydə alınmışdı. Təbii ki, bu rəqəm, Şərur sahəsi nəzərə alınmadığına görə Naxçıvan bölgəsi üzrə real situasiyanı tam əhatə etmir. Bu çatışmazlığı aradan qaldırmaq üçün 1886-cı il ailə siyahısına müraciət edək. (Cədvəl 9)

*Cədvəl 9*

**1886-cı il ailə siyahısına əsasən Naxçıvan bölgəsinin əhalisi**

| Ərazi | Əhali | | | |
|---|---|---|---|---|
| | **ailələr** | **kişi** | **qadın** | **cəmi** |
| Naxçıvan qəzası | 9.918 | 41.353 | 31.529 | 72.882 |
| Şərur – Dərələyəz qəzasından Şərur sahəsi | 4.907 | 17.380 | 14.380 | 31.760 |
| İrəvan qəzasından Sədərək kənd cəmiyyəti | 526 | 2.134 | 1.603 | 3.737 |
| Yekun | 15.351 | 60.867 | 47.512 | 108.379 |

*Qaynaq: Svod statistiçeskix dannıx o naselenii Zakavkazskoqo kraə, izvleçennıx iz poemeynıx spiskov 1886 q. Tiflis, 1893*

Cədvəldən göründüyü kimi 1886-cı ildə Naxçıvan bölgəsinin ümumi əhalisi 15.351 ailədən, yaxud 108.379 nəfərdən ibarət olmuşdu.

1897-ci ildə Rusiya imperiyasında əhalinin birinci ümumi siyahıya alması keçirilmişdi. Həmin siyahıya alma materialları da əhalinin öyrənilməsi üzrə ən mühüm qaynaqlardan birini təşkil edir. Lakin buradakı yekun materialında Şərur Dərələyəzə dair məlumatın ümumi şəkildə verilməsi, nisbətən dəqiq hesablama aparmağa imkan vermir. Ona görə də burada şərti olaraq Şərur-Dərələyəzə dair məlumatı iki yerə bölüb Naxçıvan qəzasına dair məlumatla toplamağa üstünlük verdik. Bu halda 139.040 rəqəmi alınar. [7] Aydındır ki, Şərur Dərələyəzə nisbətən çox əhaliyə malik idi. Digər tərəfdən burada Sədərək də nəzərə alınmamışdır. Belə olduğu halda 1897-ci ildə Naxçıvan bölgəsində 150.000 nəfərdən çox əhali olduğunu güman etmək olar.

Bəzi hesablamalara görə artıq 1917-ci il oktyabr çevrilişi ərəfəsində Naxçıvan qəzasında 122.208 nəfər, Şərurda 40.000 nəfər, Naxçıvan şəhərində isə 8.934 nəfər, ümumilikdə isə 170.142 nəfər əhali olduğu bildirilir, lakin bunun nisbətən şişirdildiyi güman edilərək, əhalinin 165.000 olduğu dəqiqləşdirilir. [8]

Beləliklə, göstərilən ümumiləşdirilmiş rəqəmlər əsasında Naxçıvan bölgəsi əhalisinin XIX-XX əsrlər üzrə say dinamikasını aşağıdakı kimi müəyyən etmək olar. (Cədvəl 10)

*Cədvəl 10*

**XIX-XX əsrin əvvəllərində Naxçıvan bölgəsi (müasir sərhədlərdə) əhalisinin say dinamikası**

| İllər | Əhali | |
|---|---|---|
| | **cəmi** | **Artım** |
| 1829 | 40.248 | |
| 1850 | 56.000 | +15752 |
| 1886 | 108.379 | +52379 |
| 1917 | 165.000 | +56621 |

Faktlardan göründüyü kimi Naxçıvan bölgəsində əhalinin sayı 1829-cu ildəki 40.248 nəfərdən artaraq 1917-ci ildə 165.000 nəfərə çatmışdır, yəni 90 ilə yaxın dövr ərzində əhalinin sayı 124.752 nəfər və ya 410 % çoxalmışdı. Burada artımın əsas səbəbləri içərisində çarizmin köçürmə siyasəti ilə birgə, əhalinin təbii hərəkətinin yüksək olmasını, xanlıq dövrü üçün səciyyəvi olan ara müharibələrinə son qoyulmasını sosial-iqtisadi həyatdakı nisbi inkişafı qeyd etmək olar.

Naxçıvan bölgəsi əhalisinin say dinamikası onun yerləşməsindəki vəziyyətə təsir göstərmişdi. Bölgə əhalisi şəhər və kəndlərdə yerləşmişdi. Naxçıvan bölgəsi üçün iki şəhər – Naxçıvan və Ordubad xarakterik idi.

İ.Şopenin məlumatına görə Rusiya işğalından sonra Naxçıvan şəhərində 1.330 ailə, yaxud 5.470 nəfər yaşayırdı. Onlardan 2.871 nəfəri kişi, 2.599 nəfəri qadın idi. Eyni dövrdə Ordubad şəhərində 803 ailə, yaxud 3.444 nəfər qeydə alınmışdı. Onlardan 1.771 nəfəri kişi, 1.673 nəfəri isə qadın idi. Hər iki şəhəri birlikdə nəzərdən keçirsək Naxçıvan bölgəsində 2.133 ailə, yaxud 8.914 nəfər şəhər ailəsi var idi. [9] 1850-ci il məlumatına görə Naxçıvanda 4.410, Ordubadda isə 3.973 nəfər yaşayırdı. Birlikdə Naxçıvan bölgəsinin şəhər əhalisi 8.383 nəfər təşkil edirdi. [10] 1873-cü il kameral təsvirinin nəticələrinə görə Naxçıvan şəhərində 6.877, Ordubadda isə 3.489 nəfər olduğu birldirilir. Həmin ildə Naxçıvan bölgəsinin şəhər əhalisi 10.366 nəfər idi. [11] 1886-cı il ailə siyahısına görə Naxçıvan şəhərinin əhalisi 6.939, Ordubad şəhərinin əhalisi 4.199 nəfər, birlikdə isə 11.138 nəfər olmuşdu. [12] Rusiyada ilk dəfə keçirilən 1897-ci il əhali siyahıya almasının məlumatına görə Naxçıvan şəhərinin əhalisi 8.790, Ordubad şəhər əhalisi isə 4.611 nəfər, cəmi 13.401 nəfər olmuşdu. [13] 1917-ci il

Qafqaz təqviminin məlumatına görə Naxçıvan şəhərində 8.934, Ordubadda 5.717 nəfər, birlikdə isə 14.651 nəfər şəhər əhalisi var idi.[14] Naxçıvan və Ordubad şəhərlərnin əhalisinə dair məlumatları cədvəl şəklində ifadə edək. (Cədvəl 11)

*Cədvəl 11*

**Naxçıvan bölgəsinin Naxçıvan və Ordubad şəhərlərinin əhalisinin say dinamikası (1829-1917-ci illər)**

| İllər | Naxçıvan ş. | | Ordubad ş. | | cəmi |
|---|---|---|---|---|---|
| | mütləq | % | mütləq | % | |
| 1829 | 5.470 | 61,36 | 3.444 | 38,64 | 8.914 |
| 1850 | 4.410 | 52,61 | 3.973 | 47,39 | 8.383 |
| 1873 | 6.877 | 66,34 | 3.489 | 33,66 | 10.366 |
| 1886 | 6.939 | 62,30 | 4.199 | 37,70 | 11.138 |
| 1897 | 8.790 | 65,60 | 4.611 | 34,40 | 13.401 |
| 1917 | 8.934 | 60,98 | 5.717 | 39,02 | 14.651 |

*ardı var*

*davamı*

Naxçıvan və Ordubad şəhərləri əhalisinin say dinamikasına dair müəyyən edilmiş sıra əhalinin artım vəziyyətini, ümumi şəhər əhalisi içərisində hər bir şəhərin payını aşkar etməyə imkan verir. Naxçıvan şəhərinə aid sütundan göründüyü kimi 1829-1850-ci illər arasındakı azalma istisna olmaqla onun əhalisinin sayı digər dövrlərdə artmışdır. Çox maraqlıdır ki, Naxçıvan şəhərinin nisbətən azaldığı 1829-1850-ci illər arasında Ordubadda şəhər əhalisi nisbi rəqəmlə bölgənin şəhər əhalisi içərisində ən yüksək göstəriciyə (47,39 %) çatmışdır. Qalan hallarda isə Naxçıvan şəhərinin əhalisi Ordubada nisbətən yüksək olmuşdur.

Naxçıvan bölgəsinin şəhər əhalisini müəyyən etdikdən sonra onun ümumi əhali içərisində payını da aydınlaşdırmaq olar. (Cədvəl 12)

*Cədvəl 12*

**Naxçıvan bölgəsinin şəhər əhalisinin ümumi əhali içərisində payı**

| İllər | ümumi əhali | | şəhər əhalisi | |
|---|---|---|---|---|
| | mütləq | nisbi | mütləq | nisbi |
| 1829 | 40.248 | 100 | 8.914 | 22,15 |
| 1850 | 56.000 | 100 | 8.383 | 14,97 |
| 1886 | 108.379 | 100 | 11.138 | 10,27 |
| 1917 | 165.000 | 100 | 14.651 | 8,88 |

Aydın olduğu kimi Naxçıvan bölgəsinin şəhər əhalisinin ümumi əhali içərisində payı getdikcə azalmış, 1917-ci ildə təxminən 9 % təşkil etmişdir.

XIX əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərlərinə dair xüsusi tədqiqatın müəllifinin hesablamalarına görə 1873-cü ildə ümumi əhali içərisində şəhər əhalisinin payı 11,15; 1886-cı ildə 14,06; 1897-ci ildə 14,58 % olmuşdur.[15] Müqayisədən aydın olur ki, Naxçıvan bölgəsi üzrə şəhər əhalisinin payı Umumazərbaycan səviyyəsindən aşağı olmuşdur.

Əldə olunan rəqəmlərin verdiyi imkan daxilində Naxçıvan bölgəsi şəhər əhalisinin ümumi şəhər əhalisi içərisində payını da müəyyən edə bilərik: 1873-cü ildə Şimali Azərbaycanda şəhər əhalisi 141.882 nəfər idi. Həmin ildə bu göstərici Naxçıvan bölgəsi üzrə 10.366 nəfər olmuşdu (7,3 %). 1886-cı ildə bu rəqəmlər müvafiq olaraq 225.015 və 11,138 (4,9 %); 1897-ci ildə 275.664 və 13.401 (4,86 %) olmuşdu. Buradan göründüyü kimi Naxçıvan bölgəsində şəhərlərin inkişafı Umumazərbaycan üzrə olan vəziyyətdən qismən geri qalmışdı.

Naxçıvan bölgəsi üzrə şəhər əhalisini çıxdıqdan sonra qalan əhali kənd yerlərində məskunlaşmışdı. İ.Şopenin məlumatına əsasən Naxçıvan bölgəsinin (müasir sərhədlərdə) ərazisində təxminən 200-dək kənd olmuşdur.[16] 1886-cı il ailə siyahısına[17] və 1917-ci il məlumatına görə[18] isə Naxçıvan bölgəsində 240-dək kənd olduğu aydın olur. Deməli, təxminən 90 ilə yaxın dövr ərzində Naxçıvan bölgəsində olan kənd yaşayış məskənlərinin sayı 40-dək artmışdı.

Əhalinin ən əsas göstəricilərindən biri onun tərkibi ilə bağlıdır. Cədvəl 4-dən göründüyü kimi 1829-cu il məlumatına görə Naxçıvan bölgəsində 21.061 nəfər kişi, 19.187 qadın var idi. Qadınların sayı kişilərin sayından 1874 nəfər çox idi, yaxud hər 1000 qadına 1.097,6 kişi düşürdü. 1886-cı ildə isə kişilərin sayı 60.867, qadınların sayı 47.512 olmuşdu, yəni kişilərin sayı qadınların sayından 13.355 nəfər çox olmuş, yaxud hər bir qadına 1.281,1 nəfər kişi düşmüşdü. 1897-ci il siyahıya almasının məlumatına görə Naxçıvan əhalisinin sayı hesablama üzrə ümumi şəkildə

müəyyən edildiyindən, cins strukuru da, bu yol ilə aydınlaşdırıla bilər. Bütövlükdə Naxçıvan bölgəsinin daxil olduğu İrəvan quberniyasında kişilərin sayı qadınların sayından üstün idi. Naxçıvan qəzasında qəza üzrə hər yüz kişiyə 90,51, şəhərlərdə isə 83,11 qadın düşürdü. Şərur-Dərələyəz qəzasında bu göstəricilər 86,67 və 71,17 idi. 1897-ci il əhali siyahıya almasının tərtibçiləri müxtəlif yaş qruplarında kişi və qadınların nisbətini də müəyyən etmişlər. 10 yaşından kiçik, 10-19, 20-29, 30-39, 40-49, 50-59, 60 və daha yuxarı yaşlar üzrə hər bir qrupda kişilərin üstün olduğu aşkar olunmuşdur. [19]

Naxçıvan torpaqları tarixi Azərbaycan ərazisi olmaqla, onun yerli əhalisini azərbaycanlılar (türklər) təşkil edirdi. Naxçıvan bölgəsi əhalisinin tərkibindəki ermənilər gəlmə idi. Gəlmə erməniləri də iki yerə bölmək olar: 1) Rusiya işğalınadək bu bölgəyə gələnlər (rus qafqazşünaslığında onlar səhvən «yerlilər», yaxud «köhnədən yaşayanlar» adlandırılır); 2) işğal zamanı və sonra gələnlər. Adətən müəlliflər Naxçıvan bölgəsi əhalisində ermənilərin sayından bəhs edərkən Naxçıvan vilayəti üzrə məlumata müraciət edirlər. İ.Şopenə görə Naxçıvan əyaləti üzrə Rusiya işğalınadək gəlmə ermənilər 530 ailə (2.690 nəfər), Ordubad dairəsi üzrə 400 ailə (2.388 nəfər) idi. Müqayisə üçün qeyd edək ki, bu dövrdə azərbaycanlılar müvafiq olaraq 3.863 ailə (17.138 nəfər) və 1.675 (7.247 nəfər) təşkil etmişdi. Yalnız köçürmə hesabına çar hökuməti əhalinin etnik tərkibində xeyli dəyişiklik yaratmışdı. Gəlmə ermənilərin sayı Naxçıvan əyalətində 2.145 ailə (10.589 nəfər), Ordubad dairəsində isə 250 ailə (1.340 nəfər) olmuşdu. Beləliklə, Rusiya işğalından sonra həmin dövr üzrə Naxçıvanda 8.863 ailə qeydə alınmışdı ki, onlardan 5.538 ailə (62,49 %) azərbaycanlı, 3.325 ailə (37,51 %) erməni idi. [20] Naxçıvan bölgəsinin müasir sərhədləri nəzərə alınmaqla hesablama aparsaq aydın olar ki, azərbaycanlılar bütün ailələrin 66,5 %-ni, ermənilər isə yalnız 33,5 %-ni təşkil edib.

1917-ci ildə isə Naxçıvan bölgəsində (əhalinin ümumi sayı 170.142 nəfər qəbul edilsə) azərbaycanlıların sayı 115.742 nəfər (68 %), qalanları isə ermənilər və qismən kürdlər olmuşdu. [21] Çarizmin rus kəndlilərini köçürmə siyasəti bütün Azərbaycanı olduğu kimi Naxçıvan bölgəsini də əhatə etmişdi. Naxçıvan qəzasında Karmalinovka (Biçənək – Z.Ş.) adlı rus kəndi salınmışdı. Bu kənddə XIX əsrin 30-80-cı illərdə 164, XIX əsrin 80-cı illərinin ortaları – 1904-cü ildə 280, 1905-1917-ci illər arasında 310 nəfər hər iki cinsdən əhali yaşamışdı.[22]

Naxçıvan bölgəsi əhalisinin əksərən azərbaycanlılardan ibarət olmasını toponimik materiallar da təsdiq edir. [23]

1. **Шопен И.** Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.642
2. ARDTA. f.24, siyahı 1, iş 353, 354, 355, 357, 358, 359, 360, 361, 372.
3. yenə orada, f.25, siyahı 2, iş 7, 4, 3, 5.
4. yenə orada, f.379, siyahı 3, iş 5901, v.6.
5. **Зелинский С.П.** Три магала: Нахичеванский, Ордубадский и Даралагезский: Географически-статистическое и сельскохозяйственное описание // Сборник сведений о Кавказе. т. VII. Тифлис, 1880, с.209-258.
6. **Зейдлиц Н.** Списки населенных мест Бакинской, Эриванской, Кутаисской и Ставропольский губерний и Терской области // Сборник сведений о Кавказе. т.V. Тифлис, 1879.
7. Первая всеобщая перепись населения Российской империи. LXXI. Эриванская губерния. СПб., 1906, с.1.
8. ARDTA. f.379, siyahı 3, iş 5901, v.6.
9. **Шопен И.** Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.635-638.
10. ARDTA. f.379, siyahı 3, iş 5901, v.6.
11. Сборник сведений о Кавказе, т.VII.
12. Свод статистических данных о населении Закавказского края, извлеченных из поемейных списков 1886 г. Тифлис, 1893, б/п.
13. Первая всеобщая перепись населения Российской империи 1897 г.. LXXI. Эриванская губерния, с.2.
14. Кавказский календарь на 1917 г., с.217, 219.
15. **Мурадалиева Э.Б.** Города Северного Азербайджана во второй половине XIX века. Баку, 1991, с.67
16. **Шопен И.** Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.556-564, 599-630
17. Свод статистических данных, б/п.
18. Кавказский календарь на 1917 г.; ARDTA. f.379, siyahı 3, iş 5901, v.6.
19. Первая всеобщая перепись населения Российской империи 1897 г.. LXXI. Эриванская губерния, с.VIII.
20. **Шопен И.** Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.635-642.
21. ARDTA. f.379, siyahı 3, iş 5901, v.6.
22. **Исмаил-заде Д.И.** Русское крестьянство в Закавказье. 30-е годы XIX- начало XX в. М., 1982, с.294.
23. Bax: ***Babayev S.*** Naxçıvanda «Kitabi – Dədə Qorqud» toponimləri. Bakı, 1999; ***Budaqov B., Qeybullayev Q.*** Naxçıvan diyarının yer yaddaşı. Bakı, 2004 və b.

### 3.2. Əhalinin maddi-məişət vəziyyəti

XIX-XX əsrin əvvəllərində bütün Şimali Azərbaycanda olduğu kimi Naxçıvan bölgəsində də Rusiyanın müstəmləkəçilik sisteminin yaratdığı sosial-siyasi və milli zülm ağır maddi-məişət şəraiti ilə müşahidə olunurdu.

Əhalinin əksər hissəsini kəndlilər təşkil etdiyindən kəndlilərin maddi-məişət vəziyyətindən başlayaq. Naxçıvan bölgəsi kəndləri üçün əsas istehsalçı olan kəndlilərin aztorpaqlı və torpaqsız olması xarakterik idi. Buna baxmayaraq kəndlilər üzərinə yüksək vergi və mükəlləfiyyətlər qoyulurdu. XIX əsrin 40-cı illərində sahibkarlar və kəndlilər arasındakı münasibətlərə dair 1847-ci il 20 aprel 28 dekabr və 8 iyun əsasnaməsi verilmişdi. 1851-ci il əsasnaməsi bilavasitə İrəvan quberniyası və Tiflis quberniyasının Axalsıx qəzasına aid edilsə də həyata keçirilmədi.[1]

1847-ci il əsasnaməsinə görə kəndlilər malcəhət (məhsulun onda biri) verməli idi. Sahibkarın tələbi ilə ev və tarla işləri üçün hər 10 ailədən bir kişi xidmətçisi ayrılmalı idi və s. 1851-ci il Əsasnaməsi də bəzi dəyişikliklərlə eyni mahiyyətə malik idi. Burada mülk, yəni torpaqdan əldə edilən bütün məhsulun otuzda dörd hissəsi verilməli, hər bir ailədən işçi ayrılması və mülkədarlar üçün əvrəz təşkili, pul mükəlləfiyyəti və s. nəzərdə tutulmuşdu. Bu vergi və mükəlləiyyətlərdən əvrəz əvvəllər Naxçıvanda mövcud deyildi.

Dövlət kəndliləri də ağır vergi və mükəlləfiyyət daşıyırdı. Onlar həyətbaşı vergisi, zemski, torpaq və s. ictimai vergilər verməli idi. Müsəlmanlar hərbi xidmətə aparılmadığına görə xüsusi rüsum ödəyirdilər.

Naxçıvan qəzasında həyətbaşı vergi 12 kənddə 1 manatdan 2 manata qədər, 46 kənddə isə 3-4 manat idi. Şərur-Dərələyəz qəzasında isə 60 kəndin əhalisi 2-3 man., 57 kəndin əhalisi 4-5 man. həyətbaşı vergi verməli idi. Naxçıvan qəzasında hər kişi başına həyətbaşı vergi 1 man 28 qəp., Şərur – Dərələyəzdə isə 1 man. 20 qəp. idi. Hər iki qəzada 1885-ci ildə yığılan həyətbaşı verginin ümumi məbləği 46.085 man., torpaq vergisi isə 21.819 man. idi. Bundan başqa həmin qəzaların kəndliləri 57.141 man. zemski vergisi (hər bir kəndli (kişi) başına orta hesabla 1 man. 53 qəp.) ödəyirdilər.[2]

Naxçıvan qəzasının 166 həyətdən ibarət olan dövlət kəndinin əhalisi 1898-ci ildə 342 man. həyətbaşı vergisi, 360 man. 95 qəpik quberniya hərbi rüsumu, 972 man. torpaq vergisi, müsəlmanların hərbi xidmətə çağırılmadığına görə 52 man. 67 qəpik ödəməli idi. Bundan əlavə həmin kəndin əhalisi 3.242 man. 96 qəp. icma mükəlləfiyyəti daşımalı idi. Beləliklə, bir kəndin əhalisi 5.908 man. çox vergi verirdi. Borc çox olduğuna görə kəndlilər onun öhdəsindən gələ bilmir, onu ildən ilə keçirirdilər. 1899-cu il yanvarın 1-nə həmin əhalinin ötən illərdən 2908 man. 65 qəpik borcu qalmışdı.[3]

Vergilərin kəndlilər arasında bölüşdürülməsi və yığılması da onların üzərində bir yük idi. Dövlət vergiləri kənd icmalarının üzərinə qoyur, onlar isə həmin vergini kəndlilər arasında bölürdü. Vergilər iki yerə bölünür və iki dəfə (iyulun 30 və dekabrın 31-dək) ödənirdi. Vergini vaxtında ödəyə bilməyənlər hər ay üçün ödəyəcəyi verginin bir faizi miqdarında cərimə verirdi.

Təbii fəlakətlər və məhsulsuzluq illərinə baxmayaraq dövlət və mülkədarlar kəndlilərə heç bir güzəştə getmirdi. Bəzi vaxtlarda isə vergilərin miqdarı süni şəkildə artırılırdı. Bunun nəticəsində kəndlilərin vergilər üzrə borcu ildən-ilə artırdı. Arxivlərdən aşkar edilmiş rəsmi sənədlər əsasında 1886-1900-cu illərdə Naxçıvan və Şərur-Dərələyəz qəzaları kəndlilərinin vergi qalıqları müəyyənləşdirilmişdir. Müqayisə üçün qeyd edək ki, 1886-cı ildə bu rəqəm 23794 man. 78 qəp. idisə, 1900-cu ildə 408.585 man. 77 qəp. təşkil edirdi.[4]

Vergi və mükəlləfiyyətlərin ağırlığı, bünün nəticəsində yaranan vergi borcları XX əsrin əvvəlləri üçün də xarakterik idi. 1904-cü ildə Naxçıvan qəzası üzrə toplanmamış vergilər 361.936 man., Şərur-Dərələyəz qəzası üzrə 175.278 man. idi.[5]

Birinci dünya müharibəsi illərində kəndlilərin vəziyyəti daha da ağırlaşdı. Sərhəd rayonu olan Naxçıvan Qafqazdakı rus ordusunun arxa cəbhəsi oldu. Çar məmurları əlavə vergilər təyin edir, bəzən sadəcə olaraq məhsulları və mal-qaranı müsadirə edirdilər. Yüz və minlərlə kəndli sərhəddə hərbi istehkamların tikintisinə, hərbi sursat və ərzağın daşınmasına səfərbər edilmişdi. Yaranmış anarxiya və özbaşınalıqdan istifadə edən yerli hakim təbəqə də vergi və mükəlləfiyyətləri çoxaldırdı.[6]

Vergi və mükəlləfiyyətlər ilə birgə baş verən təbii fəlakətlər, onların ağır nəticələri də kəndlilərin vəziyyətinə mənfi təsir göstərirdi. 1901-1903-cü illərdə Naxçıvan və Şərur-Dərələyəz qəzalarında Ələkli, Verməziyar, Xanlıqar, Parçi, Daşarx, Dizə, Yaycı, Tumbul, Şıxmahmud, Nurs, Kültəpə, Yamxana və b. kəndlər aclıq çəkmişdi. Başnoraşen kəndliləri aclıq çəkənlərdən ötəri üç il ərzində ödənmək şərti ilə 3112 man. buraxılması xahişi ilə qubernatora müraciət etmişdilər. Lakin qubernator xərclərin çoxluğuna istinadən imtina etmişdi.[7]

Şimali Azərbaycanın digər bölgələrində olduğu kimi XIX-XX əsrin əvvəllərində Naxçıvan bölgəsində də əhaliyə tibbi xidmət aşağı səviyyədə idi. Bu da əhali içərisində müxtəlif xəstəliklərin yayılmasına, ölüm hallarının artmasına səbəb olurdu. Tədqiqatçılardan biri yazırdı: «İrəvan quberniyasının Naxçıvan, Şərur-Dərələyəz, İrəvan qəzalarının hər birində XIX əsrin sonu – XX əsrin əvvəllərində 1 həkim, 3 feldşer, 1 mamaça

çalışırdı. Hər qəzada 1 xəstəxana və 2 feldşer məntəqəsi fəaliyyət göstərirdi. Lakin hər bir həkimin radiusu 50-100 km. olan sahədə 50-55 min nəfər əhaliyə xidmət göstərməsi, nəqliyyat və yolların yarıtmazlığı tibbi xidmətin aşağı səviyyədə olmasından xəbər verir».[8] Buna görə də bölgədə kütləvi xəstəliklər geniş miqyas almışdı. 1905-ci ildə Naxçıvanda, 1906-cı ildə isə Şərur-Dərələyəzdə malyariya xəstəliyi yayılmışdı.[9]

Kəndlilərin iş və məişət şəraiti də qənaətbəxş sayılmırdı. Naxçıvan bölgəsi kəndlilərinin yaşayış evləri də ürək açan vəziyyətdə deyildi. Naxçıvan Muxtar Respublikasının kənd məskənləri və kəndli evlərinin tarixi – etnoqrafik baxımdan tədqiq edən M.Nəsirli yazır ki, Naxçıvan diyarının inqilabaqədərki məskənləri nizamsız şəkildə yerləşmiş palçıq və nadir hallarda daşdan olan yüksək divarla əhatə olunmuş fərdi yaşayış və təsərrüat tikililərinin, həyət və bağların məcmusundan ibarət idi.[10]

Kənd əhalisi kimi şəhər əhalisinin, xüsusilə sənətkar və təşəkkül tapmaqda olan fəhlə təbəqəsinin maddi-məişət vəziyyəti də yaxşı deyildi.

1. **Рштуни В.** Крестьянская реформа в Армении в 1870 г., с.105.
2. Свод материалов для изучения экономического быта государственных крестьян, т.3, с.135-177; **Шахвердиев З.** Аграрные отношения и положение крестьян в Азербайджане в 70-90-х гг. XIX в., с.128.
3. Naxçıvan Respublikası MDTA, f.24, siyahı 2, iş 1662, v.10-15; **Шахвердиев З.** Аграрные отношения и положение крестьян в Азербайджане в 70-90-х гг. XIX в., с.128.
4. там же, с.159.
5. **Мадатов Г.** Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР, с.21.
6. там же, с.23.
7. там же, с.21.
8. ***Eminova Z.*** XIX-XX əsrin əvvəllərində Azərbaycanda səhiyyənin tarixi. NDA., Bakı, 2004, s.19.
9. yenə orada, s.24-25.
10. **Насирли М.** Сельские поселения и крестьянские жилища Нахичеванской АССР. Баку, 1959, с.46.

### 3.3. Azadlıq hərəkatı

Naxçıvan xanlığının son dövrlərində əhali siyasi və sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün xan hakimiyyətinə qarşı müxtəlif təsir vasitələrindən istifadə edirdi: şikayətlər yazılır, əhali doğma yerləri tərk edirdi və s. Lakin Naxçıvan bölgəsində Rusiya müstəmləkə üsul-idarəsi şəraitində əhaliyə zülm edilməsi yeni vasitələrlə kəskinləşdi. Sosial-iqtisadi ədalətsizliklərə siyasi, milli, dini zülm də əlavə olundu. Ona görə də mövcud rejimə qarşı mübarizə azadlıq hərəkatı xarakterini aldı.

Tarixi ədəbiyyatdan məlumdur ki, 1828-ci il Türkmənçay müqaviləsindən sonra Şimali Azərbaycanda Rusiya işğal rejiminə qarşı üsyan və həyəcanlar baş verdi. 1830-cu ildə Car-Balakəndə, 1831-ci ildə Şəkidə üsyan və həyəcanlar oldu.[1] Qeyd olunan üsyanlar, bilavasitə 1801-1813-cü illər dövründə işğal edilmiş ərazilərdə baş vermişdi. 1826-1828-ci illərdə işğal edilmiş ərazilərdə, o cümlədən Naxçıvan bölgəsindəki hadisələr isə diqqətdən kənarda qalmışdır. Göstərilən problemin öyrənilməsində əsas qaynaqlardan biri Zaqafqaziya diyarının quruluşu haqqında əsasnamə hazırlanması üçün komissiyanın[2] üzvü kollej asessoru Nefedyevin yazılı qeydləri və sakinlərin ona əlavə edilmiş ərizələridir.[3] Nefedyev bu yazılı qeydlərində hər vasitə ilə Ehsan xanı gözdən salmağa çalışır, Rusiya müstəmləkəçi idarə sisteminin çatışmazlıqlarını ört-basdır edir. Digər xarakterik cəhət İrandan köçürülmüş ermənilərin hər vasitə ilə müdafiə edilməsilə bağlıdır. Nefedyev yazılı qeydlərində «xüsusi əhəmiyyətli hadisə» haqqında da məlumat verir. Burada özünü peyğəmbər kimi qələmə verən bir mollanın Ordubad dairəsində şarlatanlığı halı üzrə əhalinin aşkar həyəcanından bəhs edilir. Həmin prosesə minlərlə adamın cəlb olunduğu, Naxçıvan və bütün ətraf yerlərin sakinlərinin həyəcanlandığı bildirilir. Təəssüf ki, Nefedyev minlərlə adamın cəlb olunduğu bu hadisənin səbəbləri, baş verməsi üzərində dayanmır. Lakin onun aşağıdakı sözləri bu hadisənin miqyasını müəyyən etməyə imkan verir: «Hər şey təhlükədə idi; xoşbəxtlikdən xan və pristav hələ yaylağa yola düşməmişdi və vilayət rəisinin bura gəlişi ölümcül nəticələri aradan qaldırdı».[4] Nefedyevin yazılı qeydlərində əyalət məhkəməsinin üzvü İsa sultan haqqında şikayətlər də konkret bir şəxslə birgə, mövcud idarə sistemindən narazılıq kimi qəbul edilməlidir.[5]

Naxçıvan bölgəsinin Rusiya tərəfindən işğalından sonra baş verən bu ilk etiraz və çıxışların ardınca kəndli hərəkatı diyarın sosial-siyasi həyatının ayrılmaz tərkib hissəsinə çevrildi. Kəndli hərəkatı müxtəlif formalarda meydana çıxırdı. Kəndlilər ərizə və şikayətlər kimi passiv forma ilə birgə, fəal mübarizə formalarına (ərazinin tərk edilməsi, mülkədar və dövlət idarələrinə qarşı açıq çıxışlar və s) əl atırdılar. Azərbaycan şəraitində kəndlilərin sosial-siyasi mübarizə formalarından biri də qaçaqçılıq idi.

XIX əsrin ikinci yarısında kəndlilərin bütün səviyyədə hökumət idarələrinə müraciəti geniş hal almışdı. Arxivlərdən aşkar edilmiş sənəd və materiallar ərizə və şikayətlərin məzmunu haqqında təsəvvür yaratmağa imkan verir. Kəndlilər hədsiz dərəcədə ağır vergilərdən, torpaqlarının mülkədarlar tərəfindən zəbt edilməsindən, hakimiyyət orqanlarının kəndlilərin qayğılarına məsulyyətsiz münasibətlərindən narazılıqlarını bildirirdilər. Şərur əyalətinin Quşçu-Dəmirçi kəndinin sakinləri 1895-ci il aprelin 1-də İrəvan qubernatoruna kollektiv şəkildə yazdıqları ərazilərində torpaqlarının mülkədarlar tərəfindən zəbt olunmasına baxmayaraq, yenə də vergi tələb edilməsindən şikayətlənirdilər. Çərçiboğan, Zeyvə, Düdəngə kəndliləri də Qafqaz mülki rəisinə aprelin 28-də yazdıqları ərizələrində vergilərin həddən artıq çoxluğundan, mülkədarların özbaşınalığından və qəza rəisinin etinasız münasibətindən bəhs edirdilər. Ərəbyengicə, Maxta, Aralıq, Kosacan və digər kəndlərin əhalisi də ərizə və şikayətlər yazmışdılar. Bu barədə faktların sayını artırmaq da olar. Lakin qeyd edilənlər də müəyyən təsəvvür yaratmağa imkan verir. Kəndlilərin ərizə və şikayətləri bir qayda olaraq baxılmamış qalırdı.[6]

Ərizə və şikayətlərlə birgə kəndlilər ya doğma torpaqları tərk edir, ya da mülkədarlara vergi verməkdən imtina edir, onların torpaqlarını tuturdu və i.a.

Naxçıvan qəzasının Sust kəndində yaşayan 53 ailə 3362 man.15 qəp. vergi qalığını ödəyə bilmədiyi üçün 1875-ci ildə İrana köçüb getmişdi. Bu münasibətlə qubernatorun hesabatında açıq etiraf edilirdi ki, bu qədər vergi qalığını həmin kənddə yaşayan ailələr ödəmək imkanına malik olmadığı üçün onu toplamaq mümkün olmamışdır.[7]

Lakin kəndlilər əksər vaxtı vergi və mükəlləfiyyətləri yerinə yetirməkdən imtina edilməsinə, mülkədar torpaqlarının zəbt edilməsinə üstünlük verirdilər. M.Tumanov rəsmi nöqteyi-nəzərdən çıxış dərək Qafqazda torpaq məsələsi və cinayətkarlıq arasında əlaqəni araşdırmışdır. O, torpaqların zəbt edilməsilə bağlı cinayətkarlıq faktlarının ilbəil artmasından bəhs edərkən göstərmişdir ki, 1881-ci ildə 985 belə hadisə baş verib, bu da əvvəlki ildəkindən 214 cinayət çoxdur, 1882-ci ildə bu cür hadisələrin sayı 1114-ə, 1883-cü ildə isə 1247-ə çatmışdır.[8] Naxçıvan bölgəsində bu tip hadisələr sonralar da davam etmişdi.

Naxçıvan qəzasının Qoşadizə və Kəngərli kəndliləri 1885-ci ildə mülkədarlara vergi verməkdən imtina etmişdilər. Əbrəqunis və Bənənyar kəndliləri 1888-ci ildə mülkədar Sultanovlardan özlərinin vaxtı ilə tutulmuş 250 desyatin torpaqlarını geri almışdılar. Keçili kəndliləri mülkədarlarla, xüsusən Rəhim xanla torpaq üstündə əlbəyaxa olmuş, ona silah qaldırmışdılar. Çox maraqlıdır ki, torpaq uğrunda mübarizədə qadınlar da fəal iştirak

edirdilər. Naxçıvan qəzasının Məmmədrzadizə kənd sakini Mədinə Məhəmməd qızı 1885-ci ildə kəndliləri ətrafına toplayaraq varlıların, xüsusən Əhməd bəy, Fətəli bəy oğlunun zəbt etdiyi torpaqları geri almışdı.[9]

Naxçıvan bölgəsinin ayrı-ayrı ərazilərində dövlətin kənddəki siyasətinə və kənd varlılarına qarşı çevrilmiş çıxışlar 1885-ci ildə daha da genişlənmişdi. Bundan qorxuya düşən hökumət nümayəndələri buraya əlavə hərbi qüvvələr cəlb etmiş, kəndlilərə divan tutmuşdu. Hərəkatın ən fəal üzvləri isə həbsxanaya salınmış, müxtəlif işgəncələr verilməsi nəticəsində həlak olmuşdu.[10]

Naxçıvan bölgəsində kəndli hərəkatının spesifik forması olan qaçaq hərəkatı da yaranıb, genişlənməkdə idi. Qaçaqçılıq hərəkatının nəzəri-metodoloji məsələləri və onun gedişi Azərbaycan tarixşünaslığında geniş təqiqat obyekti olmuşdur.[11] İ.Həsənov yazırdı: «Azərbaycan kədlilərinin ictimai əsarətə və müstəmləkə zülmünə qarşı mübarizəsi tarixində ən parlaq səhifələrdən biri qaçaqlar hərəkatı idi. İnqilabdan əvvəlki tarixşünaslıqda bu məsələ elmi-tədqiqat mövzusu olmamışdır. Qaçaqlar hərəkatından yazan bəzi müəlliflər bu hərəkata «quldurluq», qaçaqların özlərinə isə «quldur» kimi baxmışlar. Məsələn, 1898-ci ildə Tiflisdə özünün «Qafqazda quldurluqla mübarizə aparmaq üçün vasitələr» adlı referatını nəşr etdirən Frenkel qaçaqlar hərəkatını məhz quldurluq kimi qiymətləndirmişdir».[12] Azərbaycan tarixçiləri də həmin dövrdə quldurluq faktlarının olmasını inkar etmir. Lakin əsil qaçaqlar xalqın qəlbində özünə yer salmış, onların fəaliyyəti şifahi xalq ədəbiyyatında tərənnüm edilmişdir. Tarixi faktlar göstərir ki, Naxçıvan bölgəsində rəsmi dairələrdə quldur dəstələri kimi qələmə verilən ilk qaçaq dəstələri XIX əsrin 60-cı illərində təşəkkül tapmışdı. Məsələn, İrəvan quberniya məhkəməsinin 1867-ci il 22 fevral tarixli 527 saylı məlumatında göstərilir ki, quberniya məhkəməsinin 22 dekar hökmü ilə Ordubad şəhəri və Tivi kənd sakini Namazəli Kalbalı oğlu müxtəlif vaxtlarda quldurlara (!) köməklik göstərib, mülkədar Nəcəf Təhməz oğlunu öldürdüyünə görə 9 il müddətinə həbs edilib. Həmin kəndin digər bir sakini Əhmədəli Manaf oğlu da eyni ittihamla məhkum olunub. Səbzəli Kalbalı oğlu və Əkbər Məhəmməd Paşa oğlu isə yuxarıda qeyd edilən məhbuslarla və ələ keçirilməsi mümkün olmayan quldurlarla (!) sıx əlaqə saxladıqlarından polis və xəfiyyə agentləri tərəfindən nəzarətdə saxlanılmaqla, ömürlük ölkənin başqa ərazilərinə köçürülmüşdü.

Naxçıvan qəza rəisinin İrəvan qubernatoruna 1875-ci il məlumatı da bu baxımdan ciddi maraq doğurur. Orada bildirilir ki, kəndli silahlı dəstəsinin tanınmış rəhbəri Əli Cəfər İbrahim oğlu 14 nəfər adamı ilə birgə Naxçıvan qəzasının Araz çayı sahillərindəki ərazisində yerli polis dəstələri ilə atışmada kəskin müqavimət göstərmişdir. Nəticədə çox çətinliklə də olsa, onun dəstəsindən bir nəfər öldürülmüş, on nəfər tutulub həbsə salınmış, özü isə Araz çayında boğulmuşdu.[13]

Azərbaycanın qaçaqçılıq hərəkatında mühüm yer tutan Qaçaq Nəbi hərəkatı da Naxçıvan bölgəsi ilə sıx bağlı olmuşdur. Nəbinin dəqiq doğum tarixi məlum deyil. Lakin belə güman edilir ki, o, 1854-cü ildə Zəngəzur qəzasının Aşağı Molla kəndində doğulmuşdur. Onun atası, yoxsul kəndli Alı çoxsaylı ailəsini çətinliklə dolandırırdı. Nəbi kiçik yaşlarından varlı kəndli Kərbalayi Cəfərə çobanlıq edirdi. Nəbi iki dəfə kənddə hakim dairələrin nümayəndələrinin özbaşınalığına qarşı çıxmış, hər dəfə də kəndi tərk etmiş, lakin az sonra doğma evinə qayıtmışdı. 1875-ci ildə Aşağı Molla kəndinin torpaqlarını zəbt etmiş Məmməd bəy və strajniklərə qarşı çıxış zamanı Nəbi bəyi ağır yaraladı və hökumət orqanlarından gizlənmək üçün kəndi tərk etdi. O, bu vaxtdan etibarən qaçaq oldu. Nəbi öz ətrafında silahlı dəstə yaratmağa başladı. Dəstənin sayı tezliklə 10 nəfərə çatdı.[14]

Nəbinin fəaliyyəti Naxçıvan qəzasının Nəsirvaz, Tivi, Bist, Güznüt, Təzəkənd, Baş Anzur, Biləv, Urmis kəndlərilə də bağlı olmuşdu. Qaçaq Nəbi 1890-cı ildə yenidən həbs olunmuşdu. O, İrəvan dairə məhkəməsinin hökmü ilə Şuşa qalasına aparılarkən yolda qaçmış, dağlara çəkilmiş və sonra tərəfdarlarının sayını artırmışdı. Hakimiyyət dairələri bu hərəkatı yatırmaq üçün bütün tədbirlərə əl atırdılar, lakin bunlar nəticəsiz qalırdı. «Kavkaz» qəzeti 1893-cü il 9 iyun tarixli sayında yazırdı ki, Zəngəzur qəza administrasiyası quldur dəstəsinin (qeyd etdiyimiz kimi rəsmi dairələr qaçaqları belə adlandırırdılar. – Z.Ş.) tutulması üçün tədbirlər görsə də izləyicilərin bütün cəhətləri indiyədək müvəffəqiyyətlə nəticələnməmişdir. Məsələn, dəstə bir dəfə 60 kazak tərəfindən mühasirə olunmuş, lakin izləyicilərin əlindən uğurla xilas olmuşdur; digər vaxt onları polis təqib etmiş, bu dəfə də dəstə dağlarda gizlənməyə nail olmuşdu və i.a.

XIX əsrin 90-cı illərində çar hökumətinin Nəbinin dəstəsinə qarşı cəza tədbirləri güclənir. Buna görə də Nəbi tez-tez Cənubi Azərbaycana keçməli olur. 1894-cü ilin yayında orada olan Nəbi 20 nəfərlik dəstə ilə sərhəddi keçir və iyulun 23-də Naxçıvan qəzasının Karçevan kəndinə hücum edir. Bu hücum zamanı varlı kəndlilərdən 8 min man. vəsait ələ keçirilir. Nəbinin Naxçıvandakı fəaliyyəti İrəvan qubernatorunun Qafqazın mülki rəisinə müraciətində Qaçaq Nəbiyə qarşı mübarizədə acizliyini etiraf etməsinə səbəb olmuşdu. Mübarizənin uğurlu olması üçün qaçaqları gizlədən kənd cəmiyyətlərinin elliklə və ciddi şəkildə cəzalandırılması təklif edilirdi. Baş mülki rəis qubernatora belə bir hüquq vermişdi. Lakin ən ciddi repressiyalar belə Nəbinin dəstəsini məhv etməyə imkan vermirdi.[15]

Qaçaq Nəbi 1894-cü ilin oktyabrında Naxçıvan qəzasıa gəlmiş, 13-də Bist və Alaqi, 24-də Kültəpə kəndlərinin varlı kəndlilərinin mülkünü ələ keçirimişdi. Oktyabrın 27-də Nəbi və Şahhüseynin birləşmiş dəstələri Naxçıvan qəzasının Paradaş kəndinə hücum etmiş, sonra sərhəddi keçmək üçün Araz çayına üz tutmuşdu. Lakin əvvəlcədən keçid yeri haqqında məlumatı olan hökumət qüvvəlləri qaçaqları güclü atəşə

tutmuşdu. Nəbinin dəstəsi Arazı keçmiş, bununla birgə müəyyən insan (13 nəfər) və digər maddi itkilərə uğramışdı. Buna baxmayaraq qüvvəllərini bərpa edən Nəbi 1895-ci ilin yazında sərhəddi kçmiş və Naxçıvan qəzasına gəlmişdi.[16]

1895-ci il Qaçaq Nəbinin hərəkatında xüsusi yer tutr. İrəvan qubernatoru general-leytenant Freze Qafqazın mülki rəisinə məlumatında qaçaqlara bütün əhali tərəfindən köməklik göstərildiyi bildirilir və bu faktlarla təsdiq edilir, təcili tədbirlər görülməsi zərurəti irəli sürülürdü. Qubernatora onun sərəncamına 2 kazak yüzlüyü verilməsini, qaçaqlara kömək edən kəndlilərə qarşı cəza tədbirlərinin gücləndirilməsini təklif edirdi. Qubernatorun xahişinə əməl edildi. Tivi kəndinin sakinlərinə qarşı ağır cəza tədbirləri tətbiq edildi. Həmin kənddən başqa Naxçıvan qəzasında əlavə olaraq 108, Şərur-Dərələyəzdə 58 kazak yerləşdirildi.[17] Bu tədbirlər də səmərəsini vermədi. Qaçaq Nəbi fəaliyyətini daha da genişləndirməkdə idi. 1895-ci ilin sentyabrında Zəngəzurun bir sıra kəndlərində (Uz, Dulus, Şabadin, Gecanar) əməliyyat keçirən Nəbi sentyabrın 13-də dəstəsilə Naxçıvana keçdi. İrəvan qubernatorunun 1895-ci il oktyabr ayındakı məlumatına görə Nəbi və Şahhüseyn dəstələri ilə birlikdə Ordubada daxil olub, qış düşənə qədər varlıların əmlakını alıb yoxsullara paylanacağını, ona kömək göstərmiş kəndlilərə əzab verən, onlardan əlavə vergilər tələb edən çar məmurları və iri torpaq sahibkarlarından intiqam alacağını bildirmişdir. Nəbinin gəlməsi xəbərini eşidən çar məmurları dərhal bütün qüvvələri səfərbərliyə alır, onun silahlı dəstələrini məhv etmək və özünü öldürmək məqsədilə hər tərəfə gözətçilər qoyurlar. Sentyabrın 16-da Nəbi dəstəsilə səhər tezdən Nəsirvaz dağlarından aşağı enir. Kəndlilər düşmən qüvvəllərinin Nəsirvazda toplanması xəbərini Nəbiyə çatdırdığından onlar burada toplaşmış Ostroxovun başçılıq etdiyi kazak hərbi hissələri, pristav müavini Hacıyev və uryadnik Məhəmməd Rəhimin adamlarının birləşmiş dəstələrilə rastlaşmadan Tivi və Bist istiqamətinə çəkilir. Bir nəticə əldə etməyən kazaklar Gal kəndinə, Hacıyev isə öz adamları ilə qaçaqların izinə düşüb Arpadar dağına getmişlər. Kazaklar Şahrux və Baş Anzur kəndlərindən də əlavə qüvvələr götürüb Hacıyevin dəstəsi ilə birləşmiş, gecə qaranlıq düşənə qədər Qaçaq Nəbinin 30 nəfərlik dəstəsi ilə atışmaya başlamışdılar. Nəbinin dəstəsi düşmənin üstün qüvvəsinə müqavimət göstərir, qaranlıq düşən kimi Güznüt dağlarına çəkilib təhlükədən qurtara bilir. Lakin Nəbinin dəstəsini addımbaaddım izləyən rəis Rudnovun kazak dəstələri, Vardan Xələtov, Həsən Əli Mehdi oğlu və Yezarenko Gülbərovun «könüllü» dəstələri qaçaqları hər tərəfdən mühasirəyə alırlar. Bu toqquşma Xələtovun qaçaqlar tərəfindən öldürülməsi, Həsən Əlinin isə ağır yaralanması ilə başa çatır. Qaçaq Nəbi döyüşdə qalib gəlir. O, dəstəsi ilə birlikdə Arazı aşaraq, Cənubi Azərbaycana keçir. Kazaklar onların ardınca yüz verstdən çox yol qət etsələr də heç nəyə nail ola bilmir.[18] Qaçaq Nəbinin hərəkatının uğurlarında onun həyat yoldaşı və silahdaşı Həcərin də (1860-1919) böyük xidmətləri var idi.

Qaçaq Nəbi hərəkatı ilə bacara bilməyən çar hökuməti onu muzdlu qatil vasitəsilə öldürməyi qərara aldı. Bu işin təşkili Cənubi Azərbaycanın Urmiya şəhərində ticarətlə məşğul olan ordubadlı Paşa Hacı Fərəc oğluna həvalə edildi. Qanlı qətl planını Naxçıvan qəza rəisi podpolkovnik Slavoçinski əlaqələndirirdi. Paşa Hacı pul müqabilində qaçaqlardan Şahhüseyn və Kərbalayi İmanı ələ ala bildi. Onlar 1896-cı il martın 12-də Larni kəndində Nəbini qətlə yetirdilər.[19]

Nəbinin öldürülməsindən sonra onun dəstəsi dağıldı. Lakin Məmməd Hüseynin başçılığı altında Naxçıvanda fəaliyyət göstərən yeni bir dəstə yarandı. Xain əli ilə bu dəstə də 1897-ci ilin sentyabrında məhv edildi. [20]

Qaçaq Nəbinin hərəkatı Azərbaycan xalqının azadlıq hərəkatı tarixində mühüm səhifələrdən biridir. Təsadüfi deyil ki, xalq da bunu yüksək qiymətləndirmiş, məşhur Qaçaq Nəbi dastanı yaradılmışdır. [21]

XX əsrin əvvəllərində bütün Azərbaycanda olduğu kimi Naxçıvan bölgəsində də kəndli hərəkatı davam edirdi. C.Hüseynovun hesablamalarına görə 1900-1907-ci ilin birinci yarısına 776 kəndli çıxışı baş vermişdi. Naxçıvan və Şərur-Dərələyəz qəzalarında 1900-cu ildə 1, 1901-ci ildə 3, 1902-ci ildə 1, 1903-cü ildə 2, 1904-cü ildə 4, 1905-ci ildə 16, 1906-cı ildə 13, 1907-ci ilin birinci yarısında 6 olmaqla cəmi 46 kəndli çıxışı baş vermişdi.[22] Onların sırasında qaçaqçılıq hərəkatı da var idi.

1905-ci ildə Naxçıvan qəzasında 36 qaçağı birləşdirən iki dəstə fəaliyyət göstərirdi. Bu dəstələr 2 dəfə xüsusi sahibkarların mülklərinə hücum etmiş, 3 dəfə ordu və polis ilə toqquşmalı olmuşdu. 1906-cı il üzrə bu göstəricilər müvafiq olaraq 2; 70; 4 və 8 idi. 1907-ci ilin birinci yarısında burada 25 nəfərlik bir qaçaq dəstəsi fəaliyyət göstərirdi. Bu dəstə iki dəfə polis və hərbi hissə ilə toqquşmuşdu. Şərur-Dərələyəz qəzasında isə 1905-ci ildə 12 qaçağı birləşdirən bir dəstə fəaliyyət göstərmişdi. Bu dəstə bir dəfə xüsusi sahibkarların mülkünə hücum etmiş, iki dəfə polis və hərbi qüvvələrlə toqquşmuşdu. 1906-cı ildə bu göstərici müvafiq olaraq 1; 25; 7 və 18 olmuşdu.[23]

1905-1907-ci illər inqilabından sonra da Naxçıvan kəndlərində çıxışlar davam etməkdə idi. Birinci dünya müharibəsi ərəfəsində belə çıxışlar genişləndi. 1913-cü ilin yayında Xoşkeşin, Buzqov, Keçili, Külüs, Tivi, Küznüt və b. kəndlərin kəndliləri mülkədar torpaqlarını ələ keçirmişdi. Şərur-Dərələyəzin kəndliləri otlaqları tutmuşdu. Naxçıvan qəza rəisinin İrəvan qubernatoruna 1913-cü il 13 sentyabr tarixli raportundan aydın olur ki, Qarababa kəndinin kəndliləri otlaqları və suvarma kanallarını ələ keçirmişdir. [24]

Birinci dünya müharibəsi illərində də Naxçıvan bölgəsi kəndlilərin azadlıq hərəkatının mühüm mərkəzlərindən idi.[25] Naxçıvan qəzasının kəndliləri 1915-ci ildə gərgin mübarizədən sonra mirabın öz sıralarından təyin edilməsinə nail olmuşdular.[26]

Naxçıvan bölgəsinin kəndlərində olduğu kimi şəhərlərdə də ictimai-siyasi həyatda müstəmləkə zülmündən xilas olmaq, sosial vəziyyəti yaxşılaşdırmaq uğrunda cəhdlər özünü göstərirdi.

XX əsrin əvvəllərində Şimali Azərbaycanda Rusiyada meydana gələn siyasi partiyaların yerli təşkilatları və ilk milli siyasi təşkilatlar da meydana gəlirdi. Bu siyasi partiya və təşkilatlar sırasında ilk yarananlardan biri sosial-demokrat təşkilatı olmuşdu. 1898-ci ildə yaranmış Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının 1900-cu ildə Bakı təşkilatı, 1901-ci ildə isə Bakı komitəsi təşkil edilmişdi.[27] Belə bir şəraitdə azərbaycanlı fəhlələr içərisində iş aparılmasına da ehtiyac əmələ gəldi. Bu işi həyata keçirmək məqsədilə «Hümmət» adlı təşkilat yarandı. XX əsrin əvvəllərində Azərbaycanda fəaliyyət göstərən siyasi partiya və təşkilatların tarixinə dair tədqiqatın müəllifi İ.Bağırova «Hümmət»in meydana gəlməsinə dair tarixşünaslıqda mövcud olan iki baxışı (1. P.Caparidze tərəfindən RSDFP-nin Bakı təşkilatının filialı kimi müsəlman fəhlələr içərisində iş aparmaq üçün yaradılmışdır; 2. RSDFP-dən asılı olmayaraq fəaliyyət göstərmişdir) tənqid edərək yazmışdır ki, onun yaradılması təşəbbüsü Azərbaycan ziyalı-demokrat qrupuna məxsusdur. Onların ilk dövrdə məhz sosial-demokratiyaya meyl etməsi isə RSDFP-nin milli məsələyə münasibətilə (millətlərin öz müqəddəratını təyin etməsi və s.) bağlı olmuşdur. «Hümmət» 1904-cü ilin oktyabrında fəaliyyətə başlamış, eyni adlı qəzet də çıxmışdır.[28] 1905-ci ildə isə «Hümmət»in Tiflis şöbəsi təşkil edilmişdi. 1905-1907-ci illər inqilabından sonrakı irtica şəraitində Bakıda «Hümmət»in fəaliyyəti zəifləmişdi. Tiflis «Hümmət»i isə, əksinə işini genişləndirmişdi. Naxçıvan və Culfada da «Hümmət»in şöbəsi yaradılmışdı. Tiflis «Hümmət» təşkilatı bürosunun qərarı ilə Əşrəf Yüzbaşov və Əli Bayramov (o zaman menşevik) ədəbiyyat və yeni möhürlə Naxçıvana göndərilmişdi. Onların rəhbərliyi ilə M.B.Mir-Heydərzadə, A.Sultanov, H.Nəcəfov, M.Bektaşev və b. daxil olduğu büro təşkil edilmişdi. Yerli hümmətçilər kəndlilər və mövsümi fəhlələr içərisində iş aparırdılar.[29] Naxçıvan və Culfa hümmətçiləri ermənilərin azərbaycanlılara qarşı soyqırımının qarşısının alınmasında iştirak etmişdilər.

1915-ci ildə Naxçıvan və Culfada «Mücahidin» adlı milli partiya da yaradılmışdı. Onun liderləri Mirheydərzadə, İ.Camalbəyov, K. və R.Səfərbəyovlar idi. Partiyanın 60 nəfər üzvü var idi.[30]

Naxçıvan bölgəsi 1905-1911-ci illər İran inqilabınn əsas hadisələrinin cərəyan etdiyi Cənubi Azərbaycanla da müəyyən əlaqələrə malik idi.

Birinci dünya müharibəsi dövründə Naxçıvan şəhərlərinin siyasi həyatı fəallaşmışdı. Naxçıvan, Ordubad və Culfada antihərbi mitinqlər keçirilmişdi. 1916-cı ilin sentyabrında M.Bektaşov və M.Mirheydərzadə antihərbi təbliğata görə həbs edilmişdi.[31]

Beləliklə, Naxçıvan bölgəsi çarizmə qarşı azadlıq hərəkatında, milli müstəmləkə və sosial zülmə qarşı mübarizə də mühüm rol oynamışdır.

---

1. Ətraflı bax: **Сумбатзаде А.С.** Кубинское восстание 1837 г. Баку, 1961; ***Qurbanov R.*** XIX əsrin birinci yarısında Şimali Azərbaycanda azadlıq hərəkatı. Bakı, 2006 və b.
2. Bu komissiya haqqında bax: **Мильман А.** Политический строй Азербайджана в XIX-начале XX веков, с.108.
3. Колониальная политика российского царизма в Азербайджане, с.334-349.
4. там же, с.336.
5. там же, с.337.
6. **Шахвердиев З.А.** Аграрные отношения и положения крестьян Азербайджана в 70-90-е гг. XIX в., с.141-142.
7. там же, с.171.
8. **Туманов М.Г.** Земельные вопросы и преступность на Кавказе. СПб., 1900, с.72.
9. **Шахвердиев З.А.** Аграрные отношения и положения крестьян Азербайджана в 70-90-е гг. XIX в., с.144-145.
10. **Азиз Шариф.** Рождение Молла Насраддина. Баку, 1968, с.24.
11. ***Əliyev Ə.*** Qaçaq Nəbi // Azərbaycan, 1958, № 11, s.168-179; **Гасанов И.** Из истории крестьянского движения в Азербайджане в последней трети XIX века. О выступлениях кретьянского отряда под руководством Качега Наби // Изв. АН Азерб. ССР. Сер. общ. наук, 1961, №4, с.38-49; ***Həsənov İ.*** İnqilabdan əvvəlki Azərbaycanda kəndli hərəkatı tarixinin bəzi məsələləri (XIX əsrin sonu – XX əsrin əvvəlləri) //

Azərbaycan kommunisti, 1967, №3, s.86-92; ***Şahverdiyev Z.*** XIX əsrin ikinci yarısında kəndlilərin vəziyyəti və Qaçaq Nəbi hərəkatı // Tarix, ictimaiyyət, coğrafiya tədrisi. 1982, № 3, s.34-37; **Гусейнов Дж.** Движение качагов в Азербайджане в 1900-1914 гг. Вт. кн. Баку, 2004 və b.

12. ***Həsənov İ.*** İnqilabdan əvvəlki Azərbaycanda kəndli hərəkatı tarixinin bəzi məsələləri, s.86.

13. **Шахвердиев З.А.** Аграрные отношения и положения крестьян Азербайджана в 70-90-е гг. XIX в., с.146.

14. **Гасанов И.** Из истории крестьянского движение в Азербайджане в последней трети XIX века, с.38.

15. там же, с.42-43.

16. там же, с.43.

17. там же, с.44-45.

18. ***Şahverdiyev Z.*** XIX əsrin ikinci yarısında kəndlilərin vəziyyəti və Qaçaq Nəbi hərəkatı, s.36-37.

19. Bax: **Гасанов И.** К вопросу об убийстве Качага Наби // Доклад АН Азерб. ССР, 1960, №8; **его же,** Из истории крестьянского движения в Азербайджане в последней трети XIX века, с.45-46.

20. **Гасанов И.** Из истории крестьянского движения в Азербайджане в последней трети XIX века, с.47.

21. ***Rüstəmzadə R.*** El qəhrəmanları xalq ədəbiyyatında. Bakı, 1984, s.68-84.

22. **Гусейнов Дж.** Из истории национально-освободительного движения в Азербайджане в начале XX в. (1900-1907 гг.), с.211.

23. **его же,** Движение качагов в Азербайджане в 1900-1910 гг., с.160.

24. **Мадатов Г.** Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР, с.23.

25. **Гусейнов И.** Положение и классовая борьба крестьян Азербайджана в период Первой мировой войны. АКД. Баку, 1967, с.23-24.

26. **Мадатов Г.** Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР, с.23-24.

27. Очерки истории Коммунистической партии Азербайджана. т.I (80-е годы XIXек – апрель 1920 год). Баку, 1985, с.43-44.

28. **Багирова И.С.** Политические партии и организации Азербайджана в начале XX века. 1900-1917. Баку, 1997, с.30, 31-32.

29. там же, с.41.

30. там же, с.334.

31. **Мадатов Г.** Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР, с.24.

IV FƏSİL

# ERMƏNİLƏRİN NAXÇIVANA KÖÇÜRÜLMƏSİ VƏ AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMI

## 4.1. Çarizmin ermənilərin Azərbaycan torpaqlarına köçürmə siyasətində Naxçıvan bölgəsinin yeri

Çar Rusiyası tərəfindən ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi rus-erməni münasibətlərinin tərkib hissəsi idi. Onun mahiyyətini Şimali Azərbaycan torpaqlarının işğalı təşkil edirdi. Bu məqsədin ideoloji təminatı üçün tarixi həqiqət təhrif edilir, Şimali Azərbaycan ərazisi erməni torpağı kimi qələmə verilirdi.[1]

Çar Rusiyası tərəfindən ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi I Pyotrun dövründə (1682-1725) başlamışdı. I Pyotr ermənilərə 1724-cü il 10 noyabr tarixli Əlahəzrət fərmanı ilə onları rəsmən işğal olunmuş Xəzərsahili torpaqlara məskunlaşmağa çağırır və bir sıra imtiyazlar verirdi.[2] Rusiyanın Xəzərsahili torpaqlardan çıxması ilə (1732-ci il Rəşt və 1735-ci il Gəncə müqavilələri) bu plan baş tutmadı. Lakin çarizm ermənilərin Rusiyanın digər torpaqlarında yerləşdirilməsi siyasətini davam edirdi. Burada diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, 1768-1774-cü illər rus-türk müharibəsindən sonra Krımdan köçürülən ermənilər üçün yaradılmış yaşayış məskəni Yeni Nax çıvan (Rostov əyalətində) adlandırıldı.[3] Bu da təsadüfi olmayıb, çarizmin ermənilərlə birgə tarixi Azərbaycan torpağı olan Naxçıvana əsassız iddiasından xəbər verirdi.

1801-ci ildə Şərqi Gürcüstanla birlikdə, Azərbaycan torpaqlarının Rusiyaya ilhaqı başlandı. Rusiya Qacarlarla apardığı 1804-1813 və 1826-1828-ci illər müharibələrində qələbələri ilə Şimali Azərbaycanın işğalını başa çatdırdı. Çarizmin erməniləri Şimali Azərbaycan torpaqlarında məskunlaşdırması siyasəti bu işğal prosesində yenidən araya gəldi. İlk vaxtlar Azərbaycanın digər ərazilərində pərakəndə halda yaşayan ermənilərin artıq işğal edilmiş ərazilərə – Borçalı, Qazax, Gəncə, Qarabağ və b. cəlb edilməsi siyasəti həyata keçirilirdi.[4] Naxçıvan və İrəvan xanlıqlarının işğalından sonra, bu plan daha da genişləndirildi. İran və Osmanlı dövlətlərindən ermənilərin sistemli şəkildə Şimali Azərbaycana köçürülməsi siyasəti hazırlandı. Bu məsələ Türkmənçay müqaviləsinin (1828-ci il) XV maddəsində təsbit olundu.[5] Ədirnə müqaviləsindən (1829-cu il) sonra Osmanlı dövlətindən də ermənilərin köçürülməsi başlandı. Köçürməni həyata keçirmək üçün müəyyən tədbirlər (köçürmə komitəsi yaradılması və s.) görüldü.[6]

Çar hökuməti erməniləri Şimali Azərbaycana köçürmə siyasətində Naxçıvan bölgəsinə də xüsusi yer ayırmışdı. Rus çarizmi işğalçılıq və köçürmə siyasətinə bəraət qazandırmaq üçün İrəvan və Nxçıvan kimi tarixi Azərbaycan ərazilərini erməni torpağı kimi qələmə verməkdə davam edirdi. Çar I Nikolay (1825-1855) İrəvan və Naxçıvan xanlıqları əsasında qurama «Erməni vilayəti» yaradılması haqqında 1828-ci ilin martında fərman vermişdi.[7] Yeri gəlmişkən qeyd edək ki, çar hökuməti qısa bir müddət sonra, 1840-cı ildə bu vilayəti ləğv etmiş, beləliklə, həmin ideyanın doğru olmadığı təsdiq olunmuşdu.

Çar hökuməti Naxçıvan bölgəsinin erməniləşdirilməsinə xüsusi bir önəm verirdi. Bunun nəticəsi idi ki, az bir zaman ərzində (1828-1831-ci illərdə) Naxçıvan bölgəsinə xeyli miqdarda erməni köçürülmüşdü. Bu həm çap olunmuş, həm də arxivdə saxlanılan təkzibedilməz sənəd və materiallarla təsdiq olunur. Onların içərisində dövlət məmuru və qafqazşünas İ.Şopenin kitabı[8] mühüm yer tutur. Şopen ermənilərin Naxçıvan və İrəvan torpaqlarına köçürülməsinə haqq qazandırmaq üçün tarixi həqiqətləri təhrif edir, bu torpaqların qədimdən ermənilərə məxsus olmasını «əsaslandırır», «yerli» erməniləri fərqləndirməyə çalışır və s. Kitabın bu konsepsiyası heç bir elmi dəyərə malik deyildir. Ermənilərin Naxçıvan bölgəsinə köçürülməsinə dair faktlar isə həmin prosesin miqyasını müəyyən etmək baxımından maraq doğurur (Cədvəl 13).

Şopenin məlumatlarından aydın olur ki, köçürməyədək Naxçıvan vilayəti və Ordubad dairəsində olan ermənilərin sayı 930 ailə, yaxud 5078 nəfər (4048 kişi, 2.470 qadın) olmuşdur.[9] Burada kişilər və qadınlar arasında olan nisbət də Şopenin «yerli» kimi ayırdığı ermənilərin də, əslində gəlmə olduğunu sübut edir. Rusiya tərəfindən ermənilərin Naxçıvana köçürülməsi ilə onların sayı da artır. Naxçıvan vilayəti və Ordubad dairəsinə İrandan 2387 ailə, yaxud 11992 nəfər (6339 kişi, 5653 qadın), Türkiyədən 8 ailə, yaxud 27 nəfər (17 kişi, 10 qadın) köçürülür.[10] Beləliklə, buradan aydın olur ki, köçürmədən sonra Naxçıvan bölgəsində ermənilərin sayı 3.325 ailəyə [930+(2387+8)] çatdırılır.

*Cədvəl 13*

**İ.Şopenə görə Naxçıvan əyaləti və Ordubad dairəsinin əhalisi içərisində ermənilərin payı**

| Ərazi | Bütün əhali | | O cümlədən ermənilər | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | «yerli» | | köçürülənlər | | | |
| | | | | | İrandan | | Türkiyədən | |
| | ailələr | nəfər | ailələr | nəfər | ailələr | nəfər | ailələr | nəfər |
| **Naxçıvan əy.** | | | | | | | | |
| Naxçıvan ş. mahallar | 1330 | 5470 | 156 | 719 | 265 | 1110 | - | - |
| 1. Əlincəçay | 731 | 3582 | 123 | 683 | 208 | 1051 | - | - |
| 2. Naxçıvan | 2070 | 9477 | 150 | 776 | 941 | 4507 | - | - |
| 3. Məvazixatun | 498 | 2643 | - | - | 216 | 1146 | - | - |
| 4. Xok | 335 | 1599 | 43 | 224 | - | - | - | - |
| 5. Dərələyəz | 1574 | 7736 | 58 | 288 | 507 | 2838 | 8 | 27 |
| cəmi | 6538 | 30507 | 530 | 2690 | 2137 | 10652 | 8 | 27 |
| **Ordubad d.** | | | | | | | | |
| Ordubad ş. mahallar | 803 | 3444 | - | - | 36 | 182 | - | - |
| 1. Ordubad | 196 | 843 | 36 | 215 | 14 | 76 | - | - |
| 2. Əylis | 320 | 1886 | 214 | 1356 | 29 | 183 | - | - |
| 3. Dəstə | 379 | 1879 | 62 | 346 | - | - | - | - |
| 4. Biləv | 499 | 2.317 | 39 | 208 | 171 | 899 | - | - |
| 5. Cənənəb | 128 | 606 | 49 | 263 | - | - | - | - |
| Cəmi | 2325 | 10975 | 400 | 2388 | 250 | 1340 | - | - |

***Qaynaq:*** *Şopen İ. İstoriçeskiy pamətnik sostoəniə Armənskoy oblasti. SPb., 1852, s. 635-638.*

Nəticədə Naxçıvan bölgəsindəki erməni ailələri bütün ailələrin (8863) 37,5% təşkil etmişdi.

1831-ci il kameral təsvirinin materialları da[11] işğaldan keçən qısa bir dövr ərzində ermənilərin Naxçıvan bölgəsinə kütləvi şəkildə köçürülməsi və onun miqyası haqqında Şopenin məlumatlarını təsdiq edir.

Nəzərdən keçirilən xronoloji çərçivədə ermənilərin Naxçıvana köçürülməsi vəziyyətinin aydınlaşdırılmasında bölgənin xüsusi statistik təsvirini hazırlamış V.Qriqoryevin araşdırması mühüm əhəmiyyət kəsb edir. Şopenin məlumatlarından da göründüyü kimi Naxçıvana köçürülən ermənilərin coğrafi mənbələr içərisində İran üstün olmuşdu. Qriqoryevin İrandan Naxçıvana köçürülən ermənilər haqqında cədvəli bu prorblemi daha dərindən öyrənməyə imkan verir. Azərbaycan tarixşünaslığında bu məlumatlara əvvəllər də toxunulmasına baxmayaraq,[12] onun öyrənilən problemin bir sıra məsələlərinə aydınlıq gətirdiyini nəzərə alaraq, burada verilməsini məqsədəuyğun hesab etdik. (Cədvəl 14)

Qriqoryevin ermənilərin İrandan Naxçıvana köçürülməsinə dair faktları Şopendən müəyyən qədər fərqlənir. Şopen İrandan Naxçıvana köçürülənlərin ümumi sayının 2387 ailə (Naxçıvan əyaləti üzrə 2137, Ordubad dairəsi üzrə 250 ailə) olduğunu göstərirsə, Qriqoryevdə bu rəqəmlər müvafiq olaraq 2551 (+164), 2285 (+148) və 266 (+16) təşkil edirdi. Qriqoryevin təqdim etdiyi cədvəl ermənilərin haradan haraya köçürülməsini də aydınlaşdırır. Cədvəldən aydın olur ki, Naxçıvan əyalətinə köçürülən 2285 ailədən 416-sı (18,2 %) Naxçıvan şəhərində məskunlaşmışdı. Qalan ailələr Naxçıvan əyalətinin 43, Ordubad dairəsinin 5 kəndində yerləşmişdi.

Qriqoryevin təqdim etdiyi cədvəlin mühüm cəhətlərindən biri də ondan ibarətdir ki, o Naxçıvana köçürülən ermənilərin yaş və cins kimi vacib demoqrafik göstəriciləri haqqında təsəvvür yaradır. Köçürülən ermənilərin (13160 nəfər) 6954 nəfərini (52,8 %) kişilər təşkil edirdi. Kişilərə dair məlumat iki yerə bölünmüş, burada böyüklər və kiçik yaşlılar ayrılmışdır. Bu rəqəmlər də əslində ciddi informasiya mənbəyidir. Köçürülən ermənilərin 4459 nəfəri (64,12 %) böyüklər, 2495 nəfəri (35,88 %) kiçik yaşlılar idi. Bu fakt köçürülən ermənilər içərisində demoqrafik artım potensialını göstərir. Köçürülən ermənilərin 6206 nəfərini (42,2 %) qadınlar təşkil edirdi.

*Cədvəl 14*

## *İrandan Naxçıvan əyalətinə köçürülən ermənilərə dair cədvəl*

| *İlkin məskunlaşdırıldıqları yer* | *Ailələ-rin sayı* | *Onlardan* | | | *Sayı* | | | *Hansı dairə və şəhərlərdən köçürülmüşlər* |
|---|---|---|---|---|---|---|---|---|
| | | *Tacir* | *Sənətkar* | *Əkinçi* | *Kişi cinsi* | | *Qadın cinsi* | |
| | | | | | *Böyüklər* | *Kiçik-yaşlılar* | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| Naxçıvan dairəsinə Naxçıvan şəhəri: | 166 | 63 | 63 | 40 | 281 | 118 | 313 | Xoy şəhəri |
| | 53 | 31 | 15 | 7 | 111 | 52 | 113 | Təbriz şəhəri |
| | 69 | 25 | 23 | 21 | 120 | 43 | 129 | Marağa dairəsi |
| | 66 | 20 | 30 | 16 | 126 | 60 | 149 | Salmas |
| | 31 | 9 | 12 | 10 | 50 | 26 | 75 | “_____” |
| | 26 | 10 | 10 | 6 | 34 | 15 | 55 | Dehqarqan |
| | 5 | - | 5 | - | 10 | 4 | 16 | Urmiya şəhəri |
| Cəmi: | 416 | 158 | 158 | 100 | 732 | 318 | 850 | |
| Kəndlər: | | | | | | | | |
| Küznüt | 72 | - | 12 | 60 | 133 | 51 | 135 | Salmas |
| Qızılca | 23 | - | - | 23 | 51 | 18 | 63 | “_____” |
| Əbrəqunis | 36 | - | 24 | 12 | 60 | 37 | 20 | “_____” |
| Kirra | 44 | - | 13 | 31 | 83 | 32 | 105 | “_____” |
| Bənənyar | 49 | 4 | 12 | 33 | 103 | 52 | 157 | “_____” |
| Noraşen | 23 | - | - | 23 | 43 | 26 | 59 | “_____” |
| Qazançı | 22 | - | - | 22 | 44 | 25 | 57 | “_____” |
| Ağyari | 36 | - | - | 36 | 56 | 40 | 95 | “_____” |
| Azadek | 22 | - | - | 22 | 40 | 32 | 57 | “_____” |

*ardı var*

*davamı*

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Mardrus | 42 | - | - | 42 | 76 | 49 | 115 | "_____" |
| Keşişkənd | 37 | - | - | 37 | 60 | 40 | 102 | "_____" |
| Qoytul | 33 | - | - | 33 | 56 | 37 | 79 | "_____" |
| Meltikənd | 35 | - | 4 | 31 | 66 | 30 | 88 | "_____" |
| Yelpin | 20 | - | - | 20 | 33 | 19 | 51 | "_____" |
| Aruleşin | 17 | - | - | 17 | 18 | 18 | 31 | "_____" |
| Xəçlilli | 24 | - | - | 24 | 31 | 27 | 61 | "_____" |
| Didivar | 31 | - | - | 31 | 41 | 35 | 68 | "_____" |
| Kültəpə | 70 | - | 24 | 46 | 86 | 100 | 176 | "_____" |
| Bədəxşan | 26 | 6 | - | 14 | 41 | 18 | 38 | "_____" |
| Nehrəm | 208 | 15 | 30 | 163 | 398 | 221 | 545 | "_____" |
| Təzəkənd | 44 | - | 3 | 41 | 86 | 38 | 101 | "_____" |
| Tumbul | 53 | - | 13 | 40 | 65 | 60 | 100 | "_____" |
| Qaraxanbəyli | 81 | 7 | 20 | 54 | 145 | 74 | 196 | "_____" |
| Kürədiz | 37 | - | - | 37 | 63 | 40 | 85 | "_____" |
| Arınç | 31 | - | 3 | 28 | 51 | 30 | 70 | "_____" |
| Sultanbəyli | 34 | - | - | 34 | 60 | 27 | 75 | "_____" |
| MəmərzaDizə | 20 | - | 4 | 16 | 45 | 13 | 37 | "_____" |
| Xalxal | 35 | - | - | 35 | 50 | 32 | 83 | "_____" |
| Ərəzin | 60 | - | 8 | 52 | 113 | 50 | 153 | Xoy |
| Saltaq | 33 | - | 5 | 28 | 56 | 30 | 83 | "_____" |
| Alagöz | 42 | - | 2 | 40 | 74 | 43 | 98 | "_____" |
| Uzunoba | 40 | - | - | 40 | 63 | 46 | 127 | "_____" |
| Qarababa | 24 | - | 3 | 21 | 34 | 25 | 59 | "_____" |
| Külüs | 13 | - | - | 13 | 20 | 12 | 30 | "_____" |
| Nurs | 30 | - | 5 | 25 | 50 | 24 | 74 | "_____" |
| Şıxmahmud | 63 | - | 7 | 56 | 117 | 69 | 160 | Salmas və Xoy |

*ardı var*

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Nəzərabad | 49 | - | 3 | 46 | 73 | 50 | 117 | "_____" |
| Cəhri | 151 | - | 40 | 11 | 309 | 160 | 465 | "_____" |
| Badamlı | 23 | - | 4 | 19 | 33 | 13 | 58 | "_____" |
| Şahbuz | 20 | - | 2 | 18 | 31 | 23 | 44 | "_____" |
| Yarımca | 78 | - | 27 | 54 | 99 | 80 | 154 | "_____" |
| Məzrə | 22 | - | 3 | 19 | 32 | 14 | 42 | Urmiya və Salmas |
| Kərimbəy dizə | 22 | - | 4 | 18 | 50 | 24 | 48 | Urmiya |
| Cəmi | 1869 | 32 | 275 | 1562 | 3238 | 1884 | 4629 | |
| Naxçıvan dairəsi üzrə yekun | 2285 | 190 | 433 | 1662 | 39709 | 2202 | 5479 | |
| Ordubad dairəsinə Kəndlər: | | | | | | | | |
| Əylis | 37 | 11 | 13 | 13 | 53 | 40 | 86 | Təbriz şəhəri |
| Qayadamış | 29 | 7 | 10 | 12 | 41 | 30 | 82 | "_____" |
| Azadər və Dizə | 182 | - | 22 | 160 | 354 | 200 | 501 | Marağa |
| Əlağa | 18 | - | - | 18 | 41 | 23 | 58 | Təbriz |
| Cəmi: | 266 | 18 | 45 | 203 | 489 | 295 | 727 | |
| Naxçıvan əyaləti üzrə yekun | 2551 | 208 | 478 | 1865 | 4459 | 2495 | 6206 | |

Köçürülən ermənilərin sosial strukturunda əkinçilər (1865 nəfər, yaxud 73,1 %), sənətkarlar (478 nəfər, yaxud 18,7 %) və tacirlər (208 nəfər, yaxud 8,1 %) əsas yer tuturdu.

Çar Rusiyasının Türkmənçay müqaviləsinin bağlanmasından sonrakı ilk dövrdə erməniləri Şimali Azərbaycan torpaqlarına köçürmə siyasətinin təhlili göstərir ki, Naxçıvan bölgəsinin erməniləşdirilməsi və xristianlaşdırılması cəhdi önəmli rola malik olmuşdur. Əgər 1828-1829-cu illərdə Şimali Azərbaycana köçürülən erməni ailələrinin (6976) 2557-si (36,65 %) Naxçıvanda yerləşdirilmişdisə, Qarabağ və İrəvan üzrə bu rəqəmlər müvafiq olaraq 3000 (43 %) və 1395 (20 %) idi.[13]

Ermənilərin Naxçıvan bölgəsində gəlmə olduğunu toponomik materiallar da təkzibedilməz şəkildə sübut edir.[14] Bu problemin tədqiqatçılarından olan S.Babayev yazmışdır: «… Naxçıvanın toponimləri ilə əlaqədar apardığımız tədqiqatlar da sübut edir ki, bu diyar qədim oğuz-türk-Azərbaycan torpağıdır. Bunu tarixin danılmaz şahidləri olan toponimlər də təsdiq edir. Naxçıvan ərazisində olan oykonimlər içərisində cəmi 1,54 faiz erməni mənşəli yer adları vardır. Fiziki-coğrafi obyektlər içərisində erməni mənşəli toponimlər demək olar ki, yoxdur». [15]

Çarizm bütövlükdə Şimali Azərbaycana, o cümlədən Naxçıvan bölgəsinə köçürülən ermənilərə böyük imtiyazlar verirdi. Onlar müəyyən müddətə vergilərdən azad olunur, ən yaxşı torpaqlarda yerləşdirilir, inzibati idarəetmə aparatında təmsil olunurdular və s. Bütün bunlar ermənilərin etno-demoqrafik mövqelərinin möhkəmlənməsinə də şərait yaradırdı. Buna görə də Azərbaycan torpaqlarında gəlmə olan ermənilər tədricən əsassız ərazi iddialarını həyata keçirməyə başlamış, buna nail olmaq üçün Azərbaycanın digər yerlərində olduğu kimi Naxçıvanda da soyqırımları törətmişdilər. [16]

1. ***Quliyev N.Ə.*** Naxçıvan xanlığının əhaliçi (tarixi-demoqrafik tədqiqat). Bakı, 2006, s.72
2. ***Mahmudov Y., Paşayev A., Şükürov K,*** Ermənilərin Cənubi Qafqaza köçürülməsinə dair (Çar Rusiyasının karantin-gömrük sənədlərindən) // Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Bakı, 2007, s.113.
3. ***Məmmədli A.*** Ermənilərin gerçək tarixi. Bakı, 2005, s.221.
4. Присоединение Восточной Армении к России. Сб. док. т.I (1801-1813). Ереван, 1972.
5. Туркменчайский трактат // Полное собрание законов Российской империи. Собр. вт. т.III. СПб., 1830, ст. 1794.
6. **Вердиева Х.Ю.** Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX вв.). Баку, 1999**; Глинка С.А.** Описание переселения армян Азербайджанских в пределы России. М., 1831 (Репринт. изд. Баку, 1990).
7. О именовании присоединенных к России ханств Эриванского и Нахичеванского Областию Армянского // Полное собрание законов Российской империи. Собр. вт. т.III. СПб., 1830, ст. 1888.
8. **Шопен И.** Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб., 1852.
9. там же, с.635-636.
10. там же, с.637-638.
11. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi: f. 24, Siy.1, iş 353-361, 372.
12. ***Quliyev N.Ə***. Naxçıvan xanlığının əhaliçi (tarixi-demoqrafik tədqiqat). Bakı, 2006, s.76-79; **Вердиева Х.Ю.** Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX вв.). Баку, 1999.
13. **Вердиева Х.Ю.** Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX вв.). Баку, 1999, с.108-109.
14. ***Babayev S***. Naxçıvanda «Kitabi – Dədə Qorqud» toponimləri. Bakı, 1999; ***Budaqov B., Qeybullayev Q.*** Naxçıvan diyarının yer yaddaşı. Bakı, 2004.
15. ***Babayev S.*** Naxçıvanda «Kitabi – Dədə Qorqud» toponimləri. Bakı, 1999, s.11.
16. ***Ordubadi M.S.*** Qanlı illər. Bakı, 1911 (təkrar nəşr. Bakı, 1991); Azerbaycan belgelerinde ermeni sorunu (1918-1920). Ankara, 2001; **Наджафов Б.** Лицо врага. История армянского национализма в Закавказье в конце XIX- нач. XX в. чч. I-II. Баку, 1993-1994; **Халилов А.** Геноцид против мусульманского населения Закавказья в 1917-1920 годах в исторических источниках. АКД. Баку, 1996 və b.

## 4.2. Ermənilərin azərbaycanlılara qarşı 1905-ci il soyqırımının Naxçıvan bölgəsində gedişi

Soyqırım, yaxud ümumi terminologiyaya uyğun olaraq genosid (yunan dilində genos - say, qəbilə və latın dilində caedo-öldürürəm sözlərindən ibarətdir) tarixi qədim zamanlardan başlasa da onun beynəlxalq hüquqi aspektləri İkinci Dünya müharibəsindən (1939-1945) sonra diqqət mərkəzinə çıxmışdır. Antihitler koalisiyasına daxil olan dövlətlərin yaratdığı Beynəlxalq hərbi tribunalın nizamnaməsi və hökmündə bəşəriyyətə qarşı cinayət və ona görə məsuliyyət prinsipi müəyyən edilmişdi.[1] Nürnberq prosesinin sənədlərində «genosid» anlayışı tətbiq edilməsə də, milli və irqi əlamətə görə mülki əhalinin kütləvi şəkildə məhv olunmasından bəhs edilirdi. Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1946-cı il 11 dekabr 96 (1) Qətnaməsində artıq genosid anlayışı tətbiq olunmuşdu. Genosid haqqında əsas sənəd isə BMT-nin 1948-ci il dekabrın 9-da qəbul edilmiş genosid cinayətinin qarşısının alınması və ona görə cəza haqqında konvensiyadır. Sonralar genosid barədə digər beynəlxalq hüquqi sənədlər qəbul edilmişdir. Azərbaycan 1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra milli qanunvericilikdə də bu problemə yer ayrılmışdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103-cü maddəsi soyqırım cinayətinə həsr edilmişdir. Azərbaycan Respublikası Prezidenti 1998-ci il martın 26-da «Azərbaycanlıların soyqırımı haqqında» fərman vermişdir. Fərmanda ermənilərin Azərbaycan xalqına qarşı törədilmiş tarixi cinayətləri siyasi-hüquqi baxımdan təhlil edilərək soyqırım kimi qiymətləndirilmiş, Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə 31 mart azərbaycanlıların soyqırım günü kimi elan edilmişdir.[2]

Soyqırımların daim yad edilməsi hər bir azərbaycanlının ən müqəddəs vəzifələrindən biridir. Bunun üçün azərbaycanlıların soyqırımlarının mükəmməl tarixi yaradılmalıdır.

Azərbaycanlıların soyqırım tarixinin öyrənilməsi obyektiv inkişaf mərhələsinə çatanadək mürəkkəb və ziddiyyətli yol keçmişdir. 1905-1906-cı illər azərbaycanlı soyqırımına M.S.Ordubadi və M.M.Nəvvabın əsərlərində[3], əsasən, düzgün qiymət verilmişdir. 1918-1920-ci illər hadisələri də öz dövründə milli qırğın kimi qiymətləndirilmişdi. Sovet dövründə bu hadisələrin mahiyyəti köklü şəkildə dəyişdirildi. Yalnız 1990-cı illərin əvvəllərində həqiqət bərpa olundu. Soyqırım və ya genosid termini tətbiq edilməyə başladı.[4] Azərbaycanlıların soyqırımı haqqında 1998-ci il 26 mart fərmanı bu sahədə tədqiqatlara əsaslı təkan verdi. Fərmanda doğru olaraq göstərilirdi ki, Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırım da tarixin açılmamış səhifələrindən biridir. Fərmandan sonra soyqırımın nəzəri, hüquqi-siyasi problemləri, azərbaycanlıların soyqırım tarixinin öyrənilməsi xüsusi elmi istiqamətə çevrildi.

Ermənilərin azərbaycanlılara qarşı soyqırım tarixi 1905-1906-cı illər qırğınları ilə başlayır. Ona görə də ilk soyqırımın tarixinin öyrənilməsi, ümumiyyətlə bütün soyqırımların araşdırılması, kompleks şəkildə nəzərdən keçirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, sonrakı soyqırımlardan bəhs olunarkən mütləq birinci soyqırım tarixinə müraciət edilir.

Ermənilərin 1905-1906-cı illərdə Naxçıvanda törətdikləri soyqırımı da ümumi prosesin tərkib hissəsi olmuş, bununla birgə bəzi xüsusiyyətləri də özündə əks etdirmişdir. Bu baxımdan 1905-1906-cı illər soyqırımının Naxçıvanda gedişini ayrıca tədqiq etmək zəruridir.

1905-1906-cı illərdə Naxçıvanda baş verən hadisələr 1906-cı ilin fevralında keçirilən Tiflis sülh danışıqları zamanı ermənilər tərəfindən ortaya atılmış və onun mahiyyəti təhrif olunmuşdur. Erməni nümayəndələri bütün günahları azərbaycanlıların üzərinə atmağa, ermənilər arasındakı itkilərin sayını şişirtməyə çalışırdılar.[5]

1905-1906-cı illərdə Naxçıvanda baş verən qırğınların tarixi bəzi ədəbiyyatlarda da əksini tapmışdır.[6] Onların nəzərdən keçirilməsi göstərir ki, bu işlər M.S.Ordubadinin «Qanlı illər» əsərinin müvafiq hissəsinin təkrarından ibarətdir. Burada mövcud faktik material təhlil əvəzinə, sadəcə olaraq təsvir edilmişdir.

Naxçıvanda 1905-1906-cı illərdə baş vermiş milli qırğınların tarixinə dair mənbələr də bir sıra xüsusiyyətlərə malikdir. Azərbaycan üzrə soyqırım tarixinin mənbələri içərisində rəsmi təhqiqatın Senator Kuzminskinin 1905-ci ildə Bakı şəhəri və quberniyasında keçirilən təftiş materialından geniş istifadə edilir.[7]

Naxçıvan bölgəsinin daxil olduğu İrəvan quberniyasında belə bir rəsmi təhqiqat aparılmamışdı. Bu baxımdan azərbaycanlıların soyqırımının Naxçıvanda gedişi M.S.Ordubadinin və Mir Möhsün Nəvvabın əsərlərindəki faktik material əsasında öyrənilir. Onlar tarixi əsər olmaqla bərabər, qaynaq kimi də çıxış edir.

1905-1906-cı illər milli qırğınları ermənilərin azərbaycanlılara qarşı ilk soyqırım aktı olduğundan onun səbəblərinin hərtərəfili araşdırılması zəruridir. Bu hadisələrin səbəbləri elə həmin dövrdə diqqət mərkəzinə keçmişdi. Bolşevik partiyası öz sənədlərində başlıca səbəb kimi çar hökumətini göstərirdi.[8] Əlbəttə, azərbaycanlıların 1905-ci ildəki soyqırımının səbəbləri içərisində çarizmin milli siyasəti, xüsusilə müsəlmanlara qarşı ayrıseçkilik siyasəti özünəməxsus yer tuturdu. Lakin bütün hadisələrin yalnız onunla bağlanması doğru deyildir. Bolşeviklərin bu baxışı sovet dövründə həlledici mövqeyə malik oldu. Senator Kuzminski 1905-ci il hadisələrini nisbətən geniş səpgidə şərh etməyə çalışırdı. Burada dövlətin münasibəti ilə birgə, sosial-iqtisadi xarakterli amillər də araşdırılırdı.

1905-ci il soyqırımının səbəbləri 1906-cı ilin fevralında keçirilən Tiflis sülh danışıqları proqramının birinci maddəsini təşkil edirdi. Onun müzakirəsi zamanı ermənilər əsas günahkar kimi hakimiyyət orqanlarını, azərbaycanlılar isə Daşnaksütunu və digər gizli erməni təşkilatlarını irəli sürmüşdü. V.Mayevski isə demək olar ki, bu problemə həsr edilmiş «Qafqazda erməni-tatar nifaqı» adlı yazısında hakimiyyət orqanlarını müdafiə edir, Daşnaksütunun günahkar olduğunu əsaslandırırdı.[9]

1905-ci il «erməni-müsəlman davasının» tarixinə dair geniş faktik material toplayan M.S.Ordubadini də hadisələrin səbəbi düşündürınüş, onun haqqında belə yazmışdır: «Bu hadisələrin baş verməsi və səbəbi haqqında Rusiya və Qafqaz mətbuatı ilə yanaşı, Avropa və Amerika mətbuatı qızğın-qızğın canfəşanhq etməkdə idilər. Bunu da bilməlidir ki, xarici mətbuat səhifələrində müzakirəyə qoyulmuş məqalələrin hamısı bir-birinə zidd, təzadlı fıkirlərlə qarşı-qarşıya durmaqda idilər. Bunlardan hansının haqlı, hansının haqsız olduğunu deməyə ehtiyac olsa da, hələlik bu kiçik səhifələrdə yerin və vaxtın azlığından təfsilatdan vaz keçib, bu hadisələrə səbəb dörd mühüm cəhəti deməklə kifayətlənəcəyəm».[10] Təəssüf ki, M.S.Ordubadi o vaxt mətbuatda olan fikirlərə münasibətini bildirmir, «Fəqət, məlumat və qüdrətim qədərincə bu iğtişaşa səbəb dörd şeydir - deyib, isbatdanda geri durmayacağam» yazır.[11] M.S.Ordubadinin göstərdiyi səbəblərə bəzi tədqiqatçılar da toxunmuşdur.[12] Lakin onlar, hələlik, hərtərəfli təhlil edilməmişdir.

M.S.Ordubadi göstərdiyi dörd səbəb içərisində birinci yerə Daşnaksütun partiyasının fəaliyyətini qoyur. «Birinci səbəb, erməni Daşnaksütun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı... Bu sözləri insafı olan erməni və müsəlman inkar etməz, zənnindəyəm. Mənə yetişmiş 245 məktub, Daşnaksütun partiyasının fəaliyyətinə dair dörd yüzdən artıq məlumatlar yazı stolunun üstündə durur». Müəllif 400-dən artıq məlumatdan yeddisini ayırır ki, onlardan biri də Naxçıvana aiddir: «7. Naxçıvan faciəsinə bir neçə gün qalmış bir nəfər müsəlmanın yerində namaz qıldığı məqamda daşnaksütunlar tərəfindən şəhid edilməsidir». İkinci səbəb kimi məhəlli hökumət məmurlarının müharibə zamanı etinasızlığı qeyd edilir. Bu səbəbin isbatı üçün iki fakt göstərilir. Onlardan da biri Naxçıvana aiddir: «Bunlara şahid Naxçıvan uyezdinin naçalniki Angil kimi vicdansızların fitnəkar hərəkətləridir. Belə ki, yanan atəşləri söndürməyib, əksinə, caniləri bir sıra cinayətlərə sövq edirdi... Angil naçalniklərin lənətəlayiq hərəkəti nəticəsində Naxçıvanda ermənilər qəzəbə gəlib məğlub edildi. Məğlub olub da, sonrasında Krılov kimi kazak komandaları kazakları ermənilərlə əlbir edib, müsəlman dükanlarını yandırmaqla müsəlmanları canlarından əziz olan mallarına məhrum və naümid etdi». Digər bir fakt kimi general Qalaşçapovun Şuşadakı fəaliyyəti nümunə gətirilir. Üçüncü səbəb kimi müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmaları qeyd edilir. «Dördüncü səbəbə gəldikdə ermənilərin avtonomiya idarə muxtariyyəti həvəsində olmasıdır".[13]

Göründüyü kimi dörd səbəbdən ikisi ermənilərin, biri hökumətin, digəri isə azərbaycanlıların mövqeyi ilə əlaqələndirilir. M.S.Ordubadinin 1905-ci il soyqırımının səbəbləri ilə bağlı fikirləri maraq doğursa da, problemi tam əhatə etmir.

Amerikan tarixçisi T.Svietoxovski də 1905-ci il «tatar-erməni müharibəsi»nin səbəbləri üzərində dayanır. Onun fikrincə bu iki etnik qrup arasında düşmənçilik uzun müddət ərzində davam etmiş, bu dövrdə isə dini ziddiyyətlər və adi nifrət çərçivəsindən kənara çıxmışdı. Svietoxovski burada yaşayan ermənilərin böyük hissəsinin İran və Türkiyədən köçürüldüyünü, ermənilərin Rusiyanın himayəsi altında müsəlmanlara nisbətən daha sürətlə inkişaf etməsini, iqtisadi həyatda güclü mövqe qazanmasını qeyd edir. Mədəni-dini ziddiyyətlərlə birgə Azərbaycan burjuaziyasının dağıdıcı rəqabətdən narazılığı, qeyri-ixtisash azərbaycanlı fəhlə və sahibkarlarla tacir-ermənilər arasındakı toqquşmaları da ön plana çəkir.[14] Burada iqtisadi faktora geniş yer ayrılsa da, ikili standart tətbiq edilir.

1905-1906-cı illərdə azərbaycanlılara qarşı ermənilərin törətdikləri soyqırımın səbəblərinə dair digər müəlliflərin fikirlərini də sadalamaq olardı. Yuxarıda göstərilənlərlə kifayətlənərək, bu barədə öz fıkirlərimizə keçək. Ermənilərin azərbaycanlılara qarşı soyqırımın əsas səbəbi onların Azərbaycan torpaqlarına gəlmə olması, ərazi iddiaları və ona nail olmaq üçün əl atdıqları etnik təmizləmə siyasəti idi. Sosial-siyasi, iqtisadi, mədəni və dini sahədə mövcud fərqlər tabe xarakterdə idi. Onların hər hansı birinin rolunun şişirdilməsi əsas səbəbin pərdələnməsinə, beləliklə, hadisələrin mahiyyətinin təhrif edilməsinə gətirib çıxara bilər.

1905-1906-cı illər hadisələri ermənilərin ilkin hazırlığından sonra 1905-ci il fevralın 6-da başlandı və geniş əraziyə yayıldı. Əvvəlcə M.S.Ordubadinin «Qanlı illər» əsəri əsasında soyqırımın gedişinin ümumi xronologiyasına nəzər salaq: Bakı - 1905, 6-10 fevral; Naxçıvan- 5-12 may; İrəvan 23 may-3 iyun; Eçmiədzin 3-9-iyun; Cəbrayıl - 16 iyun; Şuşa-16-21-avqust; yenidən Bakı - 20 avqust - 14 sentyabr; Cavanşir qəzası - 26 sentyabr-27 noyabr; Gəncə-19-24 noyabr; Tiflis - 20-21 noyabr; yenidən Naxçıvan - 26-30-noyabr; Qazax-1905, noyabr-1906, yanvar; Tiflis sülh danışıqları - 1906, fevral; Zəngəzur - 29 iyul -15 avqust. Hadisələrin bu tarix və coğrafiyada baş verməsi təsadüfi idimi? Bıı sual da tədqiqatlarda ayrıca nəzərdən keçirilməmişdir. Ona bir başa cavab versək qeyd edə bilərik ki, o təsadüfi səciyyə daşımamışdır. Bu baxımdan M.S.Ordubadinin aşağıdakı fikri maraq doğurur: «Əvvəlinci faciələrdə ermənilərin bütün Qafqazı işğal altma alacaq qədərində əsgərləri yox idi. Ermənilər yalnız hiylə və siyasətlə iş tutub bir ovuc könüllü əsgərlərlə müsəlmanların qüvvəsini əzmək istəyirdilər. Belə ki, Bakıda sülh edib müsəlmanları yatırtmaqla Şuşada müharibəyə başlayır. Şuşada sülh edib Gəncə quberniyasının sair yerlərini yandırmağa və

dagıtmağa təşəbbüs edirdilər. Müsəlmanlar isə əvvəlcə bunları bilməyib sonralar gözlərini açdılarsa da, ermənilər Türkiyədən və İrandan əsgər yığıb müsəlmanları əzməyə çalışırdılar.[15]

Bakıdan sonra ermənilərin hücumuna Naxçıvan bölgəsi məruz qalmışdı. Bu Naxçıvanın strateji mövqeyi ilə bağlı idi: «Naxçıvan şəhəri Sisyan mahalının əhəmiyyətli bir keçidi, hər saatda əsgər toplanışına əlverişli olduğundan, ermənilər lazımi qədərində Naxçıvanda milli partiyalardan saxlamışdılar. Erməni əsgərləri əsla dinc oturmayıb, müsəlmanları hər saatda müharibəyə çağırırdılar».[16] Bu fikir bizim üçün ciddi əhəmiyyətə malikdir. Buradan aydın olur ki, ermənilər hücum üçün əlverişli şərait gözləyirdilər. Belə olduğu halda Svietaxovskinin müsəlmanları «bütün mövcud məlumatlara uyğun olaraq», adətən hücum edən tərəf kimi təqdim etməsi yanlışdır.[17]

Ermənilərin Naxçıvanda törətdikləri vəhşiliklər iki mərhələdən ibarət olmuşdur: 1905-ci il 5-12 may və 26-30 noyabr.

Əvvəlcə, 1905-ci il 5-12 mayda baş vermiş hadisələr üzərində dayanaq. Faktlar bir daha sübut edir ki, ermənilər ciddi hazırlıq görərək, çoxlu silah-sursat toplamış və müsəlmanları qırmaq üçün hücum xətti seçmişdilər: «may ayının 5-də gündüz saat üç radələrində üç nəfər Cəhri kəndinin sakini müsəlmanlar erməni kəndi Şıxmahmud adlı yerdən keçdikləri vaxt ağır surətdə yaralanırlar». Digər bir fakta görə «may ayının 7-də Tunbul adlı erməni - müsəlman kəndini keçdikdə bir müsəlmanı vurub öldürürlər». Müsəlmanların mövqeyi ondan ibarət olur ki bu işlərə qarşı qanuni tədbirlər görülsün. M.S.Ordubadi də bu hala xüsusi diqqət yetirərək yazmışdır: «May ayının 8-də İrəvan vitse-qubernatoru Baranovski İrəvandan şəhər qlavası Ağamalov ilə, daha bir ay qabaq Peterburqa getmiş şəhər qlavası Cəfərqulu xan Naxçıvanski ilə Naxçıvana daxil oldular. Onların gəlməsini eşitdikdə camaat qapıya tökülüb ermənilərin bu işindən şikayətə başlayırlar». Bu arada şikayətlərin məzmunu və nəticəsi bəzi mühüm mülahizələrə əsas verir. Müsəlmanlar faktik olaraq ermənilərlə barışığa can atır və hökumətdən mühafizə arzu edirdilər. Hökumət isə heç bir tədbir görməmişdi. Bunun nəticəsi idi ki, ermənilər cinayətlərini davam etdirir. Bu dəfə cinayətlər daha amansız şəkil alır. Bir fakta görə «ayın 11-də Kültəpə adlı erməni kəndinin varlısı erməni fədailəri tərəfindən ailəsilə qətlə yetirildi. Ermənilər bunu da müsəlman camaatına nisbət verdilər. Lakin axırıncı təftişdə yuxarıda adı çəkilmiş partiya (Daşnaksütun - Z.Ş.) tərəfindən cəzalandığı məlum oldu». Deməli, öldürülən varlı Xaçatur ermənilərin özləri tərəfindən cəzalandırılmışdı. Onun qətlindən də azərbaycanlılara qarşı istifadə etməyə çalışırdılar. Mayın 12-də ermənilərin hücumu zamanı törətdikləri cinayət, vəzifə borcunu yerinə yetirməli olan polisin qızışdırıcı rolu ilə daha kəskin şəkil alır. M.S.Ordubadi yazırdı: «Müharibə vaxtı polis qulluqçusu naçalnik Angil qətlə mane olmayıb «Tez vur, oğlum! Tez ol, oğlum!» deməklə könüllü cavanları cinayətə təşviq edirdi. Talan vaxtı «Tez olunuz! Tez aparınız!» deyib camaatı qızışdırırdı».[18] Əgər 5-12 may hadisələri zamanı naxçıvanlılar özlərini müəyyən qədər müdafiə etməyə nail ola bilmişdilərsə, 26-30 noyabr hadisələri fəlakətli miqyas almışdı. M.S.Ordubadi hadisələri belə təsvir edir: «Noyabrın 26-cı gecəsi müsəlmanlara böük müsibət üz verib, hökumətin də hiyləsini hamıya bildirdi. həmin gecəni Naxçıvanda müsibət gecəsi, odlu-alovlu gecə adlandırmışlar. Həqiqətən də o gecə atəşli, ürəkdağlayan, yanğılı bir gecə idi... Camaat evlərindən çıxıb bazara getmək istəsələr də, kazaklar hər tərəfdən atəş açır mane olurdular». Beləliklə, kazaklar ermənilərlə əlbir olub, müsəlman bazarını qarət edib, ona od vurmuşdular. Noyabrın 29-da erməniləri müdafiə edən kazaklar şəhərin ikinci hissəsində bir müsəlman evini atəşə tutmuşdular. Noyabrın 30-da isə Cəhri kəndi onlar tərəfindən yandırıldı. Beləliklə, 26-30 noyabr hadisələri zamanı hökumət qüvvələri ermənilərin tərəfinə keçmiş, nəticədə naxçıvanlılara qarşı qırğın daha geniş miqyas almışdı.[19]

Mir Möhsün Nəvvab da öz əsərində Naxçıvan hadisələrinə yer vermişdir. Burada da ermənilərin dinc sakinlər üzərinə hücumu, onları qətlə yetirməsi təsvir edilmişdir. Lakin burada çox maraqlı bir epizod verilir. Özlərini müdafiə edən müsəlmanlar Böyük Badamlı kəndinə yaxınlaşdıqda "həmin kəndin bütün erməniləri gənc və qoca, böyük və kiçik öz külfətləri ilə müsəlmanların qarşısına çıxdılar. Tam ehtiramla kəlməyi-şəhadəti deyib, müsəlmanlığı qəbul etdiklərini bildirdilər. Müsəlmanlar onları sevinclə sakitləşdirib, böyük ehtiramla oradan geri qayıtdılar". Bu hadisə hakimiyyət dairələrində böyük təşviş yaradır. İrəvan qubernatoru ora gedərək onlara hədə-qorxu gəlir. «Yeni islam dinini qəbul etmiş ermənilər cavab verdilər ki, bizi heç kəs zor və hədə-qorxu ilə müsəlman etməyib. Əksinə, biz özümüz könüllü olaraq, öz razılığımız və rəğbətimizlə islam dinini qəbul etmişik».[20]

Ermənilərin Naxçıvanda 1905-ci ildə törətdikləri soyqırımından bəhs edərkən yuxarıda bəhs edilənlərə bu və ya digər dərəcədə toxunulmuşdur. Lakin Oxçu-Şəbadək, yaxud Qapan dərəsi hadisələrinin Naxçıvan, konkret olaraq Ordubadla bağlı çox ibrətamiz səhifələri də nəzərə alınmalıdır. Zəngəzura həsr edilmiş tədqiqatlarda geniş yer tutan bu hadisələr[21] göstərilən istiqamətdə də araşdırıla bilər.

M.S.Ordubadi «Qanlı illər»də «Zəngəzurda Oxçu-Şəbadək, yaxud Qapan dərəsi hadisələrinə dair» adlı bölmə vermişdir.[22] Ermənilərin 1906-cı ilin iyul-avqust aylarında Zəngəzurda törətdikləri vəhşiliklər misilsiz həddə çatdı. Ermənilər bir sıra kəndləri ələ keçirdikdən sonra "Zəngəzuru bir nişana almış məqamında duran Oxçu, Şəbadək, Purdavud, Atqır köyləri ermənilərin həyati-mülkiyyətlərini dəhşətə salmağa (terrora) başlamış idi. Zira, Oxçu və ətraf köylərin islamları ən cəsur, ən şücaətli adamlar olduğundan əlavə, bir-birinə bağlı köylərin camaatı islamın ən müqəddəs əsəri olan ittifaq üzrə yaşamaqda idilər". Ermənilər 1906-cı il avqustun 9-da bu kəndlərə hücum çəksə də uğur qazana bilmir. Avqustun 14-də isə ermənilər daha böyük qüvvə ilə hücuma keçdilər, müsəlmanlar Caqqarsuya çəkildi.

Ermənilər burada da əhaliyə divan tutur. Belə bir vəziyyət-də “sağ qalan islam və islamələr... çır-çılpaq Ordubad və mahal köylərinə pənah aparmışdılar. Ordubad camaatı isə son dərəcə qonaqpərvər olduqlarından, xüsusən başları belə müsibət çəkmiş bu adamlara xüsusi qayğı göstərdilər». Beləliklə, Zəngəzurun erməni soyqırımından sağ qalan və Ordubada pənah gətirmiş əhalisinin sonrakı taleyində ordubadlılar mühüm rol oynadı. Onlar həmin insanlara qayğı göstərməklə qalmayıb, Oxçu-Şəbadək səfərləri zamanı müsəlman kəndlərinin azad edilməsində iştirak etmişdilər.[23]

Ermənilərin 1905-1906-cı illərdə azərbaycanlılara qarşı törətdikləri soyqırımlar ağır nəticələr verdi. Müsəlman əhali böyük itki verdi. Qırğının ilk dövründə, əsasən bitərəf qalan çar hökuməti may ayından etibarən ermənilərin tərəfinə keçdi, onlarla ittifaq möhkəmləndirildi.[24] Ermənilər azərbaycanlılar əleyhinə düşmən təbliğat kampaniyasını da genişləndirdilər.

1905 - 1906-cı illər hadisələri azərbaycanlılar üçün də izsiz keçmədi. Siyasi oyanış, milli birlik ideyaları gücləndi. Naxçıvan bölgəsində ermənilərin törətdikləri vəhşiliklərə qarşı mübarizə və Oxçu-Şəbadək hadisələri zamanı ordubadlıların qəhrəmanlığı da müəyyən təcrübə yaratdı.

1905-1906-cı illərdə istədiklərinə nail ola bilməyən ermənilər yeni soyqırım aktları törətməyə hazırlaşmağa başladılar. Qafqaz canişini Voronsov-Daşkovun ermənipərəst siyasəti onlann mövqelərini gücləndirdi. Birinci Dünya müharibəsi, xüsusilə Osmanlı ordusunun Sarıqamışdakı məğlubiyyəti, rus ordusunun Osmanlı ərazisindəki işğalları ermənilərin açıq-aşkar soyqırımına başlamasına təkan verdi. 1917-ci ildən başlayan soyqırım aktları 1918-1920-ci illərdə daha amansız şəkil aldı. Bu dövrdə də Naxçıvan bölgəsi hadisələrin mərkəzində olmuşdu.[25] Ermənilərin bütün ciddi-cəhdlərinə baxmayaraq Naxçıvanı Azərbaycandan qoparmaq cəhdləri boşa çıxdı. Bu gün Naxçıvanın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi qalması, onun blokada şəraitində olmasına baxmayaraq dinamik ikişafını davam etdirməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasətinin qələbəsidir.

1. Нюрнбергский процесс. Сб. материалов в семи томах, т.1, с. 140-141, т. VII, с.384.
2. Azərbaycan q., 27 mart 1998-ci il.
3. **Ordubadi M.S.** Qanlı illər. Bakı, 1991 (ilk nəşri. Bakı, 1911); **Nəvvab Mir Möhsün.** 1905-1906-cı illər erməni-müsəlman davası. Bakı, 1993.
4. **Şükürov K.** Azərbaycan ermənişünaslığı: xüsusiyyətləri, tarixi və dövrün tələblərinə dair // Qarabağ: dünən, bu gün və sabah. Bakı, 2006, s.l 18-119.
5. **Маевский В.** Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса. Баку, 1993, с.35.
6. **Наджафов Б.** Лицо врага. История армянского национализма в Закавказье в конце XIX - начале XX в. ч.1. Баку, 1993, с.183-185; **Kazımov İ.** Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı, 2007, s.l 19-133.
7. Всеподданнейший отчет сенатора Кузминского о ревизии города Баку и Бакинской губернии [Баку, 1906].
8. Рабочее движение в Баку в годы первой русской революции. Док. и мат. Баку, 1956, с.99-110.
9. **Маевский В.** Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса. Баку, 1993
10. **Ordubadi M.S.** Qanlı illər, s.7.
11. yenə orada, s.8.
12. **Axundov Y.** «Qanlı sənələr»in ibrət dərsi və ya tarix təkrar olunur // Azərbaycan, 1990, №6, s.155-156.
13. **Ordubadi M.S.** Qanlı illər, s.8-11.
14. **Свиетоховский Т.** Русский Азербайджан, 1905-1920 // Хазар, 1990, №1, с.99.
15. **Ordubadi M.S.** Qanlı illər, s.9
16. yenə orada, s. 18.
17. **Свиетоховский Т.** Русский Азербайджан, 1905-1920 с. 100.
18. **Ordubadi M.S.** Qanlı illər, s.20.
19. yenə orada, s.21-22.
20. **Nəvvab Mir Möhsün.** 1905-1906-cı illər erməni-müsəlman davası, s.22-23.
21. **Musa Urud.** Zəngəzur, elmi-publisistik nəşr. Bakı, 2005, s.197-214.
22. **Ordubadi M.S.** Qanlı illər, s.126-140
23. yenə orada, s. 131-140.
24. **Свиетоховский Т.** Русский Азербайджан, 1905-1920, с.101.
25. **Paşayev A.** XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları və deportasiyaları (arxiv sənəd və materialları əsasında), DDA. Bakı, 2007; **Abışov V.** 1917-1918-ci illərdə erməni millətçilərinin Azərbaycan xalqına qarşı soyqırımı siyasəti. NDA. Bakı, 2007; **Əliyev Ə.** Əlincə yaddaşı. Bakı, 2004; **Əliyev M.** Qanlı günlərimiz (1918-1920. Naxçıvan). Bakı, 1993; **Kazımov İ.** Naxçıvan:

əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı, 2007; **Musayev İ.** Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1922). Bakı, 1996; **Hacıyev İ.** Ermənilərin Naxçıvana qarşı ərazi iddilarının əsassızlığı // Naxçıvan: tarixi gerçəklik, u müasir durum, inkişaf perspektivləri. Naxçıvan, 2006, s.33-47; **Маккарти Дж., Маккарти К**. Тюрки и армяне. Баку, 1996; **Свиетоховский Т.** Русский Азербайджан. 1905-1920 // Хазар, 1990, №l, 2; **Fahrettin Kırzıoğlu.** Kars ili və çerçivesinde ermeni mezalimi. Ankara, 1970; **İbrahim Ethem Atnur** Muhtariyyet Erefesinde Nahçıvan. NahçıvФn, 1999; **yenə onun,** Erməni məsələsinin Nahçıvan boyutu // Hayali Ermenistan ve soyqırım hekayesi. Uluslararası Tarih Sempozyumu. Kars, 2001; **Nurhan Aydın.** Qars ətrafinda və Naxçıvanda erməni vəhşilikləri // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri. Naxçıvan, 2006, s.300-322; **Veysəl Ünüvar.** Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan, 2006 və b.

# V FƏSİL

# NAXÇIVAN BÖLGƏSİNDƏ MƏDƏNİYYƏTİN İNKİŞAFI

Azərbaycan qədim zamanlardan dünya mədəniyyətinin mərkəzlərindən biri olmuşdur. Bu mədəniyyətin təşəkkülündə Azərbaycanın bütün bölgələrinin, o cümlədən Naxçıvanın əvəzedilməz rolu var idi. Uzun və şərəfli tarixi inkişaf yolu keçən Azərbaycan mədəniyyəti XIX əsrin əvvəllərində mürəkkəb tarixi reallıqla üzləşdi. Azərbaycan torpaqları 1828-ci il Türkmənçay müqaviləsi nəticəsində Rusiya ilə İran arasında bölüşdürüldü. Şimali Azərbaycan Rusiyanın, cənubi Azərbaycan İranın tərkibinə qatıldı.

Rusiya imperiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti xalqın həyatının bütün sahələrində, xüsusilə mədəniyyət sahəsində özünü daha ağır şəkildə göstərdi.

Çar hökuməti Cənubi Qafqazın xristian bölgələrindən fərqli olaraq müsəlmanlar içərisində təhsilin inkişafına nəinki yardım edir, hətta onun qarşısını alırdı. Şimali Azərbaycanda, tarixən ənənəvi təhsil müəssisələri olan məktəb və mədrəsələrin fəaliyyətinin öyrənilməsi, onların əsasında təhsilin inkişaf etdirilməsi əvəzinə müstəmləkiçilik məqsədlərinə xidmət edən təhsil sistemi yaradılmasına cəhd edilirdi. Məhz bunun nəticəsi idi ki, XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda, həmçinin Naxçıvan bölgəsində mürəkkəb struktura malik təhsil şəbəkəsi meydana gəlmişdi.

Çar Rusiyası Şimali Azərbaycanın işğalından sonra burada ilk dövlət məktəbləri açmağa başladı. Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədqiqatçısı H.Əhmədovun yazdığı kimi XIX əsrin 20-ci illərində Zaqafqaziyada, o cümlədən Azərbaycanda Avropa Rusiyasındakı məhəllə məktəbləri tipində qəza məktəbi adı ilə tədris müəssisəsi açmağın ilk layihəsi meydana gəldi. Mərkəzi hökumət 1829-cu il avqustun 2-də Zaqafqaziya məktəblərinin ilk nizamnaməsini təsdiq etdi.[1] Həmin nizamnaməyə görə Zaqafqaziyada açılması nəzərdə tutulan 20 qəza məktəbindən doqquzu (Gəncə, Şuşa, Nuxa, Şamaxı, Quba, Bakı, Naxçıvan, Ordubad, Qazax) Azərbaycanda açılmalı idi. Göründüyü kimi ilk məktəb nizamnaməsi Naxçıvan və Ordubadda da qəza məktəbi açılmasını nəzərdə tuturdu. Lakin ilk vaxtlar onlardan yalnız dördü – Şuşa (1830), Nuxa (1831), Bakı (1832) və Gəncə (1833) qəza məktəbləri açıldı. H. Əhmədov digər məktəblərin açılmamasının səbəbləri üzərində xüsusi dayanaraq yazmışdır: «Əhalinin maddi yardımına baxmayaraq, nizamnamədə nəzərdə tutulan digər qəza məktəblərinin təsisi isə bir sıra subyektiv səbəblərə görə təxirə salındı. Rusiya XMN ilə Zaqafqaziya məktəblər direktoru arasında gedən bir çox yazışmalardan bu məktəblərin təxirə salınmasının bəzi səbəblərini aydınlaşdırmaq olur. Arxiv sənədlərində Ordubadda qəza məktəbi açılmasının təxirə salınmasının bir səbəbi «orada sakin olanların kifayət qədər olmaması»… ilə izah olunur. Zaqafqaziyanın baş hakimi baron Rozen mərkəzi hökumətə raportlarından birində yazırdı: «Ordubad şəhərinin əhalisi az olduğundan hal-hazırda orada məktəb açmaq heç bir mənfəət verməz…» Naxçıvanda məktəb açılmaması isə «yerli sakinlərdən müəllimlik vəzifəsinə qabilliyətli olan adamın olmaması» ilə izah edilirdi. Təbii ki, bunlar yalnız bəhanə idi. Təsadüfi deyil ki, cəmi bir neçə il sonra, 1835-ci ildə yeni məktəb nizamnaməsi qəbul edilmiş, 1837-ci ildə isə Şamaxı ilə birlikdə Naxçıvanda da qəza məktəbi təsis edilmişdi. Bu məktəbə ilk vaxtlar iyirmiyə qədər uşaq cəlb edilmişdi. O, Ehsan xanın oğlanlarının evində yerləşirdi. Həmin bina 12 il müddətinə məktəbə pulsuz verilmişdi.[2] Burada H.Əhmədovun bir qeydi də maraq doğurur. O yazır ki, «general-mayor Ehsan xanın ölümündən sonra iki oğlu qalmışdı. Kapitan İsmayıl və praporşik Kəlbəli xan hər il Naxçıvan qəza məktəbinin nəfinə gümüş pul ilə 200 man. ianə verirdilər.[3] Ordubadda açılması nəzərdə tutulan qəza məktəbi əvəzinə isə 1853-cü il məktəb nizamnaməsinə uyğun olaraq 1854-cü il noyabrın 24-də ibtidai məktəb açıldı.[4] Bu məktəb Ordubadın mədəni həyatında mühüm yer tuturdu. S.P.Zelinskinin məlumatına görə burada 1856-cı ildə 16 azərbaycanlı təhsil alırdı. 1857-ci ildə onların sayı 17, 1858-ci ildə 24, 1859-cu ildə 27, 1860-cı ildə 32, 1861-ci ildə 19, 1862-ci ildə 14, 1863 və 1864-cü illədə 6, 1865-ci ildə 24, 1867-ci 17, 1868-ci ildə 4, 1869-cu ildə 16, 1870 və 1871-ci illərdə 13, 1872-ci ildə 17 və 1873-cü ildə 18 nəfər olmuşdu.[5]

Ə.Fərəcov Ordubad (tarixi-iqtisadi oçerk) kitabında qeyd edir ki, 1873-cü ildə Naxçıvan və Ordubad mahallarının məktəblərində 1367 şagird oxuyurdu ki, onlardan 698 nəfəri azərbaycanlı idi.[6]

Ordubad ibtidai məktəbi sonralar ikisinifli (1897), üçsinifli (1902) olmuş, nəhayət dördsinifli ali ibtidai məktəbə çevrilmişdir. Tədricən məktəbdə azərbaycanlıların sayı artmışdır. 1914-cü ildə məktəbdə 181 nəfər təhsil alırdı ki, onlardan 144 nəfəri azərbaycanlı idi.[7]

XIX əsrin 60-70-ci illərində həyata keçirilən islahatlar təhsildən də yan keçmədi. Təhsil sistemində yeni tipli məktəblər yarandı. 1879-cu ildə Naxçıvan qəza məktəbi şəhər məktəbinə çevrildi.[8]

İbtidai kənd məktəbləri (xalq məktəbləri də adlandırılırdı) şəbəkəsi də genişlənməyə başladı. 1904-cü ilin məlumatına görə Naxçıvan qəzasında 29 ibtidai xalq məktəbi fəaliyyət göstərirdi ki, onların əksəriyyəti (26)

kəndlərdə idi.[9] XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın təhsil sistemində qızların təhsilinin təşkili də nəzərdən keçirilməlidir. Rusiya işğalınadək Azərbaycanda qızlar əsasən, evlərdə təhsil alırdılar. Rusiya işğalından sonra qızlar üçün də məktəblər açılması zərurəti yarandı. Şimali Azərbaycanda ilk qız məktəbi «Müqəddəs Nina» qadın xeyriyyə cəmiyyəti tərəfindən 1848-ci il aprelin 30-da Şamaxıda açılmış, 1859-cu il zəlzələsindən müəyyən müddət sonra Bakıya köçürülmüşdü.[10]

Bütövlükdə Şimali Azərbaycanda olduğu kimi Naxçıvan bölgəsinin təhsil tarixində yeni üsulla fəaliyyət göstərən anadili məktəblərinin açılması xüsusi qeyd edilməlidir. Naxçıvan bölgəsində bu işin həyata keçirilməsində Məhəmməd Tağı Səfərovun (Sidqi) böyük xidməti olmuşdur. Sidqi 1892-ci ildə Ordubad şəhərində belə bir məktəb açmış və ona «Əxtər» (Ulduz) adı vermişdir. «Əxtər» məktəbi təhsilin təşkilinə görə qısa bir müddət ərzində xeyli şöhrət qazanmışdır. Təsadüfi deyil ki, «Əxtər»in fəaliyyəti İrəvan quberniyasının 1892-ci il icmalında da əksini tapmışdır. İcmalda deyilirdi ki, ucqar qəzalardan biri olan Ordubadda «Əxtər» adında yeni bir müsəlman məktəbi açılmışdır. Məktəbi Mirzə Tağı adlı bir şəxs təsis etmişdir. Yerli əhali məktəbə o qədər rəğbət bəsləyir ki, onlar öz uşaqlarını dini məktəbləridən çəkindirib «Əxtər»ə qoyurlar.[11] O zaman üçün bu çox mühüm bir etiraf idi. Sidqi belə bir məkəbin açılması üçün 1894-cü ildə Naxçıvan şəhərinə dəvət edildi. «Əxtər» bundan sonra daha 2 il fəaliyyət göstərdi. 1896-cı ildə rus-Azərbaycan məktəbinə çevrildi.[12] Sidqi Naxçıvan şəhərinə gəldikldən sonra burada da «Əxtər» kimi bir məktəb açmışdır. Yeni məktəb «Məktəbi tərbiyyə» adlandırılmışdır. Bu məktəbin şagirdlərinin sayı birinci ildə yüzə çatırdı.[13]

İstər «Əxtər», istərsə də «Məktəbi-tərbiyyə» tədrisin təşkilindəki yenilikləri ilə diqqəti cəlb edirdi. «Məktəbi-tərbiyyə» elə bir simaya malik idi ki, C.Məmmədquluzadə həyatının müəyyən hadisələrini onunla tutuşdurur. O, tərcümeyi-halında yazır: «Danabaş kəndində müəllim olduğum vaxtlar Naxçıvanda doxsan dörd və doxsan beşinci ildə böyük türk məktəbi açıldığına təsadüf edir. Bu həmin məktəbi idarə etməyə doxsan dördüncü ildə Ordubadan məşhur müdərris və şairimiz Məşədi Tağı Sidqi dəvət olunur. Həmin təzə türk məktəbi savayı ondan ki, nə qədər türk balalarının təzə üsulda savad və bilik əxz etmələrinə səbəb olur, həmin məktəb biz yeniyetmə müəllim və ədiblər üçündə bir darülürfan hesab olunur».[14] Sidqinin məktəbi Azərbaycanın digər yerlərində də yeni üsullu məktəblər açılmasına müsbət təsir göstərdi.

Bu dövrdə Naxçıvanda qadın təhsilinin təşkilinə də diqqət yönəlmişdi. M.T.Sidqi 1890-cı illərdə Naxçıvanda xüsusi qız məktəbi açmağa nail olmuşdu.[15] Qızların təhsilə cəlb edilməsinin digər bir yolu mövcud olan məktəblərə onların cəlb edilməsi sahəsində çalışmalar idi. H.Əhmədov bu sahədə görülən işlərdən bəhs edərkən 1890-1897-ci illərdə Nehrəm kəndindəki iki sinifli məktəbin müdiri vəzifəsində işləyən C.Məmmədquluzadənin fəaliyyəti üzərində xüsusi dayanır. Arxiv sənədləri əsasında araşdırılan həmin məsələnin Naxçıvan bölgəsində təhsilin tarixinin öyrənilməsi üçün əhəmiyyətini nəzərə alaraq, həmin hissəni burada verməyi zəruri hesab etdik. H.Əhmədov yamışdır: «Dini fanatizmin möhkəm kök saldığı kəndlərdən biri olan Nehrəmdə qızların məktəbə, həm də oğlanlarla birlikdə rus dilində təhsilə cəlb edilməsi çox mühüm hadisə olub, yalnız C.Məmmədquluzadənin səy və ciddi cəhdinin nəticəsi idi. Nehrəm məktəbinə 8 qız cəlb edilmişdi. C.Məmmədquluzadə 1893-cü il yanvarın 18-də İrəvan-Gəncə quberniyaları və Kars vilayəti xalq məktəblər direktoruna göndərdiyi 10 №li raportunda yazırdı: «Zati alilərinə bunu hörmətlə bildirməyi özümə şərəf hesab edirəm ki, mənə tapşırılmış məktəbə bu il yanvarın 15-nə qədər oxumaq üçün 8 azərbaycanlı qız daxil olmuşdur». C.Məmmədquluzadə qızların adlarını da qeyd edirdi… C.Məmmədquluzadə həmin raportun sonunda yazırdı: «Bununla birlikdə, acizanə surətdə əlavə edib bildirirəm ki, həmin qızlardan xüsusi hazırlıq sinfi təşkil etdim və bu siniflə, mən özüm dərs keçirəm».[16]

Beləliklə, XIX-XX əsrin əvvəllərində Naxçıvan bölgəsində bəzi istisnalarla (orta məktəblər və b. olmaması) bütün Şimali Azərbaycan üçün xarakterik olan məktəb şəbəkəsi yaranmışdı. Bir arxiv materialına görə 1913-cü ildə Naxçıvan bölgəsində aşağıdakı məktəblər var idi: Naxçıvan (3 sinifli) və Ordubad şəhər məktəbləri, Naxçıvan şəhərində rus-Azərbaycan kişi və qadın (hər biri iki sinifli) məktəb; məktəb yanında kişi rus-Azərbaycan məktəbi; dəmir yol məktəbi; Naxçıvan qəzasıda Qulubəydizə, Mahmudax, Biləv, Qazançı-Milax, Yaycı, Vənənd, Quzlu, Qaraçux, Nəzərabad, Qahab, Yamxana, Əbrəqunis, Cəhri, Yarımca, Nehrəm, Şahtaxtı, Digin-Almalı, Əznəbürd, Gömür, Karmalinovka, Bist, Alagöz-Məzri, Əliabad, Gecəzur, Kültəpə, Nurs, Sust, Cəhri (burada qızlar üçün) kənd məktəbləri; Şərurda Baş Noraşen, Ələkli, Yengicə, Dərvişlər, Ulya Noraşen, Tumaslı, Saraclı kənd məktəbləri.[17]

Naxçıvan bölgəsində yeni yaranan təhsil müəssisələri ilə birgə ənənəvi məktəb və mədrəsələr də fəaliyyətini davam etdirirdi.[18]

Naxçıvan bölgəsinin ziyalı və pedaqoqları Azərbaycanın pedaqoji fikir tarixinə də mühüm töhfələr vermişdi. Onların içərisində M.T.Sidqi xüsusilə fərqlənir. Azərbaycanın məktəb və pedaqoji fikir tarixinin tədqiqatçısının yazdığı kimi «M.T.Sidqi yeganə Azərbaycan pedaqoqudur ki, onun «Seçilmiş pedaqoji əsərləri» (Sidqi M.T. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1967. – Z.Ş.) çap edilərək oxuculara çatdırılmışdır. Onun əsərlərindəki bir sıra müddəalar dövründə böyük əhəmiyyət kəsb etdiyi kimi bəziləri bu gün də öz təravətini saxlayır».[19]

Naxçıvan bölgəsi, xüsusilə Naxçıvan şəhəri Azərbaycanda elmin inkişafına da mühüm töhfələr vermişdir.[20] Lakin XIX-XX əsrin əvvəllərində çarizmin həyata keçirdiyi müstəmləkəçilik siyasəti təhsilin inkişaf səviyyəsini aşağı salmış, bununla elmi fikrin tərəqqsinə də mane olmuşdu.

Rusiya imperiyasının müstəmləkəçilik siyasətinin bütün sərtliyinə baxmayaraq, Naxçıvanda ədəbi mühitin formalaşması və inkişafının qarşısını almaq mümkün olmadı. Naxçıvan ədəbi mühiti Azərbaycan mədəniyyəti və ədəbiyyatının böyük hadisəsi oldu. Onun böyük əhəmiyyəti bu hadisənin xüsusi tədqiqat obyekti kimi ayrılmasına səbəb olmuşdur.[21]

XIX əsrin 30-cu illəri Naxçıvan bölgəsində iki ədəbi məclisin yaranması ilə əlamətdar olmuşdur. Naxçıvanda yaranan ədəbi məclis «Qönçeyi-ülfət» adlandırmışdır. Bu məclis (XIX əsrin 30-40-cı illəri) Naxçıvan hakimi Ehsan xan Kəngərli tərəfindən qızı Qönçəbəyimin şərəfinə təşkil edilmişdir. «Azərbaycanın aşıq və şair qadınları» kitabında (Tərtib edəni Ə.Cəfərzadə) Qönçəbəyim haqqında belə yazılmışdır: «Qönçəbəyim təxminən 1827-ci ildə Naxçıvanda Ehsan xanın ailəsində anadan olmuşdur. Onun atası rus zabitləri ilə dost olmuş, A.Qriboyedov İrana gedərkən onlarda qonaq qaldığı kimi, gürcü şairi Barataşvili də dönə-dönə Ehsan xanın sarayına getmiş və burada Qönçəbəyimlə tanış olmuşur. Barataşvilinin yazdığına görə Qönçəbəyim gözəl və istedadlı bir qız imiş. Barataşvili onun şerlərini gürcü əlifbası ilə köçürüb, gürcü dilinə tərcümə edilmək üçün Tiflisə göndərmişdi. O məsləhət görmüşdü ki, həmin şeirlər məclislərdə oxumaq üçün xanəndə Səttara və şəkili Cəfərə verilsin.

Qönçəbəyim 1837-ci ildə Naxçıvanda təşkil edilmiş rus məktəbinə daxil olmuş, doğma ana dilindən başqa, rus və fars dillərini də yaxşı öyrənmiş, şərq ədəbiyyatına xüsusi meyl göstərmişdir.

Deyilənə görə Qönçəbəyim İbrahim bəy adlı bir zabiti sevmiş, lakin 1844-cü ildə sevmədiyi Şamil xana ərə verilmişdir…» Tərtibçinin fikrincə «sonralar hadisə dillərə düşmüş və «Şahzadə İbrahim» dastanına daxil edilən və «Bəyim» dilindən deyilən şerlərin bir qismi də məhz Qönçəbəyimindir ki, adının bir hissəsi olan «bəyim» kəlməsini təxəllüs kimi işlətmişdir».[22] Həmin topluda Qönçəbəyimin yaradıcılığına dair iki şeir verilmişdir. Bu şeirlərdə Qönçəbəyimin İbrahimə olan sevgisi vəsf olunub. Şairə yazırdı:

*Bizə səg rəqiblər deyirlər asi,*
*Mövlayə bağldıq yəni ixlası,*
*Mən Bəyiməm İbrahimin butası*
*Gizlin deyil, var, aşkara de, gəlsin.*[23]

Qönçəbəyimin yaradıcılığı ilə tanış olan fransız yazıçısı və tənqidçisi Sent-Böv onun haqqında yazmışdır: «Bu qadın təkcə şairə deyildir, onun bütün varlığı poeziyadır».

Digər poetik məclis - «Əncümənüş şüəra» («Şairlər yığıncağı») Ordubadda fəaliyyət göstərirdi. «Əncümənüş şüəra»nın Azərbaycandakı yeri nəzərə alınaraq «Poetik məclislər» kitabına daxil edilmişdir. Bu kitabda XIX əsr Azərbaycan ədəbiyyatında xüsusi yer tutan «Divani hikmət», «Gülüstan», «Beytüs-səfa», «Məclisi-üns», «Məclisi fəramuşan» kimi tanınmış poetik məclislərlə birgə «Əncümənüş şüəra», onun üzvləri və əsərlərindən nümunələr çap olunmuşdur. «Əncümənüş şüəra» 1838-ci ildə Şıxəli Naib (Şeyxəli xan – Z.Ş.) tərəfindən təşkil edilmişdi. Bu məclisə şair Hacağa Fəqir (M.S.Ordubadinin atası – Z.Ş.), onun ölümündən sonra isə Məmmədtağı Sidqi rəhbərlik etmişdi. Onun səyi nəticəsində bu məclis Ordubadla birlikdə Naxçıvanda da XIX əsrin sonlarınadək mövcud olmuşdu. «Poetik məclislər» toplusunun məlumatına görə «məclisdə Məmmədtağı Sidqi, Hacağa Fəqir, Mirzə Ağarəhim Qüdsi (Vənəndi), Möhtərəm Ordubadi, Molla Məhəmməd Ordubadi, Əhməd ağa Şəmi, Usta Zeynal Nəqqaş, Molla Hüseyn Bikəs, Salik Ordubadi, Nadim Naxçıvani, Məşədi Həsən Dəbbağ, Mirzə Mehdi Naxçıvani və b. iştirak etmişlər».[24]

«Əncümənüş şüəra»nın fəaliyyətində Fəqir Ordubadinin (1836-1885) yaradıcılığı mühüm yer tutur. O, tacir ailəsində anadan olmuş, məktəb yaşına çatdıqdan sonra atası onu Təbriz və Şirazın tanınmış alimlərinin yanında oxutmuşdu. Fəqir Ordubadi təhsildən qayıtdıqdan sonra Ordubadda müəllimlik etmişdir. Əsərlərinə görə təqib edilmiş, bir müddət Türküstanda yaşamalı olmuşdu. Ordubada qayıtdıqdan sonra xırda alver etmişdir. Həyatının son illərində gözləri tutulmuş, şeirlərini Məmmədtağı Sidqiyə və başqalarına diqtə edərək yazdırmışdır. Şairin «Kürdün çul satması» («Fatı və qubernator» da adlanır), «Şikayətnamə», məsnəvilər və «Gülşəni-irfan» adlı kiçik divanı vardır. Azərbaycan və fars dillərində yazmışdır.[25] Fəqir Ordubadinin «Şikayətnamə» əsərində həyatın bir sıra hadisələri, xüsusilə din xadimləri tənqid olunur:

*Çıxıbdı mərsiyəxan minbərə, deyir rövzə,*
*İnanmayın, keyfi var, mətləbi qinadəndir.*

*Tapıbdı mərsiyəxanın şagirdi xoş təsnif,*
*Tutub diringə, qızlar növhə, ney-nəvadəndir.*[26]

XIX-XX əsrin əvvəlləri Naxçıvan ədəbi mühitin görkəmli nümayəndəsi M.T.Sidqi idi. N.Cəfərov yazmışdır: «XIX əsrin ortalarından etibarən Naxçıvanda milli maarifçilik dünyagörüşünə əsaslanan məhsuldar bir ədəbi-mədəni mühit formalaşır. Həmin mühitin ilk görkəmli yetirməsi Məhəmməd Tağı Sidqi olmuşdur.

M.T.Sidqi … XIX əsrin sonu – XX əsrin əvvəlləri Naxçıvan ədəbi mühitinin müəyyənləşdirilməsində təkraredilməz rol oynamış, bir müəllim, yazıçı və ictimai xadim olaraq doğma diyarda geniş fəaliyyət göstərmişdir. XIX əsrin sonlarında onun Naxçıvanda açdığı «Məktəbi-tərbiyyə»nin onlarla məzunu sonralar dünya şöhrətli ədəbiyyat, mədəniyyət adamları olmuşlar».[27]

M.T.Sidqinin həyat və fəaliyyəti geniş tədqiq olunmuşdur.[28] O, 1854-cü ildə Ordubad şəhərində anadan olmuş, 1903-cü ildə Naxçıvan şəhərində vəfat etmişdir.

Sidqinin ədəbi irsinin[29] bir hissəsi onun pedaqoji fəaliyyətilə bağlı olmuşdur. Sidqi «Kəblə Nəsir», «Heykəli-insanə bir nəzər», «Tənviri-əfkar və təhfimi-insaniyyət», «Nümuneyi-əxlaq», «Hikmətli sözlər», «Qızlara hədiyyə», həmçinin Azərbaycan dilində ilk coğrafiya dərsliyinin müəllifidir.[30]

Sidqi Azərbaycan uşaq nəsrinin də görkəmli nümayəndəsidir. Onun bu istiqamətdə yazdığı əsərləri «Məktəb hekayələri» kimi tanınır.

Sidqi publisistika sahəsində də çalışmışdır. O, «Tərcüman», «Əxtər», «Həblülmətin», «Kaspi» və b. qəzetlərlə əməkdaşlıq etmişdir. O, 1903-cü ildə «Şərqi-rus» qəzetinin nəşri münasibətilə Tiflisə – Məhəmməd ağa Şahtaxtlıya təbrik məktubu yazaraq belə bir inamını bildirmişdi ki, «bu cəridə islamiyyət mətbuatına rövnəq əfza olmaqdan maədə millət balalarının təlim və tərbiyəsinə, vətən əhalisinin tərəqqi və mədəniyyətinə və əfkarımızın vüsətinə, əlhasil müsəlman aləminin hər bir mənfəətinə xidmət edəcəkdir. Həqiqətdə türk əğvali üçün ümumən, Qafqaz müsəlmanları üçün xüsusən, azəri türk dilində bir qəzetənin təsis və intişarı nətayət dərəcədə lazım idi.»[31] Mətbuatın rolunu bu cür yüksək qiymətləndirən Sidqi «Çıraq» adlı bir qəzet açmağa da çalışmışdı.

Sidqi rus ədəbiyyatına, xüsusilə onun görkəmli nümayəndəsi A.S.Puşkinin yaradıcılığına diqqət yetirmiş, «Məktəbi-tərbiyyə»də onun 100 illik yubileyi təşkil olunmuş, o, burada məruzə ilə çıxış etmişdi.

Sidqinin ədəbi-pedaqoji fəaliyyəti və yaradıcılığı, digər şərtlərlə birgə XIX əsrin sonları – XX əsrin əvvəllərində Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndələrinin yetişməsinə təkan verdi. Aparılan elmi araşdırmalar onların dairəsini müəyyən etməyə imkan vermişdir: Cəlil Məmmədquluzadə (1869-1932), Qurbanəli Şərifzadə (1854-1917), Mirzə Cəlil Şürbi (1874-1915), Eynəli Sultanov (1866-1935), Hüseyn Cavid (1882-1941), Əliqulu Qəmküsar (1880-1919), Məmməd Səid Ordubadi (1872-1950) və b.[32]

Naxçıvan ədəbi mühitinə dair tədqiqatçılardan biri onun əsas nümayəndələrinin yaradıcılığı əsasında tamamilə doğru bir nəticəyə gəlmişdir: «Naxçıvan mühitinin yetirdiyi ədəbi simalar öz dünyagörüşünə, müxtəlif ədəbi məktəblərə mənsub olmalarına görə fərqlənirlər. Cəlil Məmmədquluzadə maarifçi-demokrat, Hüseyn Cavid romantik şair, Məmməd Səid Ordubadi realist nasir olmuşdur. Yəni əslində, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının əsas ideya-estetik istiqamətləri Naxçıvandan çıxmış yazıçıların yaradıcılığında öz parlaq əksini tapmışdır… Bu isə onu göstərir ki, Naxçıvan ədəbi-mədəni mühiti heç zaman özünə qapanıb qalmamış, dünyada baş verən ictimai-siyasi, ideoloji prosesləri, hətta müəyyən mənada, qarşıdurmaları, ziddiyyətləri özündə əks etdirmişdir».[33]

Azərbaycan mədəniyyət tarixinin ən unudulmaz səhifələrindən biri burada teatrın yaranması ilə bağlıdır. Bu, bir həqiqətdir ki, Azərbaycan professional teatrı təsdüfən meydana gəlməmiş, onun əsaslı tarixi kökləri olmuşdur. Burada Azərbaycan xalq teatrı mühüm rola malik olmuşdur. Azərbaycan xalq teatrının tədqiqatçısının yazdığı kimi «Azərbaycan xalq teatrının obrazlı ifadə tərzi, şərtilik, xəlqilik, aktuallıq keyfiyyətləri, müsbət qəhrəman ənənələri, professional teatrın yaranması üçün bir zəmin olmuşdur. Bu mənada xalq teatrı və dramaturgiyası həmişə ilk mənbə olmuş, tarix boyu görkəmli sənətkarların diqqətini cəlb etmişdir. Azərbaycan professional teatr və dramaturgiyası xalq teatrından geniş istifadə etmişdir».[34]

Azərbaycan xalq teatrı ilə birgə, professional teatr ənənələri də milli teatrın yaranmasına həlledici təsir göstərmişdir. Məhz bunun nəticəsində 1873-cü ilin martında Azərbaycan professional teatrı həyata qədəm qoymuşdur. Bu hadisə Azərbaycanla birgə Şərq aləmindədə böyük dönüş yaratmışdır. Görkəmli teatrşünas C.Cəfərov yazmışdır: «Hər şeydən əvvəl nəzəri cəlb edən burasıdır ki, Azərbaycanda əvvəlcə dramaturgiya, bir müddət sonra isə teatrın yaranması Azərbaycan milli mədəniyyəti üçün mühüm tarixi hadisə olmaqla bərabər, Yaxın Şərqdə, bəlkə də daha geniş - müsəlman Şərqində qüvvətli bir əks-səda doğurmuşdur. Hər yerdə bu hadisəni çox mühüm başlanğıc hesab etmiş, onu izləməyə, davam etdirməyə, ondan ictimai inkişafı sürətləndirmək üçün istifadə etməyə çalışmışlar. Azərbaycan teatrı bir çox Şərq ölkələrində xüsusən türk dilli xalqlar içərisində milli teatr hərəkatının doğuluşu və inkişafı üçün bir təkan, bir nümunə rolunu oynamışdır».[35]

Bakıda ilk teatr tamaşasından sonra Azərbaycanın əyalətlərində də teatr tamaşaları təşkilinə maraq artdı.[36] Naxçıvan onların sırasında əsas yer tuturdu. Naxçıvanda təhsil, ədəbi-bədii yaradıcılığa geniş maraq, mədəni tərəqqiyə artan tələb burada teatr hərəkatının meydana gəlməsinə səbəb oldu. Azərbaycanda teatrın fəaliyyətə başlamasından on il sonra Naxçıvanda da teatr həyata qədəm qoyu. Sözün əsil mənasında Naxçıvan teatr tarixinin salnaməsini yaratmış Ə.Qəhrəmanov yazmışdır: «Faktlardan aydın görünür ki, Naxçıvanda milli dünyəvi teatr yaratmaq uğrunda «Naxçıvan müsəlman incəsənəti və dram cəmiyyəti» üzvləri səylər göstərsələr də buna yalnız 1883-cü il may ayının 15-də nail olmuşlar. Hacı Nəcəf Zeynalovun evində göstərilən Mirzə Fətəli Axundovun «Müsyö-Jordan və Dərviş Məstəli şah» komediyası ilə Naxçıvan teatrı təvəllüdə başlayır».[37] Müəllif qeyd edir ki, E.Sultanov və Cəlil Məmmədquluzadə Naxçıvan teatrının yaranmasında əsas simalar olmuşlar. E.Sultanov və

C.Məmməquluzadə ilə yanaşı Əliməmməd Xəlilov (1862-1896), Mirzə Sadıq Qulubəyov (1823-?), Fəcəculla Şeyxov, Nəsrula Şeyxov (1863-1921), Məhəmməd Tağı Sidqi (1854-1903), Mirzə Cəlil Mirzəyev (Şürbi) (1874-1915), Mirzə Əhməd Musa oğlu Hüseynov, Ələkbər Məmmədhüseyn Xəlilov və başqaları Naxçıvan teatrının yaranmasında fəallıq göstərirlər. Bunlarla yanaşı Qurbanəli Şərifzadə (1854-1914), Sadiq Mirzə Xəlilov (1864-1905), Cümşüd-Paşa Sultanov (1849-1902), Mirzə Əliqulu Novruzov, Məmmədqulu bəy Kəngərli (1854-1905), Bəhram xan, Kiçik xan, Böyük xan Naxçıvanskilər və digərləri də Naxçıvan teatr hərəkatında yaxından iştirak etmişlər.[38]

Naxçıvanda 1883-cü ilin mayından başlanan teatr hərəkatı bütün çətinliklərə baxmayaraq, dayanmır, yeni vüsətlə davam edir. 1884-cü ildə E.Sultanovun «Tarka» və rus dramaturqu N.Y.Solovyovin «İşin başlanğıcında» pyesləri rus dilində tamaşaya qoyulur.

Buna baxmayaraq M.F.Axundovun pyesləri XX əsrin əvvəllərinədək teatr tamaşalarında üstün mövqeyini saxlayır. İ.Rəhimli yazır: 1887-ci il sentyabr 2-də Mirzə Sadıq Qulubəyovun rəhbərliyi ilə Mirzə Fətəli Axundzadənin «Molla İbrahimxəlil kimyagər» məsxərəsi oynanılıb. Hacı Nəcəf Zeynalovun evində göstərilən tamaşanı Cəlil Məmmədquluzadə və Əliməmməd Xəlilov hazırlayıblar. Əsas rolları Cəlil Məmmədquluzadə (Molla İbrahimxəlil), Ələkbər Süleymanov (Şeyx Salah), Məmətağı Səfərəlibəyov (Molla Həmid) ifa edirlər. Bu tamaşadan sonra şəhərdə teatr həvəskarları nisbətən fəallaşıblar. İl ərzində bir neçə tamaşa oynanılıb. Novruz və Orucluq bayramlarında göstərilən tamaşalar daha təmtaraqlı keçib. Yay tətillərində başqa şəhərlərdə oxuyan tələbələr tətilə gələndə tamaşa və konsertlərin götərilməsi prosesi daha da canlanıb». Bununla birlikdə digər müəlliflərin əsərləri də tamaşaya qoyulur. C.Məmədquluzadənin yaradıcılığına müraciət edilməsi də mühüm hadisə idi. Onun «Çay dəstgahı» mənzum dram əsəri 1889-cu ildə müəllim işlədiyi Baş Noraşen kənd məktəbində, 1890-cı ildə isə Naxçıvanda tamaşaya qoyuldu. 1898-ci ildən başlayaraq N.B.Vəzirovun yaradıcılığına müraciət edilir. 1907-ci ildə N.B.Vəzirovun «Müsibəti-Fəxrəddin» əsəri tamaşaya qoyulmuşdu. Elə həmin il Ə.Haqverdiyevin «Bəxtsiz cavan» əsəri səhnələşdirilmişdi. 1917-ci ildə C.Məmmədquluzadənin «Ölülər» pyesinin tamaşaya qoyulması Naxçıvan teatrında böyük hadisə olmuşdu.[39]

Naxçıvan şəhəri ilə birgə Ordubad və Culfada da teatr tamaşaları göstərilirdi.

Naxçıvanda teatr işi özünə yer tutduqca teatrla bağlı sənət sahələri, bina və s. məsələlər də həllini tələb edirdi. Ə.Qəhrəmanov yazır ki, 1904-cü ildən 1910-cu ilə kimi Naxçıvan teatrında rejissorluq vəzifəsini istedadlı artist kimi şöhrət tapmış Böyükxan Naxçıvanlı ifa etməyə başlayır. Bu görkəmli sənətkarın Naxçıvan teatrının inkişafında böyük xidmətləri olmuşdur.[40] Bəhruz Kəngərli 1912-ci ildən etibarən Naxçıvanda göstərilən tamaşalarda tərtibatçı-rəssam kimi fəaliyyət göstərir.[41]

Naxçıvandakı teatr hərəkatı təcrid olunmuş halda qalmamış, Bakı, Tiflis, İrəvanla qarşılıqlı teatr əlaqələri saxlamışdır.[42]

Bütün bunların nəticəsi idi ki, C.Cəfərov Naxçıvan teatrına yüksək qiymət verərək yazmışdır: «Azərbaycan teatr hərəkatının başlanğıcı Naxçıvanla bilavasitə əlaqədardır… Naxçıvan teatrı başqa teatr mərkəzlərinə nisbətən milli teatr hərəkatında daha güclü mövqe tutmuş və Azərbaycanda teatr sənətinin inkişafına səmərəli təsir göstərmişdir… Naxçıvan teatrının mühüm rol oynaması onun müstəqil mövqeyə malik olduğunu da aydın sübut edir».[43]

Naxçıvanın Azərbaycanda rəssamlığın inkişafında xüsusi rolu olmuşdur. Onun əsas nümayəndələrindən biri Bəhruz Kəngərli cəmi otuz il (1892-1922) ömür sürməsinə baxmayaraq 2000-ə yaxın müxtəlif səciyyəli əsər yaratmışdır. Bu əsərlərin böyük bir qismi rəssamın həyatının 1918-ci ilə qədər olan dövrünə aiddir.[44] B.Kəngərlinin həyat və yaradıcılığının tədqiqatçısı K.Kərimov yazır ki, «…Kəngərlinin öz əsərlərini – onların tarixi, teması və üslub xüsusiyyətlərini diqqətlə nəzərdən keçirdikdən sonra, məntiqi olaraq blelə bir nəticə çıxarmaq olar ki,o 1912-ci ildə deyil, 1910-cu ildə Tiflis rəssamlıq məktəbinə daxil olmuş və 5 il oxuduqdan sonra 1915-ci ildə təhsilini bitirərək Naxçıvana qayıtmışdır. 1915-ci ildən etibarən rəssamın əsərləri içərisində gips heykəllərindən çəkilmiş «akademik» rəsmlərin olmaması, təsvir edilən mövzu və naturaların əksərən Naxçıvana aid olması da bu nəticənin düzgünlüyünə dəlalət edir».[44]

B. Kəngərlinin yaradıcılığı çoxsahəli olmuşdur. O, «Molla Nəsrəddin» jurnalının müəyyən etdiyi tipdə karikaturalar, portretlər, mənzərə şəkilləri çəkmişdir. Artıq göstərildiyi kimi teatr tamaşalarına rəsam kimi tərtibat vermişdir.

B.Kəngərli Naxçıvanda əsərlərinin sərgisini təşkil etmiş, rəssmalığa marağı olanları ətrafına toplayıb, onlara bu sənətin sirrini öyrətmişdir. 1917-ci ildəkindən sonrakı əsərləri B.Kəngərlinin sənətkarlıq səviyyəsinin daha da yüksəldiyini nümayiş etdirir.[45]

Naxçıvanda dekorativ tətbiqi sənət sahələri – xalçaçılıq, bədii tikmə və b. sahələrdə də uğurlar özünü göstərirdi.

Naxçıvan, tarixən Azərbaycan memarlığının inkişaf mərkəzlərindən biri olmuşdur. Əcəmi Naxçıvaninin fəaliyyəti nəticəsində xüsusi Naxçıvan memarlıq məktəbinin əsası qoyulmuşdur. «Naxçıvan memarlıq məktəbinin əhatə etdiyi ərazidə əsas etibarı ilə kərpic binalar inşa edilirdi. Naxçıvan memarlarının yaratdığı qüllə quruluşlu türbələr nəinki Azərbaycan memarlarının, ümumiyyətlə bütün Yaxın və Orta Şərq memarlığının sonrakı inkişafına böyük təsir göstərmişdir».[46] XIII-XIV əsrlərdə Naxçıvan memarlıq məktəbi inkişafını davam eidirmişdir. Belə hesab etmək olar ki, Naxçıvan XV əsrdən etibarən əsas memarlıq mərkəzi kimi öz yerini Təbrizə vermişdir.[47] Lakin sonrakı dövrlərdə, xüsusilə XVIII əsrin sonları – XIX əsrin əvvəllərində Naxçıvanda

tikinti-memarlıq işlərində zəifləmə olsa da, Naxçıvanda özünəməxsus memarlıq üslubu qalmışdı. Naxçıvan şəhərinin plan quruluşu haqqında 1827-ci il iyunun 30-da çəkilmiş plan məlumat verir. Naxçıvan memarlıq irsinin tədqiqatçısı yazır ki, əgər biz Azərbaycanın digər şəhərlərində iki şəhər quruculuğu qovşağı – hakimin qalası və şəhər meydanını görürüksə, o, Naxçıvanda vahid memarlıq kompleksi ilə təmsil olunur. Bu mərkəzi meydana Təbrizdən birbaşa yol gəlirdi.[48]

Naxçıvan və Ordubad şəhərində yaşayış tikintiləri məhəllə prinsipi əsasında formalaşırdı. Hər iki şəhərin yaşayış hissəsi ayrı-ayrı məhəllələrin məcmusundan ibarət idi. Məhəllələr özünəməxsus quruluşa malik olurdu. Onun mərkəzində məhəllə məscidi olurdu. Naxçıvanda Xincab, Xoşulu, Əlixan, Pirgəliş, Şahab, Kollubağ, Sarvanlar, Xoylu kimi səkkiz məhəllə var idi.[49] Ordubadda isə XIX əsrin ortalarında Ambaras, Kürdətal, Mingis, Sərşəhər, Üçtərəngi kimi beş məhəllə mövcud idi. Sonra Əngəc məhəlləsi də yaranmışdı.[50]

Naxçıvanda əhalinin əksəriyyəti kəndlərdə yaşadığına görə kənd yaşayış məskənləri və kənd evlərinin xüsusiyyətləri də diqqəti cəlb edir. Naxçıvanda kəndlər əsasən çay sahillərində, suvarma kanallarının, təbii və süni sututarların ətrafında salınmışdı. Kənd məksənləri nizamsız yerləşmiş, yüksək divarlarla əhatə olunmuş fərdi yaşayış və təsərrüfat tikintilərinin həyət və bağların məcmusundan ibarət idi.[51]

XIX-XX əsrin əvvəllərində Naxçıvanın iqtisadi həyatında baş verən yeni meyllər, kapitalist təsərrüfat sisteminin təşəkkülü memarlığa da təsir göstərir, yeni tipli ictimai binalar və yaşayış evləri tikilirdi.

XIX əsrin əvvəllərində inşa edilmiş Cənnəb və Kələki körpüləri də memarlıq abidələri kimi diqqəti cəlb edir.

1. ***Əhmədov H.*** Azərbaycan məktəb və pedaqoi fikir tarixi. Bakı, 2001, s.81; ***Yenə onun,*** XIX əsr Azərbaycan məktəbi. Bakı, 1985, s.9.
2. ***Əhmədov H.*** Azərbaycan məktəbi, s.10-13.
3. yenə orada, s.13.
4. yenə orada, s.15.
5. **Зелинский С.П.** Три магала: Нахичеванский, Ордубадский и Даралагезский: Географически-статистическое и сельскохозяйственное описание // Сборник сведений о Кавказе. т. VII. Тифлис, 1880, с.253.
6. **Фараджев А.С.** Ордубад. Историко-экономический очерк. Баку, 1970, с.93.
7. **Ваидова Х.** История города Ордубад в XIX- начале XX в. Баку, 2007, с.138-139.
8. ***Əhmədov H.*** Azərbaycan məktəbi, s.74.
9. ***yenə onun***, Azərbaycan məktəb və pedaqoji fikir tarixi, s.128.
10. ***yenə onun***, Azərbaycan məktəbi, s.206.
11. Обзор Эриванской губернии за 1892 г., с.9.
12. ***Əhmədov H.*** XIX əsr Azərbaycan məktəbi, s.286.
13. ***Yenə orada,*** s.287.
14. ***Məmmədquluzadə C.*** Əsərləri 6 cilddə. VI c. Bakı, 1985, s.189.
15. yenə orada, s.216.
16. yenə orada, s.214-215.
17. ARDTA. f.379, siyahı 3, iş 5901, v.24
18. Bax: **Кулиева В.** Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в конце XIX – начале XX вв. в ракурсе армяно-азербайджанских политических отношений. Баку, 2003, с.61-86.
19. ***Əhmədov H.*** XIX əsr Azərbaycan məktəbi, s.287-288.
20. Bax: ***Məmmədov R.*** Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, 1977, s.140-149; ***Həbibbəyli İ.*** Naxçıvanda elm və mədəniyyət // Azərbaycan tarixində Naçıvan. Bakı, 1976, s.73-91.
21. Bu sahədə AMEA-nın akademiki İ.Həbibbyəlinin rolu ayrıca qeyd edilməlidir: ***Həbibbəyli İ.*** Cəlil Məmmədquluzadə (albom – monoqrafiya). Bakı, 1987; yenə onun, Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı, 1997 və b.; həmçinin bax: ***Qədimov Ə.*** XIX əsr Ordubad ədəbi mühiti, Bakı, 2003; ***Saraclı (Həsənova)*** M. Naxçıvan ədəbi mühitindən… Bakı, 2007; ***Cəfərov*** N. Naxçıvan ədəbi mühitinə tarixi bir baxış // Naçıvan MR – 75. Elmi əsərlər. Xüsusi buraxılış, 1999, s.17-19.
22. Azərbaycanın aşıq və qadınları. Tərtib edəni ***Ə.Cəfərzadə.*** Bakı, 1991, s.69.
23. yenə orada, s.70.
24. Poetik məclislər. Toplayanı və tərtib edəni ***Nəsrəddin Qarayev***. Bakı, 1987, s.50.
25. ***Ordubadi F.*** Ağlar qələm əlimdə. Tərtib, müqəddimə və lüğət ***Ə.Qədimovundur.*** Bakı, 1989.
26. Poetik məclislər, s.53.
27. ***Cəfərov N.*** Naxçıvan ədəbi mühitinə tarixi bir baxış, s.17.
28. M.T.Sidqinin həyat və fəaliyyəti

haqqında bax: ***Qədimov Ə.*** Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. Bakı, 1997; **Эйвазов Я.** Мамед Таги Сидги. Баку, 1986.

29. ***M.T.Sidqinin*** aşağıdakı əsərləri çap olunmuşdur: ***Sidqi M.T***. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1967; yenə onun, Məktəb hekayələri (toplayıb, tərtib edəni və ön sözün müəllifi ***İ.Həbibbəyli***). Bakı, 1996; Məhəmməd Tağı Sidqi. Əsərləri. Tərtib edəni ***İ.Həbibbəyli.*** Bakı, 2004.

30. Poetik məclislər, s.56.

31. ***Cəfərov N.*** Naxçıvan ədəbi mühitinə tarixi bir baxış, s.17

32. ***Həbibbəyli İ.*** Cəlil Məmmədquluadə: Mühiti və müasirləri. Bakı, 1997.

33. ***Cəfərov N.*** Naxçıvan ədəbi mühitinə tarixi bir baxış, s.18.

34. ***Allahverdiyev M.*** Azərbaycan xalq teatrı tarixi. Bakı, 1978, s.221.

35. ***Cəfərov C.*** Teatr tariximizin güzgüsü // Azərbaycan teatrının salnaməsi. Bakı, 1975, s.3

36. Azərbaycan teatr tarixi yaxşı tədqiq edilmiş problemlərdəndir. Bu sahədə nəşr edilmiş bəzi əsərləri qeyd edək: Azərbaycan teatrının salnaməsi. Toplayanı, tərtib edəni və izahların müəllifi ***Q.Məmmədli***. Bakı, 1975; ***Rəhimli İ.*** Azərbaycan teatr tarixi. Bakı, 2005; **Алиева А.** Азербайджанский театр за 100 лет. Баку, 1974; ***Qəhrəmanov Ə.*** Naxçıvan teatrı: İntibah yollarında (1883-1920). Bakı, 2008, və b.

37. ***Qəhrəmanov Ə.*** Naxçıvan teatrı: İntibah yollarında (1883-1920), s.38-39.

38. ***Rəhimli İ.*** Azərbaycan teatr tarixi. Bakı, 2005, s.432-433.

39. ***Qəhrəmanov Ə.*** Naxçıvan teatrı: İntibah yollarında (1883-1920), s.46, 47, 71.

40. yenə orada, s.66.

41. yenə orada, s.100. K.Kərimov bu tarixi 1915-ci il kimi qeyd edir. ***Kərimov K.*** Bəhruz Kəngərli. Bakı, 1962, s.23.

42. Daha ətraflı bax: yenə orada, s.76-110.

43. İqtibas göstərilmişdir. yenə orda, s.41

44. ***Kərimov K.*** Bəhruz Kəngərlis. 54-55.

45. yenə orada, s.13.

46. ***Məmmədov R.*** Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, 1977, s.153-154.

47. yenə orada, s, s.156.

48. **Салаева Р.** Нахчыван: наследие архитектуры. Баку, 2002, с.20.

49. **Салаева Р.** Нахчыван: наследие архитектуры. Баку, с.23.

50. **Ваидова Х.** История города Ордубад в XIX- начале XX в., с.155-156.

51. **Насирли М.**N. Сельские поселения и крестьянские жилища Нахичеванской АССР. Баку, 1959, с.46-47

## VI FƏSİL

## NAXÇIVANIN GÖRKƏMLİ TARİXİ ŞƏXSİYYƏTLƏRİNİN RUSİYA İMPERİYASI VƏ AZƏRBAYCANIN XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ SİYASİ, SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ HƏYATINDA İŞTİRAKI

Naxçıvan bölgəsi tarix boyu öz hüdudlarında qapanıb qalmamış, bütün Azərbaycanın, o cümlədən Yaxın və Orta Şərqin, XIX-XX əsrin əvvəllərində isə Rusiyanın həyatının müxtəlif sahələrində dərin iz qoymuş tarixi şəxsiyyətlər yetirmişdir. Naxçıvanın bir parçasına çevrilmiş həmin insanlar, onun tarixinə də əbədi daxil olmuşdur.

Naxçıvanın qədim və orta əsr tarixindən bəhs edən müəlliflər orada anadan olmuş, dünyanın müxtəlif ölkələrinə yayılaraq, burada elm və mədəniyyətə böyük töhfələr vermiş tarixi şəxsiyyətlərdən bəhs etmişlər.[1] Z.Bünyadov Azərbaycan Atabəylərinə aid monoqrafiyasında yazır ki, «mənbələr Azərbaycandan çıxmış çoxlu alimin adını mühafizə edib saxlamışdır. Həmin alimlər nəinki Azərbaycan şəhərlərində, bu günkü təbirlə desək, Bağdadda, Qahirədə, Dəməşqdə və başqa şəhərlərdə də fəaliyyət göstərmişlər». Z.Bünyadov adını müəyyənləşdirdiyi belə şəxsiyyətlər içərisində Gəncədə kitabxana (Dar əl-kütüb) qoruyucusu olan Həddad ibn Asim ibn Bəkran Əbülfəzl Ən-Naxçıvaninin də adını çəkir.[2]

Naxçıvanın XIII-XIV əsrlər tarixinə dair kitabın müəllifi V.Piriyev də bu problemə diqqət yetirərək yazmışdır: «XIII-XIV əsrlər Naxçıvanı Şərqin elm və mədəniyyət mərkəzlərindən biri olaraq qalırdı. Naxçıvanın görkəmli elm və mədəniyyət xadimləri Azərbaycanda, Hülakulər və Cəlairilər dövlətinin müxtəlif vilayətlərində və dünyanın bir çox ölkələrində tanınır, öz elmi, fəlsəfi, tarixi və s. əsərləri ilə məşhurlaşmışdılar. Onların arasında münəccimlər, filosoflar, ilahiyyatçılar, tarixçilər, dilçilər, qanunşünaslar (fəqihlər), riyaziyyatçılar, həkimlər və s. mütəfəkkirlər var idi».[3] Tədqiqatçı onların sırasında Xacə Nəsirəddin Məhəmməd Tusinin (1201-1274), Nəcməddin ibn Əhməd Əbubəkr ibn Məhəmməd Naxçıvaninin, Həsən ibn Ömər Naxçıvaninin və b. adlarını çəkir. Səncər ibn Abdulla ən Naxçıvani və onun xələflərinin, xüsusilə nəvəsi Məhəmməd ibn Hinduşah Naxçıvaninin (1293-1376) həyat və fəaliyyəti də araşdırılır.[4]

Naxçıvan şəhəri tarixinin tədqiqatçısı R.Məmmədovun kitabında da qeyd edilən süjet nəzərdən keçirilmişdir. O bildirir ki, ərəb alimlərindən Yaqut Həməvi özünün «Mucəm əl-buldan» əsərində Naxçıvan şəhərindən çoxlu alim çıxdığını və onların ən-Nəşəvi nisbəsilə məşhur olduqlarını göstərir. Tədqiqatçının qeydinə görə «Ən-Nəşəvi» nisbəli naxçıvanlı alimlər haqqında məlumata XII-XIII əsr məxəzlərində təsadüf edildiyinə baxmayaraq, çox güman ki, onlar daha əvvəl, təxminən X-XI əsrlərdə yaşamışlar. Belə bir ehtimal ondan irəli gəlir ki, artıq XII-XIII əsrlərdə yaşamış naxçıvanlı alimlər bir qayda olaraq özləri üçün nisbəni «Ən-Nəşəvi» şəklində deyil, «Naxçıvani» şəklində götürürdülər».[5]

Naxçıvanın bu ənənəsi sonrakı əsrlərdə özünü göstərməkdə idi.[6] Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı və bütün Şimali Azərbaycanda olduğu kimi burada da müstəmləkə rejiminin qurulmasına baxmayaraq, bu tarixi ənənə yeni şəraitdə yeni istiqamətlər də kəsb etmişdi.

Naxçıvanın XIX-XX əsrin əvvəllərində yaşamış bir sıra görkəmli tarixi şəxsiyyətləri Azərbaycanın digər yerlərində və Rusiyada fəaliyyətlərini davam etdirmişlər. Onları fəaliyyət sahələri üzrə nəzərdən keçirək.

Naxçıvanın hərbi tarix ənənələri XIX-XX əsrin əvvəllərində özünü daha qabarıq şəkildə biruzə vermişdi. Sonuncu Naxçıvan xanı **Ehsan xan Kəngərli** 1823-cü ildən atasının iradəsilə xanlıqda hakimiyyətə gəlmiş, 1827-ci ildə xanlığın Rusiya tərəfindən ilhaqından sonra da idarəetmə sahəsində fəaliyyətini davam etdirmişdi. O, general-mayor rütbəsi almışdı.

1840-cı il islahatı zamanı «Erməni vilayəti» ilə birgə Naxçıvan əyaləti də ləğv edildi. Ehsan xan bundan sonra süvari dəstəsinə başçılıq etmişdi. Ş.Nəzirli yazır ki, «hərbi tarixçilər V.Potto, İ.Zinovyev, general V.Zubov, İ.Paskeviç və yazıçı İ.Qriboyedovun yol qeydlərindən məlum olur ki, rus-İran müharibəsi zamanı Ehsan xan on min nəfərlik naxçıvanlılardan və ruslardan ibarət olan qoşuna başçılıq etmişdir. Bu müharibədə ad-san qazanan general Ehsan xan sonralar Krım müharibəsində (1853-1856-cı illər. – Z.Ş.) də şücaətlə vuruşmuş, ali hərbi ordenlərlə təltif olunmuşdur. Görkəmli sərkərdə kimi Ehsan xanın adı Kremlin Georgi salonunda qızıl hərflərlə yazılmışdır».[7]

Ehsan xan həm də gözəl ailə başçısı olmuşdur. Onun ailəsində İsmayıl xan, Kalbalı xan və Qönçəbəyim kimi məşhur şəxslər yetişmişdi.

Ş.Nəzirli qeyd edir ki, İsmayıl xan haqqında əlmizdə çox az məlumat var.[8] Lakin görkəmli hərbi tarixçi R.N.İvanovun «Bayazedin müdafiəsi: həqiqət və yalan», kitabından sonra vəziyyət dəyişdi.[9] İvanov İsmayıl xan haqqında, xüsusilə 1877-1878-ci illər rus-türk müharibəsinin gedişi zamanı baş verən Bayazidin müdafiəsində onun rolu barədə yeni qaynaqlar üzrə obyektiv məlumat vermişdir. Məsələ ondadır ki, həmin dövrün rəsmi baxışlarında, sonra isə yazıçı V.Pikulun «Bayazid» romanı (1961) və onun ssenarisi əsasında çəkilən filmdə (2003) İsmayıl xanın obrazı bilərəkdən təhrif olmuşdu. 1877-ci ildə Bayazidin müdafiəsinə rəhbərlik etmiş

İsmayıl xanın xidmətləri heçə endirilmiş, əksinə kapitan F.E.Ştokviçin rolu şişirdilmişdi. Bütün bunları kəskin tənqid edən R.İvanov kitabında İsmayıl xan barəsində bütün uydurmaları rədd etməyə nail olmuşdur. Kitabın 93-96-cı səhifələrində İsmayıl xanın Rusiyanın Dövlət Hərbi Tarix arxivindən aşkar edilmiş xidməti dəftərçəsindən çıxarış verilmişdir. Oradan aydın olur ki, İsmayıl xan 1819-cu il yanvarın 5-də anadan olub. 1877-1878-ci il rus-türk müharibəsinə 58 yaşında başlamışdı. İsamyıl xan Tiflis zadəgan gimnaziyasında ümumi təhsil almışdı. Hərbi xidmətə 1839-cu il mayın 1-də Qafqaz müsəlman süvari polkunun naibi kimi başlamışdı. Əlahəzrətin hökmü ilə 1847-ci il iyulun 31-də Kəngərli qəbiləsinin rəisi təyin edilmişdi. 1853-1877-ci illərdə müxtəlif hərbi çinlərdə olmuş, 1877-ci ilin mayında İrəvan qeyri-nizami polkunun komandiri təyin edilmiş, həmin il dekabrın 19-da general-mayor rütbəsi almışdı və s. Yeri gəlmişkən qeyd edək ki, digər bir hərb tarixçisi H.M.İbrahimbəyli 1853-1856-cı il Krım müharibəsinə həsr edilmiş kitabında İsmayıl xanın qəhrəmanlığını qeyd etmişdir.[10] 1877-ci ilin yayında da Bayazidin mühasirəsinin təşkilində əsas rolu məhz İsmayıl xan Naxçıvanski oynamışdır. R.İvanov bununla kifayətlənməmiş, İsmayıl xan Naxçıvanskinin həyatının sonrakı dövrünə də aydınlıq gətirmişdir. İsmayıl xan 1878-ci il yanvarın 28-də İrəvan qeyri-nizami polkunun komandanı vəzifəsini vermiş, Qafqaz ordusu yanında hesaba qeydə alınmışdır. İsmayıl xana 1870-ci ildə general-leytenant rütbəsi verilmiş, 1908-ci ildə isə tam süvari generalı olmuşdur. 1883-cü ildə III Aleksandrın, 1895-ci ildə II Nikolayın tacqoyma mərasimlərində iştirak etmişdi. Görkəmli hərbi xadim İsmayıl xan Naxçıvanski 1909-cu il fevralın 10-da Naxçıvanda vəfat etmişdi.[11]

Ehsan xanın digər oğlu, babasının adını daşıyan Kalbalı xan Naxçıvanski (1824-1883) də hərb tarixində özünəməxsus iz qoymuşdur. Kalbalı xan Naxçıvanskinin xidmət dəftərçəsi də R.İvanov tərəfindən Rusiya Dövlət Hərbi Tarix arxivindən aşkar edilərək «Bayazidin müdafiəsi: həqiqət və yalan» kitabında çap olunmuşdur. Buradan aydın olur ki, Kalbalı xan paj korpusunda tərbiyə almışdır. 1848-ci ildə Naxçıvan milisinin rəisi təyin edilmiş, 1849-cu il mayın 21-də praporşik rütbəsi almışdır. 1851-1853-cü illərdə İrəvan hərbi qubernatoru yanında xüsusi tapşırıqlar üzrə kiçik, sonra böyük məmur olmuşdu. Krım müharibəsi başlandıqdan sonra hərbi işə cəlb edilmişdi. 1854-cü ilin mayında nüfuzlu ailələrdən toplanan Bəy drujinasının rəisi təyin edilmişdi. 1854-cü il iyulun 17-də Çinqıl yüksəkliklərindəki döyüşdə göstərdiyi igidliyə görə ordenlə təltif edilmişdi. Krım müharibəsindən sonra hərbi karyerasını davam etdirmiş, 1874-cü ildə general-mayor rütbəsi almışdır. Kalbalı xan Naxçıvanski 1877-1878-ci il rus-türk müharibəsi başladıqda, qeyri-nizami süvari briqadasının komandanı təyin edilmişdi.[12] Briqada müharibədə fəal iştirak etmişdi. Kalbalı xan Naxçıvanski 1883-cü ildə həyatını dəyişmişdi.

Kalbalı xanın işini oğlu Hüseyn xan (1863-1919) davam etdirmişdir. Hüseyn xan haqqında bəzi yazıların olmasına baxmayaraq,[13] bu sahədə ən tutarlı əsərin də R.İvanova məxsus olduğunu qeyd etmək olar.[14] Arxiv materialları ilə zəngin olan bu kitab görkəmli sərkərdənin həyat və fəaliyyətinin əsas dövrlərini bərpa edə bilmişdir. Hüseyn xan 1904-1905-ci illər rus-yapon müharibəsi dövründə II Dağıstan süvari alayının komandiri olmuş, 1907-ci ildə general-mayor rütbəsi almışdı. Hüseyn xan Naxçıvanskinin komandanlıq etdiyi süvari diviziyaları Birinci Dünya müharibəsində qəhrəmanlıqla vuruşmuşdu. Hüseyn xan Naxçıvanski 1916-cı ildə tam süvari qoşunu generalı olmuşdu. R.İvanovun kitabının adından göründüyü kimi Əlahəzrətin general-adyutantı təyin edilmişdi. Əbülfət Nəcəfqulu oğlu Şaxtaxtinski (1858-1913) də müxtəlif ali məktəblərdə təhsil almasına baxmayaraq, hərbi sahədə fəaliyyətə başlamış, 1904-1905-ci illər rus-yapon müharibəsində iştirak etmiş, 1912-ci ildə polkovnik rütbəsində Rusiyanın hərbi nümayəndəsi kimi İsveçrə ordusunun manevrlərini müşahidə etmişdi.[15]

Naxçıvanın görkəmli hərbi xadimləri içərisində Cəmşid Naxçıvanski (1895-1938) də mühüm yer tutur. Cəmşid Naxçıvanskinin həyatının cəmi 22 ili XIX-XX əsrin əvvəlinə təsadüf etsə də, bu dövr zəngin olmuşdur. O, 1915-ci ildə Yelizavetqrad qvardiya məktəbini bitirmiş, Birinci Dünya müharibəsi zamanı məşhur «Brusilov hücumu» nda iştirak etmişdi. «Müqəddəs Georgi» ordeninin dördüncü dərəcəsi ilə təltif olunmuşdu. Avstriya və Rumıniya cəbhələrində üç dəfə yaralanan Naxçıvanski igid bir süvari zabiti kimi gümüş silahla təltif edilmiş və ikinci, üçüncü, dördüncü dərəcəli Anna, ikinci, üçüncü dərəcəli Stanislav ordenləri ilə mükafatlandırılmışdır».[16] Cəmşid Naxçıvanskinin həyatının sonrakı dövrü Azərbaycan Xalq Cümhüriyyəti, onun süqutundan sonra isə sovet dövləti ilə bağlı olmuş, 1938-ci ildə represiya olunaraq güllələnmişdi.

XIX əsrin sonlarında anadan olan, həmin dövrün ictimai-siyasi hadisələrndə fəal iştirak edən Həmid ağa Şahtaxtinski (1880-1944), Behbud ağa Şahtaxtinski (1881-1924), İbrahim Əbilov (1882-1923) və başqaları sonralar dövlət xadimi kimi fəaliyyət göstərmişlər.[17]

XIX-XX əsrin əvvəllərində Naxçıvanda yetişmiş şair və yazıçılar Təbriz, Bakı,Tiflis və b. şəhərlərdə məskunlaşmış, burada Azəraycan ədəbiyyatına böyük xidmətlərini davam etdirmişlər. Onların ilk nümayəndələrindən biri **Heyran xanım Dünbulidir** (1790-1860). Heyran xanım ilk təhsilini Naxçıvanda almış, rus-İran müharibəsi zamanı ailəsilə birgə Təbrizə köçmüşdür.[18] Şairənin yaradıcılığı XIX əsrin birinci yarısı Azərbaycan ədəbiyyatını zənginləşdirmişdir.[19] Heyran xanım klassik janrlarda (qəzəl, qəsidə, müxəmməs, rübai) yazıb yaratmış, 4500 beytlik divanı qalmışdır. «XVIII əsrin sonları – XIX əsrin əvvəllərində Azərbaycanda baş vermiş bir sıra siyasi-ictimai hadisələr, habelə şəxsi həyatında keçirdiyi faciələr əslən nikbin ruhlu bir şair olan

Heyran xanımı, dövr və zamandan narazı şeirlər yazmağa məcbur etmişdir. Şeirlərinin çoxunda o qadının ictimai həyatda və ailədəki hüquqsuz, acınacaqlı həyatını təsvir edir».[20]

Heyran xanım Azərbaycan dili ilə birgə fars dilində də şeirlər yazmışdır. Heyran xanım Azərbaycanın qadın şairləri içərisində əsərlərinin bədii gücünə görə mühüm yerlərdən birini tutur.[21]

*Bir bülbüləm eyləmiş zamanə,*
*Qəm oxlarına sinəm nişanə.*
*Ey dilbərim, o qaşın oxşar,*
*Əbruyi-müqəvvəsi-kəmanə.*
*O aldadıcı şirin kəlamın,*
*Qıldı məni dənrdə fəsanə.*
*Tək mən deyiləm, min aşiqi sən.*
*Məcnun kimi eylədin divanə...*

yaxud:

*Olubdu ğəm yatağı şad gördüyün könlüm,*
*Dağıldı qüssədən abad gördüyün könlüm.*
*Diyari-ğəmdə giriftarü dəstgin olu,*
*Kəməndi-firqətə, azad gördüyün könlüm...*

Naxçıvan ədəbi mühitinin, onun düşüncə tərzinin, problemlərinin Naxçıvan hüdudlarından daha geniş coğrafi əraziyə çıxmasında, Rusiya və ümumdünya prosesləri səviyyəsinə yüksəlməsində, yeni-yeni istedadların bu axına qoşulmasında **Cəlil Məmmədquluzadənin** rolu xüsusi qeyd edilməlidir.[22]

C.Məmməquluzadənin ilk yaradıcılıq nümunələri onun Naxçıvanda müəllim işlədiyi dövrlə (1887-1897) bağlı olmuşdur. O, 1898-1903-cü illərdə İrəvanda işlətdiyi dövrdə də bədii yaradıcılığını davam etdirmişdir. 1903-cü ildə Tiflisə gəlişi, onun həyatında mühüm yer tutur. «Şərqi-Rus» qəzetində «Poçt qutusu» hekayəsini çap etdirir. 1906-cı il aprelin 7 (20)-də «Mola Nəsrəddin» jurnalının əsasını qoyur. Jurnal əvvəlcə Tiflisdə (1906-1917), bir müddət Təbrizdə (1921), sonra Bakıda (1922-1931) nəşr olunur. C.Məmmədquluzadə naşirliklə bərabər ədəbi-bədii yaradıcılığı da davam etdirmişdir. «Ölülər» (1909-1916), «Anamın kitabı» (1920), «Danabaş kəndinin məktəbi» (1921), «Dəli yığıncağı» (1927) kimi əsərlər yazmışdır.

Azərbaycan ədəbiyyatı tarixində C.Məmmədquluzadənin yaracıdıcılığına belə qiymət verilmişdir: «C.Məmmədquluzadənin yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatında tam bir mərhələ təşkil edir. O, inqilabi-demokratik ideyalarla silahlanmış «Molla Nəsrəddin» cərəyanının əsasını qoymuş, burjua-mülkədar istismarını, ictimai bərabərsizliyi, burjua-meşşan əxlaqını, ümumən köhnə cəmiyyətin yaralarını açıb-tökən əsərləri ilə XX əsr Azərbaycan realizmini həm məzmun, həm də formaca zənginləşdirmiş və irəli aparmışdır».[23]

C.Məmmədquluzadənin «Molla Nəsrəddin» jurnalı ətrafında birləşən, Naxçıvandan kənarda da ədəbi-bədii yaradıcılığı ilə Azərbaycan ədəbiyyatına xidmətini davam etdirən şəxslər içərisində **Əliqulu Qəmküsar** (1880-1919) və **Əli Səbrini** (1892-1983) də göstərmək olar.

Ə.Qəmküsar C.Məmmədquluzadənin dəvəti ilə 1912-ci ildə Tiflisə köçmşdü. O, 1913-1914-cü illərdə jurnala redaktorluq da etmişdi. Molla Nəsrəddin və Molla Nəsrəddinçilər haqqında tədqiqat aparmış F.Hüseynov yazmışdır: «XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi həyatının parlaq bədii salnaməsi olan «Molla Nəsrəddin» jurnalının yaradıcı qüvvələri arasında Əliqulu Qəmküsarın ilk nəzərdən seçilən ayrıca yeri və mövqeyi vardır. 1916-cı ildə ustadı C.Məmmədquluzadə ilə birlikdə Volqaboyu və Orta Asiya səyahətinə çıxan Qəmküsar məşhur «Ölülər» əsərinin tamaşaya qoyulmasında fəal iştirak etmiş, Azərbaycan aktyorluq sənəti tarixində Şeyx Nəsrullah rolunun ən mahir ifaçısı kimi şöhrət qazanmışdır».[24]

Əli Səbri də «Molla Nəsrəddin» jurnalı ilə əməkdaşlıq etmiş, «Taqiyanuszadə» imzası ilə şeirlər yazmışdır.

Naxçıvanın mədəni həyatında teatrın təməlini qoyan (1883) və ədəbi-bədii yaradıcılığı ilə diqqəti cəlb edən şəxslərdən biri də **Eynəli Sultanov** (1866-1935) idi.[25] O, 1908-ci ildən Tiflisdə yaşamış, buradakı fəaliyyəti ilə Azərbaycan mədəniyyətinə xidmətini davam etdirmişdir.[26]

Naxçıvan ədəbi mühitinin yetişdirməsi olub, Azərbaycan ədəbiyyatında görkəmli yer tutan ədiblərdən biri **Məmməd Səid Ordubadi** (1872-1950) idi. Ordubadi «Molla Nəsrəddin» jurnalında fəal əməkdaşlıq etmiş,[27] Azərbaycan ədəbiyyatında tarixi romanlar ustası kimi məşhurlaşmışdı.

Azərbaycan romantizminin banilərindən olan **Hüseyn Cavidin** (1882-1941) yaradıcılığı da ədəbiyyat tarixinin mühüm hadisələrindən biridir. 1915-ci ildən Bakıda müəllimlik fəaliyyətini davam etdirən H.Cavid burada Azərbaycan ədəbiyyatına əbədi daxil olmuş şeir və dram əsərlərini yazmışdır.[28] Şair repressiya olunmuş, 1941-ci il dekabrın 5-də İrkutskda vəfat etmişdir. Onun cənazəsi ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə vətənə gətirilmiş, Naxçıvanda yenidən dəfn edilmişdir. 1996-cı ildə isə qəbri üzərində əzəmətli məqbərə tikilmişdir.

Azərbaycan mətbuatı və publisistikasından bəhs edərkən 1903-cü ildə Tiflisdə «Şərqi-Rus» qəzetinin əsasını qoymuş **Məhəmməd ağa Şahtaxtlını** (1846-1931), jurnalist **İsasultan Şhtaxtinskini** (1851-1894) də xüsusi qeyd etmək lazımdır.

Naxçıvan bölgəsində həyata qədəm qoymuş, ədəbi-bədi, elmi, hərbi-siyasi və ictimai fəaliyyəti ilə həm Azərbaycanın, həm də İran və Rusiyanın həyatında iz qoymuş tarixi şəxsiyyətlərin dairəsi bununla bitmir. Bütün bunlar Naxçıvan bölgəsinin geniş yaracıdılıq potensialından xəbər verir.

1. Daha ətraflı bax: ***Vəlixanlı N.*** Naxçıvan – ərəblərdən monqollaradək (VII-XII). Bakı, 2005; ***Piriyev V.*** Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı, 2004; ***Bünyadov Z.*** Azərbaycan Atabəylər dövləti. 1136-1225. Bakı, 1985; ***Məmmədov R.*** Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, 1977.

2. ***Bünyadov Z.*** Azərbaycan Atabəylər dövləti. 1136-1225, s.230-231.

3. ***Piriyev V.*** Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər), s.55.

4. yenə orada, s.62, 63, 69-109; yenə onun, Məhəmməd ibn Hinduşah Naxçıvani. Bakı, 2001.

5. ***Məmmədov R.*** Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü), s.142-143.

6. ***Həbibbəyli İ.*** Naxçıvanda elm və mədəniyyət // Azərbaycan tarixində Naxçıvan. Bakı, 1996, s.83-84.

7. ***Nəzirli Ş.*** Azərbaycan generalları. Bakı, 1991, s.15.

8. yenə orada, s.18.

9. **Иванов Р.** Оборона Баязета: правда и ложь. М., 2005.

10. **Ибрагимбейли Х.-М.** Страницы истории боевого содружества русского и Кавказских народов (1853-1856 гг.). Баку, 1970, с.111.

11. **Иванов Р.** Оборона Баязета: правда и ложь, с.225-230

12. там же, с.114-116.

13. ***Nəzirli Ş.*** Azərbaycan generalları. Bakı, 1991; ***yenə onun***, Arxivlərin sirri açılır. Bakı, 1999

14. **Иванов Р.** Генерал-адъютант Его Величества. Сказание о Гусейн-хане Нахичеванском. М., 2006.

15. Naxçıvan ensiklopediyası. İki clddə. c.2. Naxçıvan, 2005, s.294.

16. ***Nəzirli Ş.*** Azərbaycan generalları, s.23.

17. ***Əliyev M.*** Həmid bəy Şahtaxtinski // Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti. Bakı, 1990; ***İbrahimzadə F.*** Behbud Şahtaxtinski. Bakı, 2004; ***Hacıyev İ., Məmmədov Ş.*** Naxçıvan və naxçıvanlılar. Bakı, 2001.

18. Bax: ***Qasımzadə F.*** XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1974; ***Nağıyeva C.*** Heyran xanım (həyat və yaracılığı). Bakı, 1989.

19. ***Heyran xanım***. Seçilmiş əsərləri. Bakı, 1961; ***yenə onun,*** 37 qəzəl və bir tərcibənd. Bakı, 1981; ***yenə onun***, Şeirlər // Azərbaycanın aşıq şair və qadınları. Bakı, 1991, s.35-49.

20. Heyran xanım (1790-1860) // Azərbaycanın aşıq və şair qadınları, s.35.

21. yenə orada, s.36.

22. C.Məmmədquluzadənin həyat və fəaliyyəti geniş tədqiqat obyekti olmuşdur. Son dövrlərdə bu sahədə İ.Həbibbəyli xeyli iş görmüşdür.

Bax: ***Həbibbəyli İ.*** Cəlil Məmmədquluzadə (albom-monoqrafiya). Bakı, 1987; ***yenə onun***, Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı, 1997 və b.

23. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. II c. Bakı, 1960, s.613.

24. ***Hüseynov F.*** «Molla Nəsrəddin» və mollanəsrəddinçilər. Bakı, 1986, s.228.

25. ***Həbibbyəli İ.*** Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı, 1996; **Максудов И.** Жизнь и творчетсво Эйналы Султанова. АКД. Баку, 1963; **Асадова И.** Творческий путь Э.Султанова. АКД. Баку, 1991.

26. ***Sultanov E.*** Seçilmiş hekayələri. Bakı, 1966.

27. ***Hüseynov F.*** «Molla Nəsrəddin» və mollanəsrəddinçilər, s.214-225.

28. Bax: ***Məmməd Cəfər.*** Hüseyn Cavid. Bakı, 1960; ***Əfəndiyev T.*** Cavidin ideyalar aləmi. Bakı, 1985 və b.

## NƏTİCƏ

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin XIX-XX əsrin əvvəlləri tarixinin kompleks şəkildə öyrənilməsinin aktuallığı nəzərə alınaraq, problem xüsusi tədqiqat obyekti olmuşdur. Mövzu üzrə tarixşünaslıq tədqiqatı problemin öyrənilməsi səviyyəsini müəyyən etməyə, nailiyyətlərlə birgə mövcud boşluqları, dövr üzrə qarşıda duran vəzifələri ortaya çıxarmağa imkan vermişdir. Müəyyən olunmuş məqsədi və ona uyğun vəzifələri həll etmək üçün geniş və hərtərəfli mənbə bazası yaradılmışdır. Bütün bunlar problemin əhatə etdiyi hər bir məsələni yüksək səviyyədə araşdırmağa və onu yeni elmi müddəalarla zənginləşdirməyə imkan vermişdir.

Nadir şahın ölümündən sonra genişlənən xanlıqyaranma prosesində meydana gələn Naxçıvan xanlığı Azərbaycanın xanlıqlar sistemində özünəməxsus yer tutmuşdu. Rusiya imperiyasının Şimali Azərbaycan torpaqlarının işğalının ilk mərhələsində Naxçıvan və eyni zamanda İrəvan xanlıqlarını tutmaq mümkün olmamışdı. Lakin buna baxmayaraq, çar Rusiyası bu xanlıqların işğalı planından əl çəkməmişdi. 1826-1828-ci illər rus-İran müharibəsinin gedişində bu xanlıqlar da ilhaq edilmiş, 1828-ci il Türkmənçay müqaviləsilə bu rəsmiləşdirilmişdi. Rusiya imperatoru I Nikolay Türkmənçay müqaviləsindən qısa müddət sonra, 1828-ci il martın 21-də Naxçıvan və İrəvan xanlıqlarının torpaqları əsasında qondarma «Erməni vilayəti» yaratmaq haqqında sənəd imzalamışdı. Belə bir sənədin qəbulu tamamilə yanlış olub, gerçəkliyi əks etdirmirdi. Təsadüfi deyil ki, çar hökuməti, yalnız beş il sonra, 1833-cü ildə bu vilayətin idarəsinin quruluşu haqqında Əsasnamə qəbul etmiş, 1840-cı il islahatı zamanı isə bu vilayət ləğv olunmuşdu. Bundan sonra keçmiş Naxçıvan xanlığının ərazisi Şimali Azərbaycan torpaqlarına dair ümumi siyasətə uyğun idarə olunmuşdu. 1840-cı il islahatı ilə Naxçıvan əyaləti qəzaya çevrilərək Gürcü-İmeret quberniyasının, 1846-cı ildə Tiflis quberniyasının, 1849-cu ildən isə İrəvan quberniyasının tərkibinə verildi. Keçmiş Naxçıvan xanlığının ərazisi, bəzi daxili bölgülərə də məruz qalmışdı. İlk vaxtlar İrəvan quberniyası tərkibində Naxçıvan və Ordubad qəzaları ayrılmış, lakin Ordubad qəzası 1867-ci ildə ləğv edilərək Naxçıvan qəzası ilə birləşdirilmişdi. 1870-ci ildə İrəvan qəzasının Şərur sahəsi Naxçıvan qəzasının tərkibinə verilmiş, 1874-cü ildə isə bu qəzanın Şərur və Dərələyəz sahələri əsasında Şərur-Dərələyəz qəzası təşkil edilmişdi. Naxçıvan Muxtar Respublikası keçmiş Naxçıvan qəzası və Şərur sahələrinin ərazisində yaradılmışdı.

Naxçıvanın iqtisadi həyatının əsasını kənd təsərrüfatı və sənətkarlıq təşkil edirdi. Taxılçılıq, maldarlıq, bağçılıq və üzümçülük, ipəkçilik, pambıqçılıq kənd təsərrüfatının əsas sahələrindən idi. Torpaq mülkiyyətinin xəzinə, sahibkar və ruhani idarələrinə məxsus olan vəqf formaları üstün idi. XIX əsrin sonları – XX əsrin əvvəllərində tiyul torpaqları aradan qalxmışdı. Sudan istifadə haqqında 1890-cı il 3 dekabr qanununun tətbiqi ilə əlaqədar olaraq, adət qaydaları ilə birgə yeni sistemin tətbiqinə başlanmışdı.

Sənətkarlıq və sənayenin inkişafında da yeniliklər özünü göstərirdi. Naxçıvan bölgəsi əsas duz istehsalı mərkəzlərindən biri idi. İpəkçilik də istehsalda mühüm yer tuturdu. Nəqliyyat və ticarətdə də yeniliklər yaranırdı. Aleksandropol – Uluxanlı (1902) və Uluxanlı – Culfa (1908) dəmir yol xətləri çəkildi. Ələtlə Culfanın dəmir yol xətti ilə birləşdirilməsi sahəsində işlər başlamışdı.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində istər kənd təsərrüfatında, istərsə də sənayedə kapitalist münasibətlərinin inkişafı özünü göstərirdi.

XIX – XX əsrin əvvəllərində Naxçıvan bölgəsi əhalisinin say dinamikası da diqqəti cəlb edir. Burada (müasir sərhədlər üzrə) əhalinin sayı 1829-cu ildə 40.248 nəfər idisə, 1917-ci ildə 165.000 nəfərə çatmışdı.

Naxçıvanın Rusiya işğalı və müstəmləkəçiliyi dövrü tarixinin ən mühüm hadisələrindən biri çarizmin bu bölgəni köçürmələr vasitəsilə erməniləşdirmək cəhdi və onun uğursuzluğa düçar olmasıdır. Ən qədim zamanlardan Azərbaycan torpağı olan Naxçıvan bu dövrdə də tarixi simasını qoruyub saxlamışdı. Naxçıvanda üstünlüyə nail ola bilməyən ermənilər çar hökumətinin yaxından köməyi ilə etnik təmizləmə siyasətinə əl atmış, 1905-1906-cı illərdə bütün Azərbaycanda olduğu kimi burada da azərbaycanlılara qarşı soyqırım törətmişdilər.

Naxçıvan bölgəsi bütün tarixi dövr ərzində olduğu kimi XIX-XX əsrin əvvəllərində də istər çarizmin milli və dini zülmü, istərsə də ermənilərin bölgədə törətdikləri etnik təmizləmə ilə barışmamış, qəti və ardıcıl şəkildə azadlıq hərəkatı aparmışdı. Məhz bu tarixi ənənənin nəticəsi idi ki, Naxçıvan Azərbycanın ayrılmaz tərkib hissəsi kimi mövqeyini qoruyub saxlamışdı.

Naxçıvan çarizmin müstəmləkəçilik zülmünə və ayrıseçkilik siyasətinə baxmayaraq Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi tarixi missiyasını yerinə yetirmiş, Azərbaycan mədəniyyətinin bütün sahələri üzrə görkəmli şəxsiyyətlər yetişdirmişdi.

XIX-XX əsrin əvvəllərində Naxçıvan bölgəsinin keçdiyi tarixi inkişaf yolu böyük elmi-idraki və təcrübi əhəmiyyətə malikdir. Ona görə də bu tarixi irsi hər zaman öyrənməyə ehtiyac vardır.

Naxçıvan bölgəsində hər bir tarixi dövrdə mövcud olan azadlıq, inkişaf və yaradıcılıq potensialı özünü sonrakı mərhələlərdə də göstərmişdi. Naxçıvan 1918-1920-ci illərdə bütün çətinliklərə baxmayaraq Azərbycanın istiqlaliyyət mübarizəsinə şərəfli səhifələr yazmışdır. Naxçıvan Azərbaycan xalqına Ümummilli lider Heydər Əliyevi bəxş etmişdir. Heydər Əliyev demişdir: **«Həyatım haqqında danışmaq üçün çox vaxt lazımdır. Buna bir saat bəs etməz. Amma qısa olaraq deyə bilərəm: Mən 1923-cü ildə Naxçıvanda anadan olmuşam».** Naxçıvandan başlanan bu uğurlu həyat yolu Ümummilli lideri dünyanın ən məşhur dövlət başçıları sırasına aparmışdı. Heydər Əliyev ömrünün sonunadək

Azərbaycan Respublikasının bütün bölgələri kimi Naxçıvana diqqət və qayğısını əsirgəməmişdi. Bu xətt 2008-ci ilin oktyabrında ikinci dəfə Azərbaycan Respublikasının prezidenti seçilən İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İlham Əliyev Naxçıvana səfərlərindən biri zamanı demişdir: **«Bizim böyük işlərimiz, böyük planlarımız var. Bu planlar uğurla həyata keçirilir. Naxçıvanın timsalında biz bunu görə bilərik. Qəbul edilmiş qərarların qısa müddət ərzində icrası nəticəsində çox gözəl inkişaf, irəliləyiş var»**.

Naxçıvan Muxtar Respublikası bu gün ağır blokada şəraitinə baxmayaraq Ali Məclisin sədri Vasif Talıbovun rəhbərliyi ilə dinamik inkişafda olub, Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafında, onun müdafiə qüdrətinin möhkəmlənməsində tarixi rolunu uğurla yerinə yetirir.

NAXÇIVAN BÖLGƏSİNİN
XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ
TARİXİNİN ƏSAS
HADİSƏLƏRİ

| | |
|---|---|
| **1801, 12 sentyabr** | Şərqi Gürcüstanla birlikdə Şimali Azərbaycan torpaqlarının Rusiyaya ilhaq edilməsinin başlanması |
| **1804-1813** | Rus-İran müharibəsi |
| **1806-** | Məmmədqulu Salik |
| **1810, 15 iyun** | Mehrinin ruslar tərəfindən işğalı |
| **1813, 12 oktyabr** | Gülüstan müqaviləsi |
| **1819-1909** | İsmayıl xan Naxçıvanski |
| **1824-1883** | II Kalbalı xan Naxçıvanski |
| **1826-1828** | Rus-İran müharibəsi |
| **1827, 26 may** | Naxçıvanın tutulması |
| **1827, 7 iyul** | Abbasabadın tutulması |
| **1828, 10 fevral** | Türkmənçay müqaviləsi |
| **1828, 21 mart** | I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan əyalətləri əsasında «Ermәni vilayəti»nin yaradılması |
| **1828-1840** | Naxçıvan əyaləti «Ermәni vilayəti» tərkibində |
| **1829** | Kəngərli süvari dəstəsi |
| **1836-1886** | Fəqir Ordubadi |
| **1837, 1 yanvar** | Naxçıvanda qəza məktəbinin açılması |
| **1837** | Süst kəndi yaxınlığında ikinci düz mədəninin açılması |
| **1839-1904** | Usta Zeynal Nəqqaş |
| **1840, 10 aprel** | İnzibati məhkəmə islahatı |
| **1840-1846** | Naxçıvan Gürcü-İmeret quberniyası tərkibində |
| **1841, 5 yanvar** | Zaqafqaziyada dövlət əmlakının idarə olunması haqqında qanun |
| **1843-** | Abdulla Rasizadə |
| **1844** | Qafqaz canişinliyinin təsisi |
| **1845-1902** | Paşa Sultanov-Kəngərli |
| **1846, 6 dekabr** | Bəylərin torpaq hüququ haqqında reskript |
| **1846, 14 dekabr** | İnzibati - ərazi bölgü islahatı |
| **1846-1849** | Naxçıvan Tiflis quberniyası tərkibində |

| | |
|---|---|
| **1846-1931** | Məhəmməd Şahtaxtinski |
| **1847-1906** | Aslanxan Gövhər |
| **1848** | Əylisdə kommersiya xarakterli məktəb açılması |
| **1848-1862** | «Qanlı göl» (Şahbuz rayonunun Kükü kəndində) su dəryaçasının tikilməsi |
| **1848-1934** | Hacı Hüseyn Naxçıvani |
| **1849-1917** | Naxçıvan İrəvan quberniyası tərkibində |
| **1849, iyun** | İrəvan quberniyasının təşkili |
| **1851-1894** | İsasultan Şahtaxtinski |
| **1853, sonları** | Naxçıvan bəy drujinası |
| **1854-1917** | Qurbanəli Şərifzadə |
| **1854-1903** | Məhəmməd Tağı Sidqi |
| **1855** | Ordubadda ibtidai məktəb açılması |
| **1856-1924** | Kabla Musa |
| **1858-1913** | Əbülfət Şahtaxtinski |
| **1859, 1 yanvar** | «Baş idarə və Qafqaz canişini Şurası haqqında Əsasnamə»nin qüvvəyə minməsi |
| **XIX, 60-cı illəri** | Şan Girey su anbarının yaradılması |
| **1860** | Aşıq Allahverdi Kosacanlının (Ağ aşıq) vəfatı |
| **1860** | Heyran xanım Dünbulinin (təqribən 1790-cı ildə anadan olmuşdur) vəfatı |
| **1861, 19 fevral** | Rusiyada təhkimçilik hüququnun ləğvi |
| **1861, 29 iyun** | Zaqafqaziya diyarının mərzləşdirilməsi haqqında Əsasnamə |
| **1861, dekabr** | Zaqafqaziyada yerli gözətçi dəstələri haqqında Əsasnamə |
| **1862-1921** | Mirzə Ələkbər Süleymanov |
| **1862-1896** | Əliməmməd Xəlilov |
| **1863-1921** | Nəsrulla Şeyxov |
| **1863-1919** | Hüseyn xan Naxçıvanski |
| **1864, sentyabr-oktyabr** | Moskvada keçirilən Ümumrusiya kənd təsərrüatı sərgisində Naxçıvan qəzası sakinlərinin «yaxşı pambıq növü» nümayiş etdirdiklərinə görə həmin sərginin «fəxri vərəqəsi» ilə təltif edilməsi |
| **1864-1905** | Məmmədqulu Kəngərli |
| **1864, 24 yanvar** | Naxçıvanı İran sərhəddindəki Culfa ilə birləşdirən və Tiflis-İrəvan-Naxçıvan-Culfa teleqraf xəttinin bir hissəsi olan ilk teleqraf xəttinin istifadəyə verilməsi |
| **1864, 20 noyabr** | Məhkəmə islahatı |

| | |
|---|---|
| **1865** | İravən-Culfa şosse yolunun («Çar yolu») inşasına başlanması |
| **1866-1916** | Əbülqasım Sultanov |
| **1866-1935** | Eynəli Sultanov |
| **1867** | Güclü daşqın |
| **1867, 9 dekabr** | Qafqaz və Zaqafqaziya diyarının idarəsinin dəyişdirilməsi haqqında fərman |
| **1869-1932** | Cəlil Məmmədquluzadə |
| **XIX əsrin 70-ci illəri** | Əylisdə qız məktəbinin açılması |
| **1870, 14 may** | Kəndli islahatı |
| **1872-1950** | Məmməd Səid Ordubadi |
| **1872, 16 iyun** | Şəhər Əsasnaməsinin təsdiq olunması |
| **1875-1920** | Ələkbər Məmmədxanov |
| **1875** | Ordubadda iki ipəksarıma fabrikinin işə düşməsi |
| **XIX əsrin 70-ci illəri** | Azərbaycanda duz istehsalı və emalının kapitalist sənayesi əsasları üzərində qurulması |
| **1877-1956** | Mirbağır Mirheydərzadə |
| **1878-1937** | Tağı bəy Şəfiyev |
| **1878-1939** | Məhəmməd Rəsizadə |
| **XIX əsrin 80-cı illəri** | Şərur əyalətinin Yengicə kəndində xüsusi pambıqalma məntəqəsi yaradılması |
| **1880-1919** | Əliqulu Qəmküsar |
| **1880-1944** | Həmid ağa Şahtaxtinski |
| **1881-1963** | Hacı Məhəmməd Naxçıvani |
| **1881-1924** | Behbud ağa Şahtaxtinski |
| **1882** | Ordubad ipək məmulatının Moskva ticarət-sənaye sərgisinin qızıl medalına layiq görülməsi |
| **1882-1927** | Nadim Naxçıvani |
| **1882-1941** | Hüseyn Cavid |
| **1882-1923** | İbrahim Əbilov |
| **1882** | Ordubadda «Əxtər» (Ulduzlar) məktəbinin açılması |
| **1882** | Məxfi polis nəzarəti haqqında əsasnamə |
| **1883** | Naxçıvanda dram teatrının təşkili |
| **1884-1886** | İrəvan quberniyasına göndərilmiş aqranom V.İ. Samolevskinin rəhbərliyi altında 200 puda qədər Amerika növlü çiyid toxumunun əhali arasında paylanması (1884). N.A.Kruyukov və N.İ.Taratinov tərəfindən bu işin |

| | |
|---|---|
| | davam etdirilməsi |
| **1885** | Tiflisdə general - adyutant A.M. Dondukov-Korsakovun iştirakı ilə keçirilən ipəkçilik sərgisində Ordubad ipəkçilərinin də mükafatlandırılması |
| **1885-1958** | Tağı İsmayılov |
| **1886-1907** | Leyli Şahtaxtinskaya |
| **1886** | Məxfi polis nəzarəti haqqında Əsasnamənin Zaqafqaziyada tətbiqi |
| **1887** | Naxçıvanda ilk kitabxana - qiraətxananın yaradılması |
| **1888, 10 may** | Zaqafqaziya quberniyalarında qəza polisinin yenidən qurulması haqqında fərman |
| **1888-1956** | Məmmədəli Sidqi |
| **XIX əsrin 90-cı illəri** | M.T.Sidqinin təşəbbüsü ilə Naxçıvanda qız məktəbinin açılması |
| **1890-1891** | Naxçıvanda kənd təsərrüfatına çəyirtkənin ağır zərbə vurması |
| **1890, 3 dekabr** | Sudan istifadə haqqında Əsasnamənin qəbul edilməsi |
| **1892-1922** | Bəhruz Kəngərli |
| **1892-1983** | Əli Səbri |
| **1894** | Naxçıvan və Ordubadda müsəlman məktəbinin açılması |
| **1895** | N.Jozefides (Fransa) tərəfindən Ordubadda ipək qurdu yetişdirilməsi üçün sınaq mərkəzinin təşkili |
| **1895-1938** | Cəmşid Naxçıvanski |
| **1896** | Sərt qış nəticəsində Ordubad və Naxçıvan qəzasının bir sıra kəndlərində üzüm bağlarının məhv olması |
| **1896-1956** | Kazım Ziya |
| **1899** | Naxçıvanda Puşkinin anadan olmasının 100 illiyinin qeyd edilməsi |
| **1899, 21 dekabr** | Naxçıvanda ipəkçiliyə dair müşavirə keçirilməsi |
| **1900** | Güclü daşqın |
| **1900, 1 may** | II Nikolay tərəfindən «Tiflis, Yelizavetpol, Bakı və İrəvan quberniyaları dövlət kəndlərinin torpaq təminatının mühüm əsasları»nın təsdiq edilməsi |
| **1900, 1 may** | Xəzinə torpaqlarında məskunlaşmış Zaqafqaziya dövlət kəndlilərinin torpaq quruluşu haqqında qanun verilməsi |
| **1900, 12 may** | Qafqazda xəzinənin xeyrinə toplanan ev başı mükəlləfiyyətlərin ləğvi və bunun əvəzinə dövlət töycü mükəlləfiyyəti və torpaq vergisi haqqında qanun verilməsi |
| **1904** | «Qafqaz kənd təsərrüfatı cəmiyyəti» tərəfindən Ağdaş və İrəvanda pambıqçıların qurultayının keçirilməsi |
| **1905-1906** | Ermənilərin azərbaycanlılara qarşı soyqırımı |

| | |
|---|---|
| **1905, 26 fevral** | Qafqazda canişinlik üsul-idarəsinin bərpası |
| **1905, mart** | Qafqazda müvəqqəti hərbi məhkəmənin yaradılması |
| **1906** | Kəndli torpaq bankının Zaqafqaziya şöbəsinin Azərbaycan ərazisində fəaliyyətə başlaması |
| **1906** | Miriş ağanın vəfatı<br><br>Naxçıvanda İ.T.Sidqinin kitabxanasının açılması |
| **1908** | Uluxanlı və Culfa stansiyalarını birləşdirən dəmir yolu çəkilişinin başa çatdırılması |
| **1911** | Culfada İran hesab-borc bankının şöbəsinin yaradılması |
| **1912** | Culfada Tiflis kommersiya bankının şöbəsinin açılması |
| **1912, 20 dekabr** | Sahibkar torpaqlarında yaşayan kəndlilərin pay torpaqlarının xüsusi sahibkarları elan edilməsi |
| **1914-1918** | Birinci dünya müharibəsi |
| **1917, 27 fevral** | Burjua demokratik inqilabı |
| **1917, 3 mart** | Zaqafqaziyada hakimiyyətin xüsusi Zaqafqaziya Komitəsinə verilməsi |
| **1917, 9 mart** | Müvəqqəti hökumət tərəfindən Qafqaz canişinliyinin ləğvi, Xüsusi Zaqafqaziya Komitəsinin təşkili |
| **1917, 15-20 aprel** | Bakıda Qafqaz müsəlmanları qurultayının keçirilməsi |
| **1917, 1-8 may** | Moskvada I Ümumrusiya müsəlman qurultayının keçirilməsi |
| **1917** | Naxçıvanda «El güzgüsü» teatr cəmiyyətinin yaranması |
| **1917, 25 oktyabr (7 noyabr)** | Petroqradda bolşevik çevrilişi |

İSTİFADƏ EDİLMİŞ
ƏDƏBİYYAT SİYAHISI

## I. Azərbaycan dilində


1. Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Dərs vəsaiti. Bakı: Adiloğlu, 2005, 232 s.
2. Ağamalı F.R. XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1999, 304 s.
3. Allahverdiyev M. Azərbaycan xalq teatrı tarixi. Bakı: Maarif, 1978, 236 s.
4. Arazoğlu. Müxtəsər Azərbaycan tarixi. Çuxursəd, 1999, 166 s.
5. Atnur İ.E. Muxtariyyət ərəfəsində Naxçıvan: NDU, «Qeyrət» nəşriyyatı, 1999, 442 s.
6. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. II c. XIX əsrin əvvəllərindən 1917-ci ilə qədər. Bakı: Azərb. SSR EA nəşr., 1960, 902 s.
7. Azərbaycan ədəbiyyatına dair tədqiqlər (XIX-XX əsrlər). Bakı, 1983.
8. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi. Bakı: Nurlan, 2005.
9. Azərbaycan Respublikası Tarix Arxivi.
10. Azərbaycan tarixi. Üç cilddə. 2-ci cild. Bakı: Azərb. EA nəşr., 1964, 1002 s.
11. Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər. Bakı: «Elm», 1993, 284 s.
12. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). Bakı: Azərnəşr, 1994, 688 s.
13. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı: Azərbaycan, 1996, 872 s.
14. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı: Elm, 1999, 584 s.
15. Azərbaycan tarixi. Yeddi cilddə. IV c. (XIX əsr). Bakı: Elm, 2000, 508 s.
16. Azərbaycan tarixi. Yeddi cilddə. V cild. 1900-27 aprel 1920. Bakı: Elm, 2001, 672 s.
17. Azərbaycan tarixində Naxçıvan (tarixi oçerklər). Bakı: nəşriyyat göstərilmir, 1996, 142 s.
18. Azərbaycan teatrının salnaməsi. Toplayanı, tərtib edəni və izahların müəllifi Q.Məmmədli. Bakı: Azərnəşr, 1975, 584 s.
19. Azərbaycanın aşıq və şair qadınları. Tərtib edəni Ə.Cəfərzadə. Bakı: Gənclik, 1991, 288 s.
20. Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri (XIX-XX əsrin əvvələri). Bakı: Azərb. EA nəşriyyatı, 1956, 290 s.
21. Babayev A.Q. Rusiyaya qovuşmaq ərəfəsində. Bakı: Azərnəşr, 1988, 167 s.
22. Babayev S.Y. Naxçıvanda «Kitabi-dədə Qorqud» toponimləri. Bakı: XXI – Yeni nəşrlər evi, 1999, 224 s.
23. Babayev S. Naxçıvan səyahətnamələrdə // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.75-83.
24. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 2002.
25. Bağırov İ. 1826-1828-ci il rus-İran müharibəsi // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.114-118.
26. Bağırov İ. 1826-1828-ci il Rus-İran müharibəsi və Naxçıvan // Azərbaycan tarixində Naxçıvan. Bakı, 1996, s.55-65.
27. Bağırov İ.N. Kəngərli yurdunun generalları. Bakı: Yazıçı, 1994, 56 s.
28. Bağırov M. XX əsrin birinci yarısında Naxçıvanın iqtisadiyyatı // Azərbaycan tarixində Naxçıvan. Bakı, 1996, s.126-137.
29. Baxşəliyev V. M.ə. XI-VI əsrlərdə Naxçıvanda etnik-mədəni proseslər // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.59-61.
30. Baykara H. Azərbaycanın istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992, 276 s.
31. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998.
32. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Naxçıvan diyarının yer yaddaşı. Bakı: «Nafta Press», 2004, 120 s.
33. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı – XIX əsrin I qərinəsi). Bakı: Elm, 1995, 96 s.
34. Bünyadzadə Z. Azərbaycan Atabəylər dövləti. 1136-1225. Bakı: Elm, 1985, 268 s.
35. Cəfərli E. Çar Rusiyasının Azərbaycanda müstəmləkə siyasətinin nəticələri // AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İct. və hum. elmlər ser., 2007, №1, s.44-48.
36. Cəfərov C. Teatr tariximizin güzgüsü // Azərbaycan teatrının salnaməsi. Bakı, 1975, s.3-12.

37. Cəfərov H. Naxçıvan şəhəri və onun məhəllələri haqqında // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.53-58.
38. Cəfərov N. Naxçıvan ədəbi mühitinə tarixi bir baxış // NDU. Elmi əsərlər, xüsusi buraxılış, 1999, №5, s.17-19.
39. Divan-e Salik Ordubadi. Təbriz: «Müəsseye-çap nəşr-e Hadi», 1380 (m.2001).
40. Eminov Z.S. XIX-XX əsrin əvvəllərində Azərbaycanda səhiyyənin tarixi. NDA. Bakı, 2004, 25 s.
41. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gənclik, 1995, 464 s.
42. Əfəndiyev O., Fərzəliyev Ş. 1590-cı və 1724-cü illərə aid Naxçıvanla əlaqədar iki tarixi sənəd haqqında bəzi qeydlər // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.94-97.
43. Əhmədov H. XIX əsr Azərbaycan məkbəti. Bakı: Maarif, 1985, 300 s.
44. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ABU, 2001, 320 s.
45. Əhmədov N. Naxçıvan əhalisinə dair // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.166-168.
46. Ələkbərli Ə. Qədim türk – oğuz yurdu «Ermənistan». Bakı, 1994.
47. Əliyev A., Qasımov Ə. Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və proble
48. mlər. I c., Bakı: Azərbaycan nəşr., 2001, 284 s.
49. Əliyev A., Qasımov Ə. Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və problemlər. II c., Bakı: Azərbaycan nəşr., 2001, 264 s.
50. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı: Azərnəşr, 1996, 108 s.
51. Əliyev F.M. Şimali Azərbaycan şəhərləri. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1960.
52. Əliyev Q. XIX-XX əsrin başlanğıcında Şimali Azərbaycanda nəqliyyatın inkişafı. Dərs vəsaiti. Bakı: Bakı un-ti nəşr., 1995, 115 s.
53. Əliyev Q. Azərbaycan nəqliyyatı və iqtisadiyyat (XIX əsr – XX əsrin ilk onillikləri). Bakı: Elm, 2001, 244 s.
54. Əliyev M. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı (20-90-cı illər). NDA. Bakı, 1996, 23 s.
55. Əliyev V. Naxçıvan. Bakı: XXI- Yeni nəşrlər evi, 2002, 320 s.
56. Əsədov F., Kərimova S. Çarizmi Azərbaycana gətirənlər. Bakı: Gənclik, 1993, 144 s.
57. Əziz Ş. Tapıntılar. Bakı: Yazıçı, 1987, 408 s.
58. Əzizov T. Azərbaycan XX əsrin əvvələrində. Bakı: Zaman, 1997, 256 s.
59. Gülmalıyev M.M. XVIII əsrin son rübü – XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu. Bakı: Elm, 1989, 280 s.
60. Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (Tərtib edəni və ön sözün müəllifi İ.Hacıyev). Bakı: Elm, 1999, 369 s.
61. Hacıyev İ. Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində. DDA. Bakı, 1999, 655 s.
62. Hacıyev İ., Məmmədov Ş. Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001, 280 s.
63. Hacızadə Ə. Azərbaycan SSR-in əhalisi və onun məskunlaşması. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1965, 116 s.
64. Halacoğlu Yusif. Türkiyə qaynaqlarında Naxçıvan // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.
65. Həbibbəyli İ. Naxçıvanda elm və mədəniyyət // Azərbaycan tarixində Naxçıvan. Bakı, 1996, s.73-91.
66. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı, 1997.
67. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı: Azərnəşr, 1993, 362 s.
68. Həsənov C. V.Qriqoryevin «Naxçıvan əyalətinin statistik təsviri» Naxçıvan şəhərinin tarixinin öyrənilməsi mənbəyi kimi // Azərbaycan Xalq Cümhuriyyətinin 85-ci ildönümünə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı, 2003, s.138-139.
69. Həsənov İ. İnqilabdan əvvəlki Azərbaycanda kəndli hərəkatı tarixinin bəzi məsələləri (XIX əsrin sonu – XX əsrin əvvəlləri) // Azərbaycan kommunisti. 1967, №3, s.86-92.
70. Hüseynli R. Azərbaycan ruhaniliyi (Xanlıqlar çağından sovet işğalınadək olan dövrdə). Bakı: Kür nəşr., 2002, 266 s.
71. Hüseynzadə L. Naxçıvan teatr tarixindən. Bakı: Araz, 2002.
72. Xəlilov Ə. Naxçıvan teatr tarixindən. Bakı: Az. teatr cəm., 1964.
73. İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). Bakı: Azərb. Dövlət nəşr., 1957, 586 s.
74. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad. Z.Bünyadov və t.e.n. Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996, 184 s.
75. Kazımov İ.F. Naxçıvan bölgəsinin tarixi-demoqrafik tədqiqi (1828-1920-ci illər). NDA. Naxçıvan, 2003, 26 s.

76. Kazımov İ.F. Naxçıvan: əhalisi, sosial – iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı: Elm, 2007, 175 s.
77. Kərimov K. Bəhruz Kəngərli. Bakı: Azərb. EA, 1962, 58 s.+şək.
78. Kərimova S. Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu. Bakı: Azərnəşr, 1995, 192 s.
79. Koçaş M.S. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı: «Azərbaycan ensiklopediyası» NPB., 1998, 160 s.
80. Köçərli F.B. Azərbaycan ədəbiyyatı. İki cilddə. İkinci cild. Bakı: Elm, 1981, 460 s.
81. Qaçaq Nəbi. Məcmuə. Bakı, 1941.
82. Qədimov Ə. Ədəbi qaynaqlarda Naxçıvan // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.187-197.
83. Qədimov Ə. Ordubad ədəbi mühiti. Bakı, 2003.
84. Qədimov Ə. Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. Bakı, 2004.
85. Qədirzadə Q.İ. Naxçıvanda etnodemoqrafik proseslər (1828-1928-ci illər) // Respublika konfransının materialları. Naxçıvan, 1989.
86. Qəhrəmanov Ə. Naxçıvan teatrının yarandığı ictimai-siyasi şərait və onun fəaliyyətinin ilk dövrü (1886-1895) // Mədəniyyət dünyası, 2005, X bur., s.193-200.
87. Qəhrəmanov Ə. Naxçıvan teatrı: İntibah yollarında (1883-1920). Bakı: nəşr. göstərilmir, 2008, 160 s.
88. Qlinka S.N. Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri. Bakı: Azərbaycan, 1995, 128 s.
89. Qriboyedov A.S. Yol qeydləri. Bakı, 1989.
90. Quliyev M. Naxçıvan xanları ilə bağlı yeni araşdırmalar // AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İct. və humanitar elmlər ser., 2006, №2, s.46-50.
91. Quliyev M. K.N.Smirnovun arxivində Naxçıvan tarixi // AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İct. və hum. elmlər ser., 2006, №4, s.53-58.
92. Quliyev M. Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı və Türkmənçay danışıqları // AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İct. və hum. elmlər ser., 2008, №1, s.99-104.
93. Quliyev N.Ə. Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat). Bakı: Elm, 2006, 163 s.
94. Quliyev N.Ə. Naxçıvan əyaləti Əlincəçay mahalının əhalisi (1831-ci il kameral təsvirinin materialları əsasında). // Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. II bur. Bakı, 2004, s.16-22.
95. Quliyev S.V., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı. Bakı: Azərnəşr, 1984, 136 s.
96. Quliyev V. İsa Sultan Şahtaxtinskinin qəribə həyatı. Bakı, 1999.
97. Qurbanov R.M. XIX əsrin birinci yarısında Şimali Azərbaycanda azadlıq hərəkatı. Bakı: Nurlan, 2006, 192 s.
98. Qurko-Kryajin V. Erməni məsələsi (Böyük Sovet Ensiklopediyasının 1926-cı il nəşrindən məqalə). Bakı, 1990, 32 s.
99. Mahmudov Y.M. Tarixdə Naxçıvanımız (Prezident fərmanı işığında). Bakı Universiteti xəbərləri: Xüsusi buraxılış, 1999, №3; həmçinin bax: Azərbaycan q., 1999, 10 oktyabr.
100. Mədətov Q. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı: Azərnəşr, 1958.
101. Məhəmməd Tağı Sidqi. Əsərləri. Tərtib edəni İ.Həbibbəyli. Bakı, 2004.
102. Məmmədquluzadə C. Əsərləri. 6 cilddə. cc.1-6. Bakı, 1983-1985.
103. Məmmədli Q. Azərbaycan teatrının salnaməsi. Bakı, 1975.
104. Məmmədov H. Naxçıvan sancağının XVI-XVIII əsrlər tarixinə dair Osmanlı qaynaqları // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.102-103.
105. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977, 158 s.
106. Məmmədov U. Bəzi erməni müəlliflərinin əsərlərində Naxçıvan tarixinin təhrif olunması məsələsi // AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İct. və hum. elmlər ser., 2006, №4, s.64-69.
107. Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası, Bakı, Azərbaycan, 1993, 128 s.
108. Mollayev İ. Naxçıvanda xalq maarifinin inkişafı tarixindən // Azərbaycan tarixində Naxçıvan. Bakı, 1996, s.91-103.
109. Mollayev İ. Sidqinin pedaqoji görüşləri. Bakı, 1997.
110. Muradov M.A. Çar Rusiyasının Azərbaycanda işğalçılıq və köçürmə siyasəti (XIX əsrin birinci yarısında). Bakı: Çaşıoğlu, 1999, 138 s.
111. Musayev İ.M. Azəraycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921 –ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.
112. Musayev İ.M. Osmanlı dövlətində ermənilərin durumu: tarixi gerçəkliklər və yalanlar. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, 207 s.
113. Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2003, 272 s.

114. Mustafayev N.Ç. Cənubi Azərbaycan xanlıqları. Bakı: Azərnəşr, 1995, 96 s.
115. Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 s.
116. Mustafazadə T.T. Naxçıvan vilayəti XVIII yüzillikdə // Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı, 1999, s.38-61.
117. Nadirov A., Nuriyev Ə., Muradov Ş. Naxçıvanın iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 104 s.
118. Nasir Nəcmi. Abbas Mirzə. XIX əsr Rusiya – İran - Azərbaycan münasibətləri. Bakı: Yazıçı, 1993, 128 s.
119. Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Təhsil, 2006, 504 s.
120. Naxçıvan ensiklopediyası. İki cilddə. c.I. Naxçıvan, 2005, 326 s.; c.II. Naxçıvan, 2005, 376 s.
121. Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: Elm, 1999, 184 s.
122. Naxçıvan Muxtar Resublikası – 80. Tarixi – statistik məcmuə. Bakı: Səda, 2004, 212 s.
123. Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik (8 fevral 2007-ci ildə keçirilmiş elmi-praktik konfransın materialları). Bakı: Nurlan, 2007, 406 s.
124. Naxçıvan MR Dövlət Tarix Arxivi.
125. Naxçıvan MR-75. Elmi əsərlər. Xüsusi bur. №5, Naxçıvan, 1999.
126. Naxçıvan. Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunur. // Bakı Universiteti xəbərləri: xüsusi buraxılış. 1999, №3.
127. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı: Sabah, 1997, 336 s.
128. Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı: «Səda», 1999, 128 s.
129. Naxçıvan tarixinin səhifələri («Uluslararası qaynaqlarda Naxçıvan» beynəlxalq simpoziumunun materialları). Bakı, 1996, 222 s.
130. Nəcəfov T.H. Səfəvi-Osmanlı müharibələri və Naxçıvan (XVI əsr – XVII əsrin əvvəlləri) // Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı, 1999, s.62-72.
131. Nəzirli Ş. Arxivlərin sirri açılır. Bakı, 1999.
132. Nəzirli Ş.Ə. Azərbaycan generalları. Bakı: Gənclik, 1991, 208 s.
133. Nuriyeva Z.N. Azərbaycan sənayesində milli burjuaziya (XIX əsrin sonu – XX əsrin əvvəlləri). Bakı: Altay, 1999, 108 s.
134. Fərzəlibəyli Ş. XVII-XIX əsrlər tarixinə dair qiymətli sənədlər // Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı, 1999, s.79-94.
135. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı: Qarabağa XYK, 1991, 144 s.
136. Ordubadi F. Ağlar qələm əlimdə. Tərtib, müqəddimə və lüğət Ə.Qədimovundur. Bakı, 1989.
137. Paşayev A.Ə. Açılmamış səhifələrin izi ilə. Bakı: «Azərbaycan», 2001, 536 s.
138. Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Araz nəşr., 2002, 152 s.
139. Piriyev V. Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı: «Müəllim» nəşr., 2004, 126 s.
140. Poetik məclislər. Toplayanı və tərtib edəni N.Qarayev. Bakı: Yazıçı, 1987, 526 s.
141. Rəhimov Y. A.S.Qriboyedov və Naxçıvan // AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İct. və hum. elmlər ser., 2006, №2, 5. s.42-45.
142. Rəhimov Y. Naxçıvan tarixi Rusiya tarixşünaslığında // AMEA-nın Naxçıvan bölməsi. İct. və hum. elmlər ser., 2006, №4, s.170-175.
143. Rəhimov Y. XIX əsrdə Naxçıvanın təsərrüfat həyatı // AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İct. və hum. elmlər ser., 2007, №1, s.49-53.
144. Rəhimov Y. XIX əsrdə Naxçıvanda duz sənayesi (rus mənbələri əsasında) // AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İct. və hum. elmlər ser., 2007, №3, s.75-79.
145. Rəhimov Y. XIX əsrdə Naxçıvanda suvarma sistemi və su təsərrüfatı (rus mənbələri əsasında) // AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İct. və hum. elmlər ser., 2008, №1, s.93-98.
146. Rəhimli İ. Azərbaycan teatr tarixi. Bakı: Çaşıoğlu, 2005, 864 s.
147. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
148. Rüstəmzadə R.B. El qəhrəmanları xalq ədəbiyyatında. Bakı: Gənclik, 1984, 172 s.
149. Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı: «İrşad mərkəzi», 1995, 144 s.
150. Saraclı M. Naxçıvan ədəbi mühitindən. Bakı: nəşr göstərilmir, 2007, 80 s.
151. Seyidov F.Ə. Qori seminariyası və onun məzunları. Bakı: Maarif, 1988, 298 s.
152. Seyidbəyli E. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr kəngərli arxeoqrafik sənədləri. Bakı: Elm, 2000, 230 s.

153. Sidqi M.T. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1967.
154. Sidqi M.T. Məktəb hekayələri. Toplayanı, tərtib edən və ön sözün müəllifi İ.Həbibbəyli. Bakı, 1996.
155. Sultanov B. Azərbaycan polad magistralının tarixi oçerkləri. Bakı: Zaman nəşr., 1997, 314 s.
156. Sultanov H. Naxçıvan vilayəti və onun iqtisadiyyatı. Bakı: Azərnəşr, 1927.
157. Svyataxovski T. Rusiya Azərbaycanı 1905-1920-ci illər (kitabdan parçalar) // Azərbaycan j., 1989, №11, s.130-144.
158. Tağıyev Ə. Azərbaycanda məktəb tarixi (XIX əsrin sonu – XX əsrin əvvəlləri). Bakı: Maarif, 1993, 113 s.
159. Şahverdiyev Z. XX əsrin əvvəllərində Naxçıvan qəzasında taxılçılığın vəziyyəti // AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İct. və hum. elmlər ser., 2008, №1, s.35-40.
160. Şahverdiyev Z., Cəfərov M. Xanlıqlar dövründə Naxçıvan // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.103-114.
161. Şahverdiyev Z. XIX əsrin ikinci yarısında kəndlilərin vəziyyəti və Qaçaq Nəbi hərəkatı // Tarix, ictimaiyyət, coğrafiya tədrisi. 1982, № 3, s.34-37.
162. Şahverdiyev Z. XIX əsrin ikinci yarısında Naxçıvanda aqrar münasibətlərə dair // Azərb. SSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq ser., 1982, № 3.
163. Şahverdiyev Z. XIX əsrin ikinci yarısında Naxçıvan qəzasında maldarlıq və bağçılıq // Azərb. SSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq ser., 1983, №4.
164. Şahverdiyev Z. XIX əsrin ikinci yarısında Naxçıvanda pambıqçılıq və ipəkçilikdə əmtəə-pul münasibətləri // // Azərb. SSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq ser., 1983, №3, s.24-31.
165. Şahverdiyev Z. Azərbaycanın kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı məsələlərinin öyrədilməsinə dair // Tarix, ictimaiyyət, coğrafiya tədrisi. 1984, №4, s.29-32.
166. Şahverdiyev Z. Naxçıvan xanlığının Rusiyaya birləşdirilməsi və onun tarixi əhəmiyyəti // Tezisı dokladov Respub. nauç. konf. Naxiçevanğ, 1988, s.90-91.
167. Şahverdiyev Z., Zeynalov İ. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı: Qismət, 2002, 168 s.
168. Şirinoğlu V. 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Bakı: Qartal, 2001, 176 s.
169. Şükürov K. Türkmənçay – 1828. Tarixi xronika. Bakı: Çaşıoğlu, 2006, 188 s.
170. Umudov V.U. Şimali Azərbaycanın çar rusiyası tərəfindən işğal olunması və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1826). NDA., Bakı, 1996, 27 s.
171. Verdiyeva H.Y. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın əhalisi. Bakı, 1993, 133 s
172. Verdiyeva H.Y. XIX əsrdə Naxçıvanda baş verən demoqrafik dəyişikliklər // NDU-nun Elmi Əsərləri (Humanitar seriya), 1999, №5, s.60-61.
173. Vəlili M. Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat). Bakı: Azərnəşr, 1993, 208 s.
174. Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. Bakı, 1977.
175. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı: Elm, 1987, 256 s.
176. Vəlixanlı N. Naxçıvan – ərəblərdən monqollaradək (VII-XII). Bakı: Elm, 2005, 152 s.
177. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi, Bakı, Azərbaycan Dövlət Kitab palatası, 1992, 144 s.

## II. Rus dilində

178. Abaza V.A. İstoriə Armenii. SPb. [B.i.]. 1888, IX, 128.
179. Avaliani S. Krestğənskiy vopros v Zakavkazğe. t.4. Tiflis, 1920.
180. Avdakov A. Vodoorositelğnaə arpaçayskaə sistema Naxiçevanskoqo uezda // Sbornik Kavkazskoqo obhestva selğskoqo xozəystva. Vıp.3. Tiflis, 1885, №820.
181. Avetisən X.A. Naselenie i poseleniə Zanqezura za 40 let (1920-1960). Bibl. 1962 – 1963 qq. Erevan, 1966, s.179.
182. Aqaən Ü.P. Rolğ Rossii v istoriçeskix sudğbax armənskoqo naroda. K 150-letiö proisoedineniə vostoçnoy Armenii k Rossii. Otv. red. akad.
A.L.Noroçniükiy. M., 1978, 311 s.
183. Aqrarnaə politika üarizma i krestğənskoe dvijenie v Armenii v naçale XX veka. Sost. prof. V.Rştuni pri uçastii K.Stepanğəna. Erevan: İzd-vo AN Arm. SSR, 1951, 358 s.
184. Adonü. M.A. Gkonomiçeskoe razvitie Vostoçnoy Armenii v XIX veke. Erevan: İzd-vo AN Armənskoy SSR, 1957, 560 s.
185. Ayvazən S. İstoriə Rossii: Armənskiy sled. M.: Kron Press, 2000, 656 s.
186. Aktı sobrannıe Kavkazskiy Arxeoqrafiçeskoy Komissiey. t.X. Tiflis, 1887; t.XI. Tiflis, 1888; t.XII. Tiflis, 1904.

187. Alekperov A.K. Poezdka v Zanqezura i Naxkray // İzv. Ob-va obsled. i izuç. Az-na, 1927, №4, s.210-216.
188. Aliev İ. Trud P.Q. Butkova «Materialı dlə novoy istorii Kavkaza s 1722 po 1803 qq.» kak istoçnik XVIII v. // Azərbaycan Xalq Cümhuriyyəti 85-ci ildönümünə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı, 2003, s.170-172.
189. Aliev M.M. Naxiçevanskoe xanstvo i eqo prisoedinenie k Rossii. AKD. Baku, 1986.
190. Aliev F.M. Azerbaydjano-russkie otnoşenie. Baku: Glm, 1985, 174 s.
191. Alieva A.A. Azerbaydjanskiy teatr za 100 let. Baku: Azerneşr, 1974, 111 s.
192. Aliərov S.S., Alieva F.M. Qeorqievskiy traktat v kontekste oüenki vneşne-politiçeskoqo polojeniə Azerbaydjana // Rolğ raboçix orqanizaüiy v razvitii revolöüionnoqo dvijeniə v Azerbaydjane. Baku, 1984, s.75-83.
193. Ambarən A.S. Razvitie kapitalistiçeskix otnoşeniy v armənskoy derevne (1860-1924). Erevan: İzd-vo AN Arm. SSR, 1959, 282 s.
194. Antelava İ.Q. Reforma pozemelğnoqo ustroystva qosudarstvennıx krestğən Zakavkazğə v konüe XIX v. (Dokumentı i materialı). Suxumi, 1952.
195. Arakelən Q.R. Kustarnoe proizvodstvo v Vostoçnoy Armenii vo vtoroy pol. XIX v. AKD. Erevan, 1976, 25 s.
196. Areşən S.Q. İz predistorii armenovedeniə v Rossii // İzv. AN Arm. SSR, obh. Nauki, 1955, №1, s.3-12.
197. Baqirova İ.S. Politiçeskie partii i orqanizaüii Azerbaydjana v naçale XX veka (1900-1917). Baku: Glm, 1997, 336 s.
198. Badalən A.L. Naselenie Armenii so vremeni prisoedineniə ee k Rossii i do naşix dney // İzv. AN Arm. SSR. obh. nauki. 1953, №5, s.49-71.
199. Balaən B.P. Mejdunarodnıe otnoşeniə İrana v 1813-1828 qq. Erevan: İzd. AN Arm. SSR, 1967, 196 s.
200. Balaən B.P. Krovğ na almaze «Şax»: traqediə A.S.Qriboedova. Erevan: Ayastan, 1983, 180 s.
201. Belokurov S.A. Snoşenie Rossii s Kavkazom. vıp. 1. M., 1889, 582 s.
202. Boqdanova N.Q. Aqrarnıe otnoşeniə v Azerbaydjane v 1870-1917 qq. // İstoriçeskie Zapiski, 1941.
203. Borozna V. Kratkoe opisanie puteşestviə Rossiyskoqo imperatorskoqo posolğstva v Persiö v 1817 q. SPb., 1821.
204. Brösov V. Letopisğ istoriçeskix sudeb armənskoqo naroda. Erevan: Ayastan, 1989, 182.
205. Budaqova S.İ. İstoriçeskaə qeoqrafiə Naxiçevanskoqo kraə (vtoraə pol. XVIII- pervaə tretğ XIX vv.). AKD., Baku, 1996.
206. Butkov P.Q. Materialı dlə novoy istorii Kavkaza s 1722 po 1802 qq. ç.1-3. SPb., 1869.
207. Vaidova X.R. İstoriə qoroda Ordubada v XIX-naçale XX v. Baku: Nurlan, 2007, 190 s.
208. Vezirova F. Mamed Said Ordubadi. Baku, 1972.
209. Veydenbaum E. Putevoditelğ po Kavkazu. Tiflis, 1868.
210. Velikaə Oktəbrskaə Soüialistiçeskaə revolöüiə i pobeda Sovetskoy vlasti v Armenii. Erevan, 1957, 681 s.
211. Verdieva X.Ö. Pereselençeskaə politika Rossiyskoy imperii v Severnom Azerbaydjane (XIX-naçale XX vv.). Baku: «Altay», 1999, 300 s.
212. Verdieva X.Ö. Quseynzade R. «Rodoslovnaə» armən i ix miqraüiə na Kavkaz s Balkan. Gssg. Baku: Glm, 2003, 168 s.
213. Verehaqin V. Puteşestvie po Zakavkazğö v 1864-1865 qq. SPb., 1870.
214. Qasanov İ.M. Çastnovladelğçeskie krestğəne Azerbaydjana v pervoy polovine XIX v. Baku: İzd. AN Azerb. SSR, 1957, 234 s.
215. Qasanov İ.M. K voprosu ob ubiystve Kaçaqa Nabi // Doklad AN Azerb. SSR, 1960, №8.
216. Qasanov İ. İz istorii krestğənskoqo dvijeniə v Azerbaydjane v posledney treti XIX veka (O vıstupleniəx krestğənskoqo otrəa pod rukovodstvom Kaçaqa Nabi) // İzv. AN Azerb. SSR, Ser. obh. nauk, 1961, №4, s.37-49.
217. Qasanov İ. İz istorii krestğənskoqo dvijeniə v Azerbaydjane v qodı pervoy russkoy revolöüii // Voprosı istorii selğskoqo xozəystva, krestğənstva i revolöüionnoqo dvijeniə v Rossii. M., 1961, s.393-403.
218. Qasanov İ. Aqrarnıe otnoşeniə v qosudarstvennoy derevne Azerbaydjana v konüe XIX v. (80-90-e qodı). ADD. Baku, 1965, 55 s.
219. Qasanov İ. İz istorii krestğənskoqo dvijeniə v Azerbaydjane v qodı pervoy russkoy revolöüii // Azerbaydjane v qodı pervoy russkoy revolöüii (Sb. st.). Baku, 1966, s.160-200.
220. Qeoqrafiçesko-statistiçeskiy slovarğ Rossiyskoy imperii. t.III. SPb., 1867.
221. Qriboedov A.S. Zapiska o pereselenii armən iz Persii v naşi oblasti // Soç., t.II, M., 1971.
222. Qriqorən Z.T. Prisoedinenie Vostoçnoy Armenii k Rossii v naçale XIX veka. M., 1959, 186 s.

223. Qriqorən K.N. Russkie peçatnıe istoçniki konüa XVIII – naç. XIX v. ob Armenii // İzv. AN Arm. SSR. obh. nauki, 1955, №6, s.79-94.
224. Qulişambarov S.İ. İstoriko-gkonomiçeskiy obzor şelkovodstvo Zakavkazskoqo kraə. SPb., 1893.
225. Quseynov Dj.X. Naüionalğno-osvoboditelğnoe dvijenie v Azerbaydjane v naçale XX v. (1900-1907 qq.). Baku: b/i, 2001, 256 s.
226. Quseynov Dj.X. Dvijenie kaçaqov v Azerbaydjane v 1900-1910 qq. Vtoraə kn. Baku: Glm, 2004, 256 s.
227. Dekonskiy A.Q. Gkonomiçeskiy bıt qosudarstvennıx krestğən v Zapadnoy çasti Şaruro-Daralaqezskoqo uezda // Materialı dlə izuçeniə gkonomiçeskoqo bıta qosudarstvennıx krestğən Zakavkazskoqo kraə. Tiflis, 1885.
228. Dnevnıe zapiski o puteşestvie rossiysko-imperatorskoqo posolğstva v Persiö v 1816-1817 qodax, vedennıe sovetnikom gtoqo posolğstva Sokolovım. M., 1910.
229. Doklad Osoboy komissii po obsledovaniö Naxiçevanskoy Avtonomnoy Sovetskoy respubliki. Baku: Bakrab, 1925, 106.
230. Dubrovin N. Zakavkazğe ot 1803-1806 qoda. SPb., 1866.
231. Dubrovin N. İstoriə voynı i vladıçestva russkix na Kavkaze. tt.I – IV. SPb., 1871-1888.
232. Eveükiy O. Statistiçeskoe opisanie Zakavkazskoqo kraə v isxode XVIII v. i sravnenie onoqo s nıneşney. V 2-x çastəx. SPb., 1835.
233. Eqiazarov S.A. Administrativno-gkonomiçeskiy stroy selğskoy obhinı v Grivanskoy qubernii // Svod materialov dlə izuçeniə gkonomiçeskoqo bıta qosudarstvennıx krestğən Zakavkazskoqo kraə. t.I. ç.I. Tiflis, 1887.
234. Eqiazarov S.A. İssledovanie po istorii uçrejdeniy v Zakavkazğe. Qorodskie üexi. Orqanizaüiə i vnutrennee upravlenie Zakavkazskix amkarstv. Kazanğ, 1891.
235. Ermolov A. Aleksey Petroviç Ermolov (Bioqrafiçeskiy oçerk). SPb., 1912.
236. Jurnal posolğstva v Persiö qenerala A.P.Ermolova. Çtenie v İmp-m obh-ve istorii i drevnostey rossiyskix pri Moskovskom Universitete. Aprelğ-İönğ, kn.2. M., 1863.
237. Zavarov S. Opıt issledovaniə selğskoqo xozəystvennoqo xleborodnoqo rayona Grivanskoy qubernii i Karskoy oblasti. Tiflis, 1899.
238. Zapiski A. P.Ermolova. 1798-1826 qq. (Sost., podqot. teksta, vstup. st., komment. V.A.Fedorova) M.: Vısş. Şk., 1991, 463 s.
239. Zelinskiy S.P. Tri maqala: Naxiçevanskiy, Ordubadskiy i Daralaqezskiy. Qeoqrafiçeski-statistiçeskoe i selğskoxozəystvennoe opisanie // Sbornik svedeniy o Kavkaze. t.VII, Tiflis, 1880.
240. Zelinskiy S.P. Gtnoqrafiçeskie oçerki iz bıta armənğ-pereselenüev iz Persii, jivuhix Naxiçevanskom uezde // SMOMPK, t.II. Tiflis, 1882.
241. Zoqrabən G.A. Territoralno-razqraniçitelğnıe voprosı na vtoroy Moskovskoy russko-tureükiy konferenüii (fevralğ-mart 1921 q.) // Vest. obh. nauk AN Arm. SSR, 1989, №2, s.3-16.
242. Zubiətən V.Q. Daralaqəz (Gkonomiko-qeoqrafiçeskiy oçerk) // İzv. AN Arm. SSR. obh. nauki, 1950, №9, s.3-23.
243. Zubov P. Kartina Kakazskoqo kraə, prinadlejaheqo Rossii i sopredelğnıx onomu zemli ç.I, SPb., 1834.
244. Zubov P. Kartina posledney voynı s Persiey 1826-1828 qq. s prisovo-kupleniem istoriko-statistiçeskoqo obraza zavoevannıx qorodov i vospominaniə ob Grivani. SPb., 1834.
245. İbraqimbeyli X.M. Rossiə i Azerbaydjan v pervoy treti XIX veka (İz voenno-politiçeskoy istorii). M.: «Nauka», 1969, 288 s.
246. İqamberdıev M.A. İran v mejdunarodnıx otnoşeniəx pervoy treti XIX v. Samarkand, 1961.
247. İvanov R.N. Oborona Baəzeta: pravda i lojğ. Dokumentalğnaə povestğ. İzd. 2-e, ispr. i dop. M.: Qeroi oteçestva, 2005, 224 s. 24 ill.
248. İvanov R.N. Qeneral-adcötant Eqo veliçestva. Skazanie o Quseyn-xane Naxiçevanskom. M.: Qeroi Oteçestva, 2006, 368 s., 60 ill., pril.
249. İz istorii aqrarnoy politiki üarizma v Qruzii, Azerbaydjane i Armenii (Sbornik arxivnıx materialov). Podqotovil teksta, predisl. vved. V.Rştuni. Erevan: İzd-vo Erevanskoqo un-ta, 1954, 126 s.
250. İzmailov K. Selo Neqram Naxiçevanskoqo uezda // SMOMPK. XXVII. Tiflis, 1900.
251. İsmailov M.A. Kapitalizm v selğskom xozəystve Azerbaydjana na isxode XIX i naçale XX v. Baku: İzd. AN Azerb. SSR, 1964, 306 s.
252. İsmailov M.A. Soüialğno-gkonomiçeskaə struktura Azerbaydjana v gpoxu imperializma. Bku: Glm, 1982, 166 s.
253. İstoriçeskaə qeoqrafiə Azerbaydjana. Baku: Glm, 1987.

254. Kafarova Z.A. O dinamike çislennosti proletariata v uezdax Azerbaydjana vo vtoroy polovine XIX v. // İzv. AN Azerb. SSR. Ser. istorii; Filosofii i prava, 1984, №3, s.43-48.
255. Kavkazskiy kalendarğ na 1846-1917 qq. Tiflis, 1845-1916.
256. Kerimov T.M. Narodnıe transportnıe sredstva Azerbaydjana v XIX – naçale XX v. (İstoriko-gtnoqrafiçeskoe issledovanie). Baku: b/i, 2004, 144 s.
257. Kolonialğnaə politika rossiyskoqo üarizma v Azerbaydjane v 20-60-x qodax XIX v. ç.I. M.-L.: İzd. AN SSSR, 1936, 463 s.
258. Kolonialğnaə politika. ç.2, M.-L.: İzd. AN SSSR, 1937, 478 s.
259. Krestğənskoe dvijenie v Armenii v XIX veke. Sost. prof. V.Rştuni pri uçastii K. Stepanəna. Erevan: İzd-vo AN Arm. SSR, 1948, 408 s.
260. Kulieva V.A. Rolğ i poziüiə musulğmanskoqo duxovenstva v soüialğno-kulğturnoy jizni Naxiçevani Grivanskoy qubernii i Zanqezura v XIX – naçale XX vv. Baku: Glm, 1999, 64 c.
261. Kulieva V.A. Rolğ i poziüiə musulğmanskoqo duxovenstva v soüialğno-kulğturnoy jizni Azerbaydjana v XIX – naçale XX vv. v rakurse arməno-azerbaydjanskix politiçeskix otnoşeniy. Baku: Nurlan, 2003, 371 s.
262. Kuçaev M.N. Pozemelğnoe ustroystvo qosudarstvennıx krestğən, vodvorennıx na vladelğçeskix zeml əx v Zakavkazskix quberniəx // Svod materialov dlə izuçeniə gkonomiçeskoqo bıta qosudarstvennıx krestğən Zakavkazskoqo kraə. t.I, ç.II. Tiflis, 1887.
263. Lavrov S. Şelkovodstvo v Naxiçevanskom uezde // Kavkazskoe selğskoe xozəystvo, 1895, №100.
264. Lerner V.A. Vliənie pereseleniə na koliçestvennoqo i kaçestvennoqo sostava naseleniə Azerbaydjana v posledney tretğe XIX v. // İzvestiə AN Azerb. SSR ser. istoriə, filosof i pravo, 1981, №4.
265. Liprandi A.P. Kavkaz i Rossiə. Xarğkov, 1911.
266. Linç X.F.B. Armeniə. Putevıe oçerki i gtödı v 2-x tomax. tt.1-2. Tiflis, 1910.
267. Madatov Q. Pobeda Sovetskoy vlasti v Naxiçevani i obrazovanie Naxiçevanskoy ASSR. Baku: İzd. AN Azerb. SSR, 1968, 188 s.
268. Maysurov M. Kratkiy oçerk Ordubadskoqo uezda // Kavkaz, 1859, №21.
269. Markova O.P. Rossiə, Zakavkazğe i mejdunarodnıe otnoşeniə v XVIII v. M.: 1966.
270. Materialı k istorii Persidskoy voynı 1826-1828 qq. (Materialı dlə bioqrafii A.S.Qriboedova) // Kavkazskiy sbornik. t. XXX. Tiflis, 1910.
271. Milğman A. Politiçeskiy stroy Azerbaydjana v XIX-naçale XX vv. Baku: Azerneşr, 1966, 318 s.
272. Moçalov V.D. Krestğənskoe xozəytsvo v Zakavkazğe k konüu XIX v. M.: İzd. AN SSSR, 1958, 492 s.
273. Muradalieva G.B. Qoroda Severnoqo Azerbaydjana vo vtoroy polovine XIX veka. Baku: İzdatelğstvo Bakinskoqo universiteta, 1991, 172 s.
274. Mustafaev Dj.M. Severnıe xanstva Azerbaydjana i Rossiə (koneü XVIII – naç. XIX v.). Baku: Glm, 1989, 128 s.
275. Naqdaliev F. Xana Naxiçevanskie v Rossiyskoy imperii. M.: Novıy arqument, 2006, 432 s.
276. Nasirli M.N. Selğskie poseleniə i krestğənskie jiliha Naxiçevanskoy ASSR. Baku: İzd. AN Azerb SSR, 1959, 139 s.
277. Naxiçevan // Kavkaz, 1872, №81
278. Naxiçevanskie rukopisnıe dokumentı XVIII – XIX vv. Perednəə Aziə v dokumentax (seriə paməti Ö.N.Marra). kn.1, Tbilisi, 1936.
279. Neymat Meşadixanum. Korpus gpiqrafiçeskix pamətnikov Azerbaydjana. t.III. Arabo-perso-törkoəzıçnıe nadpisi Naxiçevanskoy Avtanomnoy Republiki XII –naç. XX v. Baku, 2001.
280. Nefedğev N. Vzqlədğ na Arm ənskuö oblastğ. SPb., 1839.
281. Nikitin K.N. Qorod Naxiçevan i Naxiçevanskiy uezd // SMOMPK, vıp. II, Tiflis, 1882.
282. Nikifirov N.K. Gkonomiçeskiy bıt qosudarstvennıx krestğən Zapadnoy çasti Naxiçevanskoqo uezda Grivanskoy qubernii // Materialı dlə izuçeniə gkonomiçeskoqo bıta qosudarstvennıx krestğən Zakavkazskoqo kraə. t.I, vıp.V, Tiflis, 1885.
283. Obzor fabrik i zavodov Zakavkazskoqo kraə. Tiflis, 1894.
284. Obzor Grivanskoy qubernii za 1895-1914 qq. Grivanğ, 1896-1915.
285. Obozrenie rossiyskix vladeniy za Kavkazom, v statistiçeskom, gtnoqrafiçeskom, topoqrafiçeskom i finansovom otnoşeniəx. çç. 1-4, SPb., 1836.
286. Opisanie Ordubada // Kavkaz, 1873.№7.
287. Oçerki istorii Kommunistiçeskoy partii Azerbaydjana. v trex tt. t.1. Baku: Azerneşr, 1985, 480 s.

288. Paqirev D.D. Şopen i kameralğnoe opisanie Armənskoy oblasti v 1829 i 1830 qq. // Kavkaz, 1892, №№ 166-168
289. Paqirev D.D. Çuma v Armənskoy oblastğö v 1828 q. // Kavkaz, 1892, №№ 112, 113.
290. Pamətnaə knijka Grivanskoy qubernii na 1902-1914 qq. Grivanğ, 1902-1914.
291. Parsamən V.A. Qeneral Beybutov. Erevan, 1943, 44 s.
292. Parsamən V.A. İstoriə armənskoqo naroda 1801-1900 qq. Kn. 1. Erevan, «Ayastan», 1922, 398 s.
293. Paşaev A.A. Qorod Ordubad v XIX-naç. XX vv. (istoriko-gtnoqrafiçeskoe issledovanie). Baku: Glm, 1998, 200 s.
294. Pervaə Vseobhaə perepisğ naseleniə Rossiyskoy imperii. LXXI. Grivanskaə quberniə. SPb., 1906.
295. Petroviç P. Xlopkovodstva v Zakavkazğe. Tiflis, 1912.
296. Petruşevskiy İ.P. Oçerki po istorii feodalğnıx otnoşeniy v Azerbaydjane i Armenii v XVI-naçale XIX vv., L.: LQU, 1949, 385 s.
297. Piralov A.S. Kratkiy oçerk kustarnıx promıslov Kavkaza. Tiflis, 1900 (SPb., 1913).
298. Polnoe sobranie zakonov Rossiyskoy imperii.
299. Potto V. Kavkazskaə voyna v otdelğnıx oçerkax, gpizodax, leqendax i bioqrafiəx. tt.I-IV. SPb., 1887-1891.
300. Prisoedinenie Vostoçnoy Armenii k Rossii. Sb. dok. t.I (1801-1813). Red. Ü.P.Aqaən. Erevan: İzd. AN Arm. SSR, 1972, 716 s.
301. Prisoedinenie Vostoçnoy Armenii k Rossii. Sb. dok. t.II (1814-1830). Red. Ü.P.Aqaən. Erevan: İzd. AN Arm. SSR, 1978, 658 s.
302. Provinüiə Naxiçevanskaə // Jurnal MVD., 1831, №5.
303. Razbor soçineniə q. Şopena. «Statistiçeskoe opisaniə Armənskoy oblasti» sostavl. q.q. akademikami Brossee i Keppena, 1841 (b.m.i.).
304. Rollov A.X. Oçerk plovodstva Grivanskoy qubernii // Sbornik svedeniy po plovodstvu v Zakavkazskom krae. vıp.2. Tiflis, 1899.
305. Russko-iranskaə torqovlə. 30-50-e qodı XIX veka. Sb. dok. M., 1984.
306. Ruştuni V. Krestğənskaə reforma v Armenii v 1870 q. Erevan: İzd. AN Arm. SSR, 1947, 364 s.
307. Salaeva R. Naxiçevan – nasledie arxitekturı. Baku: Azerbaydjan, 2002, 240 s.
308. Salamzade A.V., Mamedzade K.M. Pamətniki Naxiçevanskoy şkolı azerbaydjanskoqo zodçestva. Baku, 1985.
309. Safarov R.F. İz gtniçeskoy istorii Naxiçevana XIX-XX vekov // NDU-nun Elmi Əsərləri (Humanitar seriya), 1999, №5, s.36-38.
310. Sbornik statistiçeskix dannıx o zemlevladenii i sposobax xozəystva v pəti quberniəx Zakavkazskoqo kraə. Tiflis, 1899.
311. Svod statistiçeskix dannıx o naselenii Zakavkazskoqo kraə izvleçennıx iz posemeynıx spiskov 1886 q. Tiflis, 1893.
312. Seqalğ İ.L. Krestğənskoe zemlevladenie v Zakavkazğe. Tiflis, 1912.
313. Sel. Verxniy Akulisğ // Kavkaz, 1863, №33.
314. Semenov L.S. Rossiə i mejdunarodnıe otnoşeniə na Srednem Vostoke v 20-x qodax XIX v. L., 1963.
315. Semin O. Aqrarnıy vopros i krestğənskaə reforma na Kavkaze. Kiev, 1911.
316. Smirnov K.N. Materialı po istorii i gtnoqrafii Naxiçevanskoqo kraə. Baku: «Ozan», 1999, 156 s.
317. Smirnov K.N. Politika Rossii na Kavkaze v XVI – XIX vv. M., 1958.
318. Sobranie aktov, otnosəhixsə k obozreniö istorii armənskoqo naroda. M., 1833-1838, ç.1, VII. 388 s.; ç.2, 504 s.; ç.3, 456 s.
319. Sokolğskiy N. Materialı po izuçeniö Naxiçesvanoy SSR. Tiflis, 1933.
320. Spasskiy Q. Selğsko-xozəystvennoe statistiçeskoe svedeniə ob Grivanskoy qubernii za 1870 qod // Sbornik svedeniy o Kavkaze. t.2. Tiflis, 1872.
321. Spisok naselennıx mest Grivanskoy qubernii. Grivanğ, 1908.
322. Statistiçeskoe opisanie Naxiçevanskoy provinüii, sostavlennoe V.Q. SPb., Tipoqrafiə Deportamenta Vneşney torqovli, 1833, 177 s.
323. Statistiçeskoe vzqlədı na provinüii Naxiçevanskuö // Tiflisskie vedomostği, 1831, №№ 8-11.
324. Sısoev V.M. Naxiçevanskiy kray. Otçet o poezdke letom 1927 q. // İzvestiə Azkomstarisa, 1929, №4. s.123-216.
325. Sumbatzade A.S. Selğskoe xozəystvo Azerbaydjana v XIX v. Baku: İzd. AN Azerb. SSR, 1959, 364 s.
326. Sumbatzade A.S. Promışlennostğ Azerbaydjana v XIX v. Baku: İzd. AN Azerb SSR, 1964, 502 s.

327. Tavakalən N.A. Russko-armənskie otnoşeniə v period russko-persidskoy voynı 1826-1828 qq. AKD. M., 1950.
328. Tavakalən N.A. Rolğ armənskoqo naroda v russko-persidskoy voyne 1826-1828 qq. // Uçenıe zapiski Qroznenskoqo ped. in-ta., 1956, №9.
329. Tairzade N.A. O musulğmanskix uçilihax v Azerbaydjana v konüe 40-x i v 50-e qodı XIX v. // Materialı po istorii Azerbaydjana. Trudı Muzeə istorii Azerbaydjana. t.5. Baku, 1962.
330. Taratınov N.P. oçerk xlopkovodstva na Kavkaze // Trudı Kavkazskoqo obhestvo selğskoqo xozəystva. Tiflis, 1889, №4-5.
331. Tixonova A.A. Russko-persidskaə voyna 1826-1828 qq. AKD. M., 1954.
332. Tumanov Q. Zemelğnıe voprosı i perstupnostğ na Kavkaze. SPb., 1900.
333. Tumanən O.E. Gkonomiçeskoe razvitie Armenii ç.I. Gkonomiçeskoe razvitie Armenii so vremeni prisoedineniə ee k Rossii do ustanovleniə sovetskoy vlasti. Erevan: Aypetrat, 1954 (vıp. dan. 1955), 371 s.
334. Tumanən O.E. Narodonaselenie Armenii v dosovetskiy period. Bibl.… 1965-1966. Erevan, 1970, s.16.
335. Uslar P.K. Voenno-statistiçeskoe obozrenie Grivanskoy qubernii. SPb., 1853.
336. Faradjev A.S. Ordubad. İstoriko-gkonomiçeskiy oçerk. Baku: Azerneşr, 1970, 152 s.
337. Fadeev A.V. Rossiə i Kavkaz v pervoy treti XIX v., M., 1960.
338. Frenkelğ A.S. Sredstva dlə borğbı s razboem n Kavkaze. Tiflis, 1898.
339. Xatisov K. Kustarnıe promıslı Zakavkazskoqo kraə. Otçetı i issledovaniə po kustarnoy i promışlennosti v Rossii. t.II. SPb., 1894.
340. Xatisov K. Xlopkovodstva v Zakavkazskom krae // Svod materialov dlə izuçeniə gkonomiçeskoqo bıta qosudarstvennıx krestğən Zakavkazskoqo kraə. t.IV. ç.II. Tiflis, 1888.
341. Xaçatrən R.Q. Russkaə istoriçeskaə mıslğ i Armeniə (XVII – naç. XIX vv.). Erevan: İzd-vo AN Arm. SSR, 1987, 362 (1) s.
342. Çenko. Ordubatğ // Kavkaz, 1862, №25.
343. Çenko. Zametki ob gkonomiçeskoqo bıta Ordubatskoqo uezda // Kavkaz, 1862, №51, 52.
344. Çernoərskiy N. Qorod Ordubat v promışlennom otnoşenii // Kavkazskiy kalendarğ na 1868 q.
345. Şavrov N. plodovodçeskoe proizvodstvo v Zakavkazskom kran. Tiflis, 1887.
346. Şavrov N.N. Novaə uqroza russkomu delu v Zakavkazğe. SPb., 1911.
347. Şarif Aziz. Rojdenie Molla Nasraddina. Baku, 1968.
348. Şaxverdiev Z.A. Aqrarnıe otnoşeniə i polojeniə krestğən Azerbaydjana v 70-90-e qq. XIX v. (Po materialam Naxiçevanskoqo i Şaruro-Daralaqezskoqo uezdov). Kand. dis. Baku, 1984.
349. Şopen İ. İstoriçeskiy pamətnik sostoəniə Armənskoy oblasti v gpoxu prisoedineniə k Rossiyskoy imperii, SPb., [B.i.] 1852. IX, 1231, VI str.
350. Gyvazov Ə. Mamed Taqi Sidqi. Baku, 1986.
351. Gnqelğqardt N.A. Opisanie q. Naxiçevani // Kavkaz, 1851, №36.
352. Gsadze S. İstoriçeskaə zapiska ob upravlenii Kavkaza. t.I. Tiflis, 1907.
353. Özefoviç T. Doqovorı Rossii s Vostokom [Politiçeskie i torqovıe]. SPb., 1869.
354. Əqodınskiy P.N. Gkonomiçeskiy bıt qosudarstvennıx krestğən v Ordubatskom uçastke Naxiçevanskoqo uezda Grivanskoy qubernii // Materialı dlə izuçeniə gkonomiçeskoqo bıta qosudarstvennıx krestğən Zakavkazskoqo kraə t.1, vıp. V, Tiflis, 1885.

### III. Türk dilində

355. Hacıyev İ., Amanoğlu Ə. Tarihte ve günümüzde Nahçıvan. Ankara, Ankara Üniversitesi Basım evi, 1998, 92 s.
356. Osmanlı devleti ile Azerbaycan türk hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri. Karabağ – Şuşa, Nahçıvan, Baku, Gence, Şirvan, Şeki, Revan, Kuba. Hoy. II. (1575-1918). Ankara, Osmanlı Arşivi Daire başkanlığı, Yayım nu: 9, 1993, 486 s




**Şəkil 1.**
Abbasabad qalası.
Plan. 1809-1810-cu illər.

1. Xəndək; 2. Qala divarı;
3. Darvaza; 4. Körpü;
5. Bulaq.



**Şəkil 2.** Naxçıvan şəhəri. Plan. 1827-ci il



**Şəkil 3.** Naxçıvan xanlarının nəsil qerbi.



**Şəkil 4.** Naxçıvan qəzasının gerbi. 1840-cı il.



1



2

**Şəkil 5.** Naxçıvan (Kəngərli) süvari alayının bayrağı.
1) 1830-ci il, 2) 1858-ci il.



**Şəkil 6.** Naxçıvan bəy drujinasının bayraqları. 1854-cü il



**Şəkil.7**. Xan evi. XVIII əsr. Naxçıvan şəhəri
(Hazırda Naxçıvan MR Dövlət Xalça Muzeyi)



**Şəkil.8.** Yaşayış evi. XIX əsr.
Naxçıvan şəhəri





**Şəkil 9.**
Yaşayış evləri. XIX əsr. Ordubad şəhəri.



**Şəkil 10.** “Naxçıvan” xalçası. XIX əsr.





**Şəkil 11.** Xovlu xalçalar.
XIX əsr-XX əsrin əvvəlləri. Ordubad şəhəri.

ZƏHMƏT ŞAHVERDİYEV

**NAXÇIVAN**
**b ö l g ə s i**
XIX-XX əsrin əvvəllərində

*(azərbaycan dilində)*

Bakı-Qismət-2008

Kompyüter tərtibçisi: Nərgiz Nuriyeva

Kitabın üz qabığının tərtibatında
Naxçıvandakı İlanlıdağ və Dərələyəzin Kotanlı kəndinin
şəkillərindən istifadə edilmişdir.

«**Qismət**» mətbəəsində
ofset üsulu ilə çap edilmişdir.

Azərbaycan, Bakı, AZ122, H.Zərdabi pr. 78
Tel: (+994 12) 497 57 61, Faks: (+994 12) 497 70 23
E-mail: qismetaz@yaho.com